# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YETMİŞ SƏKKİZİNCİ KİTAB

## DEKABR 2016 - MART 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində ölkə başçısının Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirakı və «İpək yolunun səmərəsi» adlı interaktiv iclasında çıxışı, Almaniyaya səfəri çərçivəsində Münhen Təhlükəsizlik Konfransında «Avrasiyada əməkdaşlıq və problemlər» məsələlərinə həsr olunan panel müzakirədə geniş çıxışı zamanı dünyanın diqqətini bir daha Qarabağ məsələsinə yönəldərək problemin ədalətli həllinə çağırışları və bu məsələlərlə bağlı suallara tutarlı cavabları, Belçika Krallığına, Qətər Dövlətinə və Pakistan İslam Respublikasına səfərləri zamanı bu ölkələrin rəhbərləri ilə danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar, həmçinin Əl-Cəzirə televiziyasına geniş müsahibəsi yer almışdır. Görkəmli dirijor, SSRİ Xalq artisti maestro Niyazinin abidəsinin açılışı və Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailəsi ilə görüşü barədə materiallar da toplanmışdır.

Bu clddə, həmçinin oxucular Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfəri, Ordubad, Culfa və Şahbuz rayonlarında sosial infrastruktur layihələrinin və məişət obyektlərinin açılışına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

# RUSİYA FEDERASİYASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ TATYANA MOSKALKOVA İLƏ GÖRÜŞ

*28 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Rusiya Federasiyasının İnsan Hüquqları üzrə müvəkkili xanım Tatyana Moskalkovanı qəbul etmişdir.*

*Tatyana Moskalkova Rusiya Federasiyasının bütün ombudsmanları adından prezident İlham Əliyevi ad günü münasibətilə təbrik etdi, ona cansağlığı və işlərində uğurlar arzuladı. Tatyana Moskalkova Rusiya Federasiyasının Dövlət Dumasında çalışdığı zaman prezident İlham Əliyevlə görüşdüyünü məmnunluqla xatırlatdı. O, yeni vəzifədə – Rusiya Federasiyasının İnsan Hüquqları üzrə müvəkkili vəzifəsində çalışmağa başladığı dövrdən azərbaycanlı həmkarları ilə çox sıx əməkdaşlıq qurulmasından məmnunluğunu bildirdi. Xanım Tatyana Moskalkova Azərbaycanın və Rusiyanın İnsan Hüquqları üzrə müvəkkillikləri arasında bu gün imzalanan müqavilənin əməkdaşlığımız üçün keyfiyyət baxımından yeni hüquqi əsas yaratdığını vurğuladı. Rusiyalı qonaq bu gün Bakıda Azərbaycan ombudsman təsisatının yaranmasının 15 illiyi ilə əlaqədar «Multikulturalizm və insan hüquqları: bərabərlik, əməkdaşlıq, inkişaf» mövzusunda keçirilən konfransın önəmini qeyd etdi.*

*Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən prezident İlham Əliyev Tatyana Moskalkovanı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi. Bakıda keçirilən konfransın çox önəmli bir mövzuya həsr olunduğunu bildirən dövlətimizin başçısı Azərbaycanda 2016-cı ilin*

*«Multikulturalizm ili» elan olunduğunu vurğulayaraq, bu sahədə ölkəmizdə böyük işlərin görüldüyünü qeyd etdi. Multikulturalizm və insan hüquqlarının çox aktual mövzular olduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, bu gün dünyada, xüsusilə Avropada miqrantlarla bağlı problemlər çox kəskin xarakter alıb, miqrantlara qarşı müəyyən siyasətçilər və kütləvi informasiya vasitələri tərəfindən açıq hücumlar edilir və bu hücumlar məhz multikulturalizm ideyalarına olan hücumlar kimi dəyərləndirilməlidir. Dövlətimizin başçısı buna görə də bu problemlərin həll olunması, insan hüquqlarının və multikulturalizm ideyalarının qorunmasında vahid standartların tətbiq olunması məsələsinin müzakirəsinin böyük önəm daşıdığını qeyd etdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, dost Sudan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2016-cı il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2016-cı il*

## NƏRİMANOV RAYONUNDA UŞAQ BƏRPA MƏRKƏZİNİN YENİDƏN QURULMASINDAN SONRA AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 29-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakının Nərimanov rayonunda Uşaq Bərpa Mərkəzinin yenidən qurulmasından sonra açılışında iştirak etmişlər.*

*Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 2003-cü ildən fəaliyyət göstərən Uşaq Bərpa Mərkəzinin binasında indiyə qədər əsaslı təmir və yenidənqurma işləri aparılmamışdı. 2015-ci ildə mərkəzdə başlanan yenidənqurma işləri artıq yüksək səviyyədə başa çatdırılıb.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin, həmçinin Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın sağlamlıq imkanları məhdud olan uşaqlara qayğılarını və onlarla keçirilən görüşləri əks etdirən fotolardan ibarət guşə vardır. Stasionar və ambulator bölmələrdən ibarət 42 çarpayılıq mərkəzdə 3 şöbə – informasiya-məsləhət və tədris, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələri fəaliyyət göstərir. Mərkəzin yaradılmasında məqsəd tibbi, sosial, tədris-peşə reabilitasiya tədbirlərinin aparılması yolu ilə sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsini və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Bu cür uşaqların tibbi, psixoloji, tədris-peşə diaqnostikasını, onların reabilitasiya potensialını təyin etmək, tibbi, sosial, tədris-peşə reabilitasiyasını həyata keçirmək, həmçinin onların şəxsiyyətinin korreksiyası məqsədi*

*ilə kompleks psixoloji, pedaqoji tədbirləri həyata keçirmək mərkəzin əsas vəzifə və funksiyalarına daxildir.*

*Mərkəz ən müasir cihaz və avadanlıqlarla təchiz edilib. Burada müasir tibbi və diaqnostik cihazlar, həmçinin reabilitasiya avadanlığı quraşdırılıb. Bu cihaz və avadanlıqlardan təcrübəli mütəxəssislər öz fəaliyyətlərində geniş istifadə edəcək, sağlamlıq imkanları məhdud uşaqlara ən yüksək səviyyədə tibbi və bərpa xidməti göstərəcəklər. Bunun üçün mərkəzdə hər cür şərait yaradılıb, buradakı siniflər, məşğələ və həkim müayinə otaqları sağlamlıq imkanları məhdud uşaqların çəkdiyi rəsmlərlə bəzədilib.*

*Mərkəz yarandığı vaxtdan respublikanın bütün bölgələrindən olan sağlamlıq imkanları məhdud uşaqların müayinə və müalicəsini yüksək peşəkarlıqla həyata keçirir. İndiyə qədər bu müəssisədə sağlamlıq imkanları məhdud olan 15 mindən çox uşağa reabilitasiya xidməti göstərilib. Mərkəzə qəbul tibbi-sosial ekspertiza komissiyaları, müalicə-profilaktika müəssisələri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişləri əsasında həyata keçirilir. Xəstələrin reabilitasiyası stasionar və ambulator olaraq aparılır. Uşaq Bərpa Mərkəzində 95 nəfər işçi fəaliyyət göstərir.*

*Qeyd edək ki, ölkədə sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu da Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılmasının dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildiyini aydın nümayiş etdirir. Dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət insan amilinə verilən yüksək dəyərin nümunəsidir. Dövlət sağlamlıq imkanları məhdud uşaqların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir.*

*Uşaq Bərpa Mərkəzində reabilitasiya planına uyğun olaraq, xəstələrin kompleks şəkildə müalicəsi aparılır. Buraya*

*müalicəvi bədən tərbiyəsi, fizioterapiya, masaj, hovuz müalicəsi, psixoterapiya, loqoped işi, əmək terapiyası, musiqi terapiyası və əl əməyi işi aiddir. Tədris-peşə reabilitasiyası mərkəzin fəaliyyətində xüsusi əhəmiyyət daşıyır. Burada müəyyən tədris metodikaları həyata keçirilir, musiqi terapiyası aparılır, həmçinin əmək terapiyası əsasında sağlamlıq imkanları məhdud uşaqlara xüsusi vərdişlər aşılanır. Bu kateqoriyaya aid uşaqlar müxtəlif əl işləri ilə məşğul olaraq, xüsusi bacarıq nümayiş etdirirlər. Uşaq Bərpa Mərkəzi mütəmadi olaraq Uşaq Nevroloji Xəstəxanası, Uşaq Klinik Xəstəxanası, Uşaq Ruhi-Əsəb Dispanseri, Protez və Ortopediya Mərkəzi, Əlillərin Bərpa Mərkəzi, həmçinin rayon və şəhər uşaq tibb müəssisələri ilə sıx əlaqə saxlayır. Mərkəz uşaq əlilliyi reabilitasiyası sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi əsasında yeni reabilitasiya metodları hazırlayır və təcrübədə müvəffəqiyyətlə həyata keçirir. Bundan başqa, mərkəzin həkim və tibb personalı vaxtaşırı xarici ölkələrdə təkmilləşmə kursuna cəlb olunur, bilik və bacarıqlarını artırırlar. Uşaq Bərpa Mərkəzində yenidənqurmadan sonra yaradılan şərait sağlamlıq imkanları məhdud insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu bir daha nümayiş etdirir. Mərkəzin həyətində geniş yaşıllaşdırma işləri görülüb, uşaqların təmiz havada gəzinti və istirahəti üçün bütün şərait yaradılıb.*

# ZABRAT QƏSƏBƏSİNDƏ ƏLİLLƏR ÜÇÜN SOSİAL REABİLİTASİYA MƏRKƏZLƏRİ VƏ SIĞINACAQLAR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 29-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sabunçu rayonunun Zabrat qəsəbəsində inşa olunmuş yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Sosial Reabilitasiya Mərkəzinin, 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacağın, həmçinin yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Mərkəzinin açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Sosial Reabilitasiya Mərkəzinin, 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacağın, həmçinin yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Mərkəzinin inşası Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında aparılıb.*

*Dövlətimizin başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Azərbaycan Prezidenti, xanımı və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular.*

*Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Sosial Reabilitasiya Mərkəzinin foyesində ulu öndər Heydər Əliyevin fəaliyyətindən bəhs edən fotostend yaradılıb. Mərkəz tədris, üzgüçülük və idman zalı korpuslarından ibarətdir. Binada konfrans zalı və sərgi salonu vardır. Yetkin-*

*lik yaşına çatmamış görmə imkanı məhdud şəxslərin əl işləri sərgi salonunda nümayiş etdirilir. Bina görmə imkanı məhdud şəxslər üçün nəzərdə tutulmuş səsli sistemin olduğu liftlə təchiz edilib. Mərkəzdə 12 çarpayılıq 4 palata, camaşırxana, metodika və stolüstü oyun otaqları da yaradılıb. Binada Brayl əlifbasının tədrisi, Brayl yazı nəşrləri, səsli nəşrlər, adaptasiya avadanlığı və ondan istifadənin öyrədilməsi üçün otaqlar müasir səviyyədədir. Mərkəzdəki rəqs və musiqi məşğələləri, həmçinin kompüter, biblioqrafik icmal, iri şrift otaqları və zəngin kitabxana buraya gələnlərin ixtiyarına veriləcək.*

*Kompleksin 2800 kvadratmetrə yaxın tədris korpusunda okulist, terapevt, oftalmoloq, psixoloji təhlil, masaj, ayaq hissiyyatının artırılması və əl ağacından istifadəyə dair təlim, görmə imkanı məhdud şəxslərin vizual təsəvvürünün və yaddaşının inkişafı üçün təlim otaqları, həmçinin yeməkxana yaradılıb.*

*İdman korpusunda isə oyun zalları, təlimatçı və hakim otaqları vardır. Zalda görmə imkanı məhdud şəxslər idmanın müxtəlif növləri ilə məşğul ola bilər. Mərkəzin üzgüçülük korpusu da müasir səviyyədədir. Burada 25 metr uzunluğunda hovuz yaradılıb.*

*Ərazidə inşa olunan binaların hamısı mərkəzləşdirilmiş isti su, havalandırma sistemləri ilə təchiz edilib, 2 su çəni, elektrik təchizatı üçün transformator yarımstansiyası quraşdırılıb. Bütün korpuslar müasir mebel, inventar və digər avadanlıqlarla təchiz olunub. Ərazidə geniş abadlıq-quruculuq işləri aparılıb.*

*Sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaqda yaradılan şəraitlə tanış oldular.*

*Ümumi sahəsi 2011 kvadratmetr olan üçmərtəbəli binada həkim otağı, tibbi müayinə, qəbul-qeydiyyat şöbəsi, yeməkxana və mətbəx, camaşırxana, təmiz inventar otaqları yaradılıb. Sığınacaqda, həmçinin stolüstü oyunlar, kompüter, müvəqqəti müalicə boksu, müalicə və digər inzibati otaqlar da vardır.*

*50 yerlik 10 yataq otağında isə hər cür şərait mövcuddur. Binadakı konfrans zalında müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaq. Bundan başqa, bu qəbildən olan şəxslər sığınacağın qiraət zalından, kitabxanasından, stolüstü oyunlar otağından da istifadə edəcəklər. Binada ərzaq məhsulları və tərəvəz üçün soyuducu kameralar, yataq ləvazimatları, həmçinin bərk və yumşaq inventar anbarları da vardır.*

*Dövlətimizin başçısı və xanımı yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Mərkəzində yaradılan şəraitlə tanış oldular.*

*Mərkəz reabilitasiya korpusu və idman zalından ibarətdir. Üçmərtəbəli reabilitasiya korpusunda həkim, tibbi müayinə, qəbul-qeydiyyat otaqları, yeməkxana və mətbəx, valideynlərlə görüş və xidməti heyət üçün otaqlar vardır. Binada kompüter zalı, müəllimlər otağı və 5 sinif otağı yaradılıb. Buradakı dərnək otaqlarında isə yetkinlik yaşına çatmamış şəxslər asudə vaxtlarını səmərəli keçirə bilərlər. Bu korpusda da konfrans zalı, stolüstü oyunlar və yataq otaqları sakinlərin ixtiyarına veriləcək. Mərkəzdə müasir idman zalı da yaradılıb.*

*Bu sosial obyektlərdə yaradılan şərait bir daha sübut edir ki, Azərbaycan dövləti yaşından və sosial durumundan asılı olmayaraq, bütün vətəndaşlarının qeydinə qalır, onları normal yaşayış şəraiti ilə təmin etmək üçün mühüm işlər görür. Belə layihələr prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin uğurla icra olunduğunu bir daha nümayiş etdirir. Bu sosial siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı dayanır.*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THİN CJOYA**

Hörmətli cənab Prezident!

Myanma İttifaqı Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Myanma xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 dekabr 2016-cı il*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

2016-cı il tarixdə qalır. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında 3-4 dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq, vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna da nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bildi, iqtisadi sabitlik təmin edildi və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artıb. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bildik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəyyən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilib. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınıb. Əhalinin pul gəlirləri – baxmayaraq ki, 2016-cı il böhranlı ildir – 7 faiz, orta əməkhaqqı isə 9 faiz artıb.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq, Azərbaycan 2016-cı ildə də inamla inkişaf edib. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamə-

tində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilib. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilib. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənib. Qondarma «Dağlıq Qarabağ» qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişlər.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq, bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha dedim ki, Azərbaycan xalqı və Azərbaycan dövlə-

ti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olub. Rio Olimpiya oyunlarında idmançılarımız tarixi qələbə qazanıblar. 18 medal qazanaraq, Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman ölkəsidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülüb. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd etdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etdilər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində də önəmli addımlar atılıb. «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurası Bakıda keçirildi və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğuladılar. «Cənub Qaz Dəhlizi» Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılıb və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilibdir və beləliklə, «Cənub Qaz Dəhlizi»ni qidalandıracaq layihələr arasında təkcə «Şahdəniz» layihəsi deyil, eyni zamanda, «Abşeron» qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam

edən Şərq–Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal–Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atıb. Demək olar ki, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq başa çatdırılıbdır. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq, çalışacağıq ki, bu 2 önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün «exit-poll»lar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmiş, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdi. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirildi. Azərbaycan bir daha dünyaya sübut etdi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Mən bütün dünya azərbaycanlılarını səmimiqəlbdən salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar bilirlər və bilməlidirlər ki, onların arxasında möhkəm, güclü Azərbaycan dövləti dayanır.

Əziz bacılar və qardaşlar, mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 yanvar 2017-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulda gecə klubunda bayram şənliyinə toplaşmış insanlara qarşı qəddarcasına silahlı hücum törədilməsi, çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı bu xain əməldən hədsiz dərəcədə hiddətlənir, terrorizmə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizəni dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 yanvar 2017-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi, Azərbaycanın xristian icmasını İsa peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Xristianlıq Azərbaycanda çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz bizim ölkəmizdə təşəkkül tapmışdır. Səmavi dinlər burada əsrlərboyu dinc yanaşı fəaliyyət göstərərək, insanlar arasında əmin-amanlığın, dostluq və qardaşlıq münasibətlərinin yaranmasında misilsiz tarixi rol oynamışdır. Azərbaycanda məskunlaşmış xalqlar və etnoslar arasında heç vaxt milli-irqi ayrı-seçkilik, etnik-dini dözümsüzlük halları mövcud olmamışdır.

Müstəqil Azərbaycan Respublikası bu gün də öz tolerantlıq və multikulturalizm ənənələrinə sadiqdir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları beynəlxalq prinsiplərə əsaslanan hüquq və azadlıqlara, o cümlədən, vicdan və dini etiqad azadlığına malikdir. Ölkəmizdə yaşayan bütün etnik azlıqlara öz dini-mənəvi dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün bərabər demokratik şərait yaradılmışdır.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxkonfessiyalı və çoxmillətli Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması həmişə olduğu kimi, bu gün də, sabah da ölkəmizin tərəqqisi və inkişafı naminə öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirəcək.

Əziz dostlar!

Şəfqət və mərhəmət duyğularının, təmiz və nəcib ideallarının rəmzi olan müqəddəs Milad bayramı münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2017-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının keçmiş prezidenti, görkəmli dövlət və ictimai-siyasi xadim ayətullah Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

İran İslam İnqilabının qələbə çalmasında fəal iştirak etmiş Əli Əkbər Rəfsəncani İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük töhfə vermişdir. Onun əziz xatirəsi daim yaşayacaqdır.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 yanvar 2017-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm ayətullah Xamenei həzrətləri!

İran İslam Respublikasının sabiq prezidenti, görkəmli dövlət və ictimai-siyasi xadim ayətullah Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bütün fəaliyyəti və həyat yolu ilə dövlətinə və xalqına sədaqət nümunəsi göstərmiş ayətullah Əli Əkbər Haşimi Rəfsəncani müdrik və uzaqgörən siyasətçi kimi tanınmışdır. Ayətullah Əli Əkbər Haşimi Rəfsəncani İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin təşəkkülünə və genişlənməsinə böyük töhfə vermişdir.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 yanvar 2017-ci il*

## PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ LUİS MANUEL SANTİAQO MARKOVİÇ MONASİ İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Luis Manuel Santiaqo Markoviç Monasinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Luis Manuel Santiaqo Markoviç Monasi Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Luis Manuel Santiaqo Markoviç Monasi etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Luis Manuel Santiaqo Markoviç Monasi Peru Respublikasının Prezidenti Pedro Pablo Kuçinskinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında ikitərəfli əlaqələrin gücləndirilməsi ilə bağlı əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi üçün çox yaxşı fürsət yarandığını dedi. Perulu diplomat iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, mədəni əlaqələri genişləndirməyin və xalqlarımızın bir-birini yaxından tanımalarının zəruriliyini vurğuladı. Siyasi və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin önəmini qeyd edən dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin genişləndirilməsi, xüsusilə ticarət və turizm sektorlarında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi*

*üçün imkanların araşdırılmasının vacibliyini diqqətə çatdırdı, ölkələrimizin istehsal etdikləri müxtəlif məhsulların qarşılıqlı ixracının mümkünlüyünü bildirdi.*

*Dövlətimizin başçısı Peru Respublikasının Prezidenti Pedro Pablo Kuçinskinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.*

## FİNLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ARYA İNKERİ MAKKONEN İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Arya İnkeri Makkonenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Arya İnkeri Makkonen Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Arya İnkeri Makkonen etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın yaxşı təcrübəyə malik olduğunu bildirdi. Prezident İlham Əliyev özünün Finlandiyaya, Finlandiyanın dövlət başçısının isə Azərbaycana rəsmi səfərinin əhəmiyyətini qeyd etdi. Finlandiya Prezidenti ilə beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladan dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əlaqələrimizin mühüm hissəsini təşkil etdiyini dedi. Prezident İlham Əliyev əlaqələrimizin bir çox istiqamətlərdə, o cümlədən ticarət və nəqliyyat sahələrində, xüsusilə Şimal–Cənub nəqliyyat dəhlizi çərçivəsində inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğuladı. Azərbaycanla Finlandiya arasında əməkdaşlığın gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə edən prezident İlham Əliyev səfir Arya İnkeri Makkonenin ölkəmizdəki fəaliyyətinin bu əlaqələrin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Arya İnkeri Makkonen Finlandiya Respublikasının Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında yaxşı münasibətlərin olduğunu deyən səfir ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi, ticarət əlaqələrinin genişləndirilməsi və müxtəlif sahələrdə qarşılıqlı səfərlərin artırılması istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunan səfir Arya İnkeri Makkonen Azərbaycan və Finlandiya arasında bu sahədə qarşılıqlı əlaqələrin və səfərlərin vacibliyini qeyd etdi.*

*Prezident İlham Əliyev Finlandiya Respublikasının Prezidenti Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiyanın Prezidentinə çatdırmağı xahiş etdi.*

## ESTONİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MARİN MİTTUS İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Marin Mittusun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Marin Mittus Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Marin Mittus etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı özünün Estoniyaya, Estoniya Prezidentinin isə Azərbaycana səfərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev ölkələrimiz arasında çox yaxşı qarşılıqlı anlaşmanın mövcud olduğunu və siyasi sahədə ölkələrimizin daim bir-birini dəstəklədiyini qeyd edərək, eyni zamanda, ticarət sahəsində bir o qədər də fəal əməkdaşlığın həyata keçirilmədiyini bildirdi. Azərbaycanın Estoniyada səfirliyinin uzun illərdir fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimizin fəal əməkdaşlıq etdiyini dedi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ikitərəfli münasibətlərin inkişafında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi işinə daha çox önəm veriləcək və bu da öz növbəsində, Estoniya ilə Azərbaycan arasında qarşılıqlı idxal-ixrac əməliyyatlarının stimullaşdırılması, imkanların müəyyənləşdirilməsi üçün yaxşı şərait yaradacaq. Dövlətimizin başçısı əlaqələrimizin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi, mədəniyyət sahəsində əməkdaşlığın xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev ikitərəfli*

*münasibətlərimizin Avropa İttifaqı çərçivəsində uğurlu inkişafından məmnunluğunu ifadə etdi.*

*Səfir Estoniya Respublikasının Prezidenti Kersti Kalyulaydın salamlarını prezident İlham Əliyevə çatdırdı. Xoş sözlərə görə minnətdarlığını bildirən səfir siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini deyərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Səfir iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq həyata keçirdiyini və bir-birilərini dəstəklədiklərini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ticarət, nəqliyyat, informasiya texnologiyaları, turizm, kənd təsərrüfatı və mədəniyyət sahələrində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Estoniya Respublikasının Prezidenti Kersti Kalyulaydın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Estoniya Prezidentinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ

*10 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da İran İslam Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, bu ölkənin sabiq prezidenti ayətullah Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının sabiq prezidenti ayətullah Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar Matəm kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyev səfirlikdə İran Teleradio Təşkilatının Bakı nümayəndəliyinin müxbirinə qısa müsahibə verdi.*

**İlham Əliyev:** İran İslam Respublikasının sabiq prezidenti ayətullah Haşimi Rəfsəncani cənablarının vəfatı ilə əlaqədar bütün qardaş İran xalqına Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Allah ona rəhmət eləsin.

Cənab Haşimi Rəfsəncani İran İslam Respublikasının inkişafında çox mühüm rol oynamışdır, böyük işlər görmüşdür, unudulmaz iz qoymuşdur. İran xalqı da onun xidmətlərini yüksək qiymətləndirirdi.

Ayətullah Haşimi Rəfsəncani İran–Azərbaycan əlaqələrinin inkişafında çox fəal rol oynamışdır, bu əlaqələrin inkişafının böyük tərəfdarı idi. Mənim atam, prezident Heydər Əliyev ilə onu çox yaxın dostluq əlaqələri bağlayırdı. Onlar – həm prezident Heydər Əliyev, həm də prezident Haşimi Rəfsəncani birlikdə İran–Azərbaycan əlaqələrinin təməlini qoyublar. Sağlam təməl qoyublar ki, bu əlaqələr dostluq, qardaşlıq şəraitində inkişaf etsin.

Mən cənab Haşimi Rəfsəncaninin Azərbaycana səfəri zamanı prezident Heydər Əliyev ilə olan görüşləri xatırlayıram.

O görüşlərin bəzilərində mən də iştirak etmişəm. Şəxsən gördüm ki, onlar doğrudan da bir-birinə çox böyük hörmətlə yanaşırlar. Mən prezident olandan sonra İrana etdiyim səfərlərin birində cənab Haşimi Rəfsəncani ilə Tehranda görüşdüm və o görüş də mənə çox gözəl təəssürat bağışladı.

O çox böyük dövlət xadimi, müdrik siyasətçi idi. Öz xalqına çox bağlı olan bir insan idi və İran–Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük işlər görmüşdü. Hesab edirəm, o da sevinirdi ki, bu gün bu əlaqələr ən yüksək zirvədədir.

Mən bundan sonra da çalışacağam ki, hörmətli həmkarım cənab Ruhani ilə birlikdə İran–Azərbaycan dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirim.

Allah rəhmət eləsin.

## NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*10 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz 2016-cı ilin yekunlarını müzakirə edəcək və bu il görüləcək işlər haqqında danışacağıq.

2016-cı ili təhlil edərkən, əlbəttə ki, biz regionda və dünyada gedən prosesləri nəzərə almalıyıq. 2016-cı ildə dünyada və yaşadığımız regionda təhlükələr, risklər, təhdidlər artmış, qanlı münaqişələr, müharibələr davam etmiş, yeni münaqişə ocaqları yaranmışdır. Bir sözlə, yaşadığımız bölgədə sabitlik pozulmuşdur və iqtisadi inkişafla bağlı vəziyyət ağırlaşmışdır. 2016-cı ildə dünyanın müxtəlif yerlərində təhlükəli proseslər müşahidə olunurdu. Avropada miqrantlar

---

* Nazирlяr Kabинetинин 2016-сы илин sosиal-иqtиsadи инкишафынын yekunlarына vя qarшыda duran vяzиfяlяrя hяsr olunмуш иclasында Azяrbaycan Respublиkasынын mиllяtlяrarasы, multиkulturalиzm vя dиnи mяsяlяlяr цzrя Dюvlяt mцшavиrи Kamal Abdullayev, Dюvlяt Mиqrasиya Xиdmяtиnиn rяиsи Fиrudиn Nяbиyev, Azяrbaycan Respublиkasынын Prezиdentи yanында Vяtяndaшlara Xиdmяt vя Sosиal Иnnovasиyalar цzrя Dюvlяt Agentlиyиnиn sяdrи Иnam Kяrиmov çıxış etdilər.

böhranı dərinləşmişdir, MDB məkanında gedən proseslər narahatlıq doğururdu.

Yaşadığımız bölgədə və Yaxın Şərqdə, qeyd etdiyim kimi, qanlı toqquşmalar, müharibələr, terror aktları, əfsuslar olsun ki, bölgədəki sabitliyə çox böyük zərbə vurmuşdur.

O ki qaldı bizim ölkəmizə – Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirib, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilib, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayıb və yaşayır. Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir. Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə, gördüyümüz bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.

2016-cı ildə ölkə qarşısında duran, demək olar ki, bütün əsas vəzifələr təmin edilib. Azərbaycan neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkir. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, Azərbaycan o ölkələrdəndir ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişdir. Neftlə zəngin olan bir neçə başqa ölkə də var ki, bizim kimi, bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşüb. Bu o deməkdir ki, əsas gəlir mənbəyimiz olan neft bizə 3-4 dəfə az gəlir gətirib. Biz böhranlı vəziyyətdən çıxış yolunu tapmalı idik və hesab edirəm ki, tapmışıq. Bütün çətinliklərə, itkilərə baxmayaraq, biz iqtisadi sabitliyimizi qoruya bildik, bu ağır vəziyyətdən şərəflə çıxa bildik. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılıb. Bir daha qeyd etmək istəyirəm ki, hər bir ölkənin inkişafı üçün əsas şərt

təhlükəsizlikdir, sabitlikdir, vətəndaş həmrəyliyidir. Bu da bizdə var. Təhlükəsizlik qorunur, bir daha demək istəyirəm ki, xalqın iradəsinə əsaslanan sabitlik, vətəndaş birliyi və həmrəyliyi 2016-cı ildə daha da artıbdır. Bütün Azərbaycan xalqı vahid amal uğrunda birləşib ki, ölkəmizi daha da inkişaf etdirək və müstəqilliyimizi daha da möhkəmləndirək.

2016-cı ildə biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etdik və bu gözəl bayramı yaxşı nəticələrlə, uğurlarla qarşıladıq.

İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılıb. 2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfimdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Qəbul edilmiş qərarlar artıq öz nəticəsini verməkdədir. Əminəm ki, bu nəticələr bu il və bundan sonrakı illərdə daha da qabarıq şəkildə özünü göstərəcək.

Ümumi daxili məhsul aşağı düşsə də – bunun da əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır – digər önəmli göstəricilər bizi sevindirir. Xüsusilə ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5 faiz artıb. Bu o deməkdir ki, uzun illər apardığımız siyasət öz nəticəsini göstərir. Sənayeləşmə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bu gözəl nəticəni təmin edib. Böhranlı ildə qeyri-neft sənayemizin 5 faiz artması, hesab edirəm ki, çox böyük göstəricidir.

Digər önəmli göstərici kənd təsərrüfatının inkişafıdır. Çünki hər bir ölkənin əsas inkişaf dinamikasını şərtləndirən sənaye və kənd təsərrüfatıdır. Kənd təsərrüfatında da görülmüş operativ tədbirlər nəticəsində inkişaf təmin edilib və kənd təsərrüfatı Azərbaycanda 2,6 faiz artıb.

Bu iki rəqəm deməyə əsas verir ki, biz bu çətin və böhranlı şəraitdən şərəflə çıxa bildik və artıq görülmüş işlər və bu il görüləcək işlər bu dinamikanı daha da gücləndirəcək. İqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft

sektorumuz inkişaf edəcək, yeni iş yerlərinin yaradılması təmin ediləcək və əminəm ki, biz dediyim bütün hədəflərə çatacağıq.

Baxmayaraq ki, gəlirlərimiz 3-4 dəfə aşağı düşüb, Azərbaycanda yaradılmış gözəl sərmayə iqlimi hesabına biz ölkəmizə 8 milyard dollar xarici investisiya cəlb edə bilmişik. Bu da çox gözəl göstəricidir. Çünki bu gün bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur və belə vəziyyətdə xaricdən investisiya gətirmək çox çətin məsələdir. Biz bunu təmin etmişik və ölkə iqtisadiyyatına 8 milyard dollar xarici sərmayə qoyulub. Daxili sərmayə isə 3,7 milyard dollar olub. Əvvəlki illərlə müqayisədə bu daha aşağı rəqəmdir. Bu başadüşüləndir, bunun səbəbi də bəllidir. Beləliklə, ölkə iqtisadiyyatına keçən il 11 milyard 700 milyon dollar sərmayə qoyulub. Bir daha demək istəyirəm ki, bu çox gözəl göstəricidir. Bu göstəricinin mütləq rəqəmləri də çox böyükdür. Əgər bunu adambaşına hesablasaq görərik ki, biz bəlkə də dünya miqyasında ən qabaqcıl yerlərdən birini tuturuq.

2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarımızı, xüsusilə Neft Fondunun vəsaitini qorumaq idi. Biz buna nail ola bildik. Mən indi dünyada gedən proseslərə xalqımızın diqqətini bir daha yönəltmək istəyirəm. Demək olar ki, neftlə zəngin olan bütün ölkələrin valyuta gəlirləri xeyli aşağı düşüb. Neft fondları, suveren fondlar, digər fondlar, pensiya fondları – bunların müxtəlif adları var. Bu fondlarda yığılan vəsait kəskin şəkildə aşağı düşüb. Azərbaycanda isə biz, demək olar ki, Neft Fondunun gəlirlərini qoruya bildik. Neft Fondunun gəlirləri cəmi 4 faiz aşağı düşüb. Çünki biz valyuta ehtiyatlarımızın şaxələndirilməsi istiqamətində vaxtilə addımlar atmışıq. Bizim valyutamız həm dollarda, həm avroda, həm də Britaniya funtunda saxlanılır. Dolların möhkəmlənməsi, avronun, funtun məzənnəsinin aşağı düşməsi nəticəsində, bax, dollar ekvivalentində bizim Neft Fondumuzun valyuta ehtiyatları 4 faiz aşağı düşüb. Əgər bu məzənnə fərqi olmasaydı, biz o az səviyyəli tənəzzülə də uğramazdıq. Bu gün Azərbaycan Dövlət Neft Fondunda 33

milyard dollar vəsait vardır. Biz bunu qorumuşuq, qoruyacağıq və əminəm ki, bu il bunu daha da artıracağıq.

Əlbəttə, böhrandan çıxmaq üçün ən asan yol valyuta ehtiyatlarını xərcləməkdir və biz bunu bəzi yerlərdə görürük. Ancaq biz gələcəyi düşünürük. Biz uzunmüddətli strategiyamızı qururuq. Biz illər boyu valyuta ehtiyatlarımızı qorumuşuq, yığmışıq, ölkə üçün lazım olan infrastruktur, sosial layihələrə yönəltmişik və bu gün də qoruyuruq, artırırıq və artırmalıyıq.

Bizim gördüyümüz işlər dünyanın aparıcı, mötəbər beynəlxalq iqtisadi və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu da çox vacibdir. Çünki biri var bunu biz özümüz deyirik, biri də var ki, bunu beynəlxalq qurumlar qeyd edir. Dünya Bankının «Doing Business» hesabatında Azərbaycan 65-ci yerdədir. Bu, yaxşı göstəricidir. Əlbəttə, biz çalışmalıyıq ki, daha yüksək pilləyə qalxaq. Ancaq indiki şəraitdə dediyim bütün o amilləri nəzərə alaraq, hesab edirəm ki, bu, kifayət qədər yüksək göstəricidir. Dünyanın aparıcı iqtisadi beynəlxalq forumunun – Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabliyyətliliyinə görə 3 pillə irəliləyərək, 40-cı pillədən 37-ci pilləyə qalxıb. Bu da hesab edirəm ki, rekord göstəricidir. Biz MDB məkanında yenə də birinciyik və bu birinciliyi saxlamışıq. Budur beynəlxalq aparıcı iqtisadi qurumların hesabatları.

Düzdür, müxtəlif qeyri-hökumət təşkilatları var, hamımız bilirik ki, onlar haradan maliyyələşir, onların hədəfi bizə ləkə vurmaq, qaralamaq, bizim işimizə kölgə salmaqdır. Onların illər boyu apardıqları antiazərbaycan kampaniyaları heç bir nəticə vermir. Onların reytinqlərinə heç fikir verməyə də dəyməz. Özlərini böyük iqtisadiyyatçı adlandıran bəzi yerli nümayəndələr də müxtəlif çıxışlar edirlər, müxtəlif qiymətlər verirlər. Tamamilə cəfəng fikirlərdir, bizim gözəl atalar sözü var: «İki uzunqulağın arpasını bölə bilməyən, bizə dərs öyrədir». Bunlara fikir vermək lazım deyil. Əsas bizim uğurlu inkişafımızdır, aparıcı beynəlxalq iqtisadi qurumların qiymətidir və bizim

reallığımızdır. Reallıq isə ondan ibarətdir ki, biz 2016-cı ildə bu böhranlı vəziyyətdən şərəflə çıxa bildik, ölkəmizdə 100 mindən çox daimi iş yeri açılıb, kənd təsərrüfatının, qeyri-neft sənayemizin inkişafı bizə imkan verir ki, biz gələcəyə nikbinliklə baxaq. Biz bu gün görüləcək işlər haqqında da danışacağıq. Bizim planlarımız kifayət qədər böyükdür və onların icrası nəticəsində ölkə iqtisadiyyatı öz dinamikasını sürətləndirəcək.

2016-cı ildə sosial məsələlər də öz həllini tapıb. Sosial siyasət daim bizim əsas prioritetlərimizdən biri olub. 2016-cı ildə maaşlar 7 faiz, pensiyalar 8 faiz artıb. Yenə də artmalıdır. Hesab edirəm ki, 2017-ci ildə də bu istiqamətdə müsbət dinamika olacaqdır. Biz ünvanlı sosial yardım ilə bağlı çox önəmli addımlar atmışıq. Ehtiyac içində yaşayan vətəndaşlara dövlət həmişə öz yardımını göstərir və göstərəcək. Bu yardımın məbləği artır və artmalıdır. Sosial ədalətlə bağlı 2016-cı ildə çox önəmli addımlar atılıb, xüsusilə kommunal tariflərlə bağlı. Yenə də deyirəm, ehtiyac içində yaşayanlara dövlət öz yardım əlini uzadır və daim bunu edəcəkdir. Orta təbəqənin maraqlarının qorunması üçün çox ciddi institusional islahatlar aparılır, iş yerlərinin yaradılması ilə bağlı addımlar atılır. Varlı təbəqə isə dövlətdən dotasiya, hansısa yardım gözləməməlidir. Ona görə kommunal tariflərin diferensiasiyası da, bax, bu sosial ədalət prinsipini əsas prinsip kimi götürür və hesab edirəm ki, sosial məsələlərin həlli işində biz 2016-cı ildə əldə edilmiş uğurlarla fəxr edə bilərik. Gəlirlərimiz azalır, ancaq insanların maaşları artır. Sosial infrastruktur layihələri icra edilir. 485 məktəb təmir edilib, 29 yeni məktəb tikilib, 41 xəstəxana tikilib və ya təmir edilib. Bu layihələrə lazımi qədər vəsait ayırırıq və bu bir daha bizim sosial siyasətimizi göstərir.

Keçən il məcburi köçkünlərin problemlərinin həlli üçün yeni addımlar atılıb, yeni qəsəbələr salınıb. Bu il də bu proses davam edəcək, bu məsələ daim diqqət mərkəzindədir. Əlimizdən gələni edirik və edəcəyik ki, məcburi köçkünlərin vəziyyətini daha da yaxşılaşdıraq.

2016-cı ildə ictimai xidmətlər sahəsində işlər uğurla gedib, «ASAN xidmət» mərkəzlərinin sayı 11-ə çatıb. Son illər ərzində 13 milyon müraciət olunub və vətəndaşların bəyənmə əmsalı təxminən 100 faizə yaxındır. Bu da ictimai xidmətlər, ümumiyyətlə, ictimai münasibətlər sahəsində bir inqilab idi və bu, Azərbaycan brendidir. Artıq bəzi ölkələr bizim təcrübəmizi tətbiq etməyə başlayıb. Keçən il «ASAN xidmət» öz funksiyalarını genişləndirdi, «ASAN kommunal», «ASAN qatar», «ASAN viza» təşəbbüsləri irəli sürüldü. Onu da qeyd etməliyəm ki, «ASAN viza»nın fəaliyyəti nəticəsində ölkəmizə gələcək turistlərin sayı bundan sonra da artacaq. 2016-cı ildə biz bu istiqamətdə dönüş yarada bildik. Ümumiyyətlə, turistlərin axını dünyada mövcud olan iqtisadi durumla bağlıdır. Əgər vəziyyət yaxşıdırsa, daha çox insanlar xarici ölkələrə turist kimi gedirlər. Ancaq bu gün dünyanın, demək olar ki, bütün bölgələrində iqtisadi böhran yaşanır. Buna baxmayaraq, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 11 faiz artıb və əminəm ki, bu il daha da artacaqdır.

Keçən il ölkəmizdə 35 mehmanxana tikilib, 25 mehmanxana tikilməkdədir, ümumiyyətlə, mehmanxanaların sayı Azərbaycanda 500-dən çoxdur. Amma tələbat daha da artır, daxili turizm inkişaf edir. Mən çox şadam ki, Azərbaycan vətəndaşları daha çox Azərbaycanda istirahət etməyə üstünlük verirlər. Bizdə gözəl təbiət, gözəl şərait, gözəl mehmanxanalar, istirahət zonaları vardır. Bu gün bütün dünyadan turistlər Azərbaycana axışırlar. Bu da ölkə iqtisadiyyatına böyük mənfəət gətirir. Biz gələcəkdə turizmdən milyardlarla dollar vəsait qazanacağıq və bu bizim iqtisadi vəziyyətimizə çox böyük dəstək olacaqdır.

Keçən il beynəlxalq əlaqələrimiz daha da genişlənib. Azərbaycan uzun illər ərzində beynəlxalq aləmdə çox etibarlı, ləyaqətli tərəfdaş kimi tanınır. Xüsusilə son illər ərzində dünyada böhranların, müharibələrin, qeyri-sabit vəziyyətin genişləndiyi bir şəraitdə bizim nümunəmiz daha çox diqqət cəlb edir və bizə daha böyük rəğbətlə yanaşırlar.

Azərbaycan çox böyük müsbət beynəlxalq imicə malikdir. Beynəlxalq təşkilatlarda sözümüz keçir və təsirimiz artır. Beynəlxalq əlaqələrimizi bu il də genişləndirəcəyik. Keçən il ölkəmizə 20-yə yaxın dövlət və hökumət başçısı rəsmi və işgüzar səfərlər edib. Bu da bir göstəricidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işləmişik. İslam Əməkdaşlıq Təşkilatı Zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel ayında Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzlə bağlı kontakt qrupu yaratdı. Bu qrup artıq fəaliyyətə başlayır. Bu bizim böyük uğurumuzdur. Son illərdəki fəaliyyətimiz nəticəsində «Qoşulmama Hərəkatı» Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı qətnamələr qəbul edib.

Dağlıq Qarabağ münaqişəsinin həlli yolları bəllidir. Bizim mövqemiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bütün işğalçı qüvvələr torpaqlarımızdan çıxarılmalıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir. Status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Keçən il ATƏT də bu məsələ ilə bağlı öz ciddi sözünü demişdir – status-kvo qəbuledilməzdir. Bu aksiomdur və bu dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması deməkdir. Budur münaqişənin həlli yolları. Bunun başqa yolu ola bilməz. Azərbaycan heç vaxt öz torpağında ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcək. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. İşğalçı rejim, Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşı olacaq.

2016-cı ilin aprel ayında Azərbaycan dövləti və Azərbaycan Ordusu işğalçılara çox ciddi zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əkshücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu bizim şanlı tarixi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik. Minlərlə hektar torpaq işğalçılardan boşaldıldı. İndi orada bü-

tün mənalarda təmizlik işləri aparılır. Azərbaycan Ordusu indi on minlərlə hektar torpağa nəzarət edir. İndi o ərazilərdə işğalçıların izi-tozu qalmayıb. Biz o bölgələrdə lazımi tədbirləri görəcəyik ki, vətəndaşlarımız oraya qayıtsınlar və artıq bu proses başlanır.Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Biz hərbçilərimizlə fəxr edirik. Bu döyüşlər zamanı Azərbaycan xalqı bir daha öz birliyini nümayiş etdirdi. Hesab edirəm ki, 2016-cı il münaqişənin həlli ilə bağlı çox önəmli il oldu. Çünki qarşı tərəf – Ermənistan təşviş içində idi, vasitəçilərdən xahiş edirdi ki, tezliklə bu döyüşlər başa çatsın və onlar danışıqlar prosesinə qayıtmağa hazır olduqlarını bildirirdilər. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, onlar müxtəlif beynəlxalq təşkilatlara, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmişlər. Baxmayaraq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu məsələ ilə heç bir əlaqəsi yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bu vaxta qədər rəhbərlik etmiş şəxslər sadəcə olaraq, böyük siyasi səhv buraxaraq, ermənipərəst mövqe və qəbuledilməz fikirlər ifadə etmişlər. Hamımız onların aqibətinin necə olduğunu yaxşı bilirik. Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi, həm də bir daha göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz bütün təxribatlara layiqli cavab verəcəyik. Eyni zamanda, illər boyu Ermənistan tərəfindən yaradılmış mif tamamilə darmadağın edildi. Xaricdən silahlar, pullar, digər yardımlar olmasa, onlar bir həftə ərzində bizim qabağımızda duruş gətirə bilməzlər. Bunu özləri də etiraf edirlər. Biz bunu çoxdan bilirdik.

Biz həmişə olduğu kimi, konstruktiv mövqe tuturuq, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları da həmçinin. Tarixi həqiqət də bizim mövqemizi möhkəmləndirir. Hərbi güc də, iqtisadi potensial da, siyasi nüfuz da bizdədir. Biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur bizim

məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım oldu.

Keçən il digər vacib hadisələr baş verdi. Biz enerji siyasətimizin təkmilləşdirilməsi istiqamətində növbəti addımlar atdıq. «Cənub Qaz Dəhlizi»nin icrası uğurla davam etdirildi. Baxmayaraq ki, neft gəlirlərimiz 3-4 dəfə azaldı, xaricdən kreditlər aldıq, biz daxili vəsait hesabına «Cənub Qaz Dəhlizi» və «Şahdəniz-2» layihələrinin icrası ilə bağlı bütün lazımi addımları atdıq. «Şahdəniz-2» layihəsi üzrə – bu gün «Şahdəniz» dünya miqyasında ən böyük qaz-kondensat yataqlarından biridir – işlərin 90 faizi artıq tamamlanıb və gələn il tamamilə başa çatacaq. TANAP layihəsinin böyük hissəsi icra edilib və «Cənub Qaz Dəhlizi»nin digər seqmentləri istiqamətində də işlər gedir. Biz keçən il Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının ikinci toplantısını keçirdik. O toplantıda iştirak edən bütün ölkələr, Avropa Komissiyası, Amerika Birləşmiş Ştatları və «Cənub Qaz Dəhlizi»nin bütün üzvləri qəbul edilmiş bəyanatda Azərbaycanın liderliyini bir daha göstərmişlər. Biz bu layihənin lideriyik, təşəbbüskarıyıq, aparıcı qüvvəsiyik. Biz o layihəni bütün dostlarımızla, tərəfdaş ölkələrlə və beynəlxalq təşkilatlarla birlikdə icra edirik.

Keçən il nəqliyyat sektorunda önəmli hadisələr baş verib. Xüsusilə Şimal–Cənub dəhlizinin yaradılması istiqamətində çox ciddi addımlar atılıb. Keçən ilin yaz aylarında mən göstəriş vermişdim ki, ilin sonunadək bizim dəmir yolumuz İran sərhədinə qədər çatdırılmalıdır və artıq biz buna nail olduq. Təqribən 7-8 ay ərzində çatışmayan o hissəni inşa etdik və ondan əlavə, Astaraçay üzərində körpünü də tikdik və istifadəyə verdik. Azərbaycan Şimal–Cənub dəhlizi ilə bağlı öz üzərinə düşən vəzifəni cəmi 8 ay ərzində yerinə yetirdi. İndi biz bu böyük layihənin işə düşməsi ilə bağlı əlavə təşəbbüslər irəli sürmüşük ki, bu prosesi sürətləndirək. Bu həm bizə, həm qonşu ölkələrə və bütün dünyaya lazımdır. Bu layihənin icrası nəticəsində Hindistandan, Pakistandan gələn yüklər Azərbaycan ərazisindən İrana, Rusiyaya, Şimali Avropaya və əks istiqamətdə

gedəcəkdir. Bu, böyük nəqliyyat hərəkatına gətirib çıxaracaq. Milyonlarla ton yük ərazimizdən keçəcək və minlərlə iş yeri yaradılacaq. Biz bu layihənin icrası ilə eyni zamanda, Naxçıvanı da dəmir yolu blokadasından çıxaracağıq. Naxçıvan İran ərazisindən dəmir yolu vasitəsilə Azərbaycanla birləşəcək. Yəni bu, tarixi layihədir və biz bunu qonşu, dost ölkələrlə birlikdə icra edirik.

2016-cı ildə idmançılarımız da bizi böyük qələbə ilə sevindirdilər. Rio Olimpiya oyunlarında biz tarixi qələbə – 18 medal qazandıq və medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, keçmiş sovet respublikaları arasında Rusiyadan sonra 2-ci və müsəlman aləmində 1-ciyik. Bax, bu göstəricilər hesab edirəm ki, hər şeyi göstərir. Bu bizim növbəti böyük qələbəmizdir. Azərbaycan xalqı ötən il keçirilmiş referendumda bir daha öz iradəsini ifadə etdi, bizim siyasətimizə öz böyük dəstəyini verdi, bir daha göstərdi ki, apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Biz bunu bilirdik. Rəy sorğuları aparılır, ictimai fikir öyrənilir və ölkəmizdə hökm sürən ab-havanı, əlbəttə ki, bilirdik. Ancaq referendum bunu bir daha bütün xalqımıza və dünyaya göstərdi. Referendumu müşahidə edən beynəlxalq təşkilatların nümayəndələri bir dənə də olsun pozuntu aşkar etməyiblər. «Exit-poll»ların nəticələri rəsmi nəticələrlə üst-üstə düşdü. Beynəlxalq təşkilatlar, xüsusilə Avropa Şurası referendumun keçirilməsinə çox müsbət qiymət verdi və sonra bunu Strasburqda öz qərarı ilə təsdiqlədi. Referendum şəffaf, ədalətli, azad şəkildə keçirildi. Bu həm demokratiya istiqamətində növbəti addımdır, həm də onu göstərir ki, Azərbaycanda seçki prosesi yüksək dərəcədə təkmilləşib. Eyni zamanda, bir daha demək istəyirəm ki, bu, xalq tərəfindən bizə verilən böyük dəstəkdir və o dəstək ki, ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə göstərildi. Mən bu dəstəyə görə bir daha Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm və bir daha qeyd etmək istəyirəm ki, bundan sonra da Azərbaycan inamla inkişaf edəcəkdir.

Keçən il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdi. Bu, hesab edirəm ki, dünya miqyasında nadir bir hadisə idi. Bilmirəm, bu vaxta qədər hansısa bir ölkədə «Multikulturalizm ili» elan edilmişdir, yoxsa yox. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, 2016-cı ili «Multikulturalizm ili» elan etməyimiz çox böyük məna daşıyırdı. Bu həm bizim siyasətimizi, cəmiyyətimizin əhval-ruhiyyəsini göstərir, həm də gördüyümüz işləri, görüləcək işlərimizi əks etdirir. Azərbaycan doğrudan da dünya miqyasında multikulturalizmin mərkəzidir. Biz bu mövzu ətrafında söhbətlərə, beynəlxalq tədbirləri keçirməyə başlayanda hələ miqrantlar böhranı yox idi, hələ Avropada, başqa yerlərdə ayrı-seçkilik o qədər də özünü büruzə vermirdi. Keçən il bu, ifrat dərəcəyə çatdı. Keçən il biz bəzi Avropa ölkələrində miqrantlara qarşı alçaldıcı hərəkətləri, islamofobiya ilə bağlı artıq açıq-aşkar aqressiv siyasəti gördük. Belə bir zamanda «Multikulturalizm ili» elan etmək və onu ləyaqətlə sona çatdırmaq bir daha bizim siyasətimizi, gücümüzü, niyyətimizi göstərir.

Biz keçən il bir neçə mötəbər tədbir keçirmişik. Mən onlardan BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusi qeyd etmək istəyirəm. Ənənəvi Bakı Beynəlxalq Humanitar Forumu da, digər tədbirlər də çox uğurla keçdi. Roma Papasının Azərbaycana səfəri və səfər zamanı verdiyi bəyanatlar da xüsusi qeyd edilməlidir. Bax, budur Azərbaycanın bu işə verdiyi töhfələr. Biz nəinki ölkə daxilində millətlərarası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya da nümunə göstəririk. Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk.

2016-cı ildə, əlbəttə, çox hadisələr baş verib. Bütün bu hadisələr, hətta önəmli hadisələr haqqında danışmaq üçün saatlarla vaxt lazımdır. Sadəcə, mən vacib hesab etdiyim məqamları ifadə etdim, həm təhlil olaraq, həm də gələcək platforma kimi. Biz bundan sonra da bu yolla gedəcəyik.

## YEKUN NİTQİ

Əminəm ki, ölkəmiz 2017-ci ildə uğurla inkişaf edəcək. Bütün sosial proqramlar icra ediləcək və iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılacaq.

2016-cı ilin iqtisadi göstəricilərini təhlil edərkən biz görürük ki, ümumi daxili məhsulun azalmasının əsas səbəbi dünya bazarlarında neftin qiymətinin aşağı düşməsidir və bundan irəli gələn dövlət investisiyalarının azalmasıdır. Ən çox tənəzzül inşaat sektorunda müşahidə olunurdu. İl ərzində görülmüş tədbirlər nəticəsində inşaat sektorunun canlandırılması istiqamətində önəmli addımlar atılıb. 2017-ci ildə də inşaat sektorunun inkişafı ilə bağlı lazımi tədbirlər görüləcək. Beləliklə, əminəm ki, Azərbaycanda bu il inşaat sektoru inkişaf edəcəkdir.

Bir çox layihələrin icrası nəzərdə tutulur. Onların arasında xüsusilə Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətini qeyd etmək istərdim. Keçən ay Yasamal rayonunda Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsinə start verildi. Əminəm ki, bu layihə uğurla icra ediləcək. Layihə çərçivəsində yeni bir şəhərcik yaradılacaq – hündürmərtəbəli 29 yaşayış binasının tikintisi nəzərdə tutulur. Məktəb, uşaq bağçası tikiləcək, infrastruktur yaradılacaq, yollar çəkiləcək. 2000-ə yaxın mənzil tikiləcək və güzəştli şərtlərlə vətəndaşlara, xüsusilə maddi imkanları məhdud olan ailələrə uzunmüddətli kreditlə veriləcək.

Bununla yanaşı, Bakı şəhərində köhnəlmiş mənzil fondunun aradan qaldırılması və yerində müasir binaların tikintisi prosesinə də start verildi. Əfsuslar olsun ki, şəhərimizin müxtəlif yerlərində vaxtı keçmiş, yöndəmsiz, bəzi hallarda qəzalı vəziyyətdə olan binaların sayı kifayət qədər çoxdur. Onların yerində yeni, müasir yaşayış binalarının tikintisi artıq başlanılıb. Birinci layihə keçən ilin sonlarında Sabunçu rayonunda icra edildi və yeni gözəl bina istifadəyə verildi. Binanın açılışında şəxsən özüm iştirak etmişəm. Ona görə ki, buna çox böyük diqqət göstərirəm və hesab edirəm ki,

bu birinci layihə rəmzi xarakter daşıyır. Bu, böyük yeniliyə start verən bir addımdır. Bu gün tikilməkdə olan, yaxud sənədləri hazırlıq mərhələsində olan hündürmərtəbəli 60 yaşayış binasının mövcudluğu göstərir ki, bu proses şəhərimizdə geniş vüsət alıb. Söhbət ondan gedir ki, yararsız, qəzalı vəziyyətdə olan evlərin, binaların yerində hündürmərtəbəli müasir binalar tikilsin. Köhnə mənzillərdə yaşayan vətəndaşlar müvəqqəti olaraq kirayədə qalacaqlar və onlara kirayə pulu veriləcək. Yeni binalar tikiləndən sonra həmin vətəndaşlar o binalarda, Sabunçu rayonundakı kimi, daha da böyük mənzillərə sahib olacaqlar. Orada bəzi vətəndaşların mənzil sahəsi 2 dəfə böyükdür. Həm də ki, onlar təmirli və gözəl mənzillərdə yaşayacaqlar.

Bu layihənin, bu təşəbbüsün çox böyük mənası var. Çünki ilk növbədə, biz köhnəlmiş mənzil fondunu aradan götürürük. Digər tərəfdən, yeni binalar mövcud binaların yerində tikiləcək və beləliklə, yeni yerlərə ehtiyac olmayacaq. Mən bunu xüsusi qeyd etmək istəyirəm ki, bundan sonra Bakı şəhərində və digər böyük şəhərlərdə boş yerlərin ayrılmasına çox ciddi nəzarət ediləcək. Əgər sahibkarlar yaşayış binası tikmək istəyirlərsə, getsinlər vətəndaşların razılığını alsınlar, onların bütün məsələlərini həll etsinlər, kompensasiya ödəsinlər, yaxud kirayə vəsaiti versinlər və o yerlərdə şəhər planına uyğun şəkildə, bütün memarlıq normalarına riayət etməklə, binalar tiksinlər. Bax, yanaşma belə olmalıdır və çox ciddi nəzarət olmalıdır. Müvafiq göstərişlər, qərarlar verilibdir.

Biz keçən ay «Ağ şəhər» layihəsinin 5 illiyini qeyd etdik. 5 il ərzində şəhər içində şəhər yaratmışıq. Dağılmış, neftlə çirklənmiş «Qara şəhər» ərazisində indi ekoloji təmiz, müasir layihə artıq icra edilir. Onun bir hissəsi artıq icra edilib. Növbəti mərhələdə «Ağ şəhər» ərazisində əlavə 60 yaşayış binası da tikiləcək.

Mən 3 layihəni qeyd etdim. 3 layihə çərçivəsində şəhərimizdə hündürmərtəbəli 150 yaşayış binası tikiləcək. Bundan əlavə, indi onlarla tikinti meydançasında işlər gedir. Beləliklə, biz inşaat sektorunu canlandıracağıq. Bu bizə nə verəcək? İlk

növbədə, mənzil fondu yeniləşir. Digər tərəfdən, şəhər daxmalardan, «naxalstroy» adlandırılan qanunsuz binalardan təmizlənəcək. Şəhərin görkəmi daha da yaxşılaşacaq. Tikinti materialları sektoru canlanacaq. Biz artıq böyük bir sənaye sahəsini yaratmışıq. İnşaat materiallarının bir çoxu Azərbaycanda istehsal olunur. Yəni burada yerli materiallardan söhbət gedir. İdxaldan asılılıq xeyli azalıb. Bu, tikinti materialları sektorunun inkişafına da xidmət göstərəcək. Təkcə sadaladığım layihələrin icrası nəticəsində minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq, şəhərimizin gözəlləşməsi, abadlaşması prosesi daha da sürətlə gedəcək. Bakı şəhəri indi dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hamı etiraf edir. Mən istəyirəm ki, Bakının hər bir guşəsi, hər bir yeri, hər bir mikrorayonu şəhərin mərkəzində olan mənzərəyə uyğun olsun və biz buna nail olacağıq.

Digər inşaat layihələrinin icrası nəzərdə tutulur. Xüsusilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının arxasındakı ərazidə təmizlik, köçürmə işlərinin birinci mərhələsi başa çatıb. O yerlərdə yaşayış binaları tikilməyəcək. O yerlərdə ictimai yerlər yaradılacaq. Yeni yol infrastrukturu yaradılacaq. Bu il ərzində artıq təsdiqlənmiş layihə tam icra edilməlidir.

Biz yeni, böyük bir ictimai parkı şəhər sakinlərinə hədiyyə edəcəyik. Həmçinin ən müasir, geniş yol infrastrukturu da yaradılacaq. Tarixi, dini abidəmiz olan Təzəpir məscidinin mənzərəsi tam fərqli olacaq. Təzəpir məscidinin qabağında böyük park yaradılacaq, ətrafı abadlaşdırılacaq. Beləliklə, həm məscidə giriş asanlaşacaq, həm də kənardan baxanda tarixi, dini abidəmizin əzəməti daha da gözəl görünəcək.

İnşaat sektorunun inkişafı bütün bölgələrdə də nəzərdə tutulmalıdır. Bölgələrdə, şəhərlərdə hündürmərtəbəli binaların, sənaye zonalarının tikintisi prosesi getməlidir. Həm dövlət öz dəstəyini göstərəcək, həm də təbii ki, özəl sektor da burada fəal olmalıdır. Bununla bərabər, mən xüsusilə sahibkarlara müraciət edirəm, dediyim layihələr çərçivəsində çox böyük işlər görüləcək. Ona görə biz özümüzü hələ ki, hansı inşaat materialları ilə təmin edə bilmirik, o sahələr yaradılmalıdır.

İndi bizim İqtisadiyyat Nazirliyində bütün məlumatlar var. Biz bir çox növlər üzrə inşaat materialları ilə özümüzü təmin edirik, bəzi malları idxal edirik. O malların istehsalı Azərbaycanda qurulmalıdır, həm idxaldan asılılıq azalacaq, həm də ki, özəl sektor, iş adamları buradan mənfəət götürəcəklər. Bu il Azərbaycanda makroiqtisadi sabitlik təmin edilməlidir, inflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz buna nail olacağıq. Makroiqtisadi sabitlik hər bir ölkənin iqtisadi dayanıqlılığı üçün əsas şərtlərdən biridir.

Mən giriş sözümdə qeyd etdim, baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşdü, valyuta ehtiyatlarımızı, xüsusilə Neft Fondunun ehtiyatlarını qoruya bildik. Bu il də valyuta ehtiyatlarımızı qorumalıyıq və əminəm ki, biz valyuta ehtiyatlarımızın artımına da nail olacağıq.

Keçən il bank sektorunun sağlamlaşdırılması istiqamətində önəmli addımlar atılıb, nəzarət gücləndirilib, şəffaflıqla bağlı tədbirlər – cəza tədbirləri, inzibati tədbirlər görülüb. Bizim iqtisadiyyatımıza ən böyük zərbə vuran bank sektoru olmuşdur. Ona görə bu sektorun təmizlənməsi, sağlamlaşdırılması, şəffaflaşması, beynəlxalq standartlara uyğunlaşması istiqamətində bu il də ciddi addımlar atılacaq. Qanunu pozan şəxslərə qarşı bundan sonra da ciddi mübarizə aparılacaq.

Baxmayaraq ki, 2016-cı il ağır il olmuşdur, qeyri-neft sənaye istehsalı artıbdır. Bu il sənaye potensialının inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır. Bizim artıq bir neçə sənaye parkımız var. Onların sırasında Sumqayıtdakı 2 parkın fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm – texnologiyalar parkı və kimya sənaye parkı. Sumqayıt Kimya Sənaye Parkında böyük müəssisələrin yaradılması prosesi davam edir. Oraya qoyulan investisiyaların həcmi 1 milyard dolları ötüb. Keçən il Mingəçevir Sənaye Parkının təməli qoyuldu. Hesab edirəm ki, gələn aydan etibarən burada bütün inşaat işləri də başlanılmalıdır. Mingəçevir Sənaye Parkında – o, yüngül sənayeyönümlüdür – birinci mərhələdə 9 müasir fabrik tikiləcək və minlərlə iş yeri yaradılacaq.

Keçən il Pirallahıda dərman preparatlarının istehsalı ilə bağlı təməlqoyma mərasimi keçirildi. Pirallahı adasında həm yeni sənaye zonası, həm də turizm infrastrukturu yaradılır. Əminəm ki, bu il bu istiqamətdə ciddi addımlar atılacaq. Neftçala sənaye zonasının inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. İranlı tərəfdaşlarımızla birlikdə Avtomobil İstehsalı zavodunun təməli qoyulub. Digər bir neçə zavodun tikintisi nəzərdə tutulur. Balaxanı Sənaye Parkında yaxşı işlər gedir. Masallı şəhərində sənaye zonası üçün yer ayrılıb və indi infrastruktur işləri gedir. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm ki, hər bir şəhərdə xüsusi sənaye sahəsi, sənaye parkı, zonası yaradılmalıdır. Artıq bu proses başlanır və digər şəhərlərdə də yerli icra orqanları, sahibkarlar, əlbəttə ki, dövlətin dəstəyi ilə bu işləri görməlidir.

Keçən il kənd təsərrüfatının inkişafında uğurlu il olub. Biz artıma nail ola bilmişik. Bu il bu artım hesab edirəm ki, daha da böyük rəqəmlərlə ölçülməlidir. Kənd təsərrüfatı ilə bağlı bir neçə əsas istiqaməti qeyd etmək istərdim. Mən çox şadam ki, biz ilk növbədə, Azərbaycanda uzun illər ərzində tənəzzülə uğrayan pambıqçılığı bərpa edə bilmişik. Artıq bərpa prosesi başlanılıb. Pambıqçılığın şöhrətini qaytarırıq. Keçən il bir qədər gecikməyimizə baxmayaraq, biz yaxşı nəticələr əldə etdik. Əgər 2015-ci illə müqayisə etsək – 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdir – görərik ki, 2016-cı ildə artıq 51 min hektarda pambıq əkilib. Əgər 2015-ci ildə 35 min ton pambıq tədarük olunubsa, keçən il təxminən 90 min tona yaxın pambıq tədarük edilib. Bu il üçün bizim böyük planlarımız var. Bu planlar bu yaxınlarda qəbul ediləcək Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Biz bu il pambıq sahələrini yenə də artırmalıyıq. Əgər keçən il 51 min hektarda pambıq əkilibsə, bu il ən azı 120 min hektarda pambıq əkilməlidir. Bu, real rəqəmdir, bir qədər az, bir qədər çox ola bilər, biz işimizi təxminən bu rəqəmlər ətrafında qurmalıyıq. Bütün lazımi tədbirlər görülüb, keçən il texnikalar alınıb, bu il də alınacaq. Lazımi aqrotexniki tədbirlər görülür. Yeni torpaq sahələrinə

suyun verilməsi təmin edilir. Burada həm Prezident Administrasiyası, yerli icra orqanları, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və digər qurumlar fəal işləyiblər. Biz bu il daha da yaxşı nəticələr gözləyirik. Ancaq bu il icra ediləcək bu layihə çərçivəsində 200 minə yaxın insan işə cəlb ediləcək. Biz subsidiyaları da, pambıq tarlalarında işləyənlərin tariflərini də qaldırmışıq və məşğulluğu da təmin edəcəyik. Qeyd etməliyəm ki, hazırda 27 rayonda pambıqçılıq inkişaf edir və biz bu il təxminən 200 min ton, ondan da çox pambıq tədarükünü gözləyirik.

Keçən il baramaçılıqla bağlı çox ciddi addımlar atılıb. Mən burada da bir neçə rəqəmi qeyd etmək istərdim. Əfsuslar olsun ki, bu sahə də tamamilə yaddan çıxmışdır, əvvəlki illərdə tut bağlarının böyük hissəsi kəsilmişdir, dağıdılmışdır. İndi biz bunu bərpa edirik. 2015-ci ildə 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdir, təkcə bir rayonda, Şəki rayonunda. 2016-cı ildə görülmüş tədbirlər nəticəsində bu rəqəm 70 tona çatıb. Bu il barama tədarükü keçən ilə nisbətən ən azı 2 dəfə artmalıdır. Keçən il 1 milyon 700 min tut tingi əkilib. Bölgələrdə bu sahəyə çox böyük maraq var. 30–40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Hazırda 37 rayonda baramaçılıq inkişaf edir. Əgər 2015-ci ildə bir rayonda idisə, hazırda 37 rayondadır və əlbəttə ki, bu coğrafiya da genişlənməlidir. Bax, əkilən bu tinglərin nəticəsində biz 2019-cu ildə 1300 ton barama istehsalını gözləyirik. Biz Şəki İpək Kombinatının tam gücü ilə işləməsini də təmin edəcəyik.

Bizə kənd təsərrüfatı məhsulları arasında ən çox valyuta gətirən fındıqçılıqdır və xurma bağlarından əldə edilən məhsulun ixracıdır. Ona görə biz bu 2 istiqamətə də çox ciddi fikir vermişik. Keçən il 13 min hektarda fındıq bağları salınıb. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi fındıq bağlarının sahəsi təxminən 30 min hektara yaxındır. Yəni onun üçdəbir hissəsindən çoxunu biz 1 il ərzində salmışıq və bu proses davam edir. Qarşıya məqsəd qoyulub ki, 2016-cı ildən başlayaraq, bir

neçə il ərzində biz əlavə 40 min hektarda fındıq bağları salaq və bu proses gedir. Bu, fermerlərin də böyük marağına səbəb olub. Bu, yaxşı gəlir mənbəyi olacaqdır. Burada da dövlət öz üzərinə böyük vəzifə götürüb. Çünki bütün bu lazımi avadanlıq, texniki tədbirlər və tinglərin alınması dövlət hesabına həyata keçirilir. Dövlət bunu alır və fermerlərə pulsuz verir. Dövlətin, bir daha demək istəyirəm ki, siyasəti özünü bu istiqamətdə də göstərir. Biz fındıqçılığın coğrafiyasını da genişləndiririk və hazırda 13 rayonda bu sahədə işlər gedir.

Valyuta gətirən ixrac məhsullarından biri olan badam Azərbaycanda əfsuslar ki, çox az istehsal edilir. Biz hətta özümüzü bu məhsulla təmin edə bilmirik. Cəmi 1000 hektar badam bağlarımız var. Onların da böyük əksəriyyəti Naxçıvan Muxtar Respublikasındadır. Halbuki Abşeron yarımadasında, Bakıətrafı qəsəbələrdə və digər bölgələrdə badamçılıq üçün çox münbit təbii iqlim var. Ona görə bu istiqamətdə də işlər görülməlidir, lazımi tədbirlər görülür, göstərişlər verilib, bu sahə də inkişaf edəcək. Əfsuslar olsun ki, biz özümüzü zeytunla təmin edə bilmirik. Yeni zeytun massivləri, plantasiyaları salınacaq və yığım tam təmin edilməlidir. Bəzi hallarda zeytun ya ağaclarda qalıb çürüyür, ya da yerə tökülüb zay olur. Burada da bütün işlər tənzimlənməlidir. Biz nəinki özümüzü tam təmin etməliyik, hətta böyük ixrac potensialımız da yaradılmalıdır.

Tütünçülüklə bağlı tədbirlər görülür. Artıq biz quru tütünü ixrac etmək üçün müvafiq danışıqlar aparmışıq və razılaşmalar əldə edilibdir. Keçən il 3500 ton quru tütün tədarük edilib. Bizim məqsədimiz birinci mərhələdə onu 3 dəfə artırmaqdır. Azərbaycanda 10 min ton quru tütün istehsal olunmalıdır, ola bilər. Sovet vaxtında 50–60 min ton quru tütün istehsal olunurdu. Bunun ərazisi də bəllidir və həmin torpaqdır. Sadəcə olaraq, fermerlərə kömək etmək lazımdır. Bu köməyi edirik və ondan sonra biz bunun ixracını da təmin etməliyik. Yeni ixrac bazarlarının axtarılması ilə bağlı çox ciddi addımlar atılır. Bu da valyuta gətirən sahədir.

Nar, xurma bağlarının genişləndirilməsi istiqamətində işlər gedir. Üzümçülüklə bağlı, hesab edirəm ki, daha da ciddi işlər aparılmalıdır və mənim tərəfimdən müvafiq göstərişlər verilib. Burada da həm yeni üzüm bağlarının salınması, həm də şərab zavodlarının səmərəli fəaliyyəti, keyfiyyətin artırılması vahid bir kompleks yaratmalıdır.

Mən statistika ilə maraqlandım. Azərbaycanda il ərzində 20 milyon butulka şərab istehsal olunur. İxrac isə çox azdır. Bizim sahibkarlar şərab ixracından cəmi 2-3 milyon dollar pul əldə edirlər. Ona görə Azərbaycan şərabını dünya bazarlarına çıxarmaq üçün çox ciddi addımlar atılıb. Biz bir neçə beynəlxalq sərgidə iştirak etmişik, müqavilələr bağlanıbdır. Dost, tərəfdaş ölkələrlə biz birbaşa bu danışıqları aparırıq ki, onlar öz bazarlarında bizim şərabımız üçün kvota ayırsınlar, biz öz şərabımızı ixrac edə bilək. Sahibkarlar da burada daha fəal olmalıdırlar, bu onların marağındadır. Amma bizdə şərabçılıqla bağlı olan bu vəziyyət ciddi təhlil edilməlidir, həm iqtisadi qurumlar, həm Vergilər Nazirliyi və hüquq-mühafizə orqanları tərəfindən. Çünki burada çox qəribə bir mənzərə üzə çıxır. Bizim mövcud şərab zavodlarımızın illik istehsal gücü 100 milyon butulkadır. Bu zavodların böyük əksəriyyəti son illər ərzində tikilib, oraya böyük vəsait qoyulub və müasir avadanlıqlar quraşdırılıb. Necə ola bilər ki, 100 milyon butulka istehsal gücü olan zavodlarda cəmi 20 milyon butulka şərab istehsal olunur. Ya bu pulu qoyan sahibkar pulunun qədrini bilmir, ya da ki, orada istehsal daha da böyükdür, o, qeydiyyata düşmür. Necə deyərlər, orada qanunsuz istehsal baş verir. Ona görə bu məsələ ciddi araşdırılmalıdır və qeyd etdiyim kimi, bütün müvafiq qurumlar mənə arayış hazırlasınlar və bu sahədə də qayda-qanun yaradılmalıdır. Bu, böyük gəlir gətirə biləcək bir sahədir. Vaxtilə ulu öndərin dövründə, ötən əsrin 70-ci illərində 2 milyon ton üzüm yığılırdı. Kəndlilər böyük vəsait əldə edirdilər. Əfsuslar olsun ki, sonra həm sovet rəhbərliyi, həm də ki, sovet rəhbərliyinin xoşuna gəlmək istəyən yerli rəhbərlər üzüm bağlarının bir hissəsini qırmışlar.

Ancaq biz indi bərpa edirik. Bərpa edərkən biz gərək bütün zənciri nəzərə alaq, üzüm bağlarını salacağıq, amma sonra harada emal olunacaq, harada satılacaq? Bax, bu vahid kompleks tədbirlər görülməlidir və burada aydınlıq olmalıdır.

Biz çayçılığı da bərpa edirik. İndi yüzlərlə hektar çay bağları salınıb, çayçılıqla bağlı yeni texnologiyalar var və bu da cənub zonasının iqtisadi inkişafını təmin edəcək. Biz özümüzü keyfiyyətli çayla təmin etməliyik və xaricə də Azərbaycanda yetişdirilmiş çayı ixrac etməliyik. Çünki hazırda biz daha çox xaricdən gətirilən çayı burada paketləyib ixrac edirik. O da yaxşıdır. Hər halda, çayı idxal etməkdən daha yaxşıdır. Ancaq çalışmalıyıq ki, bizim emal müəssisələri yerli məhsul əsasında fəaliyyət göstərsin və bu təkcə çayçılığa aid deyil. Biz çalışmalıyıq ki, Azərbaycanda məhsullar yerli xammal əsasında istehsal olunsun və ixrac edilsin. Bax, məqsəd bundan ibarətdir.

Keçən il heyvandarlıqla bağlı ciddi addımlar atılıb. İndi yeni layihələr icra edilir. Biz bundan sonra heyvandarlığı ancaq qapalı şəraitdə inkişaf etdirməliyik. Bu daha səmərəlidir və bizə imkan verəcək ki, bu gün səmərəsiz istifadə olunan örüş torpaqlarından səmərəli şəkildə istifadə edək. Onların təyinatı dəyişdirilməlidir. İndi harada mümkündür işlər gedir və biz onları da əkinə cəlb etməliyik.

Bir sözlə, kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Ona görə mən bu sahəyə bu gün də, ümumiyyətlə, çox böyük diqqət ayırıram. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır. Biz ixracı şaxələndirməliyik və ilk növbədə, kənd təsərrüfatı məhsulları hesabına. Biz realist olmalıyıq. Biz indi texnologiya ixrac edə bilmirik və edə bilmərik, vaxt lazımdır. Biz istədiyimiz səviyyədə maşın, mexanizm ixrac edə bilmirik. Heç özümüzü də təmin edə bilmirik. Biz nəyi ixrac edə biliriksə, diqqətimizi o real sektora yönəltməliyik. Burada kənd təsərrüfatı, emal sahəsi, əlbəttə ki, ən böyük potensiala malikdir. Torpaqlardan səmərəli istifadə etməliyik və ixracımızı şaxələndirməliyik. Hesab edirəm ki, biz görüləcək tədbirlər sayəsində kənd təsərrüfatı məhsulları

ixracını 2 dəfə artıra bilərik. Bu, ölkəmizə daha çox valyuta, kənddə yaşayanlara isə əlavə vəsait gətirəcək.

Əlbəttə, bu işləri görmək üçün infrastruktur olmalıdır və son illərdə bu istiqamətdə çox böyük addımlar atılıb. Qeyd etməliyəm ki, elektrik enerjisi ilə bağlı addımlar atılır. Qazlaşdırılma Azərbaycanda 92 faizə çatıb. Düzdür, hələ ki, 1000-dən çox kənddə qaz yoxdur. Onu da biz bilməliyik. Bu proses – kəndlərin qazlaşdırılması prosesi gedir, bu il də, gələn illərdə də gedəcək. Ancaq, ümumiyyətlə, ölkəmizdə qazlaşdırılmanın səviyyəsi 92 faizə çatıb. Bu da hesab edirəm ki, çox gözəl göstəricidir. Kənd yollarının tikintisi keçən il də uğurla aparılıb. Bu il 40 layihənin həyata keçirilməsi nəzərdə tutulur. 40 layihə, ən azı 40 kənd yolu layihəsi – kəndlərin sayı daha da çox olacaq, çünki hər bir layihə bir neçə kəndi birləşdirir – ən azı 40 layihə bu il icra ediləcək və lazımi səviyyədə vəsait də bu məqsədlər üçün ayrılacaq. Bu həm insanların rahatlığı deməkdir, həm də kənd təsərrüfatının inkişafı üçün lazımdır.

İçməli su layihələrinin icrası bu il də davam edəcək. Artıq bir çox şəhərlərimizdə içməli su layihələri başa çatıb.

Hərbi potensialımızın gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək. Büdcədən kifayət qədər vəsait ayrılıb. Hərbi xərclər bizim büdcə xərcləri arasında birinci yerdədir. Bu belə də olmalıdır. Biz müharibə şəraitində yaşayırıq. Bütün böhranlara, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, biz ordumuzu ən müasir silah-sursat, texnika ilə təmin edirik. Keçən il çox önəmli addımlar atılıb. Ən müasir silahlar ölkəmizə gətirilib və bu il də bu proses davam edəcək. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, həm döyüş qabiliyyəti, həm təminat-təchizat baxımından. Bizim yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan ən müasir silahlarımız var. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi isə nümayiş etdirilməyib. Lazım olan vaxtda, lazım olan yerdə onlar nümayiş etdiriləcək.

Sosial infrastrukturun yaradılması bu il davam etməlidir. Mən qeyd etdim ki, keçən il 500-dən çox məktəb tikilib, təmir

edilib. Bizim məqsədimiz ondan ibarətdir ki, 2017–2018-ci illərdə Azərbaycanda bir dənə də qəzalı vəziyyətdə məktəb qalmasın. Bax, qarşıya belə məqsəd qoyulub. Bu layihələri biz 2 ilə bölürük – bu il və gələn il. Vəsait nəzərdə tutulur. Təhsil Nazirliyi yeni layihələr təqdim edib. Xüsusilə ucqar kəndlərdə bütün müasir avadanlıqlarla təmin edilən və tezliklə istifadəyə verilə bilən modul tipli məktəblərin tikintisi getməlidir. Səhiyyə ocaqları da həmçinin. Biz, demək olar ki, bütün şəhərlərdə ən müasir xəstəxanaları tikmişik, yaxud da ki, əsaslı təmir etmişik. Harada lazımdırsa, yenə də bu işlər davam etdiriləcək.

Ekoloji tədbirlər bu il də aparılmalıdır. Çirklənmiş ərazilər təmizlənməlidir. Modul tipli sutəmizləyici qurğular yaradılmalıdır. Yüzlərlə kənddə bu qurğular quraşdırılıb və bu proses davam etdirilməlidir. Son bir neçə il ərzində ölkəmizdə ağac əkmə kampaniyası çox geniş vüsət alıb. Bu il də bu işlər aparılmalıdır. Hesab edirəm ki, bundan sonra daha çox dekorativ ağaclar yox, bar verən ağaclar əkilməlidir. Bütün rayonlarda iqlimə uyğun şəkildə ağac əkmə prosesi davam edəcək. Ancaq bunun həm iqlimə, ekologiyaya, həm də ki, iqtisadiyyata müsbət təsiri olmalıdır. Ona görə müvafiq tədbirlər görülməlidir, tinglər tədarük edilməlidir. Yaxud da harada ki, nə çatışmır xaricdən gətirilməlidir, bu işlərə vəsait ayrılmalıdır.

Mən hesab edirəm ki, 2017-ci il turizmlə bağlı daha da uğurlu olacaq. Baxmayaraq ki, turistlərın sayı 11 faiz artıb, ancaq görülən tədbirlər nəticəsində əminəm ki, bu il daha da çox turist gələcək. Burada bir neçə amil var. İlk növbədə, ölkəmizə gəlmək üçün indi heç bir problem yoxdur. Bütün süni əngəllər aradan götürüldü və burada məruzə edildi. «ASAN viza» və digər xidmətlər vasitəsilə turistlər Azərbaycana maneəsiz gələcək. Bu, ölkə iqtisadiyyatına çox böyük dəstək olacaq. Həm Bakıda, həm bölgələrdə böyük canlanma olacaqdır. Bizim turizm infrastrukturu da buna hazır olmalıdır. Yenə də sahibkarlar, bax, bu amili nəzərə alsınlar. İkiulduzlu, üçulduzlu hotellərin tikintisinə daha çox fikir verilməlidir. Çünki bu gün turistlər

hara gedir? Harada ki, təhlükəsizlik, əmin-amanlıq, xaricilərə xoş münasibət, gözəl mənzərə, tarixi abidələr, yaxşı xidmət, yaxşı hotellər var. Bunların hamısı bizdə var. Bəziləri bizə tarixdən qalıb, bəzilərini biz özümüz yaratmışıq. Ona görə Azərbaycanı dünyada daha çox tanıyırlar. Bizim keçirdiyimiz beynəlxalq tədbirlərin məqsədi budur. Biz ildə bir neçə mötəbər beynəlxalq tədbir keçiririk. Qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları keçiririk, Avropa oyunları, «Eurovision», «Formula-1» ki, 500 milyon auditoriyası var. İndi «Formula-1» kimi, bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz. Çünki ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya oyunları ola bilər. Amma Yay Olimpiya oyunları bir dəfə keçirilir. Özü də o qədər böyük – milyardlarla vəsait tələb edir. Ancaq «Formula-1» hər il keçirilir. Artıq bütün infrastruktur var. Əlbəttə ki, turizmin inkişafı bundan sonra da sürətlə getməlidir.

«ASAN xidmət»lə bağlı planlar haqqında artıq deyildi. Qeyd etməliyəm ki, biz coğrafiyanı və «ASAN xidmət»in funksiyalarını bundan sonra da genişləndirəcəyik. Çünki o öz səmərəliliyini artıq göstərdi. Vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndirilir. Ona görə hər bir dövlət qurumunda və ictimai sahədə şəffaflıq «ASAN xidmət»dəki kimi olmalıdır.

Bu il biz «Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı çox böyük işlər görəcəyik. Bu il həlledici il olacaq. Bu nəhəng layihəni maliyyələşdirmək üçün bizim kifayət qədər öz vəsaitimiz var. Beynəlxalq maliyyə qurumları da bu layihəyə vəsait ayırır. Ona görə yox ki, bizə belə xüsusi xoş münasibət bəsləyirlər. Ona görə ki, bu, səmərəli layihədir. İndi beynəlxalq maliyyə qurumları elə layihələri axtarırlar ki, pul gətirsin. Bax, «Cənub Qaz Dəhlizi» o layihələrdəndir. Bu layihə həm iqtisadi cəhətdən çox səmərəlidir, həm də ki, enerji təhlükəsizliyi baxımından bir çox ölkələrin maraqlarını təmin edəcək, ilk növbədə, Azərbaycanın. Ona görə əgər kimsə düşünürsə ki, bu layihənin icrası ilə bağlı bizdə problem olacaq, səhv edir. Mən nəyə görə

bunu deyirəm? Çünki bəzi siyasi dairələr neftin qiymətinin düşməsi ilə bağlı yaranmış vəziyyətdən istifadə edərək deyirlər ki, Azərbaycanın indi pulu azalıb, Azərbaycan indi ağır, çətin vəziyyətə düşüb, «Cənub Qaz Dəhlizi»ni maliyyələşdirmək üçün pulu yoxdur, ona görə gəlin Azərbaycana təzyiq edək, öz tələblərimizi qoyaq, öz maraqlarımızı təmin edək ki, o şərtlə biz Azərbaycana kredit verə bilərik. Bu, keçən il ərzində müşahidə edilən mənzərə idi, çox ucuz, necə deyərlər, çox ləyaqətsiz hərəkətlər idi.

İlk növbədə, heç bir kənar qüvvə bizi istəmədiyimiz layihəyə cəlb edə bilməz. Bizim üçün əsas dövlətimizin, xalqımızın maraqlarıdır. İkincisi, heç kim bizə heç nəyi diktə edə bilməz. Bunu yaxın tarix artıq göstərdi, bütün bu səylər əbəsdir. Bizi bu vəziyyətlə şantaj etmək istəyənlər, sadəcə olaraq, özlərinə hörmət etmirlər və onlara olan-qalan, azalan inamı da tamamilə aradan götürürlər. Biz «Cənub Qaz Dəhlizi»ni də, bütün başqa layihələri də icra edəcəyik. Yenə də deyirəm, bu layihənin icrası bizə də, Avropaya da lazımdır. Bu layihənin icrası nəticəsində onların enerji təhlükəsizliyi təmin ediləcək. Ona görə belə ucuz şantaj hərəkətləri yersizdir. Ancaq onu da qeyd etməliyəm ki, biz təkcə Avropa maliyyə qurumları ilə işləmirik, biz Asiya maliyyə qurumları ilə də işləyirik və daha da səmərəli işləyirik, daha asan yolla vəsait əldə edirik. Misal üçün, Asiya İnkişaf Bankı bu layihəyə böyük vəsait ayırır, özü də qısa müddət ərzində. Asiya İnfrastruktur Bankı – biz özümüz də bu bankın təsisçisiyik, qısa müddət ərzində böyük vəsait ayırıb. Bu qaz Asiyaya getməyəcək, Avropaya gedəcək, ancaq vəsaiti biz Asiyadan alırıq. Ona görə əgər kimsə düşünürsə ki, biz indi çətin, çıxılmaz vəziyyətdəyik və bizim qarşımızda hansısa əsassız tələb qoyula bilər, tamamilə yanlış yanaşmadır. Heç kim bizim qarşımızda heç bir tələb qoya bilməz. İstəyirlər əməkdaşlıq etsinlər, istəmirlərsə bizə də lazım deyil. «Cənub Qaz Dəhlizi»ni biz icra edəcəyik, özü də vaxtında!

Nəqliyyat sahəsində görüləcək əsas işlərlə bağlı bir neçə kəlmə demək istəyirəm. Bilirsiniz ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə bağlı Azərbaycanın üzərinə düşən vəzifə yerinə yetirildi. Biz bütün məsələləri həll etdik. Ümid edirik ki, bu il artıq bu layihə icra ediləcək. Bizdən nə asılı idisə hər şeyi etmişik – investisiyaları qoymuşuq, kreditlər vermişik, 700 milyondan çox. Nə lazımdırsa etmişik və gözləyirik ki, bu layihə tamamlansın. Bununla bərabər, Şimal–Cənub layihəsi ilə bağlı da 1 il ərzində bizim üzərimizə düşən

bütün vəzifələri icra etdik. Nəyi demişiksə, onu da etmişik. İran sərhədinə qədər dəmir yolunu uzatdıq, körpünü tikdik, əlavə tədbirlər görüldü. Bu il bu layihənin maliyyələşməsində də iştirak etməyə hazırıq və bunu bildirmişik. İndi danışıqlar gedir ki, hansı formada Azərbaycan öz maliyyə resurslarını bu layihənin tam icrası üçün səfərbər edə bilər. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin tikintisi bu il başa çatmalıdır. Həm bütün infrastruktur, tikinti işləri, o cümlədən avadanlıqlar, bütün bu tədbirlər dövlət investisiya proqramında nəzərdə tutulur və icra ediləcək. Sadəcə olaraq, bu layihənin podratçıları da öz məsuliyyətini dərk etməlidir. İl ərzində bu məsələ ilə bağlı mənim böyük iradlarım olub, hökumət üzvləri bunu bilir. Bəzi icraçılar bu məsələyə çox laqeyd yanaşıblar, baxmayaraq ki, dövlət vəsaiti ayrılıb, 2016-cı ildə o vəsaitdən tam istifadə edilməyib. Bu dözülməzdir. Əgər o məsuliyyəti dərk etmirlərsə, əgər dövlətin verdiyi sifarişi yerinə yetirməyə laqeydlik göstərirlərsə, bundan sonra dövlət sifarişlərindən məhrum ediləcəklər, qoy bunu bilsinlər. Bu ilin payızına qədər Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsi bütün avadanlıqlarla, kranlarla təmin edilməlidir, əks halda, özlərindən küssünlər.

Biz «Multikulturalizm ili»ni uğurla keçirdik. Azərbaycan bir daha dünyaya göstərdi ki, multikulturalizm, onun ideyaları yaşayır və yaşamalıdır. Azərbaycan kimi ölkələrin sayı getdikcə artmalıdır. Keçən il və ondan əvvəlki illərdə multikulturalizmlə bağlı bədbin fikirlər səsləndirilib. Əfsuslar olsun ki, bəzi dünya səviyyəli siyasətçilər də özlərinə rəva bilib multikulturalizmlə bağlı çox təhlükəli ifadələr işlədiblər. Ümid edirəm ki, bu sahədə də müsbətə doğru dönüş yaranacaq və beynəlxalq ictimaiyyət daha dərindən dərk edəcək ki, dünyanın multikulturalizmdən başqa yolu yoxdur. Azərbaycan öz tərəfindən bu istiqamətdə, əlbəttə ki, səylərini davam etdirəcək.

Bu il Azərbaycanda IV İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu da çox önəmli beynəlxalq tədbirdir, bütün müsəlman aləminin həmrəylik oyunlarına biz ev sahibliyi edəcəyik. Azərbaycan 2015-ci ildə ilk Avropa oyunlarını keçirmişdir. Yəni bir ölkədə, bir şəhərdə 2 il ərzində həm Avropa oyunları keçirilib, həm də İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu təkcə idman tədbiri deyil. Əgər kimsə hesab edir ki, İslam Həmrəyliyi oyunları idman tədbiridir, səhv edir. Bu, böyük siyasi tədbirdir, bu, böyük mədəni tədbirdir, bu, böyük ictimai

hadisədir. Bu bir daha Azərbaycanı müstəqil, öz dəyərlərinə, islam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərir və bu gün islama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar islam haqqında rəy formalaşdırırlar ki, islam geridə qalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, islam dünya üçün təhlükədir, islamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər. Avropa İttifaqına üzv olan bəzi ölkələrin rəhbərləri «stop, islam» deyirlər. Bəziləri deyirlər ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlmanları yox. Bu faşizmdir və faşizm harada yaranıb biz yaxşı bilirik və unutmamışıq. Faşizm islam aləmində yaranmayıb. Ona görə İslam Həmrəyliyi oyunlarının çox böyük mənası var. Biz bu oyunları keçirməklə, bir daha gücümüzü, imkanlarımızı göstərəcəyik, dini dəyərlərimizə sadiqliyimizi nümayiş etdirəcəyik, çalışacağıq ki, islam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar.

Azərbaycan islam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz.

Bütün bunları nəzərə alaraq, mən 2017-ci ili Azərbaycanda «İslam həmrəyliyi ili» elan edirəm.

## FRANSA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ İNKİŞAF NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN-MARİ LE GUENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Fransa Respublikasının Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin inkişaf və frankofoniya məsələləri üzrə Dövlət katibi Jan-Mari Le Guenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, mədəniyyət, təhsil və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlıq əlaqələrimizin genişlənməsinin önəmi qeyd olundu. Söhbət zamanı humanitar sahədə əlaqələrin uğurla inkişaf etdiyi bildirilərək, Bakıda Fransız–Azərbaycan Universitetinin fəaliyyətə başlamasının bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.*

*Görüşdə, həmçinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyi əminliklə qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası Hökumətinin üzvləri ilə görüşdü.*

### Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.*

## ORDUBAD SU-ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda su-elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, inşa ediləcək su-elektrik stansiyasının gücü 36 meqavat olacaq. Derivasiya tipli stansiya Araz çayı üzərində yerləşəcək. Stansiya üçün tutumu 1,5 milyon kubmetr olan su anbarı inşa olunacaq. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu, çökəltmə hovuzu, derivasiya kanalı, yükləmə hovuzu daxildir. Bundan başqa, burada metal boru xətti, aparıcı kanal, sutullayıcı və balıqaxıdan qurğular da yaradılacaq. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Tənzimləyici dəmir-beton bəndin uzunluğu 235, hündürlüyü 12 metrdir. Derivasiya tipli kanalın uzunluğu 12738 metr olmaqla, maksimum su sərfi saniyədə 126,6 kubmetr təşkil edəcək.*

*Dövlətimizin başçısı yeni stansiyanın təməlini qoydu.*

*Belə stansiyaların istifadəyə verilməsi Azərbaycanda, o cümlədən Naxçıvanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdiyini bir daha nümayiş etdirir. Belə layihələrin icrası həm də respublikada dövlət başçımızın tapşırığı ilə alternativ və bərpaolunan enerjidən istifadənin geniş tətbiqi üçün hərtərəfli imkanlar açır.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## CULFA RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ İÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun mərkəzi və ətraf kəndlərində  içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına «Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, tikinti işlərinin icrasına 2012-ci ildə başlanılıb. Layihəyə əsasən Culfa şəhərində və Gülüstan kəndində su şəbəkəsi, Culfa şəhərində eləcə də kanalizasiya şəbəkəsinin tikintisi aparılıb, evlərə qoşulub, sayğaclar quraşdırılıb.*

*Layihə çərçivəsində Əlincəçay yatağında 2088 metr müxtəlif diametrli borularla kaptaj və onu sel sularından qorumaq üçün uzunluğu 1500 metr olan selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Qurğu gün ərzində 10800 kubmetr və ya saniyədə 125 litr sutəmizləmə gücünə malikdir.*

*Hər birinin tutumu 5000 kubmetr olan 2 təmiz su anbarı tikilib.*

*Sutəmizləyici qurğuda istifadə olunan nasoslar İtaliya, mexaniki süzgəc və ozonlaşdırma qurğusu İsveç, kartric süzgəclər Türkiyə, membranlar isə Amerika istehsalıdır.*

*Su anbarlarından təmizlənmiş su öz axını ilə Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir. Anbarlardan Culfa şəhərinə qədər çəkilmiş boru xətti daxil olmaqla, layihə ərazisində diametri 400 millimetrdən 63 millimetrə qədər borularla 59,7 kilometr daxili su şəbəkəsi çəkilib, 3438 evə su verilərək, sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 1 təzyiq azaldıcı, 23 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq, mənzillərə 2–5 bar arasında təzyiqlə su verilir.*

*Culfa şəhərində diametri 500 millimetrdən 200 millimetrə qədər borularla 34,5 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilib.*

*Bununla da Culfa şəhəri və Gülüstan kəndində 25700 nəfər təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq, sutkada 24 saat təmin edilib.*

*Prezident İlham Əliyev sutəmizləyici qurğuda istifadə edilən avadanlığa baxdı.*

*Sonra dövlətimizin başçısı Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı sisteminin istifadəyə verilməsini bildirən düyməni basdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## ŞAHBUZ RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ İÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun mərkəzi və ətraf kəndlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına «Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi barədə məlumat verildi.*

*Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildə başlanılıb. Layihəyə əsasən Şahbuz şəhərinə, Kiçikoba və Daylaqlı kəndlərinə su şəbəkəsi, Şahbuz şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və evlərə qoşulub. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Qurğu gün ərzində 6600 kubmetr və ya saniyədə 76 litr sutəmizləmə gücünə malikdir. Hər birinin tutumu 2500 kubmetr olan 2 təmiz su anbarı inşa olunub. Sutəmizləyici qurğuda istifadə olunan nasoslar İtaliya, mexaniki süzgəc və ozonlaşdırma qurğusu İsveç, kartric süzgəclər isə Türkiyə istehsalıdır.*

*Prezident İlham Əliyev sutəmizləyici qurğuda istifadə edilən avadanlığa baxdı.*

*Su anbarlarından təmizlənmiş su öz axını ilə əhaliyə fasiləsiz olaraq verilir. Anbarlardan Şahbuz şəhərinə qədər diametri 315 və 280 millimetr olan 2,7 kilometr uzunluğunda plastik boru xətti quraşdırılıb. Layihə ərazisində diametri 280 millimetrdən*

*63 millimetrədək borularla 64,3 kilometr içməli su xətti çəkilib. Su şəbəkəsində 31 yanğın hidrantı və 4 təzyiq azaldıcı inşa olunub. Yerin relyefindən asılı olaraq, mənzillərə 2–5 bar arasında təzyiqlə su verilir. Layihənin həyata keçirilməsi nəticəsində Şahbuz şəhəri, Kiçikoba və Daylaqlı kəndlərində 15300 nəfər sutkada 24 saat daimi su ilə təmin ediləcək. Bundan başqa, əhaliyə verilən su ekoloji cəhətdən də yararlı və təmizdir. Bu su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.*

*Bildirildi ki, Şahbuz şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər borularla 40,1 kilometr kanalizasiya xətti çəkilib.*

*Dövlətimizin başçısı Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı sisteminin istifadəyə verilməsini bildirən düyməni basdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## NAXÇIVANDA ƏLAHİDDƏ ÜMUMQOŞUN ORDUSUNUN «N» SAYLI HƏRBİ HİSSƏSİNDƏKİ ƏSGƏR YATAQXANASININ VƏ ƏSGƏRİ-MƏİŞƏT KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 11-də Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışında iştirak etmişdir.*

*Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısına raport verdi.*

*Məlumat verildi ki, burada əsgər yataqxanası, Əsgəri-Məişət Kompleksi inşa olunub, sıra meydanı, idman sahəsi yaradılıb, abadlıq-quruculuq işləri aparılıb.*

*Dövlətimizin başçısı əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu. 900 yerlik yataqxanada əsgərlərin istirahəti üçün hərtərəfli şərait vardır. Üçmərtəbəli bina müasir səviyyədə yaradılıb. Ümumi sahəsi 4000 kvadratmetr olan yataqxana bütün zəruri avadanlıqlarla təchiz edilib. Binada ümumi sahəsi 800 kvadratmetr olan 24 otaq vardır. Bir sözlə, burada yaradılan şərait dövlətimiz tərəfindən əsgər və zabitlərin sosial məsələlərinin həlli istiqamətində atılan addımların ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir.*

*Məlumat verildi ki, hərbi hissədə hamam kompleksi də yaradılıb. Ümumi sahəsi 272 kvadratmetr olan bu kompleksdən 1*

*saat ərzində 172 hərbçi istifadə edə bilər. Hərbi hissədəki Əsgəri-Məişət Kompleksinin ümumi sahəsi 6172 kvadratmetrdir. Binada poçt xidmətləri üçün otaq, mağaza və çay evi də hərbi qulluqçuların ixtiyarına veriləcək.*

*Kompleksdə 1000 yerlik 2, 500 yerlik 1 və 250 yerlik 2 yemək salonu var. Ümumilikdə, burada eyni vaxtda 3000 hərbçi qidalana bilər.*

*Prezident İlham Əliyev burada qida məhsullarına baxdı, aşpazlarla söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Çox gözəl şərait yaradılıb.

**V a s i f T a l ı b o v:** Yaratdığınız şəraitə görə Sizə minnətdarlıq edirik. İşçilərin hamısı mülki vətəndaşlardır.

**İ l h a m Ə l i y e v:** Bəli, əvvəllər əsgərlər yemək bişirirdilər. O da dadlı deyildi. İndi isə iş yerləri yaradılıb, yerli vətəndaşlar, qadınlar üçün. Yaxşı yeməklər bişirirsiniz, əsgərlərə də yaxşı baxırsınız.

**V a s i f T a l ı b o v:** Sizin tapşırığınızdan sonra 6000-ə yaxın mülki vətəndaş, gizir, müddətdən artıq xidmət edən hərbi qulluqçu işə qəbul olunub.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu, yeni iş yerlərinin yaradılmasıdır, xüsusilə qadınlar üçün. Əsgərlər də öz xidməti işləri ilə məşğul olacaqlar.

**V a s i f T a l ı b o v:** Yeməyin də keyfiyyəti yaxşılaşıb. İndi əvvəlki illərlə müqayisədə, demək olar ki, tullantı yoxdur.

**İ l h a m Ə l i y e v:** İndi hamısını yeyirlər. Xoşlarına gəlir, ona görə. Sağ olun. Sizə uğurlar arzulayıram.

**G ü l a r ə Q u r b a n o v a** *(aşbaz)*: Cənab Ali Baş Komandan, Sizin gəlişinizə çox şadıq. Sizə öz minnətdarlığımızı bildiririk. Gün o gün olsun, belə hərbi hissələr Qarabağda, Laçında, Şuşada salınsın, biz də orada əsgərlərimizə qulluq edək. Sizə bir daha uzun ömür, cansağlığı arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Sizə də uğurlar arzulayıram. Əsgərlərə yaxşı baxın, onları yaxşı yedirdin ki, onlar daha da möhkəm olsunlar, Vətəni daha da yaxşı qorusunlar.

**A ş p a z l a r:** Minnətdarıq. Sizin sayənizdə belə gözəl şəraitdə yaşayırıq. Allah Sizin ömrünüzü uzun eləsin. Daim Azərbaycanın başının üstündə olasınız.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

* * *

*Kompleksin anbarları da müasir səviyyədə qurulub. Burada ərzaq və əşya anbarları vardır. Anbarlar müasir soyuducu kameralar və digər zəruri avadanlıqlarla təchiz edilib. Kompleksdə camaşırxana, dərzi otağı və qazanxana da mövcuddur. Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq, dünyanın ən qüdrətli ordularından biri kimi tanınır.*

*Sonra dövlətimizin başçısı silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.*

*Bu gün Azərbaycan Ordusu ən müasir silah-sursat, hərbi texnika ilə təmin olunub. Silahlı qüvvələrimizin balansında olan bu müasir texnika bir çox özəllikləri ilə seçilir. Bunların vasitəsilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu gün Azərbaycan Ordusunun balansı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir. Bundan başqa, son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan Müdafiə Sənayesi Kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.*

# NAXÇIVAN ŞƏHƏR 3 SAYLI TAM ORTA RUS MƏKTƏBİ BİNASININ ƏSASLI YENİDƏN QURULMASINDAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan şəhər 3 saylı tam orta rus məktəbi binasının əsaslı yenidən qurulmasından sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə burada görülən işlərlə bağlı ətraflı məlumat verildi. Qeyd edildi ki, Naxçıvan şəhər 3 saylı tam orta rus məktəbi 1939-cu ildən fəaliyyət göstərir. 600 şagird yerlik məktəbdə 5-i elektron lövhəli olmaqla, 32 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinet, 2 kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet və idman zalı fəaliyyət göstərəcək. Məktəbdə 42 kompüter quraşdırılıb və internetə qoşulub.*

*Məktəbin kitabxana fondunda 6900 dərslik və 4603 bədii ədəbiyyat olmaqla, 11503 kitab var. Məktəbdə 460 şagirdin təhsili ilə 59 müəllim məşğul olur.*

*Prezident İlham Əliyev yenidənqurmadan sonra məktəbdə yaradılan şəraitlə tanış oldu.*

*Sonra dövlətimizin başçısı məktəbin pedaqoji kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Naxçıvan Muxtar Respublikasında yenidən olmağımdan çox şadam. Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Bu mənim prezident kimi, muxtar respublikaya sayca 13-cü səfərimdir. 13 il ərzində 13-cü dəfədir ki, Naxçıvandayam. Bu rəqəm özlüyündə bir göstəricidir, onu göstərir ki, Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir.

Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana böyük diqqətlə yanaşırdı, respublikanın problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm və Naxçıvana həmişə çox böyük diqqət verilir, böyük qayğı göstərilir.

Çox şadam ki, respublikanın uğurlu inkişafı təmin edilir. Bu münasibətlə respublikanın rəhbərliyini və sakinlərini təbrik etmək istəyirəm. Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçib. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr vardır.

Bu gün mən 3 rayonda – Ordubad, Culfa, Şahbuz rayonlarında və Naxçıvan şəhərində olmuşam. Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su-elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını xeyli gücləndirəcək. Naxçıvanın enerji təhlükəsizliyi təmin edilir. Son illərdə bir neçə stansiya tikilib. Xatırlayıram, 2010-cu ildə Biləv Su-Elektrik Stansiyasının açılışını qeyd etmişdik, 2014-cü ildə Arpaçay Su-Elektrik Stansiyasının, 2015-ci ildə Günəş Elektrik Stansiyasının açılışları olmuşdur. Bunlardan əvvəl isə Naxçıvan Qaz-Turbin Elektrik

Stansiyası istifadəyə verilibdir. Yəni respublikanın enerji potensialının möhkəmləndirilməsi işində çox böyük addımlar atılıb və enerji təhlükəsizliyi tam təmin edilib.

Ordubad Su-Elektrik Stansiyasının işə düşməsindən sonra isə enerji təhlükəsizliyi daha da möhkəmlənəcək və eyni zamanda, Naxçıvanın ixrac potensialı daha da artacaq. Çünki bu gün respublika elektrik enerjisini ixrac edir.

Naxçıvanda qazlaşdırma layihələri artıq neçə ildir ki, başa çatıb. İndi Naxçıvanda qazlaşdırma 100 faizdir. Elə bir yaşayış məntəqəsi yoxdur ki, orada qaz olmasın. Bu da böyük nailiyyətdir. Bildiyiniz kimi, 2005-ci ildə burada mənim iştirakımla İran İslam Respublikasından Naxçıvana mübadilə yolu ilə təbii qazın verilməsinə başlanıldı. Artıq o gündən 10 ildən çox vaxt keçib və bu layihə çox uğurla icra edilir. Ordubad Su-Elektrik Stansiyasının yaradılması da İran ilə Azərbaycan arasında imzalanmış və təsdiqlənmiş Saziş əsasında baş verir. Ordubad və Marazad Su-Elektrik stansiyalarının tikintisi həm İranın, həm də Azərbaycanın enerji gücünü artıracaq və bu layihə İran–Azərbaycan dostluğunun təzahürüdür. Biz enerji sahəsində, digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu yaxınlarda Naxçıvan–Təbriz–Məşhəd dəmir yolu qatarı yola salındı.

Enerji potensialı və enerji təhlükəsizliyi Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki ölkəmizin əsas hissəsi ilə Naxçıvanın coğrafi əlaqəsi yoxdur. Belə olan halda, biz mütləq enerji potensialının inkişafına fikir verməliyik. Bu gün Naxçıvan elektrik enerjisi ilə tam təmin olunub və eyni zamanda, enerji ixrac edir. Naxçıvan təbii qazla da tam təmin olunub. Gələcəkdə bərpa olunan enerji növlərinin yaradılmasından, xüsusilə Ordubad Su-Elektrik Stansiyasının işə düşməsindən sonra Naxçıvanda enerji məsələləri ilə bağlı bundan onilliklər sonra da heç bir problem olmamalıdır.

Bununla bərabər, əlbəttə ki, digər infrastruktur layihələri daim diqqət mərkəzindədir. Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salınıb. Bu gün mən bu yollardan keçmişəm. Onlar bir neçə ildir ki, istifadəyə

verilib, amma elə bil ki, dünən tikilib, çox gözəl, keyfiyyətli yollardır. Naxçıvan–Culfa, Naxçıvan–Şahbuz, Naxçıvan–Sədərək yolları ən yüksək standartlara cavab verir. Bir yol layihəsi hələ ki, öz həllini gözləyir. Bu da Culfa–Ordubad layihəsidir. Biz onu da növbəti mərhələdə həll edəcəyik və beləliklə, şəhərlərarası yollar problemi aradan götürüləcək. Kənd yollarının tikintisi də uğurla gedir və bu proses davam edəcək.

Bu gün biz Culfa və Şahbuz rayonlarında içməli su və kanalizasiya layihələrinin rəsmi açılışını qeyd etdik. Bu da çox önəmli layihələrdir. Hər 2 şəhərə təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli suyun verilməsinə başlanıldı. Ondan əvvəl Naxçıvan şəhəri su ilə təmin edilmişdir. Bu gün biz artıq digər şəhərlərə də suyun verilməsini təmin edə bildik. Bu da çox önəmlidir. İnsan sağlamlığı üçün əsas amillərdən biri də təmiz sudur. Biz onu da həll etdik. Bu il Dövlət İnvestisiya Proqramında Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin də su-kanalizasiya problemlərinin həlli məsələləri öz əksini tapacaq.

Bunlar əsas infrastruktur layihələridir – elektrik enerjisi, təbii qaz, içməli su, yollar. Artıq demək olar ki, bu işlərin mütləq əksəriyyəti görülübdür. Bu, respublikanın potensialını göstərir, eyni zamanda, sosial infrastruktur da yaradılır. Bu məktəb bunun bariz nümunəsidir. Son illər ərzində Naxçıvan Muxtar Respublikasında artıq 200-ə yaxın yeni məktəb tikilib, yaxud da ki, əsaslı şəkildə təmir olunub. Təmirə ehtiyacı olan cəmi bir neçə məktəb qalıb. Əminəm ki, yaxın gələcəkdə bu məsələ də həllini tapacaq.

Digər sosial infrastruktur layihələri səhiyyə ilə bağlıdır. Hesab edirəm ki, Naxçıvan bu istiqamətdə də nümunəvi bir respublikadır. Burada bütün şəhərlərin və rayonların mərkəzi xəstəxanaları yenidən tikilib. Mən onların bəzilərinin açılışlarında iştirak etmişəm. Naxçıvan şəhərində Doğum evi, Diaqnostika Mərkəzi, Respublika Xəstəxanası – bütün tibb ocaqları ən yüksək standartlara cavab verir və hər birində ən müasir avadanlıqlar quraşdırılıb.

Naxçıvanın gözəlləşməsi, abadlaşması məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Binalar təmir olunur, yeni, gözəl binalar tikilir, geniş prospektlər salınır. Abadlıq-quruculuq işləri bir tərəfdən, ölkəmizin gücünü, digər tərəfdən, Naxçıvan rəhbərliyinin səmərəli işini, sakinlərin bu işlərə olan münasibətini göstərir. Bütün bu işlər böyük məhəbbətlə, zövqlə və səliqə ilə görülür.

Naxçıvan dünya miqyasında öz gözəlliyi ilə seçilən bir şəhərdir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır. Burada tarixi abidələr qorunur. Bu tarixi abidələr bizim qədim tariximizi göstərir. Onu göstərir ki, əsrlərboyu Azərbaycan xalqı bu diyarda yaşayıb, yaradıb. Bu bizim böyük milli sərvətimizdir.

Bu gün hərbi hissədə olarkən bir daha gördüm ki, Naxçıvanın hərbi potensialı da lazımi səviyyədədir. Biz bu istiqamətdə də böyük iş aparmışıq və bu gün də aparırıq. Bu gün Naxçıvan Ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. Keçən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır. Bu gün olduğum hərbi hissədə ən yüksək şərait yaradılıb.

Yəni Naxçıvanın hərbi potensialı və müdafiə qabiliyyəti daim diqqət mərkəzindədir. Mən çox şadam ki, bu məsələlər də uğurla öz həllini tapır və respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı çox önəmli addımlar atılır. Naxçıvanda sənaye müəssisələri yaradılır, kənd təsərrüfatı inkişaf edir, bir çox kənd təsərrüfatı məhsulları ilə siz özünüz-özünüzü təmin edirsiniz. O cümlədən inşaat materialları sektoru inkişaf edir. Bu gün Fövqəladə Hallar Nazirliyi üçün tikilmiş yaşayış binasında oldum və orada da, bu məktəbdə də istifadə olunan materialların, demək olar ki, hamısı yerli məhsullardır. Bu onu

göstərir ki, sənaye də inkişaf edir, yeni müəssisələr yaradılır və Naxçıvanın ixrac potensialı artır və artmalıdır.

Nəhayət, biz Naxçıvanın nəqliyyat problemlərinin həlli üçün də çalışırıq. Qeyd etdiyim kimi, Naxçıvan–Təbriz–Məşhəd dəmir yolu fəaliyyətə başlayıb. Bildiyiniz kimi, biz indi İran İslam Respublikası və Rusiya ilə Şimal–Cənub nəqliyyat dəhlizi üzərində işləyirik. İşlərin bizə aid olan hissəsi artıq başa çatıb. Bu dəhliz tam işə düşəndən sonra Naxçıvan dəmir yolu vasitəsilə İran ərazisindən Azərbaycanın əsas hissəsi ilə birləşəcək. Biz bu layihəni sürətləndirmək istəyirik ki, tezliklə bu, baş versin. Ondan sonra Naxçıvanda istehsal olunan mallar artıq dünya bazarlarına rahatlıqla çıxa biləcək və insanlar üçün bu, əlbəttə ki, əlavə imkanlar yaradacaq.

Bir sözlə, bugünkü səfərim mənim üçün çox xoş keçir. Ona görə ki, sizinlə görüşürəm. Ona görə ki, bir daha görürəm, respublika yaşayır, uğurla yaşayır, siz yaradırsınız, qurursunuz, belə gözəl məktəblər tikirsiniz. Bu məktəbin özəlliyi ondan ibarətdir ki, bu, rus məktəbidir. Artıq bizim ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır. Ancaq bu məktəb sırf rus məktəbidir və bu da bir göstəricidir. Biz burada da öz siyasətimizi, öz niyyətimizi göstəririk. Bunu nəzərə alaraq, mən rus dilində də bir neçə kəlmə demək istəyirəm. *(Prezidentin rusca dediyi sözlər tərcümədə verilir.)*

Mən müəllimləri, pedaqoqları salamlamaq və bu məktəbin açılışı münasibətilə onları təbrik etmək istəyirəm. Bu məktəb rusdillidir. Mənə dedilər ki, bu məktəb 600 şagird üçün nəzərdə tutulub və artıq 400 şagird burada təhsil alır. Bu onu göstərir ki, rus dilinin öyrənilməsinə təkcə Bakıda deyil, Naxçıvanda və başqa bölgələrdə də maraq var. Mən bunu alqışlayıram. Bizim vətəndaşlarımız nə qədər çox dil bilsələr, onlar üçün bir o qədər yaxşı olacaq. Əlbəttə, qonşu ölkələrin dillərini bilməliyik ki, onlarla ünsiyyət saxlayaq, dostluğu möhkəmləndirək. Bu həm də dövlətlərarası münasibətlər üçün mühüm amildir. Ona görə də mən məktəbin bütün çoxmillətli kollektivini salamlayır, ona uğurlar arzulayıram. Arzu edirəm

ki, bu məktəbin məzunları Azərbaycanın layiqli vətəndaşları olsunlar.

Bir daha sizi salamlayıram və sizə yeni uğurlar arzulayıram.

**Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı**

Möhtərəm cənab Prezident!

Regionlara etdiyiniz səfərlərin birində demişdiniz ki, bizim ölkəmizin gələcək inkişaf perspektivləri çox gözəldir və çox aydındır. Mən çox istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, hər bir rayon mərkəzi müasir standartlara cavab versin, bütün kəndlərdə abadlıq işləri aparılsın, yollar salınsın, elektrik enerjisi ilə təminat yaxşılaşsın. Bir sözlə, insanların gündəlik həyatında çox müsbət dəyişikliklər baş versin.

Bu gün yeni inkişaf dövrünü yaşayan ölkəmizlə bağlı tövsiyələriniz muxtar respublikada da ardıcıl şəkildə həyata keçirilir. Sizin rəhbərliyinizlə həyata keçirilən quruculuq işləri, sabitlik və iqtisadi inkişaf uğurla davam etdirdiyiniz ümummilli lider Heydər Əliyev yoluna sədaqətin bəhrələridir. 2004-cü ildən ötən dövr ərzində muxtar respublikaya səfərləriniz zamanı müasir həyatın bütün sahələrini əhatə edən 130-dan çox obyektin açılışını həyata keçirmisiniz.

Vaxt var idi ki, qaz təsərrüfatı dağılmış vəziyyətdə olan muxtar respublikaya sutka ərzində 6–8 saat elektrik enerjisi verilirdi, qonşu ölkələrdən elektrik enerjisi alırdıq. Bu gün Sizin himayənizlə elektrik təsərrüfatı güclənib, yeni elektrik stansiyaları istifadəyə verilib, ərazi tamamilə qazlaşdırılıbdır.

Əvvəllər blokada səbəbindən muxtar respublika sakinlərinin gediş-gəlişində problemlər mövcud olduğu halda, Sizin tapşırığınız əsasında aeroportda aparılan yenidənqurma işləri, yeni müasir terminalların istifadəyə verilməsi hesabına 1 saatda sərnişin dövriyyəsi 600-ə çatdırılıbdır.

Naxçıvan Muxtar Respublikası tarixən istər içməli, istərsə də suvarma suyuna görə tələbatın tam ödənilmədiyi ərazilərdən olub. Bu gün Sizin himayənizlə Naxçıvan Muxtar

Respublikasında içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurma layihəsi həyata keçirilir. Naxçıvan şəhərində, Şahbuz və Culfa rayonlarında başa çatdırılan layihələr 133 min nəfərin təmiz və ekoloji cəhətdən tam yararlı içməli su və müasir kanalizasiya sistemləri ilə təmin olunmasına şərait yaradır.

Sizin rəhbərliyinizlə həyata keçirilən tədbirlərin nəticəsi olaraq doğma Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında ərzaq və enerji təhlükəsizliyi təmin olunub, etibarlı müdafiə sistemi yaradılıb. Bu gün Naxçıvan Muxtar Respublikası üçün daha bir əhəmiyyətli layihə olan 36 meqavatlıq Ordubad Su-Elektrik Stansiyasının təməlini qoydunuz. Bu isə muxtar respublikanın enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsini təmin edəcəkdir.

Möhtərəm Prezident, Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyiniz diqqət və qayğıya görə bir daha Sizə minnətdarlığımızı, dərin hörmət və ehtiramımızı bildiririk. Sağ olun.

## Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa olunmuş yaşayış binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvanda Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa olunmuş yaşayış binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev mənzillərdə yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, zirzəmi qatı ilə birlikdə yeddimərtəbəli yaşayış binasında 48 mənzil var. Onlardan 24-ü ikiotaqlı, 24-ü isə üçotaqlıdır.*

*Yaşayış binasında istirahət otağı, qadın gözəllik salonu, kişi bərbərxanası, dərzi və komendant otaqları, 2 əşya anbarı, 40 nəfərlik yeməkxana və camaşırxana yaradılıb.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfəri başa çatdı.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və hökumətin üzvləri yola saldılar.*

## AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ SEZAR FLORİN PREDA VƏ STEFAN ŞENNAK İLƏ GÖRÜŞ

*12 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda gedən proseslər, siyasi, iqtisadi, humanitar və digər sahələrdə həyata keçirilən islahatlar və bu istiqamətdə atılan addımlar ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

14 yanvar 1992-ci il tarixi Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulması günüdür. Bu əlamətdar hadisənin 25 illiyi ilə əlaqədar Sizi təbrik edir, dost və qardaş Türkiyə xalqına ən xoş və səmimi arzularımı çatdırıram.

Müstəqil Azərbaycanın tarixində qardaş Türkiyə diplomatik əlaqələr yaratdığımız ilk dövlətdir. Xalqlarımız və ölkələrimiz arasındakı münasibətlər dərin tarixi köklərə əsaslanır. Ötən illər ərzində «bir millət–iki dövlət» prinsipi dünyada bənzəri olmayan Azərbaycan–Türkiyə əlaqələrinin bütün sahələrini əhatə etmişdir.

Dostluq və qardaşlıq üzərində qurulmuş əlaqələrimiz bu gün birgə səylərimizlə strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Azərbaycan–Türkiyə tərəfdaşlığı xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə, regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına xidmət edir. Əminəm ki, Türkiyə–Azərbaycan birliyi və həmrəyliyi bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq möhkəmlənəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına isə daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2017-ci il*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN GƏMİ İNŞASI VƏ TƏMİRİ MƏRKƏZİNDƏKİ GÖZƏTÇİ GƏMİLƏRİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 13-də Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşası başa çatdırılan sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış olmuş, «Tufan» tipli növbəti sərhəd gözətçi gəmisinin təməlini qoymuş və xidməti istifadəyə verilən xüsusi təyinatlı texnikalara baxmışdır.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının Komandanı Elçin Quliyev prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Sonra prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində «Tufan» tipli növbəti sərhəd gözətçi gəmisinin təməlqoyma mərasimində iştirak etdi.*

*Azərbaycan Prezidenti Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxdı, onların texniki göstəriciləri ilə tanış oldu.*

*Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin 2005-ci il fevralın 18-də imzaladığı Fərmanla sərhəd gözətçi gəmilər dəstəsinin əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin təsis edilməsi nəticəsində Xəzər*

*dənizində dövlət maraqlarının yüksək səviyyədə qorunması və dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün daha geniş imkanlar yaranıb. Dövlət Sərhəd Xidməti dənizdə sərhəd mühafizəsinin təşkili üzrə beynəlxalq təcrübədən istifadə edərək, Xəzərdə səmərəli sərhəd mühafizə sisteminin formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir.*

*2005-ci ildə prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiq olunan «Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı» çərçivəsində Bakının Türkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yeni bazası inşa edilib. Ölkəmizin dəniz təhlükəsizliyi strategiyasına uyğun olaraq, dənizdə neft-qaz infrastrukturunun mühafizəsi məqsədilə sərhəd gözətçi gəmilərinin imkanları gücləndirilib, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin maddi-texniki bazası xeyli möhkəmləndirilib. Sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xüsusilə diqqət mərkəzində saxlanılır. Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin şəxsi heyətinin cəlb olunduğu müxtəlif mövzularda döyüş və taktiki təlimlərin hər il keçirilməsi döyüş hazırlığının yüksəldilməsində, ekstremal şəraitdə peşə vərdişlərinin möhkəmləndirilməsində böyük rol oynayır. Ötən ilin oktyabrında «Azərbaycan Respublikasına aid neft-qaz infrastrukturuna qarşı təhlükə yarandıqda axtarış əməliyyatlarının aparılması və aşkar edilmiş terror-təxribat qruplarının zərərsizləşdirilməsi» mövzusunda döyüş atışlı taktiki sərhəd təlimlərində ilk dəfə olaraq, gəmi silahlarından gecə və gündüz şəraitində təlim tapşırıqları yüksək səviyyədə icra edilib. İlk dəfə Xəzərdə gəminin göyərtəsinə helikopterin enişi yerinə yetirilib.*

*Dövlətimizin başçısı yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə maraqlandı.*

*Yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə*

*şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən itisürətli qayıqlarla təchiz edilən və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin edilməsi, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli, infrastrukturun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə olunacaq. Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində müasir silahlar, mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı ilə təchiz edilən itisürətli və yüksək üzmə qabiliyyətli daha bir «Tufan» tipli sərhəd gözətçi gəmisinin inşası yaxın zamanlarda başa çatdırılacaq.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev sərhəd gözətçi gəmilərinin keçidinə baxdı.*

*Azərbaycan prezidenti İlham Əliyevə Dövlət Sərhəd Xidməti üçün yeni alınan avtonəqliyyat vasitələri və digər xüsusi texnikalar barədə də məlumat verildi.*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Bişkek yaxınlığında təyyarə qəzası nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Zərərçəkənlərin tezliklə sağalmasını arzu edirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 yanvar 2017-ci il*

## İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*16 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 16-da İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının həmin gün Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşü oldu.*

*Görüşdə Suma Çakrabarti yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsində göstərdiyi dəstəyə görə prezident İlham Əliyevə təşəkkür etdi və qarşıdakı dövrdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında səmərəli fəaliyyətin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında çox yaxşı əlaqələrin olduğunu bildirərək, bu əməkdaşlığı yüksək qiymətləndirdi və müxtəlif layihələrin həyata keçirilməsi üzrə səmərəli əlaqələrin qurulduğunu dedi.*

*Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara toxunan dövlətimizin başçısı ölkəmizdə özəl sektorun inkişafına daim diqqət göstərildiyini vurğuladı.*

*Söhbət zamanı son vaxtlar Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu, bu layihələrin əlaqələrin inkişafına yeni imkanlar açdığı qeyd edildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## «McKİNSEY» ŞİRKƏTİNİN QLOBAL İDARƏEDİCİ TƏRƏFDAŞI DOMİNİK BARTON İLƏ GÖRÜŞ

*Davos*

*16 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Davosda «McKinsey» şirkətinin qlobal idarəedici tərəfdaşı Dominik Barton ilə görüşmüşdür.*

*Dominik Barton Bakıya səfərini məmnunluqla xatırlatdı, Azərbaycanda gördüyü inkişaf proseslərini, iqtisadi sahədə aparılan islahatları yüksək qiymətləndirdi.*

*Söhbət zamanı «McKinsey» şirkətinin bu yaxınlarda Bakıda ofisinin fəaliyyətə başladığı və artıq bu şirkətin 20-yə yaxın layihədə, o cümlədən Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin hazırlanmasında iştirak etdiyi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə «McKinsey» şirkəti arasında əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNDA 10 DƏFƏDƏN ARTIQ İŞTİRAK EDƏN RƏHBƏR ŞƏXSLƏR ÜÇÜN TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*Davos*

*16 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvabın adından Dünya İqtisadi Forumunda 10 dəfədən artıq iştirak edən rəhbər şəxslər üçün təşkil olunmuş qəbulda iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev tədbir çərçivəsində Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşdü.*

*Xatırladaq ki, ötən il Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab Dünya İqtisadi Forumunda 10-cu dəfə iştirak etdiyinə görə Davos Fəxri üzvlər klubunun nişanını prezident İlham Əliyevə təqdim etmişdi.*

## «PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ GERİ EDRÜ KUMBE İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda «Procter and Gamble Europe» şirkətinin prezidenti Geri Edrü Kumbe ilə görüşmüşdür.*

*Görüşdə son vaxtlar Azərbaycanda gedən inkişaf proseslərinin ölkəmizə sərmayə cəlb olunmasına və turist axınına geniş imkanlar yaratdığı bildirildi. «Procter and Gamble Europe» şirkətinin Azərbaycan ilə yaxşı əlaqələri olduğu vurğulandı və bu şirkətin ölkəmizlə əməkdaşlığın genişləndirilməsi baxımından bir sıra layihələrinin nəzərdə tutulduğu qeyd edildi.*

## NORVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ BORGE BRENDE İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Norveç Krallığının Xarici İşlər naziri Borge Brende ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Norveç arasında əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi. Norveçin bir sıra şirkətləri, xüsusilə Statoyl şirkəti ilə Azərbaycan arasında yaxşı əməkdaşlığın həyata keçirildiyi bildirildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «SUEZ GROUP» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN LUİ ŞASOD İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda «Suez Group» şirkətinin baş icraçı direktoru Jan Lui Şasod ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edildi. Fransa şirkətlərinin Azərbaycanda böyük layihələr həyata keçirdiyi, «Suez Group» şirkətinin də bu layihələrdə yaxından iştirak etdiyi və bir çox layihələrin uğurla icra olunduğu vurğulandı.*

*Söhbət zamanı «Suez Group» şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ DORİS LÖYTHARD İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Doris Löythard ilə görüşmüşdür.*

*İsveçrə prezidenti Doris Löythard Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyi münasibətilə təbriklərini çatdırdı, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələr üzrə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın yeni sahələri əhatə etdiyini deyən xanım Doris Löythard maliyyə sektorunda artıq uğurlu əlaqələrin qurulduğunu vurğuladı, ölkələrimizin enerji sahəsində də səmərəli əməkdaşlıq etdiyini bildirdi.*

*Xanım Doris Löythardın ölkəmizə səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında uğurlu tərəfdaşlıq əlaqələrinin olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən islahatlardan, dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin təsirlərinin aradan qaldırılması və iqtisadiyyatın inkişaf etdirilməsi, həmçinin iqtisadiyyatın və ixracatın şaxələndirilməsi ilə bağlı ölkəmizdə görülən işlərdən danışdı. Prezident İlham Əliyev ölkəmizin böyük tranzit imkanlarının olduğunu, Azərbaycanın mühüm nəqliyyat tranzit mərkəzinə çevrildiyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında dəmir yolu sahəsində yaxşı əməkdaşlığın olduğu vurğulandı, TAP və TANAP layihələri, investisiya, maliyyə-kredit, kənd təsərrüfatı, əczaçılıq və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Böyük Britaniyanın bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə bp şirkətinin baş icraçı direktoru Robert Dadlinin Azərbaycana son səfəri məmnunluqla xatırlandı. bp ilə SOCAR arasında əməkdaşlığın uğurla inkişaf etdiyi, bp-nin Azərbaycanda ən böyük investor olduğu qeyd edildi, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunda gedən işlər müzakirə olundu. Söhbət zamanı «Cənub Qaz Dəhlizi», TAP, TANAP layihələrinin uğurlu icrası və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## LÜKSEMBURQUN BAŞ NAZİRİ, DÖVLƏT NAZİRİ KSAVYER BETTEL İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Lüksemburqun Baş naziri, Dövlət naziri Ksavyer Bettel ilə görüşmüşdür.*

*Lüksemburqun Baş naziri, Dövlət naziri Ksavyer Bettel ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən maliyyə və investisiya sahələrində əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirdi. Lüksemburq ilə Azərbaycan arasında hava nəqliyyatı ilə yükdaşımaları sahəsində uğurlu əməkdaşlığın olduğunu deyən Ksavyer Bettel ölkəsində İKT, kosmik sənaye, bank və maliyyə sahələrinin inkişaf etdiyini, bu sahələrdə Azərbaycanla əməkdaşlığa hazır olduqlarını dedi.*

*Prezident İlham Əliyev Azərbaycanın müxtəlif sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda İKT-nin inkişafına xüsusi diqqət ayrıldığını, hökumətin bu sahəyə böyük investisiyalar yatırdığını bildirdi. Azərbaycanda kosmik sənayenin də inkişaf etdiyini deyən prezident İlham Əliyev ölkəmizin bu sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı investisiya, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «VPS HEALTHCARE» ŞİRKƏTİNİN DİREKTORU ŞAMŞİR VAYALİL İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Birləşmiş Ərəb Əmirliklərinin «VPS Healthcare» şirkətinin direktoru Şamşir Vayalil ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında yüksək səviyyəli əməkdaşlığın olduğu qeyd edildi. Azərbaycan ilə «VPS Healthcare» şirkəti arasında səhiyyə sahəsində əlaqələrin yaxşı perspektivlərinin olduğu vurğulandı, bu sahədə əməkdaşlıqla bağlı məsələlər ətrafında müzakirələr aparıldı.*

## «LAFARGEHOLCİM» ŞİRKƏTLƏR QRUPUNUN RƏHBƏRİ ERİK OLSEN İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda «LafargeHolcim» şirkətlər qrupunun rəhbəri Erik Olsen ilə görüşmüşdür.*

*Görüşdə «LafargeHolcim» şirkətlər qrupunun rəhbəri Erik Olsen ətraf mühitin qorunması, məişət tullantılarının yandırılması sahəsində bu şirkətlər qrupunun gördüyü işlər və imkanları barədə dövlətimizin başçısına məlumat verdi. Erik Olsen Azərbaycanı əməkdaşlıq baxımından cəlbedici ölkə kimi dəyərləndirərək, respublikamızla əlaqələr qurmağa hazır olduqlarını vurğuladı.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «CİSCO» ŞİRKƏTİNİN İCRAÇI SƏDRİ CON ÇAMBERS İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda «Cisco» şirkətinin icraçı sədri Con Çambers ilə görüşmüşdür.*

*«Cisco» şirkətinin icraçı sədri Con Çambers ölkəmizin xarici şirkətlər üçün etibarlı tərəfdaşa çevrildiyini deyərək, Azərbaycan ilə əməkdaşlıq etməyin son dərəcə əlverişli və faydalı olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanın inkişafın yeni mərhələsinə qədəm qoyduğunu qeyd etdi, əməkdaşlığımızın da bu mərhələyə uyğunlaşdırılmalı olduğunu vurğuladı.*

*Söhbət zamanı ictimai xidmətlər, sənaye, kənd təsərrüfatı, turizm, ixracın şaxələndirilməsi sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

## «PALANTİR TECHNOLOGİES» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU VƏ TƏSİSÇİSİ ALEKS KARP İLƏ GÖRÜŞ

*Davos*

*17 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda «Palantir Technologies» şirkətinin baş icraçı direktoru və təsisçisi Aleks Karp ilə görüşmüşdür.*

*Görüşdə «Palantir Technologies» şirkətinin baş icraçı direktoru və təsisçisi Aleks Karp Azərbaycan ilə əməkdaşlıq etməkdə maraqlı olduqlarını bildirdi.*

*Söhbət zamanı ölkəmizlə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Ukrayna Prezidentinin Azərbaycana səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmi qeyd olundu.*

*Ölkələrimizin beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq etdiyi, daim bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyi vurğulandı.*

*İnvestisiya, energetika, kənd təsərrüfatı, infrastruktur və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.*

# SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏL-FALİH İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid əl-Falih ilə görüşmüşdür.*

*Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirən nazir Xalid əl-Falih gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndiriləcəyinə ümidvar olduğunu vurğuladı. O, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu islahatların əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırlatdı, ölkələrimiz arasında qardaşlıq münasibətlərinin olduğunu dedi.*

*Söhbət zamanı Səudiyyə Ərəbistanı tərəfindən Azərbaycana investisiyaların yatırılması, Səudiyyə Ərəbistanının Enerji, Sənaye və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycanın Energetika Nazirliyi arasında əməkdaşlıq, «Saudi Aramco» şirkəti ilə SOCAR-ın həm regionda, həm də digər ölkələrdə birgə layihələr həyata keçirmələri və digər məsələlər müzakirə edildi.*

## DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev onu növbəti dəfə Dünya İqtisadi Forumuna dəvət etdiyinə görə Klaus Şvaba təşəkkürünü bildirdi. Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın Davos Forumunun dünya ölkələrində vəziyyətin yaxşılaşdırılması ilə bağlı məqsədlərinə tam uyğun gəldiyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda təhlükəsizliyin təmini və sabitliyin bərqərar olunması istiqamətində mühüm tədbirlərin görüldüyünü dedi. Ölkəmizin yerləşdiyi coğrafi məkanın əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu amilin iri transmilli layihələrin, o cümlədən Şimal–Cənub, Şərq–Qərb nəqliyyat və digər layihələrin uğurla reallaşmasına rəvac verdiyini bildirdi. Prezident İlham Əliyev son illərdə ölkəmizdə gedən inkişaf proseslərindən danışdı, Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olduğunu bildirdi və iqtisadiyyatın, həmçinin ixracatın şaxələndirilməsi istiqamətində təsirli tədbirlərin görüldüyünü vurğuladı.*

*Davos Forumu çərçivəsində keçirdiyi görüşlərin bir sıra mühüm layihələrin reallaşmasına səbəb olduğunu qeyd edən prezident İlham Əliyev son illərdə Azərbaycanda mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, Bakının I Avropa oyunlarına uğurla ev*

*sahibliyi etdiyini dedi, Roma Papası Fransiskin ölkəmizə səfərini Azərbaycandakı yüksək tolerantlıq mühitinə verilən qiymətin nümunəsi kimi dəyərləndirdi.*

*Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab Azərbaycan ilə Dünya İqtisadi Forumu arasındakı əməkdaşlığın səmərəli olduğunu, Azərbaycan Prezidentinin bu Forumda iştirakının ikitərəfli əməkdaşlığa töhfə verdiyini vurğuladı. Klaus Şvab ölkəmizə səfəri zamanı güclü inkişafın şahidi olduğunu dedi, Bakının gözəlliyindən danışdı, Azərbaycandakı təhlükəsizliyin və sabitliyin ölkəmizin inkişafında mühüm rol oynadığını bildirdi. Son illərdə ölkəmizdə böyük işlərin görüldüyünü, Bakının mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini deyən Dünya İqtisadi Forumunun icraçı sədri Azərbaycanda mövcud olan tolerantlıq mühitini yüksək qiymətləndirdi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində mövcud əməkdaşlıqdan məmnunluq ifadə olundu. «Cənub Qaz Dəhlizi», TANAP və TAP layihələri, həmçinin İon–Adriatik boru kəməri ilə bağlı mövcud planlar müzakirə edildi. Gələn ay Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin növbəti görüşünün keçiriləcəyi bildirildi. TAP, TANAP və «Şahdəniz» layihələrinin maliyyələşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Rusiyanın LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Azərbaycan ilə LUKoyl şirkəti arasındakı əməkdaşlıqdan məmnunluğunu ifadə edərək bildirdi ki, şirkətin Azərbaycandakı fəaliyyəti yaxşı tarixə malikdir. Dövlətimizin başçısı LUKoyl şirkətinin Azərbaycanda həyata keçirilən layihələrdə iştirakını yüksək qiymətləndirdi.*

*Vahid Ələkbərov rəhbərlik etdiyi şirkətin SOCAR ilə əlaqələrinin strateji əhəmiyyət daşıdığını bildirdi, müxtəlif istiqamətlərdə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi.*

*Söhbət zamanı «Şahdəniz» layihəsi ilə bağlı həyata keçirilən tədbirlər, LUKoyl tərəfindən Xəzərin Rusiya sektorunda hasil olunan neftin Bakı–Tbilisi–Ceyhan neft boru kəməri ilə nəqli, həmçinin dünyada neftin qiymətinin perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## STATOYL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Statoyl şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşmüşdür.*

*Statoyl şirkətinin baş icraçı direktoru Eldar Saetre Bakıda I Avropa oyunlarının açılışı mərasimində iştirakını məmnunluqla xatırladaraq, bu mötəbər tədbirin uğurla keçirildiyini bildirdi. Eldar Saetre Azərbaycanın Avropa oyunlarını keçirməklə, bu yarışların standartlarını müəyyənləşdirdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Statoyl şirkəti arasındakı əməkdaşlığın böyük tarixi olduğunu dedi, əlaqələrimizin uğurlu və davamlı xarakter daşıdığını bildirdi. Şirkətin fəaliyyətinin ikitərəfli əməkdaşlığın inkişafına xidmət etdiyini vurğuladı.*

*Söhbət zamanı «Azəri–Çıraq–Günəşli», o cümlədən «Qarabağ», «Əşrəfi», «Dan ulduzu» və «Aypara» yataqları, həmçinin Statoyl ilə SOCAR arasında əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.*

## İRAQ KÜRDÜSTANI REGİONAL HÖKUMƏTİNİN BAŞÇISI MƏSUD BƏRZANİ İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda İraq Kürdüstanı Regional Hökumətinin başçısı Məsud Bərzani ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev xalqlarımız arasında tarixi, mədəni əlaqələrin olduğunu qeyd edərək, Məsud Bərzaninin atasının vaxtilə bir müddət Azərbaycanda yaşadığını xatırlatdı. Məsud Bərzani atasının xatirəsini yad etdiyi üçün dövlətimizin başçısına minnətdarlığını bildirərək, atasının Bakı ilə bağlı xatirələrini hər zaman məmnunluqla yad etdiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə İraq Kürdüstanı Regional Hökuməti arasında enerji, ticarət, idxal-ixrac və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının araşdırılmasının mümkünlüyü qeyd edildi. Məsud Bərzani İraq Kürdüstanı Regional Hökumətinin Azərbaycan şirkətləri ilə müxtəlif layihələr üzrə əməkdaşlıqda maraqlı olduğunu bildirdi, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı.*

## «MİCROSOFT» ŞİRKƏTİNİN ÜMUMDÜNYA DÖVLƏT QURUMLARI İLƏ ƏLAQƏLƏR ÜZRƏ KORPORATİV VİTSE-PREZİDENTİ TONİ TAUNS-VİTLEY İLƏ GÖRÜŞ

*Davos*

*18 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda «Microsoft» şirkətinin ümumdünya dövlət qurumları ilə əlaqələr üzrə korporativ vitse-prezidenti xanım Toni Tauns-Vitley ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda inkişafın yeni mərhələsində həyata keçirilən iqtisadi islahatlardan danışıldı, informasiya-kommunikasiya texnologiyalarının tərəqqisinin prioritet sahələrdən biri olduğu bildirildi. Milli iqtisadiyyatın modernləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadənin əhəmiyyətli olduğu qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə «Microsoft» şirkəti arasında əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN «İPƏK YOLUNUN SƏMƏRƏSİ» ADLI İNTERAKTİV İCLASINDA İŞTİRAK

*Davos*

*19 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda Dünya İqtisadi Forumunun «İpək yolunun səmərəsi» adlı interaktiv iclasında iştirak etmişdir.*

*Dünya İqtisadi Forumunun «İpək yolunun səmərəsi» adlı interaktiv iclasında Azərbaycan prezidenti İlham Əliyevlə yanaşı, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Monqolustan prezidenti Saxiaqiyn Elbeqdorj və digər ölkələrin nümayəndələri iştirak edirdilər.*

*Dövlətimizin başçısı iclasda çıxış etdi və sualları cavablandırdı.*

**S u a l: Müasir İpək yoluna yatırılan siyasi və infrastruktur investisiyalar Asiya və Avropada iqtisadi artıma və ahəngdarlığa necə təsir göstərir? İpək yolu təkcə torpaq üzərindən yox, həm də dənizdən keçir?**

**C a v a b:** İpək yolundan danışdıqda, biz bu təşəbbüs haqqında daha böyük mənzərəni gözümüzün önünə gətirməliyik. Regionda etibarlı siyasi münasibətlər olmazsa, biz yalnız nəqliyyat infrastrukturuna investisiya yatırmaqla, müvəffəqiyyət qazanmayacağıq. Azərbaycan İpək yolunun bizə aid olan seqmentinin yenidən qurulmasına birbaşa investisiya yatırıb və eyni zamanda, regional əməkdaşlığa gətirib çıxaran təşəbbüslərə start verərək, siyasi cəhətdən də bu layihəyə dəstək olubdur. Regional əməkdaşlıqdan danışdıqda, bu çox geniş əməkdaşlıqdır. Çünki bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni və

digər sektorları əhatə edir. Buna görə də bizim niyyətimiz həmişə ölkələrə, insanlara fayda verəcək, regionda planlaşdırıla bilən, sabitliyi artıran və regionumuzda yaşayan bütün insanlar üçün bərabər imkanlar yaradan layihələrə başlamaq və onlarda iştirak etmək olub. Buna görə də Azərbaycan İpək yolunun bizə aid olan seqmentinin yenidən qurulmasında həmişə fəal rol oynayıb. Ümid edirik ki, cari ildə Gürcüstanda və Türkiyədəki tərəfdaşlarımızla birlikdə biz bu 3 ölkədə Bakı, Tbilisi və Qars arasında İpək yolunun çox önəmli bir bağlantısını tamamlayacağıq və bu da bizə qarşıdan gələn uzun illər ərzində bu layihədən faydalanmaq imkanı verəcək. Bu layihə Çindən Avropaya gedən marşrutu mövcud olan 30–35 gündən 14 günə qədər azaldacaq. Bu, ən qısa marşrut olacaq, lakin, əlbəttə ki, ən ucuz marşrut olmayacaq. Bu marşrutu kommersiya baxımından da çox cəlbedici etmək, tarifləri eyni səviyyəyə gətirmək üçün indi biz tərəfdaşlarımızla işləyirik. Hələ ki, bu istiqamətdə hadisələr çox müsbət inkişaf edir və bu layihə tamamlanan kimi, biz yüklərin böyük hərəkətindən faydalanacağıq. Dəniz limanı infrastrukturuna da sərmayə yatırırıq. Hazırda biz ildə 25 milyon tondan çox yük qəbul edəcək Xəzər regionunda ən böyük dəniz limanını tikirik. Əlbəttə ki, sizin də düzgün qeyd etdiyiniz kimi, bu yol həm də dənizdən, Xəzər dənizindən keçməlidir. Ona görə də bu layihənin davamlı inkişafını təmin etmək üçün kifayət qədər nəqliyyat infrastrukturu, limanlar, gəmilər və tankerlər mövcud olmalıdır.

**S u a l: İpək yolu layihəsinin reallaşmasında Çinin fəaliyyəti və bu layihədə iqtisadi diplomatiyanın rolu haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Biz artıq hazırlıq işlərinə başlamışdıq. Bugünkü vəziyyət bizim doğru addım atdığımızı göstərir. Çünki indi biz bu çatışmayan seqmentin tamamlanmasına çox yaxınıq. Bu, Çinin «bir kəmər – bir yol» baxışı ilə də üst-üstə düşür. Bizim Çin ilə əlaqələrimiz var və artıq İpək yolu test rejimində fəaliyyət göstərir. Keçən il ilk konteyner test qatarı Çindən yola düşərək, Mərkəzi Asiyadan, Xəzər regionundan, Azərbaycan, Gürcüstan

və Avropadan keçərək gəlmişdir. Biz bu yolun təchizatçılar üçün necə cəlbedici olması üzərində çalışırıq. Qeyd etdiyim kimi, bu layihə təkcə investisiyalar və nəqliyyat infrastrukturundan ibarət deyil – baxmayaraq ki, bunlar çox önəmlidir – bu layihə həm də qarşılıqlı bağlılıq yaradır. Qarşılıqlı bağlılıq isə dostluğu gücləndirir. İpək yolu üzərində yerləşən bütün ölkələrin bir-biri ilə yaxşı işçi münasibətləri olduğuna görə biz çox xoşbəxtik. Lakin bu qarşılıqlı bağlılıq bunu daha da gücləndirəcək. Bu, müxtəlif ölkələr – müxtəlif siyasi gündəliyi, mədəniyyəti, dini, tarixi olan ölkələr arasında çox nadir olan əməkdaşlıq formasını təmin edəcək və hesab edirəm ki, bu, dünyanın yeni bir modelidir. Çünki biz Azərbaycanda mədəniyyətlərarası dialoq məsələsinə çoxlu investisiya yatırırıq. Məsələn, keçən il Azərbaycanda «Multikulturalizm ili» elan olunmuşdu, bu il isə «İslam həmrəyliyi ili» elan olunub. Biz eyni zamanda, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatına üzv olan çox azsaylı ölkələrdənik. Biz Avropa və Asiya arasında yerləşirik. Bu coğrafi yerləşmə, tarixi irsimiz və siyasi gündəliyimiz həmin layihəni ərsəyə gətirmək üçün bizə çox kömək edir. Əlbəttə ki, biz bu layihəyə aid istənilən təşəbbüslərə dəstək verəcəyik. Biz bu istiqamətə daha çox yükdaşımalarını cəlb etmək üçün tərəfdaş ölkələrlə ikitərəfli formatda işləyirik. Təkcə birbaşa İpək yolu üzərində yerləşən ölkələr yox, həm də bu yolun yaxınlığında yerləşən ölkələr bu imkandan faydalana bilər.

Yeri gəlmişkən, Azərbaycan həm də başqa bir layihə üzərində çalışır. Bu, «Şimal–Cənub» layihəsi adlanır. Bu layihə Hindistanı, İranı, Azərbaycanı, Rusiyanı, Şimali Avropanı və Yaxın Şərqi birləşdirəcək. Bu layihənin bizim əraziyə aid olan hissəsi tamamlanıb. Ümid edirik ki, yaxın 2 ildə bu layihə İpək yoluna inteqrasiya olunacaq, yeni bir nəqliyyat marşrutunun açılmasına imkan verəcək.

**S u a l: «Kiber İpək» yolu ilə bağlı fikirlərinizi və layihə üzərində rəqəmsal əlaqəni yaratmaq üçün nə edəcəyinizi bilmək istərdik.**

**C a v a b:** Biz bunun üzərində çalışırıq. Əslində İKT sektoru Azərbaycan üçün prioritet sayılan sahələrdəndir. Biz bu sahəni inkişaf etdirmək üçün investisiya yatırmışıq. Əhalimizin 75 faizdən çoxu internet istifadəçisidir. Hər bir kəndə genişzolaqlı interneti gətirmək üçün bizim dövlət tərəfindən maliyyələşdirilən proqramımız var. Əlbəttə ki, biz kiber təhlükəsizliklə bağlı məsələlər üzərində də çalışırıq. Biz hələ bu təhlükələrə məruz qalmamışıq. Lakin ölkə nə qədər çox inkişaf edərsə, bir o qədər də risklərlə üzləşir.

Başqa bir layihə də var. Onun adı TASİM-dir. Bu, İpək yolu ilə eyni dəhliz üzərindən keçən kommunikasiya xəttidir. Əslində bu dəhlizlər bir-biri ilə bağlıdır. Məsələn, indi biz enerji resursları haqqında danışırdıq. Sizə deyə bilərəm ki, Azərbaycanın enerji resursları İpək yolunun bərpasında mühüm rol oynamışdır. Çünki biz tərəfdaş ölkələr qarşısında bu ideyanı irəli sürəndə, ən böyük problem maliyyələşmənin olmaması ilə bağlı idi. Biz bir neçə maliyyə institutuna müraciət etdik, lakin onlar maliyyə dəstəyini təmin etmək üçün o qədər də həvəsli deyildi. Beləliklə, biz nə etdik. Biz enerji resurslarından qazandığımız gəlirlərdən istifadə etdik, sərmayə yatırmağa başladıq və tərəfdaşlarımıza maliyyə dəstəyi göstərdik. Bu gün Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən neft və qaz kəmərlərindən ibarət olan enerji dəhlizinə baxsanız, İpək yolunun əsasən eyni dəhliz olduğunu görəcəksiniz. Əgər bu layihələr olmasaydı, çox güman ki, biz dəmir yolu bağlantısının tikintisinə başlamazdıq. Buna görə də bütün bu dəhlizlər əlaqəlidir.

Bu gün biz artıq elektrik enerjisinin ixracı üçün yeni bir dəhliz yaratmışıq. Bu dəhliz Azərbaycan və Gürcüstandan Türkiyəyə gedir. Biz elektrik xətlərimizi birləşdirmişik. Beləliklə, bir layihə digər bir layihəyə yol açır. Biz indi elektrik enerjisini, qazı və nefti ixrac edirik, dəmir yolunu tikirik və əlbəttə ki, rəqəmsal sahəyə də investisiyalar yatırmağa davam edəcəyik. Doğru qeyd edildiyi kimi, bu layihələrin rəqəmsal

dəstəyi səmərəliliyi artıracaq və daha çox faydalar gətirəcəkdir.

**S u a l: Həyata keçirilən bu qlobal layihələrdə işçi qüvvələrindən istifadə və İpək yolu ilə insanların gediş-gəliş prosesləri necə olacaq?**

**C a v a b:** Bizim ölkəyə gəldikdə, müsbət demoqrafik dinamikamız var. Müstəqilliyimizi 1991-ci ildə bərpa etdikdən sonra əhalimizin sayı 2 milyondan çox artıbdır. Buna görə bizdə xarici işçi qüvvəsinin cəlb edilməsi ilə bağlı problem yoxdur. Lakin insanların axını ilə bağlı suala gəldikdə, hesab edirəm ki, bu bizim ölkələr üçün də çox yaxşı olacaqdır. Hesab edirəm ki, bu layihələr həm də turistlərin sayının artmasında önəmli rol oynayacaqdır. Düşünürəm ki, daha çox turist cəlb etmək üçün ölkələr arasında müəyyən formada əməkdaşlıq aparılmalıdır. Əlbəttə, müştərək turizm məkanları və ya bir neçə ölkəyə səfərləri gerçəkləşdirən həftəlik proqram haqqında düşünmək olar. Bu yaxınlarda Azərbaycanda «Elektron viza» adlı yeni bir layihəyə start verildi. İndi Azərbaycana səfər etmək istəyən hər bir şəxs evini və ya iş yerini tərk etmədən ölkəyə səfər etmək üçün 3 gün ərzində elektron vizanı əldə edə bilər. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əvvəl də qeyd etdiyim kimi, İpək yolu təkcə şirkətləri, ölkələri yox, həm də insanları birləşdirəcək. Bu, regionumuzu daha da sabit edəcək.

**S u a l: İpək yolu layihəsinin reallaşmasında ekoloji problemlərin həlli, bu işdə həm QHT-lərin rolu, həm də dayanıqlı inkişaf məsələləri ilə bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Ətraf mühitlə bağlı məsələlərə həmişə böyük narahatlıq və diqqətlə yanaşılır. Mən sizə neft boru kəmərinin Azərbaycandan Gürcüstana və Türkiyənin Aralıq dənizinə podrat işlərini apardığımız vaxtı xatırlada bilərəm. Həmin vaxt vəziyyəti müşahidə etmək üçün ətraf mühitlə məşğul olan QHT-lər çox fəal idi və canlılar üçün ətraf mühiti təmin etmək məqsədilə bir çox tədbirlər görülmüşdü. Bütün tədbirlər ən yüksək səviyyədə görülmüşdü.

Ekoloji fəlakətdən əziyyət çəkmiş bir ölkə kimi, Azərbaycan təmiz enerjiyə çoxlu investisiya yatırır. Biz hidro, günəş və külək enerjilərinə indi çoxlu investisiya yatırırıq. Azərbaycanda, xüsusilə Xəzər dənizinin bizə aid olan hissəsində neft-qaz əməliyyatları tamamilə beynəlxalq standartlara uyğun surətdə aparılır. Azərbaycan, Bakı 1847-ci ildə dünyada neftin ilk dəfə istehsal olunduğu məkandır. Həmin vaxtda və XX əsrin əksər hissəsində ekoloji məsələlər prioritet sayılmırdı. Odur ki, biz müstəqilliyimizi bərpa etdikdən sonra həmin amilə görə ətraf mühitin çirklənməsi nöqteyi-nəzərdən çox çətin vəziyyətdə idik. Xüsusilə Abşeron yarımadasını, Xəzər dənizini nəzərdə tuturam. Biz bu əraziləri təmizləmək üçün 100 milyonlarla dollar xərcləmişik və xərcləməkdə davam edirik. Əlbəttə ki, biz ətraf mühitin qorunmasına çox ehtiyatla yanaşırıq. Biz bu hədəflərə yalnız yaxından əməkdaşlıq edərək nail ola bilərik. Çünki biz eyni səmanı, havanı paylaşırıq, eyni suyu içirik. Buna görə də düşünürəm ki, ölkələrin öhdəlikləri və aparıcı QHT-lərin bu vəziyyəti yaxından müşahidə etməsi çox önəmlidir.

**S u a l: İpək yolu layihəsinin icrası zamanı səmərəli təşəbbüslərə özəl sektorun investisiyalarının cəlb olunması cox əhəmiyyətlidir. Bu niyyəti reallaşdırmaq, mövcud layihələrə özəl sektor kapitalını daha çox cəlb etmək üçün Sizcə nə etmək lazımdır?**

**C a v a b:** Azərbaycanda bütün əsas nəqliyyat infrastruktur layihələri dövlət büdcəsindən və Dövlət Neft Fondundan maliyyələşdirildi. Çünki birincisi, özəl sektorun investisiya yatırmaq üçün kifayət qədər vəsaiti yox idi və ikincisi, bu, strateji və uzunmüddətli investisiyadır. Bu investisiyalar uzun illər ərzində özünü doğruldacaq və gəlir gətirəcəkdir. Buna görə dəmir yolu infrastrukturu, Xəzər gəmiçiliyi, hava yolları, yollar, İpək yolu – hər şey dövlət vəsaiti hesabına edilir. Lakin bu, özəl sektor üçün də imkanlar yaradır.

Mən Bakıda yeni limanın tikintisini qeyd etdim. Bizim artıq azad zona kimi bir neçə min hektar torpaq ərazimiz var və bu, dəniz limanının yaxınlığında yerləşir. Bütün yerli və xarici şir-

kətlər bu layihədə iştirak etməyə və istehsal prosesinə qoşulmağa dəvət olunurlar. Eyni zamanda, Azərbaycanın müxtəlif bölgələrində xüsusi sənaye zonaları təşkil etmək üçün biz xüsusi  infrastruktur yaradırıq və orada su, qaz, elektrik enerjisi, yollar, dəmir yolu olduqda, özəl sektor artıq investor qismində iştirak edir. Bundan sonra onlar bu işlərə cəlb olunurlar. Beləliklə, biz özəl sektora yaxşı şərait yaratmağa və onlar üçün çox ağır olan maliyyə yükü qoymamağa və infrastruktur yaratmaqla, özəl sektoru stimullaşdırmağa çalışırıq.

Bu gün bir çox ölkələr İpək yolunun müxtəlif seqmentlərinə diqqət yetirir. Biz bilirik ki, İpək yolu qlobal layihədir. Ona görə də mənim təklifim İpək yolu üzərində yerləşən, İpək yoluna qoşulmaq istəyən, lakin ola bilsin, ona yaxın olmayan bütün ölkələrin nazirlərinin görüşünün təşkil edilməsi, layihənin yenidən nəzərdən keçirilməsi və nə vaxt, nəyi etmək lazım olması – qrafik, hədəflər, həyata keçirilmə ilə bağlı konkret qərarların qəbul edilməsi və bütün ölkələr arasında əlaqələndirmə qurumunun yaradılması, ildə bir dəfə görüşün keçirilməsi və layihənin icrasına nəzarət olunmasından ibarətdir.

## ÜMUMXALQ HÜZN GÜNÜNDƏ İŞTİRAK

*20 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.*

*Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq, ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxartdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı*

*rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.*

*Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.*

*Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə, BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.*

*Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.*

* * *

*Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmişdir.*

*Dövlətimizin başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.*

*Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdi.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehranda çoxmərtəbəli binanın çökməsi nəticəsində insanların həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 yanvar 2017-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Hindistanı dərin tarixi kökləri və xoş ənənələri olan dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, dostluq münasibətlərimizin möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2017-ci il*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA**

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Son illərdə Azərbaycan–Avstraliya əlaqələrinin genişlənməsi məmnunluq doğurur. Dost ölkələrimiz arasındakı əməkdaşlıq həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində müvəffəqiyyətlə davam etməkdədir.

Əminəm ki, ölkələrimiz və xalqlarımız arasında daim möhkəmlənən dostluq əlaqələri, səmərəli əməkdaşlığımız bundan sonra da ikitərəfli münasibətlərimizin inkişafına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2017-ci il*

## MÜDAFİƏ NAZİRLİYİ «N» SAYLI HƏRBİ HİSSƏSİNİN YENİ HƏRBİ ŞƏHƏRCİYİNİN AÇILIŞI MƏRASİMİ

*23 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonu ərazisindəki «N» saylı hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Azərbaycan Ordusunun inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu.*

*Hərbi hissədə tikinti işləri 2014-cü ilin mayında başlanılıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib.*

*Ali Baş Komandan, prezident İlham Əliyev hərbi şəhərciyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Hərbi şəhərciyin qərargah binası müasir səviyyədə yaradılıb. İkimərtəbəli qərargah binasının foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdikləri diqqəti əks etdirən fotostend yaradılıb. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar vardır. Qərargah binasında Şərəf otağı, brifinq və akt zalları hərbçilərin ixtiyarına verilib. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq və istirahət etmək üçün hərtərəfli şərait yaradılıb.*

*Hərbi şəhərcikdə ailəli hərbi qulluqçuların yerləşməsi üçün 2 və 3-otaqlı mənzillərdən ibarət yaşayış binaları inşa edilib. Bi-*

*nalardakı mənzillər yumşaq və digər mebellər, zəruri inventar və televizorla təmin olunub. Bütün binalara su, elektrik, telefon, internet və televiziya kabel xətləri çəkilib.*

*Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla, həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb.*

*Ərazidə xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş 76 çarpayılıq, ikimərtəbəli tibb məntəqəsi də tikilib. Tibb məntəqəsinin binasında ulu öndərin və dövlət başçımızın hərbi qulluqçularla görüşlərini əks etdirən fotolar sərgilənir. Burada UZİ, elektrokardioqram, rentgen, diaqnostika, lor, oftalmoloji, stomatoloji, fizioterapiya kabinetləri, laboratoriya yaradılıb. Bu kabinetlərdə müasir tibb cihazları quraşdırılıb. Bu isə tam imkan verir ki, şəxsi heyətə ixtisaslı tibbi yardım göstərilsin. Tibb məntəqəsinin palataları müasir səviyyədədir. Binada hərbi tibbi hazırlıq sinfi də yaradılıb.*

*Belə hərbi şəhərciklərin inşası bir daha sübut edir ki, ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Bütün bunlar isə Azərbaycan Ordusunun qüdrətini artırır, hərbi sahənin maddi-texniki bazasını möhkəmləndirir.*

*Hərbi şəhərcikdə bütün lazımi avadanlıqlarla təchiz edilmiş yeməkxana inşa edilib. Dövlətimizin başçısına burada hərbi qulluqçuların istifadə etdikləri ərzaqlar barədə məlumat verildi. 1790 yerlik yeməkxanada əsgər və zabitlərin dolğun qidalanması üçün hərtərəfli şərait vardır. Burada mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir. Bu istehsal sahəsi hərbi hissənin şəxsi heyətini çörək və şirniyyat məmulatları ilə tam təmin etmək imkanına malikdir.*

*Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasına da baxdı. Burada əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait vardır. Yataqxanada ideoloji otaq, dəftərxana və digər inzibati otaqlar yaradılıb.*

*Prezident İlham Əliyevə hərbi hissədəki texnika barədə məlumat verildi. Bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası vardır. Son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan Müdafiə Sənayesi Kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Məlumat verildi ki, hərbi hissədə zirehli avtomobil və texnikaların yerləşdirilməsi üçün xüsusi yerlər inşa edilib. Hərbi texnika üçün parkın ərazisində yeni avadanlıqlarla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir, yanacaqdoldurma və digər məntəqələr tikilib.*

*Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, eləcə də hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, təhsil və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə hərbi şəhərciyin ərazisində 528 yerlik klub inşa edilərək, lazımi avadanlıqla tam təchiz olunub. Bundan başqa, ərazidə hərbi qulluqçuların peşə və ixtisas hazırlığının təşkili məqsədilə müvafiq avadanlıq və qurğularla təchiz edilmiş 2 tədris korpusu inşa olunub. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün 3 sıra meydanı salınıb. Şəhərcikdə qarovul xidmətinin təşkili və aparılması məqsədilə qarovul şəhərciyi və qarovul evi inşa edilib.*

*Hərbi şəhərcik yaradılarkən hərbi qulluqçuların idmanla məşğul olmaları diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə burada mini-futbol, basketbol, voleybol, həndbol meydançaları, maneələr və qaçış zolaqlarının daxil olduğu idman-məşq qurğuları sahəsi yaradılıb.*

*Hərbi hissədə müasir avadanlığın quraşdırıldığı hamam-camaşırxana-qazanxana kompleksi fəaliyyət göstərir. Burada, həmçinin bərbərxana və dərzi otaqları da vardır. Hərbi hissənin isti su təchizatını təmin etmək və istiliyə ehtiyacını ödəmək üçün müasir tipli qazanxanada suqızdırıcı qurğular quraşdırılıb. Şəhərcikdə 1 buxar qazanxanası, 2 transformator yarımstansiyası və biotəmizləyici su stansiyası inşa edilib. Ərazidə həcmi 500 kubmetr olan ehtiyat və yanğın əleyhinə tədbirlər üçün nəzərdə tutulan su anbarları da yaradılıb.*

*Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı

Əziz hərbçilər!

İlk növbədə, sizi yeni inşa olunmuş hərbi şəhərciyin açılışı münasibətilə təbrik etmək istəyirəm. Ərazisi 42 hektar olan bu şəhərcik ən yüksək standartlara cavab verir. Şəhərciklə tanış olarkən gördüm ki, xidmət etmək, yaşamaq üçün bütün şərait var. Ən müasir standartlar tətbiq olunub, xidmət şəraiti ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu hərbi şəhərcik dünya miqyasında nümunəvi hərbi şəhərcikdir.

Bu şəhərciyin inşa edilməsi bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət yetirilir. Son bir neçə il ərzində 20-dən çox hərbi şəhərcik tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün hərbi hissələrimizin mütləq əksəriyyəti, demək olar ki, bu səviyyədədir. Ümid edirəm ki, növbəti 1-2 il ərzində yararsız vəziyyətdə bir dənə də hərbi infrastruktur olmayacaq.

Ordu quruculuğu prosesi Azərbaycanda dövlət siyasətidir. Hərbçilərin məişət problemləri də öz həllini tapır. Bildiyiniz kimi, 20 il qüsursuz xidmət göstərən hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir, bu proses artıq geniş vüsət alır. Xidmət etmək üçün bütün lazımi tədbirlər görülür. Bir sözlə, hərbçilərimizin həm xidmət, həm də məişət şəraiti daim diqqət mərkəzindədir.

Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı yüksək dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir. Bir neçə ölkədən alınmış onlarla döyüş təyyarəsi, 100-dən çox hərbi və hərbi nəqliyyat helikopteri, hava hücumuna qarşı müxtəlif müasir sistemlər bizim müdafiə gücümüzü artırır. Müxtəlif ölkələrdən alınmış ən müasir tanklar, zirehli maşınlar, artilleriya qurğuları da düşmənin istənilən hədəfini yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvəsi ilə məhv edə bilər. Ən müasir pilotsuz uçuş aparatları, həm kəşfiyyat, həm döyüş üçün digər texnikalar alınır və bu proses bu gün də davam edir.

Bir daha qeyd etmək istəyirəm ki, ordu quruculuğu kompleks şəkildə öz həllini tapır. Həm hərbçilərin xidmət, məişət şəraiti, döyüş texnikası ilə təminat, eyni zamanda, ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artıb. Ordumuzda ruh yüksəkliyi var, vətənpərvərlik hissləri çox yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Müxtəlif təhlillər aparılır, hərbi mütəxəssislər öz fikirlərini söyləyirlər. Biz bunu bilirik, dünya da bilir ki, həm döyüş qabiliyyəti, həm hərbi-texniki təminat baxımından bu gün Azərbaycan Ordusu, sözün əsl mənasında, güclü ordular sırasındadır.

Bütün bu nailiyyətləri biz özümüz əldə etmişik, öz hesabımıza, güclü iqtisadiyyatın hesabına. Əgər güclü iqtisadiyyat

olmasaydı, biz bütün bu işləri görə bilməzdik. Yaradılan bu hərbi şəhərcik bu gün bizim həm ordumuzun, həm dövlətimizin gücünü göstərir. Bu gün dünyada maliyyə-iqtisadi böhran davam edir. Ancaq buna baxmayaraq, biz bu məqsədlər üçün böyük vəsait ayırırıq və ayıracağıq. Bunu təmin edən güclü iqtisadiyyatdır. İqtisadiyyatda aparılan işlər, islahatlar bizim ordumuzu, dövlətimizi gücləndirir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, öz hesabına yaşayır, heç kimdən asılı deyil, heç kimin maliyyə yardımına ehtiyac duymur. Öz hesabımıza yaşayırıq və ildən-ilə daha yaxşı yaşayırıq.

Bizim hərbi hissələrimizin vəziyyəti bir neçə il bundan əvvəl tam fərqli idi. Mən xüsusi göstəriş vermişdim ki, bu vəziyyət təhlil edilsin, mənə məruzə olunsun və tədbirlər görülsün. Yadımdadır, bir neçə il bundan əvvəl müxtəlif bölgələrimizdə yerləşən hərbi hissələrin fotoşəkilləri mənə təqdim ediləndə, əlbəttə ki, mənzərə çox acınacaqlı idi. Yarıdağılmış binalar, yararsız vəziyyətdə olan kazarmalar, ordumuzun ərzaq təminatı çox aşağı səviyyədə idi. Ona görə dərhal göstəriş verdim və bu sahədə köklü dəyişikliklər baş verdi. Bu gün Müdafiə Nazirliyinin rəhbərləri bütün bu işləri yüksək səviyyədə təmin edirlər. Yəni bu gün həm təminat, həm xidmət baxımından Azərbaycan Ordusu dünyada nümunəvi ordular sırasındadır.

O ki qaldı ordumuzun döyüş qabiliyyətinə, biz bunu bilirdik və müntəzəm olaraq bu istiqamətdə işlər aparılırdı. Həm nizam-intizam, həm döyüş qabiliyyəti, həm hazırlıq və bütün bu görülmüş işlər özünü lazım olan vaxtda göstərdi. Keçən ilin aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq, Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsi işğaldan azad edildi. O ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Minlərlə hektar torpaq işğaldan azad edildi. On minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. O torpaqlarda təmizlik işləri apa-

rılır və yaxın gələcəkdə məcburi köçkünlər o ərazilərə qayıdacaqlar.

Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir. Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir. Ermənistan öz acı məğlubiyyətini etiraf etmək istəməsə də buna məcburdur. Məhz aprel döyüşlərindən sonra Ermənistanın Müdafiə naziri başda olmaqla, bir çox yüksəkvəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm də qəhrəmanlıq göstərmişdir.

Bütün bu uğurların təməlində düşünülmüş siyasət dayanır. Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Həm təminat, təchizat, müasir texnikanın alınması, döyüş qabiliyyətinin artırılması, eyni zamanda, bizim hərbi uğurlarımız siyasi uğurlarla da tamamlanır. Biz bu gün özümüzü beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi təqdim etmişik. Bizim dünyadakı dostlarımızın sayı getdikcə artır. Bizim haqq işimiz barədə dünya ictimaiyyəti daha da dolğun məlumat əldə edir.

Bu gün heç kimə sirr deyil ki, bizim işimiz haqq işidir və biz öz torpağımız uğrunda vuruşuruq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı Dağlıq Qarabağda yaşayıb yaratmışdır. Orada yerləşən tarixi, dini abidələrimiz bizim qədim mədəniyyətimizi əks etdirir. Təkcə Dağlıq Qarabağ deyil, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır. Əgər statistikaya nəzər salsaq görmək olar ki, XX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin 100-də 70-i azərbaycanlılar idi. İndiki Ermənistanın bir çox toponimləri Azərbaycan mənşəlidir. İrəvan, Zəngəzur, Göyçə bizim tarixi

torpaqlarımızdır. Bizim torpaqlarımızda erməni dövləti qurulubdur. Özü də əfsuslar olsun ki, bizim öz dəstəyimizlə. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək qərarı idi. Bu tarixdir, yaxın tarixdir. Bu tarix bir daha onu göstərir ki, Azərbaycan xalqı bu ərazilərdə əsrlərboyu yaşayıb və yaşamalıdır.

O ki qaldı Dağlıq Qarabağ əhalisinə, onu da tarixçilər və bu məsələ ilə məşğul olanlar yaxşı bilirlər. Əlbəttə, Azərbaycan xalqı da bilir ki, XIX əsrin 20-ci illərində Dağlıq Qarabağa İrandan və Şərqi Anadoludan kütləvi surətdə erməni əhalisi köçürülmüşdür. O məqsədlə köçürülmüşdür ki, həmin ərazidə milli və dini tərkib dəyişdirilsin və məhz buna görə XX əsrin 20-ci illərində Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Bu tarixdir. Tarix və ədalət bizim tərəfimizdədir, bu bizim haqq işimizdir, bizim torpağımızdır və biz bu torpağa qayıtmalıyıq.

Beynəlxalq hüquqa gəldikdə, beynəlxalq hüquq da bizim mövqemizi müdafiə edir. Bir çox mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul edib. Xüsusilə BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Əgər kimsə bunu unudubsa, biz bunu yada sala bilərik. Budur qətnamələrin əsas mahiyyəti. Ancaq Ermənistan buna məhəl qoymur və işğalçı ölkəyə heç bir təzyiq göstərilmir. BMT Təhlükəsizlik Şurası ilə yanaşı, digər beynəlxalq təşkilatlar – İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası oxşar qərar və qətnamələr qəbul edib. Onlar da kağız üzərində qalıb. Bu ədalətsizlikdir, bu, beynəlxalq normaların kobudcasına pozulması deməkdir. Ancaq yenə də işğalçı dövlətə heç bir təzyiq göstərilmir. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bizim ölkəmiz uzun illərdir ikili standartlarla üzləşir. Bəzi yerlərdə BMT Təhlükəsizlik Şurasının

qətnamələri bir gün ərzində icra edilir, bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır və onları qəbul edənlər də buna biganə qalırlar. Belə olan halda, Azərbaycan öz gücünü artırmalıdır və artırır.

Biz hərbi gücümüzü artırmışıq və artıracağıq. Siyasi addımlar atılacaq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı öz mövqeyini daha da geniş ifadə etsin. Biz öz iqtisadi gücümüzü artıracağıq və bütün böhranlara baxmayaraq, ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də təmin ediləcəkdir. Bu gün də bizim büdcə xərclərimizin strukturunda hərbi xərclər birinci yerdədir. Bizim başqa ehtiyaclarımız da var. Sosial məsələlərin həlli, infrastruktur layihələrin icrası, digər vacib məsələlər var. Onlar da öz həllini tapır. Amma ilk növbədə, ordu quruculuğudur. İlk növbədə, ordumuzun ehtiyacları təmin edilməlidir və biz gücləndikcə, əlbəttə, münaqişənin həllini yaxınlaşdıracağıq.

Münaqişənin həlli isə çox sadədir. Birincisi, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Əgər kimsə bunu gözləyirsə, qoy əbəs yerə gözləməsin. Bu olmayacaq! Dağlıq Qarabağ Azərbaycan torpağıdır, həm tarix, həm bütün dünya birliyi bunu belə qəbul edir. Azərbaycan müstəqilliyə qovuşanda, vahid dövlət kimi, BMT-yə üzv olanda Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul edilmişdir. Yəni məsələnin həlli bundan ibarətdir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərildiyi kimi, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Azərbaycan vətəndaşları, məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

O ki qaldı Dağlıq Qarabağın gələcək statusuna, bu status ancaq vahid Azərbaycan dövləti çərçivəsində mümkün ola bilər. Münaqişənin həlli bundan ibarətdir və Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olacaq. Ərazi bütövlüyünün təmin olunması, işğala son qoyulması bu münaqişənin həlli üçün əsas amillərdir. Bu məqsədlərə nail ol-

maq üçün, bir daha demək istəyirəm, daha da güclü olmalıyıq və biz bu gün dünya miqyasında böyük təqdirlə qarşılanan güclü Azərbaycan dövləti yaradırıq. Biz öz azad gələcəyimizi qururuq, müstəqil həyatımızı qurmuşuq. Biz 25 ildir ki, müstəqil dövlətik və bir daha demək istəyirəm, heç kimdən heç bir yardım almadan, bəzi başqa ölkələr kimi, heç kimin ətəyindən yapışmadan bunu əldə etmişik. Bu gün açığını deməliyik, Ermənistan müstəqil dövlət kimi, dünya xəritəsində sadəcə olaraq, formal mövcuddur. Ermənistan asılı ölkədir, öz gələcəyini özü müəyyən edə bilmir. İşğalçı siyasəti onları, bax, bu vəziyyətə gətirib çıxarıbdır. Onların vəziyyətdən yeganə çıxış yolu qonşularla münasibətləri bərpa etməkdir. Bunun üçün isə işğala son qoyulmalıdır.

Biz isə gələcəkdə daha da güclü dövlətə çevriləcəyik. Həm iqtisadi potensialımız, həm də hərbi gücümüz artacaq. Əhalimiz artır, artıq Azərbaycan əhalisi 10 milyona yaxınlaşır və şübhə yoxdur ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu şərtləndirən bir çox amillər var, onlardan birincisi güclü Azərbaycan Ordusudur və bu bizim əsas vəzifəmizdir, əsas məqsədimizdir.

Bu gün bu hərbi şəhərciyin açılışı bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Hətta ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə də biz uğurlu inkişaf dinamikasını saxlamışıq və böyük sərmayələr qoymuşuq. Son illərdə artıq 20-dən çox hərbi şəhərcik tikilib. Lakin digər yerlərdə, müxtəlif bölgələrdə hərbi şəhərciklərin tikilməsi də nəzərdə tutulur.

Mən ordumuzun bütün şəxsi heyətini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm, ordumuza yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**Zakir Həsənov** *(Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik):* Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xidməti döyüş fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Ali Baş Komandanın sərəncam və göstərişləri, o cümlədən Müdafiə nazirinin əmr və direktivləri əsasında həyata keçirilib.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti,

Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə uğurla inkişaf etdirilir.

Ali Baş Komandanın Silahlı Qüvvələrdə bütün istiqamətlərdə həyata keçirdiyi islahatlar ordunun döyüş qabiliyyətini artırıb, nizam-intizamı və hərbi qulluqçuların sosial bazasını gücləndirib.

Yeni və müasir texnologiyaların tətbiqi ilə orduda yüksək səviyyəli idarəçilik mexanizmi yaradılıb. Birlik, birləşmə və hərbi hissələrin operativ idarə olunması məqsədilə avtomatlaşdırılmış Komanda İdarəetmə məntəqələri qurulub. Bu iş bu gün də davam etdirilir. Ordunun yeni növ silah və döyüş texnikası ilə təmin edilməsi qoşunların manevr və zərbə qabiliyyətini artırıb. Döyüş qabiliyyətini təmin edən hərbi vəzifələr, tank və döyüş maşınlarının ekipajları, artilleriya və raket qurğularının heyətləri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilib.

Son illər ərzində Raket və Artilleriya Qoşunlarının yeni, müasir silah və texnika, atəşi idarəetmə sistemləri ilə təminatı bu qoşun növünün zərbə gücünü kifayət qədər artıraraq, düşmənin bütün hərbi infrastruktur obyektlərini məhv etmək imkanlarını genişləndirib.

Hərbi Hava Qüvvələrinin silahlanması yüksək səviyyədədir və qoşunlar qarşıda duran vəzifələri həll etmək, o cümlədən həm havadan, həm də qurudan istənilən hücumun qarşısını almaq, düşmənin ön xəttindəki və onun müdafiəsinin dərinliyindəki mövqelərinə havadan zərbə endirmək qabiliyyətinə malikdir.

Hərbi Dəniz Qüvvələrinin infrastrukturunun inkişafında da böyük işlər görülüb. Bu qoşun növünün döyüş qabiliyyətinin artırılması üçün lazımi tədbirlər planlaşdırılıb və həyata keçirilir.

Cənab Ali Baş Komandan, ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə Sizin göstərişinizə əsasən, müxtəlif qoşun növlərinin iştirakı ilə döyüş atışlı irimiqyaslı təlimlərin keçirilməsi şəxsi heyətin idarəçilik və döyüş qabiliyyətinin artırılmasına, atəşin peşəkarlıqla idarə olunmasına imkan yaradıb.

2016-cı ilin aprel ayında Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyəti nümayiş etdirərək, on minlərlə kvadratmetr torpaqlarımızı, o cümlədən strateji yüksəklikləri azad edib və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

Silahlı Qüvvələrimizin aprel döyüşlərində nümayiş etdirdiyi döyüş ruhu və qabiliyyəti orduda keçirilən islahatların yüksək göstəricisidir. Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə tam hazırdır və buna qadirdir.

Cənab Ali Baş Komandan, 2017-ci ildə Silahlı Qüvvələrin qarşısında duran əsas vəzifələr işğal altındakı torpaqlarımızın azad edilərək, ərazi bütövlüyümüzün bərpa olunması, döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, qoşunların operativ idarə olunması, silahlanmaya yeni qəbul edilmiş hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrənilməsi və tətbiqi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsindən ibarətdir.

Cənab Prezident, Sizin yüksək diqqət və qayğınız nəticəsində ordumuzun döyüş qabiliyyəti yüksəlib, hərbi qulluqçular və onların ailə üzvlərinin sosial-məişət şəraitləri yaxşılaşıb və şəxsi heyətin təminatı yüksək səviyyəyə çatdırılıb.

Ölkəmizin müxtəlif bölgələrində, xüsusilə də cəbhəboyu zonada yeni inşa edilmiş müasir hərbi şəhərciklər istifadəyə verilir, hərbi qulluqçular xidməti və daimi mənzillərlə təmin olunurlar.

İcazə verin, bütün Silahlı Qüvvələrin şəxsi heyəti adından və şəxsən öz adımdan orduya göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirim.

Silahlı Qüvvələr Sizin əmr və göstərişlərinizi hər an yerinə yetirməyə tam hazırdır.

## İRAN İSLAM RESPUBLİKASININ QƏRBİ AZƏRBAYCAN VİLAYƏTİNİN VALİSİ QURBANƏLİ SƏADƏT QARABAĞIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin valisi Qurbanəli Səadət Qarabağın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin bütün sahələrdə çox yaxşı inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin ölkələrimiz, xalqlarımız və eləcə də bölgə üçün böyük önəm daşıdığını bildirdi və son illər ərzində ikitərəfli əməkdaşlığımızın inkişafının məmnunluq doğurduğunu dedi. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan prezident İlham Əliyev İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin valisi Qurbanəli Səadət Qarabağın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına səfərinin və keçirəcəyi görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini əminliklə qeyd etdi.*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin valisi Qurbanəli Səadət Qarabağ ölkəsində ulu öndərin böyük ehtiramla xatırlandığını dedi. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin dəvəti ilə ölkəmizə səfər etdiklərini deyən Qurbanəli Səadət Qarabağ İran İslam Respublikasının Qərbi Azərbaycan vilayəti ilə Azərbaycan Respublikası arasında kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi və bu məqsədlə ölkəmizin müvafiq qurumları ilə görüşlər keçirəcəyini vurğuladı.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SAİD XAN MOHMAND İLƏ GÖRÜŞ

*26 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Said Xan Mohmandın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Said Xan Mohmand Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Said Xan Mohmand etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin Azərbaycana uğurlu rəsmi səfərlərini və bu səfərlər zamanı keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini və əməkdaşlığımızın ən yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan ilə Pakistan arasında ikitərəfli əlaqələrin, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin, qarşılıqlı dəstəyin məmnunluq doğurduğunu qeyd edən prezident İlham Əliyev ölkəmizin Pakistan ilə qardaşlıq əlaqələrini bundan sonra da inkişaf etdirməkdə maraqlı olduğunu dedi.*

*Səfir Said Xan Mohmand Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Said Xan Mohmand Pakistan xalqı tərəfindən Azərbaycanın inkişafının bir nümunə kimi qəbul olunduğunu bildirərək, bu inkişafda ulu öndər Heydər Əliyevin müstəsna rolunu qeyd etdi və bu uğurlu siyasətin prezident İlham Əliyev tərəfindən davam etdirildiyini vurğuladı.*

*Səfir Said Xan Mohmand, həmçinin əminliyini ifadə etdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və prezident İlham Əliyevin daha da möhkəmləndirdiyi ikitərəfli münasibətlərimiz bundan sonra da inkişaf edəcəkdir. Qarşılıqlı səfərlərə toxunan Said Xan Mohmand Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin Azərbaycana səfərlərinin ikitərəfli əlaqələrimizin inkişafında xüsusi rolunu qeyd etdi.*

*Səfir prezident İlham Əliyevin Pakistana səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini dedi.*

*Prezident İlham Əliyev Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi, sərmayə qoyuluşu, idxal-ixrac və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ SOSİAL SİYASƏT NAZİRİ ANDREY REVA İLƏ GÖRÜŞ

*27 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Ukraynanın Sosial Siyasət naziri Andrey Revanı qəbul etmişdir.*

*Ukraynanın Sosial Siyasət naziri Andrey Reva Bakı şəhərinin gözəlliyinin onda dərin təəssürat yaratdığını dedi. O, rəhbərlik etdiyi nazirliyin Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə yaxşı əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Ölkəmizin bu sahədə əldə etdiyi uğurların böyük önəm daşıdığını deyən Andrey Reva Azərbaycanın əldə etdiyi təcrübə və nailiyyətlərin Ukraynanın sosial müdafiə sistemində həyata keçirilən islahatlar baxımından da maraq doğurduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda sosial təminat sahəsində işlərin uğurla davam etdirildiyini vurğuladı. Dövlətimizin başçısı ölkəmizdə qanunvericiliyin təkmilləşdirilməsi, o cümlədən sosial siyasətlə bağlı məsələlərin nizama salınması istiqamətində də böyük işlərin aparıldığını nəzərə çatdırdı. Sosial siyasətin Azərbaycanda həmişə prioritet məsələlərdən biri olduğunu və ciddi iqtisadi islahatların aparıldığı dövrdə də bu sahəyə böyük önəm verildiyini qeyd edən prezident İlham Əliyev kommunal xərclərin, tariflər, sosial təminat, məcburi köçkünlərin ehtiyaclarının ödənilməsi, pensiyalar, sosial infrastruktur və digər sahələrin maliyyələşdirilməsinin dövlət səviyyəsində həyata keçirildiyini bildirdi.*

*Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*27 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini və Azərbaycan Dövlət Gömrük Komitəsinin Dünya Gömrük Təşkilatının çox fəal üzvlərindən biri olduğunu məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan iqtisadiyyatında, o cümlədən gömrük sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar artıq çox yaxşı nəticələr verməkdədir. Dövlətimizin başçısı ticarət dövriyyəsinin azalmasına baxmayaraq, toplanan gömrük rüsumlarının həcminin əvvəlki dövrə nisbətən artdığını vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan gömrük sisteminin regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsində fəal rol oynadığını deyərək, ölkəmizdə regional gömrük strukturlarının, o cümlədən tədris mərkəzinin fəaliyyət göstərməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanın ölkəmizə səfəri əlaqələrimizin genişləndirilməsi işinə öz töhfəsini verəcək.*

*Azərbaycan gömrük sisteminin müasir texnologiyaların tətbiqi, insan resurslarının idarə olunması, gömrük sahəsində kadrların peşəkar səviyyəsinin artırılması və digər istiqamətlərdə böyük nailiyyətlər əldə etdiyini vurğulayan Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya bütün bunların güclü*

*siyasi dəstək sayəsində mümkün olduğunu qeyd etdi. Kunio Mikuriya bu sahəyə verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ölkəmizdə gömrük sahəsində beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla qeyd edərək, Bakıda keçirilən «İqtisadiyyatda təhlükəsizlik: ticarətin asanlaşdırılması və mühafizəsi aspektləri» mövzusunda konfransın əhəmiyyətini vurğuladı.*

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN VƏ PREZİDENTİ CON ŞAPİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin və Komitənin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparıldı, bu islahatların yaxından izlənildiyi qeyd olundu.*

*Azərbaycan Respublikası Prezidentinin Davosda səmərəli görüşlər keçirdiyi vurğulandı, bu görüşlər dünyada Azərbaycanla əməkdaşlığa olan marağın göstəricisi kimi dəyərləndirildi.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrə toxunuldu, bu əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, Azərbaycan–ABŞ əməkdaşlığının bundan sonra da davam etdiriləcəyi əminliklə qeyd olundu.*

*Daha sonra Azərbaycan–İsrail əlaqələrindən danışıldı, bu əlaqələrin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğu bildirildi, İsrailin Baş naziri Benyamin Netanyahunun ölkəmizə səfərinin bu əlaqələrin genişləndirilməsi baxımından önəmi vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Amerika Yəhudi Komitəsi arasında əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

## «REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ ÜÇÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA* İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*30 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Heydər Əliyev Mərkəzində «Regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq.

Bütün obyektiv çətinliklərə baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib və bütün əsas vəzifələr icra olunubdur.

İqtisadiyyatın əsas göstəriciləri müsbətdir. Kənd təsərrüfatı 2,6 faiz, ölkəmizin qeyri-neft sənayesi isə 5 faiz artıb. Dünyada

---

*Konfransda Иqtиsadиyyat nazиrи Шahиn Mustafayev, Kяnd Tяsяrrцfatы nazиrи Heydяr Яsяdov, Meyvя vя Tяrяvяz Иstehsalчыlarы vя Иxracatчыlarы Assosиasиyasыnыn sяdrи Вяшир Qulиyev, Fындыq Иstehsalчыlarы vя Иxracatчыlarы Assosиasиyasыnыn sяdrи Иsmayыl Orucov, Şяrab Иstehsalчыlarы vя Иxracatчыlarы Assosиasиyasыnыn sядгu Elчиn Mяdяtov, Azяrbaycan Turиzm Assosиasиyasыnыn rяhbяrи Nahиd Baьыrov və Balыq Yemи Иstehsalы zavodunun dиrektoru Zaur Salmanov чыхыш etdilər.

neftin qiymətinin 3-4 dəfə aşağı düşməsinə baxmayaraq, əvvəlki illərdə görülmüş işlər və keçən il apardığımız dərin islahatlar nəticəsində biz bu inkişafı təmin edə bilmişik. Dünyada bu gün də davam edən iqtisadi və maliyyə böhranı bizim işimizə də öz mənfi təsirini göstərib. Ancaq hesab edirəm ki, Azərbaycan digər ölkələrlə müqayisədə bu ağır vəziyyətdən minimum itkilərlə çıxa bildi. Keçən il 100 mindən çox daimi iş yeri yaradılıb. Bu proses 2004-cü ildən bu günə qədər davam edir.

Biz Neft Fondunun valyuta ehtiyatlarını qoruya bilmişik. Hesab edirəm ki, bu da çox əlamətdar hadisədir. Çünki neftlə zəngin olan ölkələrin böyük əksəriyyəti öz valyuta ehtiyatlarının bir hissəsini xərcləmişdir. Biz isə çalışdıq və buna nail olduq ki, valyuta ehtiyatlarımızı qoruyaq. Çünki valyuta ehtiyatlarımız həm bu gün, həm də sabah üçün lazım olacaq və bütövlükdə, bu bizim iqtisadi imkanlarımızı, iqtisadi müstəqilliyimizi möhkəmləndirən amildir.

Deyə bilərəm ki, 2016-cı ildə gördüyümüz işlərə dünyanın mötəbər beynəlxalq iqtisadi qurumları da yüksək qiymət verir. Onların arasında dünyanın ən böyük qeyri-hökumət iqtisadi qurumu, bütün dünya liderlərini, dünyanın siyasi-iqtisadi elitasını birləşdirən Davos Dünya İqtisadi Forumu Azərbaycan ilə bağlı verdiyi hesabatda yenə də müsbət rəy bildirib. Beləliklə, ölkələrin rəqabətqabliyyətliliyinə görə Azərbaycan 3 pillə irəliləyərək, 37-ci yerdə qərarlaşıb. Digər göstəriciyə – inkişaf edən ölkələr arasında inkişafa görə isə – bu hesablama təxminən 80-ə yaxın inkişaf edən ölkəni cəmləşdirir – Azərbaycan birinci-ikinci yerləri bölüşür. Bax, budur aparıcı beynəlxalq iqtisadi qurumların bizim işlərimizə verdikləri qiymət.

Biz işimizi reytinq almaq üçün qurmuruq. Ancaq belə bir fikirlər ortalığa qoyulanda, bu həm bizi daha da sevindirir, eyni zamanda, bu, dünyanın bütün maliyyə qurumlarına bir siqnaldır. Ona görə bu gün Azərbaycan üçün istənilən layihəyə kredit almaq artıq çoxdan problem deyil. Hətta indiki siyasətimiz ondan ibarətdir ki, biz xarici kreditlərə o qədər də böyük meyil göstərməyək. Çalışmalıyıq ki, bundan sonra da bü-

tün işləri daxili imkanlar hesabına görək. Çünki xarici borcun artması müsbət hal deyil. Bizdə isə bu göstərici də çox yaxşı səviyyədədir, təqribən 20 faiz səviyyəsindədir. Bu da əvvəlki illərlə müqayisədə daha böyük rəqəmdir. Bunun da səbəbi manatın devalvasiyaya uğramasıdır. Ondan əvvəlki dövrdə bizim xarici borcumuz 10 faiz həddini keçməyib. Bu gün də bu, məqbul səviyyədədir. Amma biz çalışmalıyıq ki, bu artmasın, əksinə, azalsın. Xarici borcu azaltmaq üçün biz xarici kreditləri çox böyük ehtiyatla almalıyıq. Ancaq ölkəmiz üçün strateji əhəmiyyət daşıyan layihələrə biz xarici borcu ala bilərik.

Bir sözlə, hesab edirəm ki, 2016-cı ildə ümumi iqtisadi inkişaf müsbət qiymətləndirilməlidir. Xüsusilə bölgələrdə aparılan işlər öz dinamikasını saxlayıb. Keçən il bölgələrdə çox böyük işlər görülüb.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bölgələrimizin simasını dəyişdirib. Bugünkü konfrans sayca 14-cüdür. 14 ildir ki, biz hər il ilin əvvəlində görülən işlərə qiymət veririk, nöqsanları aşkar edirik və gələcək üçün fəaliyyət planımızı tuturuq. Bu il də bu ənənəyə sadiq qalaraq, bu konfransı keçiririk. Burada mərkəzi, yerli icra orqanlarının rəhbərləri, aparıcı biznes qurumlarının nümayəndələri iştirak edirlər. Konfransın birinci hissəsindən sonra tədbir işinə davam edəcək. Əminəm ki, aparılacaq diskussiyalar və müzakirələr bu il ərzində görüləcək əlavə işlər haqqında fikir formalaşdırmağa imkan verəcək.

Əslində biz regional inkişaf proqramlarını tərtib edərkən bölgələrdən rəylər aldıq. Bizim bu gün müzakirə etdiyimiz və 2014-cü ildə qəbul olunmuş üçüncü Dövlət Proqramı da yerlərdən gələn təkliflər əsasında və ölkəmizin strateji istiqaməti nəzərə alınaraq, tərtib edilib. Proqramların məqsədi məhz ondan ibarətdir ki, bütün mövcud problemlər, insanları narahat edən sosial məsələlər öz həllini tapsın. Bizim proqramlarımız çox konkretdir. Qarşıya çox konkret hədəflər qoyulur və deyə bilərəm ki, həm birinci, həm də ikinci proqram

artıqlaması ilə və uğurla icra edilibdir. Əminəm ki, üçüncü proqramın taleyi də eyni olacaqdır.

2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Çünki regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addımlar, infrastruktur ilə bağlı olan layihələr bugünkü reallığı yaratmışdır. Əgər o vaxt biz proqramı mənim təşəbbüsümlə qəbul etməsəydik, bu gün, əlbəttə ki, regionlarda bugünkü uğurları əldə edə bilməzdik. Bizim bütün bölgələrimiz, bütün şəhərlərimiz abadlaşıb, gözəlləşib. Bakı şəhəri, bizim əsas şəhərlərimiz – Gəncə, Sumqayıt göz oxşayır, dünya üçün bir nümunədir. Bizim bütün şəhərlərimizdə abadlıq-quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu, imkan verir ki, bu gün Azərbaycan dinamik inkişaf etsin. Bu, imkan verir ki, biznes strukturları bu imkanlardan səmərəli istifadə etsin.

Bizim proqramımızın birinci mərhələsi daha çox infrastruktur layihələri ilə bağlı idi. Bu da təbii idi. Çünki biz 2004-cü ildə enerji təhlükəsizliyimizi tam təmin edə bilməmişdik. O vaxt bizim əsas neft kəmərimiz Bakı–Tbilisi–Ceyhan inşa edilirdi. O vaxt biz xaricdən elektrik enerjisi və qaz alırdıq. Bu asılılıq imkan vermirdi ki, biz istədiyimiz dərəcədə inkişaf edək. Yəni inkişafımızı ləngidən xarici amillər idi. Biz xaricdən istədiyimiz qədər enerji, qaz ala biləcəyik, yoxsa yox və hansı qiymətə alacağıq?! Ona görə birinci hədəf enerji müstəqilliyimizi təmin etmək idi. Biz buna qısa müddət ərzində nail olduq. 2004-cü ildən bu günə qədər ölkəmizdə 26 elektrik stansiyası tikilib. Bu stansiyaların ümumi istehsal gücü 2400 meqavatdır. İndi təsəvvür edin, əgər biz bunu etməsəydik, bu gün necə yaşaya bilərdik, necə inkişaf edə bilərdik?!

Onu da deməliyəm ki, son 13-14 il ərzində yaradılmış elektrik gücü təxminən bütün əvvəlki illərdə yaradılmış gücə bərabərdir. Bu gün bizim 35 elektrik stansiyamız varsa, onların 26-sı proqram icra edilərkən tikilib. O vaxt Azərbaycanda qazlaşdırma 51 faiz səviyyəsində idi. Bölgələrdə isə, demək olar ki, təbii qaz

yox idi. Bu gün Azərbaycanda qazlaşdırmanın səviyyəsi 92 faizə qalxıbdır.

2004-cü ildən bu günə qədər təxminən 11 min kilometr avtomobil yolu tikilib. Bu həm magistral yollara, həm də şəhərlərarası və kənd yollarına aiddir. Bu yol infrastrukturu həm insanlara rahatlıq verir, eyni zamanda, iqtisadi inkişaf üçün də mühüm amildir. Yol olmayan yerdə nə investisiya, nə iş yeri, nə də bir inkişaf olacaq. Ona görə yol infrastrukturuna çox böyük diqqət verilir. Bununla bərabər, yol tikintisində kifayət qədər çox işçi qüvvəsi iştirak edir və beləliklə, biz məşğulluğu təmin edə bilmişik. Müasir yol infrastrukturu yaradılıb, bu proses davam etdirilir. Bu il görüləcək işlər haqqında danışacağıq və qarşıya məqsəd qoyulub ki, bütün yollarımız yüksək səviyyədə olsun – magistral, şəhərlərarası, kənd yolları – fərq etməz, bütün yollar.

Kənd təsərrüfatını stimullaşdırmaq üçün böyük meliorativ tədbirlər görülüb. Yüz minlərlə hektar torpağın meliorativ vəziyyəti yaxşılaşdırılıb və ya yeni suvarılan sahələr dövriyyəyə buraxılıb. 4 su anbarı tikilib. Xüsusilə onların arasında ən böyük Taxtakörpü və Şəmkirçay su anbarlarını qeyd etmək istəyirəm. Tovuzçay, Göytəpə su anbarları tikilib. Bu da çox böyük vəsait tələb edən məsələlərdir, amma çox lazımdır. Çünki əfsuslar olsun ki, bizim su ehtiyatlarımız ölkəmizin hüdudlarından kənarda formalaşır. Ona görə biz sudan səmərəli istifadə etməliyik və ölkə daxilində elə imkanlar, elə infrastruktur, rezervuarlar yaratmalıyıq ki, həm ehtiyatımız olsun, həm də biz əkin sahələrini genişləndirə bilək. Bu sahə də çox böyük investisiya tələb edən sahə idi. Hesab edirəm ki, bu sahədə əsas işlər görülübdür. Mən görüləcək işlər haqqında bir qədər sonra fikirlərimi bildirəcəyəm.

Beləliklə, deyə bilərəm ki, birinci proqramdan sonra əsas infrastruktur layihələri icra edildi. Mən çox şadam ki, biz bunu qısa müddət ərzində etdik. Mən həmişə çalışırdım ki, biz bunları vaxt itirmədən edək. Çünki bu, ölkəmizin inkişafı, gələcəyimiz üçün zəruridir. Bu infrastruktur bundan sonra onilliklər ərzində xalqımıza, dövlətimizə xidmət edəcək. Bu bizim ölkəmizi böyük dərəcədə gücləndirib, elə bir imkan yaradıb ki, bu gün Azərbaycanda istənilən sahəyə investisiya qoymaq istəyən qurumlar fəallaşır. İnvestisiya ancaq o yerə qoyulur ki, orada artıq baza infrastrukturu var. Əgər iş görmək istəyən hansısa investor görsə ki, işıq, qaz, su yoxdur, heç

vaxt investisiya qoymaz. Yaxud da heç bir investor öz hesabına infrastruktur layihələrinə pul qoymaz. Bu, dövlətin işidir. Biz bunu daxili və xarici investorlar üçün görmüşük.

O ki qaldı daxili biznes qurumlarının fəaliyyətinə, deyə bilərəm ki, bu illər ərzində Azərbaycanda güclü və fəal milli biznes sinfi formalaşıbdır. Əlbəttə, dövlət də bu sahədə öz dəstəyini əsirgəməyibdir. Mən iş adamları ilə daim təmasdayam, görüşlər keçiririk, onların problemlərinin həlli ilə məşğuluq və onlara həmişə siyasi və maddi dəstək verilir. Çünki mən yaxşı başa düşürdüm ki, ilkin kapital olmadan heç bir işi görmək mümkün deyil. Bir də ki, heç bir biznesmen, iş adamı riskli yerlərə, ölkələrə heç vaxt pul qoymaz. Ona görə təhlükəsizlik, sabitlik, gözəl ictimai ab-hava, biznesə dövlət dəstəyi və maddi dəstək – hesab edirəm ki, bu amillər milli biznes sinfini formalaşdırıb.

Son illər ərzində – 2004-cü ildən bu günə qədər Azərbaycan sahibkarlarına təxminən 2 milyard manat dəyərində güzəştli şərtlərlə kreditlər verilib. Bu kreditlər ölkə iqtisadiyyatının inkişafına böyük dəstək olub. Onu da deməliyəm ki, bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə veriləcək güzəştli kreditlərin hamısı əvvəlki illərdə verilmiş və qaytarılmış kreditlər hesabına veriləcək. Artıq dövlət bu yükü, necə deyərlər, öz üzərindən kənara qoyub. Bax, məqsəd də ondan ibarət idi. Hər il biz böyük məbləğdə – 200 milyon, bəzi hallarda 250 milyon manat ayırırdıq və bu vəsait hesabına işlər görülürdü, iş yerləri açılırdı, böyük biznes imkanları yaradılırdı. Vaxt gəldi ki, artıq dövlət bu pulu büdcədən ayırmır və biz bunu qaytarılmış kreditlər hesabına edirik.

Hesab edirəm ki, bu da bir yenilik idi. Mən xatırlamıram ki, hər hansı bir ölkədə biznes strukturlarına dövlət tərəfindən bu formada yardım göstərilsin. Onu da qeyd etməliyəm ki, bizim təcrübəmizdən indi bir çox ölkələr istifadə edir və bizi nümunə kimi göstərirlər. Ona görə infrastruktur layihələri, onunla paralel olaraq, biznes mühitinin yaxşılaşdırılması, biznesə göstərilən diqqət və əlbəttə ki, sosial infrastrukturun yaradılması vahid bir proqram çərçivəsində uğurla icra edilir.

Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək və dayanıqlı inkişafa nail olmaqdır. Məqsədimiz ondan ibarətdir ki, bu işləri onun üçün edirik ki, Azərbaycan

vətəndaşı, xalqımız daha da yaxşı yaşasın. Ona görə sosial məsələlərin həlli bütün proqramlarda nəzərdə tutulur, həm maaşların, pensiyaların, sosial müavinətlərin, ünvanlı sosial yardımın artırılması və eyni zamanda, sosial infrastrukturun yaradılması qarşımıza məqsəd kimi qoyulur.

Sosial infrastruktura gəldikdə, qeyd etməliyəm ki, son illər ərzində – 2004-cü ildən başlayaraq 3000-dən çox məktəb tikilib və ya təmir edilib. 600-dən çox tibb ocağı tikilib və ya təmir edilib. Ancaq bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, 20-dən çox muzey, 10-dan çox teatr binası inşa edilib. Yəni bütün sosial infrastruktur bloku da daim diqqət mərkəzindədir. Bu proses davam etdirilir. Bu ilin Dövlət İnvestisiya Proqramında da sosial infrastrukturun yaradılması üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub.

Biz bu illərdə ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı çox ciddi addımlar atmışıq. Azərbaycanda kosmik sənaye yaradılıb. Bizim artıq 2 peykimiz var. Bu da yenilikdir, texnologiyadır, biznesdir. Biz bu məsələlərə bu nöqteyi-nəzərdən yanaşırıq. Əgər həm müasir texnologiyaların inkişafı, həm kadr hazırlığı, həm də ki, kosmik sənaye düzgün qurularsa, bu, böyük gəlir mənbəyidir. Biz bu yolla gedirik və əminəm ki, o peyklərin hazırlanmasına, orbitə buraxılmasına qoyduğumuz bütün vəsait qaytarılacaq. Çünki artıq bunun biznes imkanları kifayət qədər genişdir.

Biz bu illər ərzində ölkəmizin strateji maraqlarını təmin edən nəhəng layihələri həyata keçirmişik. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri 2007-ci illərdə istifadəyə verilib. İndi ölkəmizi və bölgəmizi bu layihələrsiz təsəvvür etmək mümkün deyil. Bu layihələr nəinki ölkəmizi gücləndirir, həm də xalqımıza xeyir gətirir. Bu infrastruktur layihələrini biz nəyə görə icra etmişik? Bu layihələr bölgədə yerləşən ölkələr üçün də xeyir gətirir, regional əməkdaşlığı dərinləşdirir, bölgədə, regionda sabitliyi möhkəmləndirir və Azərbaycanın bu sahədə liderlik keyfiyyətlərini çox açıq şəkildə ortaya qoyur. Biz bəziləri üçün əfsanə kimi görünən layihələri heç bir problemsiz, heç bir maneəsiz həyata keçirdik. Baxmayaraq, bir çox qüvvələr var idi ki, bizə problem yaratmaq, bu layihələri əngəlləmək istəyirdi. Alınmadı, çünki biz güclü siyasi iradə ortaya qoyduq və düşünülmüş, çox dəqiq siyasətlə bu strateji hədəflərə çata bildik.

Bu gün isə bu dəhliz əsasında yeni bir qlobal layihəni – «Cənub Qaz Dəhlizi»ni icra edirik. Bu layihə də uğurla icra edilir. Mən tam açıq deyə bilərəm ki, əgər Azərbaycan yenə də, bax, bu layihənin icrası ilə bağlı liderlik keyfiyyətlərini ortaya qoymasaydı, bu layihə heç vaxt icra edilməzdi. Mən şəxsən bu layihə ilə bağlı 10-a yaxın beynəlxalq konfransda, tədbirdə iştirak etmişəm. Bu tədbirlərdə öz sözümü demişəm, təkliflərimi irəli sürmüşəm. Yəni konkret danışmışdım, sadəcə olaraq, formal yox, konkret nə kimi işlər görülməlidir. Qərar qəbul etdik ki, biz bunu özümüz öz gücümüzə, dost, qonşu ölkələrlə birlikdə edəcəyik və bunu edirik. Ondan sonra bu simpoziumları, konfransları keçirənlər də bizə qoşuldular, bu da məqbul bir haldır. Biz bunu alqışlayırıq. Əməkdaşlıq formatı nə qədər çox genişlənərsə, bizim üçün bir o qədər yaxşıdır. Lakin bir daha onu demək istəyirəm ki, «Cənub Qaz Dəhlizi» bu gün ancaq Azərbaycanın liderliyi hesabına icra edilir. Bunu bu işlərlə tanış olan hər kəs təsdiq edə bilər. Təsadüfi deyil ki, Azərbaycanın bu işdə liderliyi, fəal və əsas rolu ötən ilin fevralında Bakıda keçirilən ikinci «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının yekun sənədində də göstərilib.

Bu layihə uzunmüddətli maraqlarımızı təmin edəcək. Bu layihənin icrasından sonra həm maliyyə imkanlarımız xeyli artacaq, həm də Azərbaycan regional əməkdaşlıq, enerji təhlükəsizliyi baxımından indikindən daha çox, daha böyük önəm daşıyan ölkə olacaqdır.

Yəni son illər ərzində görülmüş bütün işləri sadalamaq çətindir. Mən sadəcə olaraq, əsas məqamları diqqətinizə çatdırıram. Ona görə ki, bu bizim tariximizdir. Bunlar olmasaydı, bu gün biz gələcək planlarımız haqqında danışa bilməzdik. Azərbaycan o ölkələrdəndir ki, neftdən çox səmərəli və ağıllı şəkildə istifadə edir. Mən xatırlayıram, hələ keçən əsrin 90-cı illərinin sonlarında, 2000-ci illərin əvvəllərində bəzi təhlilçilər deyirdilər ki, neft Azərbaycana xoşbəxtlik gətirməyəcək, problem gətirəcək. Ancaq biz bu təbii sərvətimizdən maksimum dərəcədə səmərəli istifadə edə bildik, ölkəmizi möhkəmləndirdik, möhkəm dövlət qurduq və 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Şəhərlərimizi qurmuşuq, özümüz üçün gözəl həyat yaratmışıq. Gələcəkdə daha da böyük işlər görüləcək. Əlbəttə ki, bütün bu işlərin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əgər xalq bizə dəstək verməsəydi, biz bütün bu işləri görə bilməzdik. Ona görə də bizim bütün uğurlarımızın mərkəzində

Azərbaycan vətəndaşı dayanır. Xalq, ictimaiyyət tərəfindən verilmiş və verilən dəstək, əlbəttə ki, bizi həm gücləndirir, həm də ruhlandırır.

Onu da deməliyəm ki, biz bütün bu işləri o qədər də asan olmayan şəraitdə icra etmişik. Yaxşı bilirsiniz ki, bizə qarşı mütəmadi qaydada qarayaxma, böhtan, təhqir kampaniyaları aparılır. Ancaq bunların heç biri bizə təsir etmir. Çünki biz bilirik ki, bunlar haradan qaynaqlanır, bunun arxasında kimlər dayanır, onların məqsədi nədən ibarətdir. Ona görə öz yolumuzla gedirik və həyat hər şeyi öz yerinə qoyur. Bizə qarşı o çirkin kampaniyaları təşkil edənlərin özləri də artıq siyasi səhnədən kənarlaşdırılıblar. Artıq dünya Azərbaycanı daha yaxşı tanıyır. Görürlər ki, bu, müstəqil dövlətdir, ləyaqətli dövlətdir. Azərbaycan xalqı qürurlu xalqdır, heç vaxt imkan verməz ki, kimsə bizə nəyisə diktə etsin. Biz öz ləyaqətimizi həmişə saxlamışıq və saxlayırıq. Ölkəmizi bundan sonra da inamla qabağa aparmaq üçün lazım olan bütün məsələləri həll etməliyik. Onların içində, əlbəttə ki, regional inkişaf proqramı xüsusi yer tutur. Əminəm ki, proqramda 2018-ci ilə qədər nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaq və əlavə məsələlər də proqrama daxil ediləcək.

## YEKUN NİTQİ

Əminəm ki, bu çıxışlarda səslənən təkliflər dövlət orqanları tərəfindən təhlil ediləcək. Bu gün və bundan sonrakı görüşlər əsnasında bütün bu məsələlər öz həllini tapacaq və beləliklə, ixracımız və yerli istehsalımız üçün yeni imkanlar yaranacaq.

Bu il görüləcək işlərlə bağlı tapşırıqlarımı vermək istəyirəm. Birincisi, infrastruktur layihələrinə aid olan məsələlər. «Azərişıq» bütün bölgələrdə elektrik təsərrüfatının təkmilləşdirilməsi, yeni xətlərin çəkilməsi, bütün regionların dayanıqlı enerji ilə təmin edilməsi üçün əlavə tədbirlər görməlidir. Yeni yarımstansiyalar, transformatorlar quraşdırılmalıdır. Bu proses gedir və daha da sürətlə getməlidir. Çünki indi bizim generasiya gücümüz kifayət qədər böyükdür. Biz elektrik enerjisini bu gün artıq ixrac edirik. Belə olan halda, bütün elektrik təsərrüfatımız da, daxili təsərrüfat da yüksək səviyyədə olmalıdır ki, heç bir fasilə və başqa problem olmasın.

Bu il «Azəriqaz» ən azı 80 kəndə qaz verməlidir. Qaz xətləri çəkilməlidir. Qeyd etdiyim kimi, bizdə qazlaşdırma indi 92 faizdir. Bu

ilin sonuna qədər bu, 94 faizə çatmalıdır. 80 kəndin qazlaşdırılması minimum proqramdır. Nə qədər çox olsa, o qədər yaxşıdır.

«Azəravtoyol» bu il şəhərlərarası yollarla, eyni zamanda, magistral yollarla bağlı öz layihələrini icra edəcək. Bununla bərabər, 40 kənd yolu layihəsi də icra edilməlidir. Bu layihələrin icrası yüzlərlə kəndin yol təsərrüfatını yaxşılaşdıracaq və əlbəttə ki, həm insanlara rahatlıq verəcək, eyni zamanda, iqtisadi inkişaf üçün də bunun böyük müsbət təsiri olacaq. Keçən il də kənd yolları layihələri uğurla icra edilib. Bu il bu proses davam etdiriləcək. Əminəm ki, yaxın gələcəkdə bir dənə də olsun təmirsiz kənd yolu qalmayacaq.

Nəqliyyatla bağlı digər məsələ isə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin davam etdirilməsidir. Bu il bu layihənin birinci mərhələsi başa çatmalıdır. Dövlət İnvestisiya Proqramında bunun üçün kifayət qədər vəsait nəzərdə tutulub. Digər nəqliyyat layihələrinin icrası da davam edir. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edibdir, istər Bakı–Tbilisi–Qars, istər Şimal–Cənub layihələri ilə bağlı. İndi isə bizim qonşu tərəfdaş ölkələrdə aparılacaq işlər nəticəsində bu layihələr ərsəyə gələcək.

Əlbəttə, biz öz üzərimizə düşən bütün vəzifələri tez bir zamanda artıqlaması ilə icra etmişik və bütün lazımi infrastruktur var. Bundan əlavə, bir neçə il əvvəl Bakıda tikilmiş Gəmiqayırma zavodunun fəaliyyəti nəticəsində biz öz donanmamızı da yeniləşdiririk. Biz təkcə özümüzü yox, Xəzəryanı qonşu ölkələri də müasir gəmilərlə təmin edə bilərik.

«Azərsu» ASC-nin qarşısına məqsəd qoyulmuşdur ki, bir neçə il ərzində bütün şəhərlərimizin içməli su və kanalizasiya layihələri tam icra edilsin. Əhaliyə sutkaboyu fasiləsiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilsin. Biz bu hədəfə doğru irəliləyirik. Hər il bir çox şəhərlərimizdə içməli su layihələri istifadəyə verilir. Hazırda Bakının fasiləsiz su təminatı 80 faizə çatıb. Ölkə üzrə isə bu göstərici təxminən 65 faizdir. Bu daha da artmalıdır. Ancaq biz bu proqramın icrasına başlayanda fasiləsiz suyun verilməsi üzrə ümumi göstərici təqribən 25–30 faiz idi. Yəni çox işlər görülüb və bu il də davam etdirilməlidir.

Bununla paralel olaraq, biz çaylar boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular da quraşdırırıq. Artıq 300–400 min nəfər əhali bu imkanlardan istifadə edir. Bu il minimum 50 kənddə sutəmizləyici qurğular quraşdırılmalıdır.

Meliorasiya ilə bağlı çox böyük işlər görüləcək. Bu sahənin inkişafı bizim həm ərzaq təhlükəsizliyimizin təmin olunmasına, həm də ixrac potensialımızın artırılmasına xidmət göstərir. Bu il təqribən 150–160 min hektar torpağa suyun verilməsi təmin edilməlidir. Bu çox böyük rəqəmdir. Biz buna nail olmalıyıq. Buna nail olmaq üçün imkanlar var. Müvafiq göstərişlər verilibdir. Bu layihələrin icrası nəticəsində bizim ixrac potensialımız böyük dərəcədə artmalıdır. İndi yeni suvarılacaq torpaqlarda hansı məhsulların əkilməsi ilə bağlı işlər gedir. Elə etməliyik ki, ilk növbədə öz daxili tələbatımızı ödəyək və eyni zamanda, güclü ixrac potensialı da yaradaq.

Bu layihələrlə bağlı artıq konkret işlər görülür. Qeyd etməliyəm ki, bu işlər nəzarətdədir. Mən görüləcək minimum işlərin həcmini diqqətə çatdırmaq istəyirəm ki, hamı bilsin. Bu işlərə həm güclü dövlət nəzarəti, həm ictimai nəzarət olmalıdır. Deməli, biz rayon icra hakimiyyətlərinin xətti ilə yerlərdən verilən təkliflər əsasında bu məsələlərə baxırıq və vəsait ayırırıq. Bu, Dövlət İnvestisiya Proqramında da var. Mən rayon icra hakimiyyətlərinin xətti ilə hansı işlərin görüləcəyini indi sadalayacağam ki, bizim dövlət orqanları və eyni zamanda, rayon ictimaiyyəti buna nəzarət etsin. Əgər orada hansısa ləngimə olarsa, yaxud da ki, bu işlər natamam görülərsə, dərhal məlumat versinlər.

Beləliklə, Ağdam rayonunda yerlərdən xahiş olundu ki, orada 30 artezian quyusu qazılsın və vəsait də ayrıldı. Bunun nəticəsində təqribən 1000 hektardan çox torpağa su veriləcək. Ağdaş rayonunda 15800 hektar, Füzuli rayonunda 3000 hektar, Hacıqabul rayonunda 4800 hektar, İmişli rayonunda 3000 hektar, Kürdəmir rayonunda 10650 hektar, Neftçala rayonunda 8000 hektar, Salyan rayonunda 5000 hektar, Şəmkir rayonunda 8000 hektar və Ucar rayonunda 2100 hektar torpaq su ilə təmin olunacaq. Bax, sadaladığım bütün bu rəqəmlər təmin edilməlidir. Çünki bu rəqəmlər yerlərdən verilib. Bu rəqəmlərə görə dövlət vəsaiti ayrılıb. Ona görə çox ciddi nəzarət və təftiş edilməlidir. Bu layihələr ancaq rayon icra hakimiyyətlərinin xətti ilə icra ediləcək.

«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin xətti ilə aşağıdakı layihələr icra edilməlidir: 2700 hektar əkin sahəsinin suvarılması üçün Yuxarı Mil kanalının tikintisi;

Neftçala magistral kanalının tikintisi 4300 hektar əkin sahəsinin suvarılmasını təmin edəcək; Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Balahəşimxanlı, Əliləmbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün kanalın tikintisi əlavə 2000 hektar torpaq sahəsini suvarmağa imkan verəcək; Araz çayının yeni qolunun tikintisi təxminən 40 min hektar sahəni su ilə təmin edəcək; Goranboy, Samux rayonlarının ərazisində görüləcək suvarma işləri 4500 hektara su gətirəcək; Samur–Abşeron suvarma sisteminin yenidən qurulması və inkişafı hesabına Taxtakörpü su anbarı tikilir, ondan qollar ayrılır, bu da Xızı, Şabran və Siyəzən rayonlarında 20 min hektara suyun verilməsini təmin edəcək.

Üçüncü qurum «Azərsu» Açıq Səhmdar Cəmiyyətidir. «Azərsu» bu istiqamətdə 2 layihəni icra edəcək. Hacıqabul və Şamaxı rayonlarında 10 min hektar torpağa su gətirəcək. Zərdab rayonunda da 10 min hektar torpaq suvarılacaq. Beləliklə, əgər bütün bu rəqəmləri toplasaq, təxminən 160 min hektara yaxın yeni əkin sahələri yaradılacaq. Bütün bunlar artıq təsdiq edilib və vəsait də nəzərdə tutulub. Mən ona görə bu rəqəmləri diqqətə çatdırıram ki, ictimaiyyət bunu bilsin və bu işlərə çox ciddi nəzarət olmalıdır. Onu da qeyd etməliyəm ki, biz ilk dəfə olaraq suvarma işlərinin bir hissəsini rayon icra hakimiyyətlərinə həvalə edirik. Onlar da bu məsuliyyəti dərk etməlidirlər və bütün bu işlər lazımi səviyyədə görülməlidir.

Əlbəttə, suvarma ilə bağlı biz müasir texnologiyalar tətbiq etməliyik. Artıq pivot suvarma sistemləri Azərbaycana gətirilir. İndi biz dövlət xətti ilə buna böyük vəsait ayırırıq. Hesab edirəm vaxt gəlib çatıb ki, Azərbaycanda pivot suvarma qurğularının istehsalına başlanılsın. Burada biznes qurumları fəallıq göstərməlidir. Bu həm onlara lazımdır, həm də dövlət bunu alacaq. Yəni burada bazarla bağlı heç bir problem olmayacaq, valyuta da kənara getməyəcək.

Sosial məsələlərin həlli ilə bağlı bütün proqramlar icra ediləcək. 2017-ci ildə icbari tibbi sığorta ilə bağlı önəmli addımlar atılmalıdır. Artıq Mingəçevir şəhərində və Yevlax rayonunda

pilot layihə icra edilməyə başlanıb. Biz baxarıq, görək bu layihə necə icra ediləcək. Hər halda, inkişaf etmiş ölkələrdə icbari tibbi sığorta sistemi çoxdan tətbiq olunur. Biz də müasirliyə doğru gedirik. Biz bütün sahələrdə ən qabaqcıl təcrübəni tətbiq etməliyik. İnkişaf etmiş ölkələrin təcrübəsi, əlbəttə ki, müsbətdir. Biz isə bunu sınaq, pilot layihə kimi icra etməyə başlayırıq və 2017-ci il bu istiqamətdə önəmli il olmalıdır.

Sosial infrastruktur layihələri ilə bağlı artıq konkret tapşırıqlar var. Təhsil Nazirliyinin xətti ilə bu il təxminən 130-a yaxın məktəbdə təmir və tikinti işləri aparılmalıdır. Bakı Şəhər İcra Hakimiyyəti isə bu il və gələn il Bakıda təmirə ehtiyacı olan qalan məktəblərdə də təmir işlərini yekunlaşdırmalıdır. Artıq bir neçə ildir ki, bu proqram icra edilir.

Bakının əksər məktəbləri ya yenidən tikilib, ya əsaslı təmir olunub, yeni korpuslar inşa edilib. Hələ ki, bir neçə təmirsiz məktəb qalır və biz bu il, gələn il buna da artıq son qoymalıyıq.

Gənclər və İdman Nazirliyi bu il Abşeron və Ağcabədi Olimpiya İdman komplekslərini istifadəyə verməlidir. Hazırda inşası gedən digər olimpiya komplekslərində də işlər davam etdirilməlidir.

«Dövlətqaçqınkom»un xətti ilə yeni yaşayış binalarının tikintisi nəzərdə tutulur. Qeyd etməliyəm ki, son illər ərzində məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə inşa edilib. 200 mindən çox məcburi köçkün o binalara yerləşdirilib. Bütövlükdə isə son illərdə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması məqsədlərinə 5 milyard manatdan çox vəsait ayrılıb.

Bu il yeni binalar tikilməlidir. Yerlər ayrılıbdır. Eyni zamanda, mövcud qəsəbələrdə yeni fərdi evlərin tikintisi də nəzərdə tutulur. Çünki artıq orada infrastruktur var və əlavə infrastruktura vəsait qoymağa ehtiyac yoxdur. Eyni zamanda, tapşırıq verilib ki, Bakıda yataqxanalarda məskunlaşan köçkünlərin köçürülməsi prosesi də bu il başlansın. Artıq müvafiq göstərişlər verilib, layihələr hazırlanır və əlavə vəsait ayrılacaq ki, biz bu il və bundan sonrakı illərdə bu yataqxanalarda yaşa-

yan vətəndaşlarımızın mənzil şəraitini yaxşılaşdıraq. Bir daha demək istəyirəm ki, bütün müvafiq göstərişlər verilib. İndi hesablamalar, layihələndirmə işləri aparılır. Ümid edirəm ki, yaxın gələcəkdə, bəlkə də 1 ay ərzində artıq praktiki tikinti işləri başlanılmalıdır.

Bildiyiniz kimi, Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı müvafiq sərəncam imzalanıb. Bu layihənin icra edilməsi çox böyük rəmzi məna daşıyır. Bu, tarixi hadisədir. Biz işğaldan azad edilmiş kəndə sakinləri qaytarırıq. Mən çox şadam ki, Cocuq Mərcanlı kəndinin sakinləri buna çox böyük həvəslə, böyük maraqla yanaşırlar, o günü səbirsizliklə gözləyirlər. Əminəm ki, biz Cocuq Mərcanlı kəndini qısa müddət ərzində yenidən quracağıq. İndi orada təmizlik və minalardan təmizlənmə işləri aparılır. O kəndin görüntüləri televiziyada da göstərilir.

Bu kənd bir neçə ay işğal altında olub. Sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadiz əməliyyatı keçirildi. İşğalçılar, düşmənlər o kənddən qovuldular. Amma bu bir neçə ay ərzində onlar kəndi yerlə yeksan ediblər. İndi, əlbəttə ki, orada minalardan təmizlənmə işləri aparılmalı, sonra isə infrastruktur layihələri icra olunmalıdır. Mən göstəriş vermişəm, beynəlxalq təşkilatlara da müraciət olunsun ki, onlar da öz nümayəndələrini ora göndərsinlər və erməni vəhşiliyinin nədən ibarət olduğunu görsünlər.

İndi işğal edilmiş digər torpaqlara erməni işğalçıları beynəlxalq müşahidəçiləri buraxmırlar. Ağdamın, Füzulinin, digər şəhərlərimizin dağıntılarını biz beynəlxalq mətbuatda az-az görə bilirik. Nəyə görə? Çünki buraxmırlar. Amma bu Cocuq Mərcanlı erməni vəhşiliyinin, vandalizminin əyani sübutudur. Gəlsinlər, görsünlər ki, özlərini mədəni xalq kimi təqdim etməyə çalışanlar hansı vəhşilikləri törədiblər. Ona görə orada bu işlər görülməlidir, bütün sənədləşdirilmə, pasportlaşdırılma, erməni vəhşiliklərinin sənədləşdirilməsi işləri, video, fotoçəkilişlər aparılmalıdır, dağılmış bütün o binaların ölçüləri, dəymiş ziyan hesablanmalıdır. Yəni biz bu işlərə çox əsaslı yanaşmalıyıq və

qeyd etdiyim kimi, orada ilk növbədə, infrastruktur yaradılmalı, yollar, elektrik, qaz, su xətləri çəkilməli, mütləq məktəb, uşaq bağçası, tibb məntəqəsi və fərdi evlər tikilməlidir. Birinci mərhələdə 50 ev tikiləcək. Ancaq mən göstəriş vermişəm ki, kəndin masterplanı hazırlansın. Əminəm ki, gələcəkdə orada 100, ya da 200 ev tikiləcəkdir. Əlbəttə ki, orada yaşayacaq insanlar üçün iş yerləri də açılmalıdır. Həm əkin sahələri, həm də digər iş yerlərinin yaradılması üçün tədbirlər görüləcək və beləliklə, biz vətəndaşlarımızı uzun fasilədən sonra öz doğma ata-baba torpağına qaytaracağıq.

Ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər daim diqqət mərkəzindədir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bu rəqəmlər həm görülən işləri əks etdirir, həm də onların görüləcək işlərlə bağlı əhəmiyyəti vardır. Beləliklə, bizim əsas ərzaq məhsulları ilə özümüzü təminetmə səviyyəsini göstərən bəzi rəqəmlər aşağıdakı kimidir: mal əti – özümüzü 94 faiz təmin edirik, 5 faiz xarici komponent mövcuddur. Qoyun əti – 99 faiz və cəmi 2 faiz xarici komponent. Süd və süd məhsulları – özümüzü 88 faiz təmin edirik, bunun tərkibində 10 faiz idxal xammal vardır. Əmtəəlik yumurta – 99 faiz. Burada isə xarici komponent 65 faizdir, bunlar dənlik qarğıdalı, soya, günəbaxan və dərmandır. Bax, bu sahəyə həm dövlət qurumları, həm özəl sektor fikir verməlidir ki, burada xarici komponenti azaltmaq üçün hansı işlər görülməlidir.

Bitki yağları – özümüzü 48 faiz təmin edirik. Ancaq bu 48 faizin 80 faizi xaricdən gələn xammaldır. Yəni əslində bitki yağları və marqarinin istehsalı sadəcə olaraq, iş yerlərinin yaradılmasına xidmət edir, onun faydası bundadır. Əgər bunun tərkibində 80 faiz xarici komponent varsa, bunu yerli məhsul adlandırmaq mümkün deyil. Ona görə çalışmalıyıq və o cümlədən, biznes qurumları çalışmalıdır ki, həm bitki yağlarının istehsalının həcmi artsın, eyni zamanda, bu, daxili xammal əsasında istehsal edilsin.

Kərə yağı – 76 faiz özümüzü təminetmə əmsalıdır. Bunun içində 10 faiz xarici komponent var, bu da qablaşdırma ilə

bağlıdır. Əfsuslar olsun ki, biz bu sahədə də hələ idxaldan asılıyıq. Qablaşdırma o qədər də böyük məsələ deyil ki, biz bunu həll edə bilməyək. Xüsusilə nəzərə alsaq ki, bizdə bazarın həcmi və əhali artır, indi istənilən tara və qablaşdırma Azərbaycanda təşkil edilməlidir. Bunu həm Sahibkarlığa Kömək Milli Fondu, həm də sahibkarlar özləri nəzərə alsınlar.

Buğda – özümüzü 53 faiz təmin edirik, 20 faiz xarici komponentdir. Bu azdır. Əminəm ki, yeni iri fermer təsərrüfatlarının fəaliyyəti nəticəsində biz özümüzü buğda ilə daha da böyük səviyyədə təmin edə bilərik. Arpa – 102 faiz, qarğıdalı – 71 faiz, soya – cəmi 4 faiz. Özümüzü meyvə və giləmeyvə ilə 122 faiz təmin edirik. Ancaq burada siyahı var, yəqin ki, konfransın ikinci hissəsində bu məsələ daha detallı müzakirə ediləcək. Mən bütün bu meyvə növlərini sadalamaq istəmirəm. Lakin elə növlər var ki, biz özümüzü təmin edə bilmirik. Bu da təəssüf doğurur. Ancaq bütövlükdə meyvə, giləmeyvə bizim vacib ixrac məhsulumuzdur.

Bütün növ tərəvəz – burada da ümumi rəqəm 96 faizdir. Hesab edirəm ki, bu azdır. Ancaq misal üçün, kartof 86 faiz – bir qədər aşağı düşüb – pomidor 120 faiz, xiyar 105 faiz. Çay – özümüzü 45 faiz təmin edirik, onun içində də 50 faiz xarici komponent var. Duz ilə isə özümüzü 100 faiz təmin edirik və xarici komponent ancaq 5 faizdir. Bu çox yaxşı göstəricidir. Bir neçə il bundan əvvəl biz, demək olar ki, duzun hamısını idxal edirdik.

Şəkər və şəkərdən hazırlanan məhsullar – özümüzü təminetmə əmsalı 115 faizdir. Ancaq bunun tərkibində 73 faiz xarici xammal var. Artıq göstəriş verilib, xarici xammalın həcminin aşağı salınması üçün yeni proqram hazırlanıbdır. Mən bu barədə deyəcəyəm. Şəkər çuğundurunun əkilməsi, becərilməsi və şəkərin şəkər çuğundurundan istehsalı proqramı hazırdır.

Makaron məmulatları – özümüzü cəmi 38 faiz təmin edirik, bunun içində də 95 faiz xarici xammal var. Bal – 97 faiz.

Bir tərəfdən, əlbəttə, bu rəqəmlər onu göstərir ki, son illər ərzində biz öz ərzaq təhlükəsizliyimizi xeyli təmin edə

bilmişik. Əgər biz sovet vaxtına nəzər salsaq görərik ki – təbii, o vaxt bölgü aparılırdı – Azərbaycanda üzüm, pambıq, gül, meyvə, tərəvəz istehsal edilirdi, ancaq yağ, ət, un başqa respublikalardan gətirilirdi. Bu da vahid ölkə üçün məqbul variant idi. Ancaq biz indi müstəqillik dövründə yaşayırıq və əlbəttə ki, çalışmalıyıq öz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək. Buna nail oluruq. Əlavə tədbirlər nəticəsində və bayaq qeyd etdiyim bu 150–160 min hektar yeni suvarılacaq əkin sahələrinin hesabına biz nəinki bu boşluğu doldura bilərik, eyni zamanda, çox böyük ixrac imkanımız da yaranacaqdır.

Mən kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm. Pambıqçılıq indi Azərbaycanda sürətlə inkişaf edir. Burada rəqəmlər səsləndirildi. Biz keçən il 51 min hektardan 90 min tona yaxın pambıq tədarük etmişik. Bu il isə 100–120 min hektarda pambıq əkiləcək və biz təqribən 200 min ton pambıq gözləyirik. 27 rayonda pambıqçılıq inkişaf edib.

Bu sahə bilavasitə Mingəçevirdə yaradılmaqda olan sənaye parkının fəaliyyəti ilə bağlıdır. Çünki Mingəçevirdə keçən il təməlini qoyduğum zavodların bir neçəsi bu ilin sonuna qədər artıq istifadəyə verilməlidir. Orada ipliklə bağlı və digər sahələr üzrə 10-a yaxın zavod fəaliyyət göstərəcək. Pambıqçılıq da bilavasitə, bax, bu sənaye zonasının inkişafına xidmət edəcək. Beləliklə, biz ixracdan daha da böyük vəsait əldə edəcəyik. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Çünki 100 mindən çox, bəlkə də 150 min insan pambıqçılıqda işləyəcək.

Baramaçılıqla bağlı görülən operativ tədbirlər nəticəsində bu sahəyə də böyük təkan verildi. Hazırda 37 rayonda baramaçılıqla məşğuldurlar. Dövlət öz vəsaiti hesabına bütün lazımi məsələləri həll edir, tingləri gətirir və baramaçılıq da inkişaf edir. Keçən il 70 ton yaş barama tədarük olunub. Bu il 120 ton, 2019-cu ildə isə 1300 ton və bəlkə bundan da çox yaş barama tədarük ediləcək.

Fındıqçılıqla bağlı burada rəqəmlər səsləndirildi. Cəmi 1 il ərzində fındıq əkini sahələri dövlət hesabına təxminən 40 faiz artıb. Fındıq kənd təsərrüfatı məhsulları arasında bu gün ən çox valyuta gətirən məhsuldur. Bu sahənin inkişafına bizim təbii iqlimimiz də imkan verir. Fındıqçılıq indi 13 rayonda inkişaf etdirilir və biz fındıq bağlarının sahəsini 80 min hektara çatdırmalıyıq. Əgər bu gün bu bağların sahəsi təqribən 30–35 min hektardırsa, biz bunu 80 min hektara çatdırmalıyıq və beləliklə, 2 dəfədən çox gəlir əldə ediləcək və vətəndaşlar 2 dəfə çox pul qazanacaqlar.

Şəkər çuğunduru ilə bağlı mən qeyd etdim, bizdə artıq təhlillər aparılıb və təqribən 30–40 min hektarda şəkər çuğunduru əkilməsi müəyyənləşdirilib. Orada istehsal olunacaq məhsul Şəkər Emalı zavoduna göndəriləcək və bu müəssisə xarici xammaldan – şəkər qamışından asılılığı böyük dərəcədə azaldacaq. Beləliklə, valyuta xaricə getməyəcək – çünki şəkər qamışının alınmasına böyük vəsait gedir – əlbəttə ki, bunun kənd təsərrüfatının inkişafına çox böyük xeyri olacaq.

Meyvə – xurma, nar bağlarının salınması üçün artıq müvafiq göstərişlər verilib. Bunlar ən çox gəlir gətirən sahələrdir. Abşeron və Bakıətrafı qəsəbələrdə badam bağlarının salınması nəzərdə tutulur. Əfsuslar olsun ki, biz özümüzü bu məhsullarla təmin edə bilmirik. Halbuki bunlar  da həm daxili bazar, həm də ixrac üçün çox qiymətli məhsullardır.

Zeytunçuluğun inkişafı üçün əlavə tədbirlər görülür, yeni bağlar salınacaq. Biz zeytun ixracını artırmalıyıq.

Tütünçülüklə bağlı müvafiq göstərişlər verilib. Biz tütünün istehsalını 3 dəfə artırmalıyıq. Əlbəttə ki, xarici bazarları müəyyən etməklə paralel olaraq, tütün istehsalı 10 min tona çatdırılmalıdır. Biz həm ölkə daxilində istehsalı artırmalıyıq, eyni zamanda, xarici bazarlara çıxış əldə etməliyik. Bu istiqamətdə artıq müvafiq tapşırıqlar verilib, kontraktlar bağlanıb. Bu da çox gəlirli bir sahədir.

Üzümçülük və şərabçılıqla bağlı tədbirlər nəzərdə tutulur. Biz, əlbəttə, indiki səviyyə ilə razılaşa bilmərik. Bu gün burada

assosiasiyaların rəhbərləri çıxış etdilər. O assosiasiyaların bir çoxu bizim tövsiyəmizlə keçən il yaradılıb. Çünki biz gərək hər bir istiqamət üzrə mərkəzləşmiş siyasət aparaq. Şərabçılar Assosiasiyası çalışmalıdır ki, xarici bazarlara dövlətin dəstəyi ilə daha böyük həcmlə çıxaq. İndi burada rəqəm səsləndirildi, biz cəmi 3 milyon yarım dollar dəyərində məhsul ixrac edirik. Əlbəttə, Azərbaycan kimi ölkə üçün bu çox aşağı səviyyədir. Biz bunu 10 dəfə, bəlkə də 20 dəfə artırmalıyıq və buna imkan var. Çünki indi bizdə yeni üzüm bağları salınır, kifayət qədər üzüm emalı, şərab zavodlarımız var, onlar tam gücü ilə işləmir. Yəni burada çox ciddi dövlət siyasəti aparılmalıdır. Üzümçülük, şərabçılıq çox gəlirli sahədir və biz artıq kontraktlar imzalamışıq. Dost, tərəfdaş ölkələrlə indi danışıqlar aparılır ki, onlar öz bazarlarında Azərbaycan şərabı üçün müəyyən bir yer ayırsınlar. Bu proses artıq keçən il başlanıb, bu il daha da geniş vüsət alacaq.

Biz soyanın alınmasına ildə 50–60 milyon dollar xərcləyirik. Halbuki soyaya olan daxili tələbatımızı 1-2 il ərzində tam ödəyə bilərik və pul ölkəmizdə qalar. Soya da ixracyönümlü məhsuldur. Biz soya əkini sahələrini artırsaq, bu məhsulu da çox böyük uğurla ixrac edə bilərik.

O ki qaldı taxılçılığa, bu, strateji sahədir. Düzdür, bu, böyük gəlir gətirən sahə deyil. Əgər digər kənd təsərrüfatı məhsulları ilə müqayisə etsək, bəlkə də ən az gəlir gətirən sahədir, amma bu, strateji sahədir. Biz ona görə kömək göstəririk ki, böyük fermer təsərrüfatları, aqroparklar yaradılsın, məhsuldarlıq artsın, keyfiyyət yaxşılaşsın. Biz indiki 53 faizdən daha da yüksək faizə nail olmalıyıq ki, özümüzü təminetmə səviyyəsinə çataq. Beləliklə, idxaldan da asılılıq azalacaq. Çünki bu gün təqribən 250–300 milyon dollar civarında vəsait ancaq bu məqsədlər üçün xaricə gedir. Taxılçılığın, əlbəttə, suvarma ilə bağlı problemləri var. Bu da həll olunacaq, məhsuldarlıq artacaq, bu sahəni texnika ilə təmin etmişik. Azərbaycanda Gübrə zavodu tikilir və əminəm ki, ən geci gələn il istifadəyə veriləcək. Ona görə gübrə ilə bağlı artıq xaricə valyuta getməyəcək. Azər-

baycanda pestisid istehsalı da qurulmalıdır. Bu il işlər başlanmalıdır ki, biz pestisidləri də xaricdən almayaq.

Bir sözlə, idxaldan asılılıq maksimum dərəcədə azaldılmalıdır. Bu həm təhlükəsizlik üçün lazımdır, həm də biz valyuta ehtiyatımıza qənaət etməliyik.

Süd və süd məhsullarının istehsalını artırmaq üçün, əlbəttə ki, heyvandarlıq inkişaf etməlidir. Verilən rəqəmlərə görə, əlavə 50 min baş cins mal-qara gətirilərsə, yaxud da ki, ölkəmizdə görülən tədbirlər nəticəsində biz buna nail olarıqsa, beləliklə, bu problemi də həll edərik. Yeni süd zavodlarının tikilməsi nəzərdə tutulmalıdır və heyvandarlıq səmərəli şəkildə inkişaf etdirilməlidir.

Əkin sahələri ilə bağlı burada deyildi. Əlbəttə ki, səmərəsiz istifadə olunan örüş sahələrini biz əkinə cəlb etməliyik. Ancaq burada işlərimizi çox böyük dəqiqliklə aparmalıyıq. Bu, kortəbii surətdə kütləvi xarakter almamalıdır. Çünki bizə örüş sahələri də lazımdır. İndi müəyyənləşdirmək lazımdır ki, örüş sahələrindən harada normadan az istifadə olunur. Əlbəttə, hər bir sahəyə, hər bir yerə fərdi qaydada baxılmalıdır. Biz burada bir sahəni inkişaf etdirə, amma digər sahəyə ziyan vura bilərik. Ona görə Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları, İqtisadiyyat Nazirliyi bu məsələlərə diqqətlə baxmalıdır. Çünki burada düşünülmüş və əlaqələndirilmiş siyasət aparılmalıdır.

Əfsuslar olsun ki, bizdə yun tədarükü ilə bağlı işlər lazımi səviyyədə qurulmayıb. Mən maraqlanmışam, bizdə cəmi 1 tədarük məntəqəsi var. Bu, əlbəttə ki, qəbuledilməzdir. Bu il müxtəlif bölgələrdə ən azı 10 tədarük mərkəzi yaradılmalıdır. Burada da həm daxili istehsal, həm də xaricə ixrac etmək üçün mərkəzləşdirilmiş siyasət aparılmalıdır. Biz bu imkanlardan da istifadə etməliyik və burada, əlbəttə ki, kompleks tədbirlər görülməlidir. Burada həm tədarük, həm cins, həm də ixrac potensialı məsələləri var. Hər bir sahədən istifadə etməliyik ki, neftdən gələn valyutanın azalmasını biz müəyyən dərəcədə digər sahələrlə bağlaya bilək.

Çayçılığı da inkişaf etdirməliyik. Biz çay plantasiyalarımızı genişləndiririk və eyni zamanda, ən müasir texnologiyalar Azərbaycana gətirilməlidir. Burada məhsuldarlıq daha da böyükdür. Bu həm məşğulluqdur, həm də ki, idxaldan asılılığın azalmasıdır.

Arıçılıq üçün çox gözəl təbii şəraitimiz var. Biz indi müəyyən dərəcədə bal ixracına başlamışıq. Ancaq biz bunu daha kütləvi qaydada edə bilərik.

Xüsusilə Azərbaycanda yetişdirilən bütün bu məhsullar təbiidir və xaricdə onlar çox yüksək qiymətləndirilir. Bazarlara çıxmaq üçün, əlbəttə ki, müxtəlif reklam kampaniyaları aparılmalıdır və təqdimatlar keçirilməlidir. Bu işlər icra edilir, amma bu işlərə daha da böyük təkan verməliyik. Biz aqroparkların sayını ən azı 10-a çatdırmalıyıq. İndi 2 aqropark yaradılır, onların sayı 10-a çatmalıdır. Əgər belə olarsa, əminəm ki, dediyim məsələlər öz həllini tapacaq.

Keçən il bütövlükdə inkişafla bağlı müxtəlif istiqamətlər üzrə strateji yol xəritələri qəbul edilib. Orada hər şey göstərilib. Qəbul edilmiş regional Dövlət Proqramında da əsas hədəflər göstərilib. Sadəcə olaraq, hər il biz düzəlişlər edirik və daha vacib olan məsələləri, əlbəttə ki, diqqətdə saxlayırıq.

Sənaye istehsalı ilə bağlı deyə bilərik ki, sənaye zonalarının yaradılması prosesi gedir. Artıq bu sahədə işlər yoluna düşür, həm Sumqayıtda, həm də Mingəçevirdə sənaye zonalarının təməli qoyulubdur. Burada çıxış edən nümayəndə Neftçala sənaye zonasında görülən işlərlə bağlı danışdı. Masallıda və digər rayonlarda sənaye zonalarının yaradılması ilə bağlı işlər gedir.

Tikinti materialları ilə özümüzü təminetmə səviyyəmiz haqqında da bəzi rəqəmləri səsləndirmək istəyirəm. Sementlə özümüzü 100 faiz təmin edirik. Azərbaycanda artıq bir neçə Sement zavodu fəaliyyət göstərir. Əvvəllər biz xaricdən, idxaldan asılı idik. Artıq Bakıda, bölgələrdə sement zavodları fəaliyyət göstərir. Yəni bu sahə artıq idxaldan asılı deyil. Özümüzü əhənglə 90 faiz, gipslə 235 faiz, kərpiclə 100 faiz, mərmər-travertin ilə 46

faiz, beton tikinti blokları ilə 100 faiz, alçipanla 100 faiz, metal konstruksiyalarla 32 faiz, armaturla 72 faiz, alüminium və ondan alınan məmulatlarla 231 faiz təmin edirik. Hesab edirəm, bunlar da kifayət qədər yaxşı göstəricilərdir və baxmaq lazımdır, əlavə hansı işlər görülməlidir ki, o sahədə də addımlar atılsın.

Düzdür, keçən il investisiya qoyuluşu aşağı düşdüyünə görə inşaat sektoruna daha da az vəsait yatırıldı. Ancaq bu, müvəqqəti bir məsələdir. Artıq görülən tədbirlər nəticəsində inşaat sektoruna ciddi təkan veriləcəkdir. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə artıq birinci şəhərcik inşa edilməyə başlanıb. Orada 30-a yaxın binanın tikilməsi nəzərdə tutulur. Növbəti 1-2 il ərzində «Ağ şəhər»də 60 bina tikiləcəkdir. Bakı şəhərində köçürülmə yolu ilə icra ediləcək layihələrin sayı 60-a yaxındır və fərdi qaydada onlarla yeni binalar tikilir. Yəni inşaat sektoruna bunun çox böyük dəstəyi olacaqdır.

Xalçaçılıq sənətini yaşatmaq, iş yerlərini yaratmaq və ixrac imkanlarını genişləndirmək üçün «Azərxalça» Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Artıq «Azərxalça»nın ilk filialı Horadiz şəhərində açılıb. Mən özüm orada iştirak etmişəm. Bu il bu filialların sayı 10-a çatdırılmalıdır. Biz həm ənənəvi sənətimizi yaşatmalıyıq, eyni zamanda, xalçaçılıq sənayesini də yaratmalıyıq. Həm əl ilə, həm maşınla toxunan xalçalar Azərbaycanı dünyada təbliğ etməlidir və bu da böyük bir gəlir mənbəyinə çevrilməlidir.

Turizmlə bağlı görülmüş işlər – burada rəqəmlər səsləndirildi – Azərbaycanı beynəlxalq turizm üçün çox cəlbedici ölkəyə çevirir. Xüsusilə vizalarla bağlı atılan addımlar bu sahədə dönüş yaratdı. Əlbəttə ki, Azərbaycan turizm üçün çox cəlbedici bir ölkədir. İlk növbədə, Azərbaycanda zəngin mədəni irs var. Tarixi abidələrimiz, qədim mədəniyyətimiz turistləri cəlb edir. Digər tərəfdən, Azərbaycan müasir ölkədir və burada turizm infrastrukturu da çox inkişaf edib – hotellər, istirahət zonaları. 2004-cü ildən bu günə qədər 300-dən çox mehmanxana tikilibdir. Azərbaycanda və Bakı şəhərində

dünyanın aparıcı hotellər şəbəkəsinin mehmanxanaları vardır. Bizim gözəl mətbəximiz, gözəl iqlimimiz, vətənpərvər və eyni zamanda, qonaqpərvər insanlarımız, Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik – bütün bunlar turistləri cəlb edir. Bütün bu amillər var və viza sadələşdirilməsi də həll olunub, sadəcə olaraq, biz işləri indi düzgün təşkil etməliyik və ölkəmizdə güclü turizm sənayesi yaradılmalıdır. Əlbəttə, eyni zamanda, bu sahədə böyük uğurları olan ölkələrin təcrübəsindən istifadə etməliyik.

Xarici bazarlara çıxmaq üçün indi dövlətlərarası səviyyədə işlər görülür. Mən öz həmkarlarımla görüşlər əsnasında həmişə bu mövzunu ortaya qoyuram ki, Azərbaycan öz ixrac imkanlarını genişləndirsin. Biz qərara gəldik ki, bir neçə ölkədə Azərbaycan ticarət evləri yaradılsın. Bu istiqamətdə işlər gedir. Bu həm təbliğat üçün önəmlidir, eyni zamanda, ixrac imkanlarımız da genişlənə bilər. Yaxın zamanlarda belə ticarət evlərinin açılması nəzərdə tutulur.

Keçən il fermerlərə kömək etmək üçün tədarük və təchizat qurumu yaradıldı. Onun əsas məqsədi bölgələrdə yetişdirilən məhsulu fermerlərdən almaq, ondan sonra logistika imkanlarından istifadə edib onu saxlamaq və ondan sonra ixrac etmək, yaxud da ki, daxili bazara çıxarmaqdır. Keçən il belə bir qurum yaradıldı. Bu qurumun fəaliyyəti hələ ilkin mərhələdədir. Əgər işlər düzgün qurulsa – bu belə də olmalıdır – bu qurumun çox böyük əhəmiyyəti ola bilər. Beləliklə, bu, bir neçə məqsədi güdmüş olur. Həm yetişdirilən məhsul batmayacaq, həm də fermer məhsulunu tarla başında satacaq və pulunu alacaq. Bunun sayəsində məhsulun həm daxili bazara, həm də ixraca mərkəzləşdirilmiş qaydada çıxarılması təmin edilə bilər.

Bu il 2 «ASAN xidmət» Mərkəzi açılmalıdır – Quba və Mingəçevir şəhərlərində. Daha 2 şəhərdə – İmişlidə və Şəkidə mərkəzlər inşa ediləcək. Yəqin ki, onların açılışı 2018-ci ildə olacaq.

Bir daha demək istəyirəm ki, sahibkarlığın inkişafı ilə bağlı bütün lazımi tədbirlər görülür. Mən çıxışımın əvvəlində də bu məsələyə toxundum. Fermerlərə böyük güzəştlər edilir. Onlar

torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Suvarma işləri aparılır, infrastruktur yaradılır. Güzəştli şərtlərlə kreditlər, yanacaq, gübrə, subsidiyalar, metodik tövsiyələr verilir. Dövlət öz hesabına fındıq və tut tingləri gətirir. Pambıqçılıqla bağlı dövlət xətti ilə böyük işlər görülür, texnika alınır, suvarma tədbirləri həyata keçirilir. Bunları biz edirik ki, yerlərdə yaşayan insanlar bu imkanlardan istifadə etsinlər. Bu onların güzəranının yaxşılaşdırılması üçündür.

Bu il 42 min ictimai iş yeri açılacaq. Biz keçən il də ictimai iş yerlərinin açılması ilə bağlı tədbirlər gördük, bu il də görüləcək. Bu iş yerləri mümkün olan işsizliyi aradan qaldırmaq üçün açılır. Bu işlər ictimai işlərdir. Bölgələrdə təmir-tikinti ilə, yaşıllıq zonalarına xidmətlə bağlı iş yerləri açılacaq. Dövlət şirkətlərinin xətti ilə də belə iş yerləri açılacaq. Qeyd etdiyimiz kimi, yalnız ictimai xidmətlər istiqamətində 42 min iş yeri açılacaq. Görüləcək digər tədbirlər hesabına on minlərlə iş yeri açılacaq və beləliklə, işsizlik Azərbaycanda həmişə olduğu kimi, aşağı səviyyədə qalacaq.

Mən ixracla bağlı bir məsələni də qeyd etmək istəyirəm. Bu yaxınlarda «azexport» portalı yaradıldı. Orada Azərbaycanda istehsal olunan ixracyönümlü bütün məhsullar qeyd edilir. Bütün istehsalçılar – mən onlara da müraciət edirəm – qoy öz məhsullarını həmin o portala daxil etsinlər, həm ictimaiyyət bunu görsün, həm də ki, bu onların da xeyrinədir. Çünki onların ixrac potensialı artacaq.

Əlbəttə, bütün bu işləri görərkən, bir daha qeyd etmək istəyirəm ki, biz bir neçə məqsədi güdürük. Ölkə iqtisadiyyatını şaxələndirmək, idxaldan asılılığı azaltmaq, ixrac potensialını və kənd təsərrüfatı məhsullarının ixracını artırmaq. Hesab edirəm ki, biz kənd təsərrüfatı məhsullarının ixracını 2 dəfə artıra bilərik. Bu, real hədəfdir, biz buna nail olmağa çalışmalıyıq. Beləliklə, ölkəmizə daha çox valyuta gələcək, manat öz sabitliyini qoruyacaq, neftdən asılılıq azalacaq və iş yerləri yaradılacaq, sahibkarlıq inkişaf edəcək.

Bax, budur bizim əsas inkişaf konsepsiyamız. Bununla bərabər, onu da qeyd etməliyəm ki, mən dəfələrlə demişəm, biz artıq postneft dövründə yaşayırıq. Bunu mən o mənada deyirəm ki, dövlət qurumları daha neft amilinə bel bağlamasın. Ancaq bu o demək deyil ki, bizim neftimiz tükənir. Yox, bizim neftimiz hələ onilliklər ərzində xalqımıza xidmət edəcək. Azərbaycan qazı 2 ildən sonra dünya bazarlarına daha da böyük həcmdə çıxacaq və öz əhatə dairəsini genişləndirəcək. Yəni bu amil daim var və bu bizə həmişə güclü bir dəstək kimi, kömək edəcək. Ancaq biz işimizi elə qurmalıyıq ki, sanki bu yoxdur. Bax, bugünkü konfransın, ümumiyyətlə, inkişafla bağlı tədbirlərimizin məqsədi bundan ibarətdir.

Nəticə olaraq, biz bunu ona görə edirik ki, insanlar daha da yaxşı yaşasınlar. Amma insanların yaxşı yaşaması təkcə maddi tərəflə ölçülmür. Burada, əlbəttə ki, məmur–vətəndaş münasibətləri xüsusi yer tutur. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm, bu gün də deyirəm, bunu hər kəs bilsin, eşitsin və nəticə çıxarsın. Məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get, insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək.

Çünki biz bütün bu işləri görürük ki, Azərbaycanda inkişaf hərtərəfli və sürətli olsun. Xoşagəlməz hallara son qoyulmalıdır. «ASAN xidmət»i biz yaratdıq, artıq neçə ildir ki, işləyir. Bir dənə də olsun oradan şikayət yoxdur. Hər halda, mən eşitməmişəm. Bəyənilmə əmsalı 98 faizdir. 13 milyon müraciət olunub. Bizim əhalimiz hələ 10 milyona çatmayıb, 13 milyon müraciət olub. Bu, ictimai xidmətlər sahəsində bir yenilikdir. Bu

nəyi göstərir? Birincisi, bizim iradəmizi və siyasətimizi göstərir. İkincisi isə onu göstərir ki, belə işləmək mümkündür. Əgər orada mümkündürsə, deməli, hər yerdə mümkündür. Ona görə məmur–vətəndaş münasibətləri, bu məsələlər cəmiyyət üçün, inkişaf üçün çox önəmlidir. Burada hər şey məmurlardan asılıdır. Onlar dediyim kimi işləməlidirlər. Əgər məmur öz işində nöqsana, yaxud da pozuntuya yol verərsə, lazımi səviyyədə cəzalandırılacaqdır.

Bu gün verdiyim bütün tapşırıqlar yerinə yetirilməlidir. Verdiyim tapşırıqlarla bağlı vaxtaşırı məlumat Prezident Administrasiyasına göndərilməlidir. Prezident Administrasiyası isə bu tapşırıqların yerinə yetirilməsi ilə bağlı bütün lazımi tədbirləri görəcək, nəzarətdə saxlayacaq ki, biz 2017-ci ili də uğurla başa vuraq. Sağ olun.

## AVROPA KOMİSSİYASININ BAŞ DİREKTORU KRİSTİAN DANİELSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə baş direktoru Kristian Danielsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə baş direktoru Kristian Danielson ilk dəfə ölkəmizə səfər etdiyini, paytaxtımızın arxitekturasının, xüsusilə də Heydər Əliyev Mərkəzinin gözəlliyinin onda dərin təəssürat yaratdığını məmnunluqla vurğuladı.*

*Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən islahatlar, iqtisadiyyatın, o cümlədən ixracın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, enerji, həmçinin TAP, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə görülən işlərdən danışdı, bütün bu sahələrdə həyata keçirilən mühüm layihələrin Avropa İttifaqı ilə əməkdaşlıq müstəvisində önəmini xüsusi qeyd etdi.*

*Kristian Danielson Azərbaycanda görülən işlərin Avropa–Azərbaycan əməkdaşlığının müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QƏTƏR DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD BİN ƏBDÜRRƏHMAN ƏL-TANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Qətər Dövlətinin Xarici İşlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman əl-Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Qətər arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin Azərbaycana səfərinin əlaqələrimizin inkişafında mühüm rol oynadığını bildirdi, eyni zamanda, Qətərin Xarici İşlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman əl-Taninin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğuladı. Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın fəaliyyətinə toxunan dövlətimizin başçısı bu Komissiyanın iqtisadi əməkdaşlığımızın praktik məsələlərinin müzakirəsinə diqqət yetirəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir, tərəfdaşlıq münasibətlərinə söykənir və iqtisadi, ticarət, turizm və digər sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanlar var. Dövlətimizin başçısı bu baxımdan investisiya imkanlarının araşdırılmasının əhəmiyyətini qeyd etdi.*

*Qətərin Xarici İşlər naziri Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin ən səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı və onu ölkəsində görməyi səbirsizliklə gözlədiyini dedi. Nazir Azərbaycanda gedən inkişaf proseslərinin Qətərdə böyük maraqla izlənildiyini bildirdi. İqtisadi əməkdaşlı-*

*ğımıza toxunan qonaq Azərbaycan–Qətər hökumətlərarası birgə İqtisadi, Ticarət və Texniki Komissiyasının konstruktiv şəkildə fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə Qətər arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Şeyx Məhəmməd bin Əbdürrəhman əl-Tani əlaqələrimizin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini ifadə etdi. İqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsinin önəmini vurğulayan qonaq bu baxımdan müştərək fondun yaradılmasının məqsədəuyğun olduğunu dedi.*

*Dövlətimizin başçısı öz növbəsində, Qətərə səfərini səbirsizliklə gözlədiyini dedi və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tani ilə şəxsi dostluq münasibətlərinin xalqlarımız arasında dostluğun möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan məmnunluq ifadə olundu və bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmi vurğulandı.*

*Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2017-ci il*

## MƏDƏN HASİLATI ÜZRƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ İDARƏ HEYƏTİNİN SƏDRİ FREDERİK REYNFELDT İLƏ GÖRÜŞ

*1 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) İdarə Heyətinin sədri Frederik Reynfeldti qəbul etmişdir.*

*Dövlətimizin başçısı Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü İdarə Heyətinin sədri Frederik Reynfeldtin Azərbaycana səfərinin ölkəmiz ilə bu qurum arasında əməkdaşlıq məsələlərinin geniş müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd etdi, Azərbaycanın bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Londonda keçirilən ilk iclasında iştirak etdiyini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı belə bir məqamı vurğuladı ki, ölkəmiz bu prosesə qoşulmağa neft sektorundan əhəmiyyətli maliyyə vəsaiti daxil olmazdan hələ illər öncə qərar vermişdi. Prezident İlham Əliyev o dövrdə təcrübənin öyrənilməsi məqsədilə Azərbaycandan suveren fondları olan ölkələrə nümayəndə heyətlərinin göndərildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan Dövlət Neft Fondunun «Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması» üzrə 2007-ci il üçün «BMT-nin Dövlət Qulluğu Mükafatı»na layiq görüldüyünü məmnunluqla qeyd etdi.*

*Frederik Reynfeldt Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə ilk qoşulan ölkələrdən biri olduğunu, bu qurumla uzun illər əməkdaşlıq etdiyini və həmin sahədə böyük nailiyyətlər qazandığını vurğuladı. Qonaq ölkəmiz tərəfindən*

*açıqlanan hesabatların bu qurumun tələblərinə uyğun olduğunu qeyd etdi.*

*Görüşdə Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ilə əməkdaşlığın davam etdirilməsinə sadiq olması bir daha vurğulandı, ölkəmizin gələcəkdə bu qurumda tamhüquqlu üzv statusunun bərpa olunması üçün bütün lazımi tədbirlərin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## GÖRKƏMLİ DİRİJOR MAESTRO NİYAZİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*2 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Bakının Niyazi küçəsində yerləşən parkda görkəmli dirijor, SSRİ Xalq artisti maestro Niyazinin abidəsinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı maestro Niyazinin abidəsinin açılışını etdi və önünə gül dəstəsi qoydu.*

*Abidənin hündürlüyü 3, pyedestalının hündürlüyü isə 1 metrə yaxındır. Heykəlin üst plitəsi royalın qapağı formasındadır. Abidənin pyedestalı qara qranitdən hazırlanıb. Bürüncdən hazırlanan heykəlin müəllifi Xalq rəssamı Ömər Eldarov, memarı isə Əməkdar memar Elbay Qasımzadədir.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının böyük oğlu Niyazinin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Niyazi böyük Üzeyir Hacıbəylinin layiqli davamçısı idi. Niyazi Azərbaycan dirijorluq məktəbinin əsasını qoyub və bu gün onun davamçıları öz sənətləri ilə bizi sevindirirlər. Niyazi Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfələr verib. O, Sovet İttifaqında ən tanınmış və ən istedadlı dirijorlardan biri idi. Niyazi Azərbaycanı, Azərbaycan xalqını həm sovet məkanında, həm dünyada layiqincə təmsil edirdi, xalqımızın istedadını nümayiş etdirirdi. Onun dirijorluq sənəti xalqımızın

böyük dəyəridir və demək olar ki, Azərbaycan bəstəkarlarının bütün simfonik əsərlərinin ilk dirijoru Niyazi olmuşdur.

Dünyada və sovet məkanında dirijor kimi tanınan Niyazi eyni zamanda, gözəl bəstəkar idi, onun əsərləri bu gün də yaşayır. Onun əsərlərində Azərbaycan musiqi mədəniyyəti özünü büruzə verir.

Niyazinin çox böyük ictimai fəaliyyəti də var idi. O, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, fəaliyyəti xalq, ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdi. O, Sovet İttifaqının Xalq artisti adına layiq görülmüşdü. Sovet İttifaqının ən yüksək mükafatı – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Bu təltiflər və ona verilmiş beynəlxalq mükafatlar onu göstərir ki, Niyazi böyük şəxsiyyət, böyük sənətkar və Azərbaycan xalqının layiqli nümayəndəsi idi. Biz haqlı olaraq, onunla sağlığında da fəxr edirdik, bu gün də fəxr edirik.

Mənim Niyazi ilə bağlı öz xatirələrim var. Atam, ulu öndər Heydər Əliyevlə onu dostluq əlaqələri bağlayırdı. Heydər Əliyev həmişə Niyaziyə çox böyük diqqətlə, qayğı ilə yanaşırdı. Niyazi müəllim və Həcər xanım dəfələrlə bizim evimizdə olmuşlar. O məclislərdə mən də iştirak edirdim və görürdüm ki, doğrudan da Niyazi çox gözəl insandır. Onu tanıyanlar bilirlər ki, onun çox gözəl xatirələri var idi, gözəl əhvalatlar bilirdi, çox zarafatcıl idi, onda çox böyük yumor hissi var idi. O xatirələr bu gün də mənim yaddaşımda yaşayır, bu, unudulmaz günlər idi. İndi vaxt keçdikcə, əlbəttə, biz daha aydın şəkildə görürük ki, Niyazi dahi şəxsiyyət idi və yenə də deyirəm, o, xalqımızı ləyaqətlə təmsil edirdi.

Azərbaycan dövləti öz mədəni irsinə həmişə böyük diqqətlə yanaşır. Biz görkəmli şəxsiyyətlərimizin xatirəsini yaşadırıq, əbədiləşdiririk. Son bir neçə il ərzində şəhərimizin mərkəzində ardıcıllıqla görkəmli mədəniyyət xadimlərinin – Fikrət Əmirovun, Qara Qarayevin, Bülbülün, Rəşid Behbudovun abidələri açılıb. Bu gün bu gözəl parkda, Niyazinin adını daşıyan bu küçədə Niyazinin də abidəsi açılır.

Niyazinin adı Azərbaycanda əbədiləşdirilib. Azərbaycan Teleradio şirkətinin simfonik orkestri, uşaq musiqi məktəbi, gəmi, küçə onun adını daşıyır, bu gün də Niyazinin möhtəşəm, çox gözəl və əzəmətli, eyni zamanda, bu əraziyə uyğun abidəsi açılır.

Onu da qeyd etməliyəm ki, bu il bir neçə görkəmli şəxsiyyətlərimizin yubiley tədbirləri dövlət səviyyəsində qeyd ediləcəkdir. Bülbülün 120 illik, Tofiq Quliyevin, Cövdət Hacıyevin 100 illik, Mstislav Rostropoviçin 90 illik yubileyləri bu il, Qara Qarayevin 100 illik yubileyi isə gələn il dövlətin tam dəstəyi ilə yüksək səviyyədə keçiriləcək.

Ümumiyyətlə, demək istəyirəm ki, biz öz mədəni irsimizə çox sadiqik və müstəqil Azərbaycan dövləti çox güclü milli-mənəvi köklər, əsaslar üzərində qurulubdur. Biz müstəqil, müasir ölkəyik. Ancaq bizim gücümüzün mənbəyi milli tariximizdir, keçmişimizdir, mədəniyyətimizdir. Biz xalq olaraq öz mənliyimizi ona görə qoruya bilmişik ki, mədəniyyətimizi, dilimizi, ədəbiyyatımızı qoruya bilmişik və bu gün də qoruyuruq.

Azərbaycan xalqı öz görkəmli nümayəndələri ilə fəxr edir. Fəxr edirik ki, bizim görkəmli mədəniyyət, incəsənət nümayəndələrimiz dünya miqyasında özlərinə yer tapa biliblər. Bu, əlbəttə, xalqımızın istedadını göstərir və onu göstərir ki, biz dünya mədəniyyət xəzinəsinə çox böyük və dəyərli töhfələr vermişik.

Bu gün Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də humanitar sahə – mədəniyyət, incəsənət və ədəbiyyatla bağlıdır. Son illər ərzində bu istiqamətlərdə böyük işlər görülüb. Bizim 20-dən çox teatrımız, muzeyimiz əsaslı şəkildə təmir olunub. Azərbaycan o ölkələrdəndir ki, hətta iqtisadi çətinliklərə baxmayaraq, mədəniyyətin inkişafına maliyyə və maddi dəstəyini əsirgəmir. Çünki bu həm bu gün üçün, həm də gələcək üçün lazımdır. Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim

mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, həm də öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu çox əlamətdar hadisədir. Bu sadəcə olaraq, bir musiqi müsabiqəsi deyil. Muğam müsabiqələri bizim milli musiqimizi yaşadan tədbirlərdir. Bu tədbirlərin çox böyük əhəmiyyəti var. Müxtəlif bölgələrdə muğam evlərinin yaradılması, musiqi məktəblərinin tikilməsi bu istiqamətdə atılan düzgün addımlardır. Mən son illər ərzində bölgələrdə dəfələrlə musiqi məktəblərinin, uşaq yaradıcılıq mərkəzlərinin, muğam mərkəzlərinin açılışlarında olmuşam və bütün bu binalar, orada yaradılmış şərait, əlbəttə ki, bizi sevindirir və bir daha bizim niyyətimizi göstərir. Bugünkü mərasim, yəni böyük sənətkar Niyaziyə ucaldılmış bu abidənin açılışı, bax, bu sıradan olan addımlardır.

Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

* * *

**Fərhad Bədəlbəyli** *(Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti):* Möhtərəm cənab Prezident, çox sağ olun. Siz Niyazi haqqında əsl musiqişünas kimi çıxış etdiniz. Mənə deməyə heç bir şey qalmır. Onu sadəcə, insan kimi xarakterizə etmək istərdim.

Niyazi bizim üçün nəinki böyük maestro, böyük bəstəkar, həm də çox əziz bir insan idi. Həcər xanımı yada saldınız, çox sağ olun. Onların evində biz ikinci konservatoriyanı qurtarmışıq. Mən, Polad, Müslüm, Xuraman, Fidan konsertlərdən sonra saat 4-ə, 5-ə qədər o evdə əyləşir və musiqi haqqında danışır-

dıq. O evdə çox görkəmli musiqi xadimləri olub – Şostakoviç, Rixter, Koqan, Rostropoviç, Oystrax və başqaları. Maestro həmişə konsertdən sonra evində süfrə açırdı. Bu baxımdan da o, yeganə bəstəkar idi. Hətta bəzi bəstəkarların əsərlərinin premyerası olurdu, amma bəstəkar yox, maestro qonaqlıq verirdi. O belə qonaqpərvər idi. Onun evində həqiqətən, xüsusi bir abhava var idi.

Şostakoviç gözəl deyib ki, Azərbaycan bəstəkarları xoşbəxtdirlər, çünki bu ölkədə Niyazi var. Maestro Niyazi onun bütün əsərlərini həqiqətən də hər yerdə – Praqada, Londonda, Parisdə ifa edirdi. Vaxtilə Leninqradda məşhur Mariinski Opera Teatrının baş dirijoru idi. Arif Məlikovun «Məhəbbət əfsanəsi»ni Leninqradda məhz maestro Niyazi səhnəyə qoydu. Həmin premyeradan sonra bu balet bütün dünyaya yayıldı. Bu əsər artıq 60 ölkədə ifa olunub.

Maestro Niyazi Qara Qarayevlə, Fikrət Əmirovla işləyirdi və onların yeni əsərlərinə birinci dirijorluğu da o edirdi. Maestro Niyazi əsl xalq adamı idi. Məsələn, biz yayın isti günlərinin birində rayondan qayıdarkən gördük ki, qızlar pambıq yığırlar. Günün qızmar çağı idi, isti hamımızı əldən salmışdı. Maestro dedi ki, dayanın, hamınız avtobusdan düşün, qızlar üçün konsert verəcəyik. Həqiqətən, pambıqçı qızlar mat qalmışdılar. Böyük maestronun rəhbərliyi ilə musiqiçilər onlar üçün Üzeyir bəyin uvertürasını ifa etdilər. Bax, o belə insan idi, millətini ürəkdən sevirdi, hamı ilə görüşür, salamlaşırdı. Əlbəttə, biz hamımız ona borcluyuq. Bu gözəl heykəldə hər şey əksini tapıb. Bu abidədə onun uğurları da, dərdləri də ifadə olunub. Bu çox gözəl sənət nümunəsidir. Ömər müəllim, çox sağ olun. Bu doğrudan da böyük bir sənət əsəridir. Çox gözəl məkanda qoyulub. Məncə burada kiçik konsertlər də vermək olar ki, saat 1-dən 2-yədək məmurlar gəlib konserti dinləsinlər.

Çox sağ olun, cənab Prezident. Heç bir ölkədə sənət adamlarına belə diqqət yoxdur. Bunu açıq demək lazımdır. Biz hər yerdə olurduq. Nə yubiley keçirilirdi, nə başqa bir tədbir. Deyirlər ki, yubileyindir, get özün keçirt. Ancaq indi Sizin sərən-

camlarınızla bizim ölkədə nə qədər yubiley tədbirləri keçirilir. Allah qoysa, bu yaxınlarda Qara Qarayevin 100 illik yubileyi, Cövdət Hacıyevin, Tofiq Quliyevin yubileyləri keçiriləcək. Bunlar da böyük hadisələrdir. Cənab Prezident, işinizin həddən çox olmasına baxmayaraq, hər şey Sizin yadınızdadır.

Bu gün qarlı və günəşli bir gündür. Mən xatırlayıram, Qara Qarayevin heykəlinin açılışında da qarlı və günəşli gün idi. Yenə qayıdıram bizim cavanlıq illərimizə. 1982-ci ildə biz Şuşada qarlı bir gündə ulu öndərimizlə bir yerdə Vaqifin məqbərəsini açdıq. Mən əminəm ki, Siz prezident kimi və ətrafınızda olan biz ziyalılar yaxın gələcəkdə azad Şuşada Üzeyir bəyin, Xan qızının, Bülbülün heykəllərini bərpa edəcəyik. Çox sağ olun.

**Faiq Sücəddinov** *(bəstəkar, Xalq artisti):* Möhtərəm cənab Prezident!

Bu gün doğrudan da çox gözəl bir gündür. Biz bu gözəl heykəlin yanında dayanmışıq. Bu, Bakı şəhərində incəsənət xadimlərinə ucaldılan beşinci heykəldir. Bu bizim musiqimizə, mədəniyyətimizə verilən böyük bir qiymətdir. Yadımdadır, böyük müğənni Rəşid Behbudov ilə maestro Niyazinin yanına gəldik. Mən bir mahnı yazmışdım – «Zəfərlər bayrağı» – ulu öndərin də xoşuna gəlmişdi. Maestro çox böyük diqqətlə dinlədi, partituraya baxdı. Hətta mənə pultun arxasına keçməyə icazə verdi. Rejissor Kərim Kərimov da orada idi. Mən pultun arxasına keçdim. Onlar mat qaldılar ki, nə əcəb maestro mənə icazə verdi. Əlbəttə, bu onun sadəliyindən, səmimiliyindən, insanlığından irəli gəlirdi.

Mən Sizə təşəkkür edirəm, cənab Prezident. Sağ olun, nə yaxşı ki, varsınız, bizə belə yüksək qiymət verirsiniz. Çox sağ olun.

**Əyyub Quliyev** *(beynəlxalq müsabiqələr laureatı, dirijor):* Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan musiqiçiləri üçün və xüsusən də gənc musiqiçilər, gənc dirijorlar üçün çox əlamətdar bir gündür.

Hətta mənə elə gəlir ki, təbiət də bu hadisəyə sevinir, günəşli gündür. Çünki maestro Niyazi Azərbaycan mədəniyyətinin günəşi idi. Həmişə də günəş kimi parlayır, xüsusilə də Azərbaycan musiqiçiləri və Azərbaycanı dünyanın müxtəlif ölkələrində, şəhərlərində təbliğ edən dirijorlar üçün bir simvol rolunu oynayır.

Cənab Prezident, bu gün maestro Niyazinin abidəsinin açılışının çox böyük rəmzi mənası var. Çünki biz bu gün – fevralın 2-də ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu «Gənclər günü»nü qeyd edirik. Bu gün gənclərin bayramıdır, eyni zamanda, mənim timsalımda Azərbaycanın bütün gənc dirijorlarının bayramıdır. Çünki Siz bizə bu gün belə bir hədiyyə təqdim etdiniz. Bu, Azərbaycanın bütün musiqiçilərinə, gənc musiqiçilərinə olan böyük bir diqqətdir. Maestro Niyazinin adı bizim ürəyimizdədir, qəlbimizdə həmişə yaşayır. Çünki biz xarici ölkələrdə maestro Niyazinin əsərlərini ifa edirik. Misal üçün, bu yaxınlarda Moskva Filarmonik Orkestrinin müşayiəti ilə maestro Niyazinin və dahi Qara Qarayevin əsərlərini ifa etdik. Konsertdən sonra musiqiçilər bizə yaxınlaşıb həmin əsərlərin notlarını istəyirdilər. Nyu Yorkda «Carnegie hall»da, Fransada Yelisey Teatrında Lamurö orkestri ilə maestro Niyazinin əsərlərini ifa etdik. Əcnəbi ölkələrin musiqiçiləri böyük sevgi və ehtiramla yaxınlaşıb həmin əsərlərin notlarını bizdən istəyirdilər. Hər bir konsertdən, festivaldan, mərasimdən öncə biz maestro Niyazini yada salırıq. Çünki o bizim müəllimimizdir, mənəvi dayağımızdır. Çünki maestro Niyazi Opera və Balet Teatrında, Dövlət Simfonik Orkestrində baş dirijor işləyən zamanlarda da çox böyük bir məktəb, böyük musiqiçilər ordusu yaratmışdı. İndi də gənc dirijorlar onun sənətini davam etdirirlər. 4 gün sonra biz Frankfurt Radio Orkestri ilə Niyazinin, Qara Qarayevin, Fikrət Əmirovun əsərlərini ifa edəcəyik. Bundan böyük xoşbəxtlik ola bilməz. Artıq maestro Niyazi Azərbaycanın brendinə çevrilib. Elə bir ölkə yoxdur ki, orada maestro Niyazini tanımasınlar və sevməsinlər.

Möhtərəm cənab Prezident, Azərbaycanın bütün gənc musiqiçiləri adından bu gözəl, işıqlı gündə, bu bayramda bizə etdiyiniz ərməğana görə, bu sənət stimuluna görə minnətdarlığımı bildirirəm. Çünki bu, dirijorlarımız, musiqiçilərimiz üçün doğrudan da stimuldur. Artıq qeyd olunduğu kimi, dahi musiqiçilərimiz Qara Qarayevin, Fikrət Əmirovun, Rəşid Behbudovun abidələri ucaldılıb. Bu gün isə maestro Niyazinin abidəsi ucaldı. Bu, Azərbaycan gəncliyinə bir mesajdır ki, Vətənimizin görkəmli insanlarını həmişə xatırlamalıyıq və onları yad etməliyik. Bu bizim borcumuzdur.

Bir daha Sizə təşəkkürümüzü bildiririk, cənab Prezident. Bu mərasimdə iştirakınızla bizi qürurlandırdınız. Var olun ki, Azərbaycan mədəniyyətini qoruyursunuz. Görürük ki, dünyada müəyyən proseslər baş verir. Amma Azərbaycan, mədəniyyətimiz çiçəklənir. Nə qədər maraqlı layihələr həyata keçirilir. Bu gün də böyük bir layihənin iştirakçısıyıq, bu gözəl abidə açıldı. Sizə təşəkkür edirik, çox sağ olun.

**Ömər Eldarov** *(abidənin müəllifi, Xalq rəssamı, heykəltəraş):* Möhtərəm Prezident, hörmətli xanımlar və cənablar!

Mən çox danışmayacağam, ona görə ki, cənab Prezident və çıxış edənlər çox qiymətli fikirlər söylədilər. Mən yalnız bir epizodu xatırlatmaq istəyirəm. 1947-ci, ya da 1948-ci il idi. Leninqradda Dirijorların Ümumittifaq Müsabiqəsi keçirilirdi. Niyazi həmin müsabiqənin qaliblərindən biri oldu. O vaxt Niyazi filarmoniyadakı dinləyicilərə ən mahir və gözəl dirijorlardan biri kimi təsir bağışlamışdı.

Mən Niyazini son illərdə onun abidəsi üzərində işləyərkən daha yaxından tanıdım. Sərgi üçün Niyazinin portretini hazırlayırdım. Niyazi artıq dünyasını dəyişəndən sonra bu kompozisiya abidənin əsasını təşkil etdi. Mənə belə gəlir ki, onun bütün başqa keyfiyyətlərindən əlavə, mən ömrümdə Niyazidən daha qəşəng, daha mahir dirijor görməmişəm, axı mən heykəltəraşam, hər şeyi vizual qəbul edirəm. Onun necə hərəkət etməsini, musiqiyə necə qaynayıb-qarışmasını mən bu abidədə

müəyyən dərəcədə çatdırmağa çalışmışam. Diqqətinizə görə sağ olun.

* * *

*Dövlətimizin başçısı mərasimdə iştirak edən mədəniyyət və incəsənət xadimləri ilə səmimi və geniş söhbət etdikdən sonra böyük ədəbiyyat, elm, mədəniyyət və incəsənət ustalarının abidələrinin ucaldılmasına, adlarının əbədiləşdirilməsinə dair tapşırıq və tövsiyələrini verəcəyini, ustad sənətkarların yubileylərinin mütəmadi keçiriləcəyini qeyd etdi. İncəsənət xadimləri Qara Qarayevin, Cövdət Hacıyevin, Tofiq Quliyevin və digər görkəmli sənətkarlarımızın yubileylərinin keçiriləcəyi ilə bağlı Prezidentin fərman və sərəncamlarından məmnun olduqlarını xüsusi vurğuladılar. Dövlət başçısına müraciətlə dedilər ki, heç bir ölkədə xalqın ləyaqətli sənətkarlarına dövlətin bizdəki kimi qayğısı olmur. Mərasim iştirakçıları dövlətimizin başçısına xüsusi minnətdarlıqlarını bildirdilər, xalqımız, dövlətimiz üçün gördüyü böyük işlərə uğurlar arzuladılar.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## BELÇİKA KRALLIĞINA SƏFƏR

*5 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun dəvəti ilə Belçika Krallığına səfərə gəlmişdir.*

*Brüsselin Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Avropa İttifaqının yüksək səviyyəli rəsmi şəxsləri qarşıladılar.*

## GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRƏSİ XURŞİDBANU NATƏVANIN ABİDƏSİNİ ZİYARƏT

*Vaterloo*

*5 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 5-də Belçika Krallığının Vaterloo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət etmişlər.*

*Vaterloo şəhərinin meri Florans Röter Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.*

*Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

*Ötən il fevralın 18-də açılışı olan bu abidənin ucaldılması Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Şəhərin mərkəzi parkında ucaldılmış abidə Azərbaycanın Xalq rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat vardır.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SABİQ PREZİDENTİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Brüssel*

*5 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Brüsseldə Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland–Azərbaycan dostluq qrupunun sədri Rene Van der Linden ilə görüşmüşdür.*

*Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti Rene Van der Linden Azərbaycan prezidenti İlham Əliyev ilə görüşündən məmnun olduğunu bildirdi. Vurğuladı ki, dövlətimizin başçısının Brüsselə səfər proqramı çox zəngindir və səfər zamanı Avropa İttifaqının yüksək səviyyəli rəhbər şəxsləri ilə görüşləri mühüm əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi baxımından bu səfərin önəmini vurğuladı.*

*Rene Van der Lindeni Azərbaycanın dostu adlandıran dövlətimizin başçısı onun Avropa Şurası Parlament Assambleyasına rəhbərlik etdiyi dövrdə ölkəmizin bu təşkilat ilə səmərəli əməkdaşlığını məmnunluqla xatırlatdı, Niderland–Azərbaycan dostluq qrupunun sədri kimi, onun ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində və Azərbaycana investisiyaların cəlb edilməsində rolunu qeyd etdi, ADA Universiteti ilə Niderlandın Maastrixt Menecment Məktəbi arasında əməkdaşlığın qurulmasına və inkişaf etdirilməsinə verdiyi töhfəni yüksək qiymətləndirdi.*

## BELÇİKA KRALI FİLİPP İLƏ GÖRÜŞ

*Brüssel*

*6 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Belçika Kralı Filipp ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Dövlət başçımızın bu səfərinin həm Azərbaycan–Belçika ikitərəfli münasibətlərinin genişlənməsi, həm də ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminlik bildirildi. Prezident İlham Əliyev Belçika şirkətlərini Azərbaycan iqtisadiyyatının inkişafında iştiraka dəvət etdi.*

*Söhbət zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu vurğulandı, regional, iqtisadi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ FEDERİKA MOQERİNİ İLƏ İŞÇİ SƏHƏR YEMƏYİNDƏ İŞTİRAK

*Brüssel*

*6 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa İttifaqının Xarici Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə işçi səhər yeməyində iştirak etmişdir.*

*Ötən il Azərbaycana səfərini məmnunluqla xatırladan Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Moqerini əməkdaşlığımızın daha da möhkəmləndirilməsi, əlaqələrimizin bundan sonra da genişləndirilməsi baxımından Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə səfərinin əhəmiyyətini qeyd etdi, Avropa İttifaqında dövlət başçımızın keçirdiyi görüşlərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmli olduğunu bildirdi. Azərbaycan ilə əməkdaşlığın Avropa İttifaqı üçün böyük önəm daşıdığını vurğulayan Federika Moqerini «Cənub Qaz Dəhlizi» layihəsinin Avropa İttifaqı üçün böyük əhəmiyyətə malik olduğunu dedi. Federika Moqerini bu layihənin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və qaz təchizatının şaxələndirilməsində mühüm rolunu qeyd etdi və Avropa İttifaqının bu layihənin reallaşmasına bundan sonra da dəstək verəcəyini bildirdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Moqerininin ölkəmizə səfərindən ötən dövr ərzində əlaqələrimizin daha da inki-*

*şaf etdiyini bildirdi. Avropa İttifaqı ilə əməkdaşlığımızın genişləndirilməsinin həm Azərbaycan, həm də region üçün yaxşı mesaj olduğunu deyən dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycan üçün etibarlı dost və tərəfdaş olduğunu söylədi. Qeyd olundu ki, Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı etimad yüksək səviyyədədir.*

*Söhbət zamanı Azərbaycan–Avropa İttifaqı əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının perspektivləri, energetika, nəqliyyat, təhlükəsizlik, regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ GÖRÜŞ VƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*6 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə görüşü olmuşdur.*

*Sonra dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının Prezidenti işçi lanç etdilər.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış etdilər.*

### Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun bəyanatı

Prezident Əliyev, bu gün Sizi Brüsseldə salamlamaqdan məmnunam. Görüş həqiqətən də məhsuldar və yaxşı keçdi. Düşünürəm ki, dostlar arasında bu, normal haldır. Mühüm məsələləri müzakirə etmək imkanına görə Sizə çox təşəkkür edirəm.

Müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyimiz Azərbaycan Avropa İttifaqı üçün mühüm tərəfdaşdır. Biz enerji sahəsində etibarlı və strateji tərəfdaşlığımıza əsaslanaraq, işbirliyimizi daha da artırmaq istəyirik. Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bizim «Cənub Qaz Dəhlizi»ni tamamlamaq üçün ortaq öhdəliyimiz var. Bu, faktiki olaraq, hər iki tərəf üçün əsas prioritetdir.

Avropa İttifaqı artıq Azərbaycanın əsas ticarət tərəfdaşı və onun ən əsas investorlarından biridir. Qarşıdakı illərdə biz

ticarət əlaqələrimizi daha da genişləndirmək niyyətindəyik. Biz əməkdaşlığımızın gücləndirilməsinin Azərbaycan iqtisadiyyatının müasirləşdirilməsinə və şaxələndirilməsinə necə kömək edəcəyini müzakirə etdik. Azərbaycan üçün, həmçinin Dünya Ticarət Təşkilatı ilə bağlı danışıqlarda irəliləyişə nail olmaq rəqabətədavamlı biznes mühitinə yol açacaq və bu da iqtisadi inteqrasiyanı irəliyə aparacaqdır.

Danışıqlar zamanı mən insan haqları və əsas azadlıqlara, o cümlədən ifadə azadlığına verdiyimiz əhəmiyyəti vurğuladım. Avropa İttifaqı hesab edir ki, bu, açıq cəmiyyətlərdə uzunmüddətli sabitlik və inkişafın ən yaxşı təminatıdır. Biz bu məsələlərdə tərəfdaş kimi işləməyi davam etdirəcəyimizi səmimiyyətlə arzulayırıq.

Azərbaycan mədəniyyətlər arasında körpü rolunu oynayır. Hazırda qonşuluğumuzda üzləşdiyimiz çağırışları nəzərə alsaq, bu, olduqca təqdirəlayiqdir.

Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini müzakirə etdik. Status-kvo belə davamlı qala bilməz. Münaqişənin hərbi yolla həlli yoxdur və o, beynəlxalq hüquqa əsasən siyasi qaydada nizamlanmalıdır. Avropa İttifaqı ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərini və təkliflərini tam dəstəkləməkdə davam edir.

Bizim əlaqələrimiz enerji və ticarət hüdudlarını aşır. Biz əlaqələrimizi daha yüksək səviyyəyə qaldırmaq və yeni ikitərəfli saziş vasitəsilə əlaqələrin tam potensialını inkişaf etdirmək istəyirik. Mən sevinc hissi ilə bəyan edirəm ki, sabah yeni Avropa İttifaqı–Azərbaycan Sazişi ilə bağlı danışıqlara start veriləcək. Mən danışıqları aparanlara böyük uğurlar arzulayıram.

Bizim paylaşdığımız yeni qlobal siyasi və iqtisadi maraqları, birlikdə mübarizə aparmaq istədiyimiz çağırışları nəzərə alaraq, bu yeni razılaşma əlaqələrimizin miqyasını genişləndirəcək.

Cənab Prezident, bir daha Brüsselə gəldiyiniz üçün təşəkkür edirik.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Sağ olun, cənab Prezident. Öncə dəvətinizə görə minnətdaram. Mən Sizinlə görüşməkdən və əməkdaşlığımıza aid olan mühüm məsələləri müzakirə etməkdən çox şadam. Sizin 2015-ci ildə Azərbaycana etdiyiniz çox uğurlu səfəriniz yadımdadır. Səfər zamanı biz əməkdaşlıq perspektivlərini müzakirə etdik. Çox məmnunam ki, sabahdan, Siz qeyd etdiyiniz kimi, yeni saziş üzrə danışıqlara başlayırıq. Bizim aramızdakı əməkdaşlıq çox səmərəlidir, çox səmimidir və böyük potensiala malikdir. Bizim aramızda olduqca fəal siyasi dialoq gedir, mütəmadi olaraq görüşürük və ölkəmizdə siyasi inkişafa, siyasi islahatlara aid vacib məsələləri müzakirə edirik. Biz ölkəmizin bütün vətəndaşlarına hər hansı imkanı təmin etmək üçün Azərbaycanda demokratik islahatların davam etdirilməsinə sadiqik.

Əlbəttə, enerji sahəsindəki əməkdaşlıq əlaqələrimizin vacib hissəsidir. Biz «Cənub Qaz Dəhlizi» layihəsinin inkişaf etdirilməsi üçün uğurla əməkdaşlıq edirik. Bu, hazırda Avropada həyata keçirilən ən böyük infrastruktur layihələrindən biridir. Həmin layihə 40 milyard dollardan artıq vəsaitin sərmayə kimi qoyulmasını tələb edir. «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi və şaxələndirilməsi layihəsidir. Şaxələndirilmə dedikdə, mən yalnız marşrutları deyil, o cümlədən mənbələri də nəzərdə tuturam. Azərbaycanın nəhəng qaz ehtiyatları var və ölkəmiz Avropa bazarı üçün yeni alternativ təbii qaz mənbəyidir. Mən cənab Prezidentə məlumat verdim ki, «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi, layihənin bütün 4 seqmenti uğurla irəliyə doğru gedir və ümidvarıq ki, əlavə səylərlə biz bu layihənin icrasını sürətləndirəcəyik.

Cənab Prezidentin qeyd etdiyi kimi, Avropa bizim əsas investorumuzdur. Azərbaycan olduqca münbit sərmayə mühitini yaradıb. 25 il əvvəl müstəqilliyimizi bərpa etdikdən sonra iqtisadiyyatımıza 200 milyard dollardan artıq vəsait qoyulub. Eyni zamanda, Avropa bizim əsas ticarət tərəfdaşımızdır. Biz bir çox Avropa ölkələrini neftlə təchiz edirik və ümidvarıq ki, yaxın zamanlarda təbii qazımızı da çatdıracağıq.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair məsələləri müzakirə etdik. Mən bir daha qeyd etdim ki, torpaqlarımız uzun illərdir işğal altındadır. Ermənistan Azərbaycanın ərazisinin təxminən 20 faizini işğal edib. Bütün humanitar normaları, beynəlxalq hüquq normalarını pozan Ermənistan BMT Təhlükəsizlik

Şurasının ötən əsrin 90-cı illərinin əvvəllərində qəbul olunan və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini icra etmir. Əfsuslar olsun ki, işğal 20 ildən çoxdur davam edir və bu işğala heç bir bəraət qazandırmaq olmaz. Mən cənab Prezidentə çox minnətdaram ki, o öz şərhlərində ölkəmizin ərazi bütövlüyünə bir daha dəstəyini vurğuladı.

Bu gün biz daşımalar sahəsində gələcək potensial əməkdaşlığı da müzakirə etdik. Bu, «Şərq Tərəfdaşlığı» və Avropa ölkələri üçün cəlbedici ola biləcək mühüm layihədir. Azərbaycan bölgədə yeni dəmir yolu xəttinin çəkilməsinə böyük sərmayələr yatırır. Asiyanı Avropa ilə birləşdirən yeni marşrut ümid edirik ki, bu il artıq istifadəyə veriləcək və Avropadan Asiyaya və geriyə malların daşınması vaxtını 2 dəfə qısaldacaq.

Əməkdaşlığımızın digər vacib sahəsi mədəniyyətlərarası dialoqdur. Bunu qeyd etdiyinə görə cənab Prezidentə minnətdaram. Azərbaycan sivilizasiyalar və mədəniyyətlərarası dialoqa böyük sərmayələr yatırır. Biz Avropa Şurasına, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkəyik. Biz sivilizasiyalar arasında təbii, coğrafi və mədəni körpüyük. Azərbaycanın insan kapitalına, dinlərarası dialoqa qoyduğu sərmayə bu gün yaxşı nəticələr verir.

Onu da qeyd etmək istəyirəm ki, bizim Avropa İttifaqına üzv dövlətlərlə də əməkdaşlıq sahəsində yaxşı təcrübəmiz var. Onların 9-u, yəni üçdəbir hissəsi ilə bizim strateji tərəfdaşlığa dair imzalanmış sazişlərimiz var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmalar üçün yaxşı əsasdır. Bu gün əməkdaşlığımızın tarixində əlamətdar bir gündür. Çünki işbirliyimizin yeni səhifəsini açırıq. Mən danışıqları aparanlara uğurlar arzulayıram və ümid edirəm ki, onlar vaxtlarını itirmədən sabahdan dərhal işə başlayacaqlar və yaxın vaxtlarda bir çox gələcək illər üçün aramızdakı strateji əməkdaşlığı müəyyən edəcək sənədi hazırlayıb təqdim edəcəklər. Çox sağ olun.

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*Brüssel*

*6 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji, təhlükəsizlik, ətraf mühit, nəqliyyat və digər sahələrdə səmərəli əməkdaşlığın aparıldığı, əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi. Vurğulandı ki, dövlət başçımızın bu səfəri əlaqələrimizin daha da genişlənməsinə töhfəsini verəcək.*

*Maroş Şevçoviç qeyd etdi ki, Azərbaycan Prezidentinin bu səfəri və Avropa İttifaqı ilə əlaqələr Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişin hazırlanması, imzalanması və həyata keçirilməsi işində böyük əhəmiyyət daşıyacaq.*

*Söhbət zamanı Azərbaycanın Avropa İttifaqının strukturları ilə əməkdaşlığından məmnunluq ifadə olundu, «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı işlərin həyata keçirildiyi bildirildi.*

*Prezident İlham Əliyev Azərbaycanda enerji infrastrukturunun daha da modernləşdirilməsi, bərpa olunan enerji istehsalı ilə bağlı məlumat verdi, bu sahədə Avropa İttifaqı ilə əməkdaşlığın məqsədəuyğunluğunu qeyd etdi.*

*Görüşdə bank sahəsində əməkdaşlıqdan söhbət açıldı, bu əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulandı, Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin Dünya Bankı ilə yaxşı əməkdaşlıq etdiyi bildirildi, digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ PREZİDENTİ JAN-KLOD YUNKER İLƏ GÖRÜŞ

*Brüssel*

*6 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluq bildirildi, əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu. Vurğulandı ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni əməkdaşlıq və tərəfdaşlıq sənədi üzərində iş gedir və bu sənəd imzalandıqdan sonra münasibətlərimiz bütün sahələrdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.*

*Söhbət zamanı Azərbaycanın dünya ölkələri, o cümlədən Avropa İttifaqı ilə sivilizasiyalar və mədəniyyətlər arasında dialoq sahəsində çox yaxşı əməkdaşlıq əlaqələrinin olduğu qeyd edildi.*

*Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə eyni zamanda, təhsil və humanitar sahələrdə də yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğu bildirildi.*

*Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın və ixracın şaxələndirilməsinin prioritet məsələ olduğu diqqətə çatdırıldı, enerji və nəqliyyat sahələrində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına səfəri başa çatdı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ölkələrimiz arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən və ortaq mənəvi dəyərlərimizdən qaynaqlanır. İnanıram ki, dövlətlərarası münasibətlərimizin daim möhkəmləndirilməsi, beynəlxalq və regional qurumlar çərçivəsində əməkdaşlığımızın səmərəli şəkildə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2017-ci il*

## MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ VİTSE-PREZİDENTİ MARİO DAVİD VƏ BAŞ KOORDİNATORU SEZAR ROSELLO İLƏ GÖRÜŞ

*8 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi və Mərkəzçi Demokratlar İnternasionalının Avrasiya, Asiya və Sakit okean regionu üzrə baş koordinatoru Sezar Rosellonu qəbul etmişdir.*

*Vitse-prezident Mario David Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın və qurumun icraçı katibi Antonio Lopez-İsturizin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Görüşdə Mərkəzçi Demokratlar İnternasionalı ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın və icraçı katib Antonio Lopez-İsturizin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını qurumun prezidentinə və icraçı katibinə çatdırmağı xahiş etdi.*

## FRANSA RESPUBLİKASININ DÖVLƏT KATİBİ JAN-VENSAN PLASENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Fransa Respublikasının Baş naziri yanında dövlət islahatları və asanlaşdırma məsələləri üzrə Dövlət katibi, hökumətin üzvü və Ekologist Partiyasının sədri Jan-Vensan Plasenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Jan-Vensan Plasenin Azərbaycana səfərinin ölkəmizlə yaxından tanışlıq üçün yaxşı fürsət yaradacağına və keçiriləcək görüşlərin əlaqələrimizin inkişafı baxımından maraqlı olacağına əminliyini ifadə etdi.*

*Fransa Respublikasının Baş naziri yanında dövlət islahatları və asanlaşdırma məsələləri üzrə Dövlət katibi, hökumətin üzvü və Ekologist Partiyasının sədri Jan-Vensan Plase Azərbaycan hökumətinin üzvləri və eləcə də ölkəmizin müxtəlif iqtisadi qurumlarının rəhbərləri ilə keçirəcəyi görüşlər barədə danışdı. Bakıda Fransız liseyi, Fransa–Azərbaycan Universiteti və «Ağ şəhər»lə tanış olacağını deyən qonaq ətraf mühitin mühafizəsi ilə bağlı Fransa–Azərbaycan əməkdaşlığından məmnunluğunu ifadə etdi. O, Azərbaycanda ətraf mühitin mühafizəsi ilə bağlı görülən işlərlə də yaxından tanış olmaq arzusunu bildirdi.*

*Görüşdə «ASAN xidmət»in uğurlu fəaliyyətindən və bu sahədə əməkdaşlıq imkanlarından danışıldı, Fransanın bir neçə departamentində artıq bu xidmətin səyyar avtobuslarının tətbiq olunduğu vurğulandı, Azərbaycan ilə birlikdə Fransanın bu xidmətin Afrika ölkələrində tətbiqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ƏL-CƏZİRƏ TELEVİZİYASINA MÜSAHİBƏ

*8 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Əl-Cəzirə televiziyasının müxbiri Ömər Kaşrama müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, xoş gördük. Gəlin Qarabağ problemindən başlayaq. Bu problem bölgədə gərginliyə səbəb olur və Azərbaycanın bütün həyatına öz təsirini göstərir. Problemin həllinə yönələn regional səylər var və bu cəhdlər indi hansı mərhələdədir, Qarabağ probleminin həlli ilə bağlı Sizin baxışlarınız nədən ibarətdir?**

**C a v a b:** Əvvəlcə auditoriyanı bu məsələnin tarixi barədə məlumatlandırmaq istəyirəm. Qarabağ Azərbaycanın qədim və tarixi hissəsidir. Bir çox əsrlərboyu azərbaycanlılar bu torpaqda yaşayıb yaradıblar. XIX əsrin əvvəllərində Rusiya–İran müharibəsi nəticəsində Azərbaycanın şimal hissəsi Rusiya imperiyasının tərkibinə daxil oldu. Ermənilər isə İrandan və Şərqi Anadoludan Azərbaycan torpaqlarına, hazırda Dağlıq Qarabağ adlanan əraziyə köçürüldülər. XX əsrin əvvəllərində bolşevik inqilabının nəticəsində Azərbaycan Sovet İttifaqının bir hissəsi oldu və sovet hökuməti tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə qərar qəbul edildi. Çünki XIX əsrdəki köçürülmədən sonra bu vilayətin əhalisinin 70 faizini ermənilər, 30 faizini isə azərbaycanlılar təşkil edirdi. Beləliklə, Azərbaycanın bu qədim və ayrılmaz hissəsi muxtariyyət statusu aldı və Sovetlər İttifaqının dağılması ərəfəsində Ermənistan separatçıları Ermənistanın dəstəyi ilə Dağlıq Qarabağda separatçı hərəkata başladı, dinc azərbaycanlı əhaliyə qarşı hücumlar etdilər, kəndlərimizi yandırdılar, evlərimizi

dağıtdılar və təkcə Dağlıq Qarabağı yox, Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən 7 rayonu da işğal etdilər. Bu təcavüz və işğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkünə çevrildi. Beynəlxalq təşkilatlar bir çox qərar və qətnamələr qəbul etdi, xüsusilə BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi. Əfsuslar olsun ki, bu qətnamələri qəbul edənlərin özləri öz qərarlarına hörmət etmirlər. Çünki 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalmaqdadır, onlar icra olunmur və biz burada Azərbaycana qarşı ikili standartlar siyasətinin şahidi oluruq. Çünki bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qərarları bir neçə gün ərzində icra olunur. Bizim məsələyə gəldikdə isə, 20 ildən çox vaxt keçib. Ermənistan bu qətnamələrə, həmçinin digər beynəlxalq təşkilatların qərarlarına məhəl qoymur. Oxşar qərarlar İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı» tərəfindən də qəbul edilib. Bütün bu qərarlar, qətnamələr Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edir.

Bəs biz bu münaqişənin həlli yolunu necə görürük? Bu mövqe təkcə bizim baxışlarımıza deyil, həm də bu münaqişənin həlli ilə bağlı beynəlxalq hüquqa əsaslanır. Əvvəla, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, erməni işğalçı qüvvələri işğal olunmuş ərazilərdən çıxarılmalıdır, azərbaycanlılar bütün işğal olunmuş ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıtmaq hüququna malik olmalıdır. Bundan sonra regionda sülh bərqərar olacaq. Azərbaycanın ərazi bütövlüyü çərçivəsindən kənar heç bir qərar qəbul edilə bilməz. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə razı olmayacaq. Onu da əlavə etmək istərdim ki, dünyada heç bir ölkə, o cümlədən azərbaycanlılara qarşı soyqırımı törətmiş Ermənistan da Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır. Bundan başqa, ermənilər bizim bütün tarixi abidələrimizi,

muzeylərimizi, məscidlərimizi dağıtmışlar. Bu gün Ağdam məscidinin, Şuşa məscidinin dağıdılması erməni vəhşiliyinin açıq-aydın sübutudur. Bu təkcə Azərbaycanın tarixi irsinə qarşı deyil, eyni zamanda, islam dəyərlərinə, islam tarixi irsinə qarşı olan hücumdur. Buna görə də Ermənistanın bəzi müsəlman ölkələri ilə münasibətlərini möhkəmləndirməyə və ya normallaşdırmağa yönəlmiş cəhdləri çox təəccüb doğurur. Hesab edirik ki, Ermənistanı açıq-aydın təcavüzkar kimi tanıyan İslam Əməkdaşlıq Təşkilatının qətnamələri Ermənistan ilə münasibətləri inkişaf etdirmək niyyətində olan bütün müsəlman ölkələri üçün əsas mesaj olmalıdır.

**S u a l: Neft və qaz sahəsində Azərbaycan zəngin enerji mənbələrinə malik ölkədir. Azərbaycan son 10 ildə bu sahədə böyük iqtisadi sıçrayış və inkişaf əldə edib. Amma son illərdə neftin qiymətinin aşağı düşməsi büdcəyə təsir göstərib, iqtisadiyyat və gəlir səviyyəsi üçün bəzi problemlər yaradıb. Azərbaycan bununla bağlı hansı tədbirləri görür, xüsusən də gələcəkdə neftin və qazın qiymətlərinin təsirlərini aradan qaldırmaq üçün daha hansı tədbirləri görməyi planlaşdırır?**

**C a v a b:** Bizim siyasətimiz həmişə bir çox belə vacib amilə əsaslanıb ki, neft bizim üçün məqsəd yox, ölkəni inkişaf etdirmək üçün bir vasitədir. Buna görə də neftin qiyməti çox yüksək olan dövrdə biz neft satışından əldə etdiyimiz gəlirlərdən infrastruktura sərmayə yatırmaq üçün istifadə etdik. Ötən 10 ildən artıq müddət ərzində, demək olar ki, Azərbaycanın bütün infrastrukturu modernləşdirilib. Yeni yollar çəkilib, 6 beynəlxalq aeroport tikilib. Xəzərdə ən böyük dəniz limanı inşa olunur, 26 elektrik stansiyası, 3000 məktəb, 600-dən çox xəstəxana istifadəyə verilib, kənd təsərrüfatına yüz milyonlarla dollar məbləğində investisiya yatırılıb. Azərbaycana yatırılan həm xarici, həm də yerli investisiyaların ümumi məbləği təqribən 200 milyard dollar təşkil edir. Buna görə də biz neft və qaz amilindən asılı olmayan inkişaf üçün möhkəm baza və özəl sektora sərmayə yatırmaq, ölkə iqtisadiyyatının

şaxələnməsinə kömək etmək üçün imkanlar yaratdıq. Neftin qiyməti 3-4 dəfə aşağı düşdükdə, əlbəttə ki, sizin də düzgün qeyd etdiyiniz kimi, bizim gəlirlərimiz də azaldı. Lakin iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı atdığımız addımlar və Neft Fondunda toplanılmış maliyyə resurslarının köməyi ilə biz böhranın böyük fəsadlarından yan keçə bildik. Onu da deyim ki, ötən ilin büdcəsində neftin 1 barrelinin qiyməti 25 dollar götürülmüşdü, amma o zaman 1 barrelin qiyməti 40 dollara yaxın idi. Bu ilin büdcəsində neftin 1 barrelinin qiyməti 40 dollar hesablanıb, indi isə bu qiymət təxminən 55 dollar təşkil edir. Buna görə də büdcə siyasəti baxımından biz risklərdən sığortalana bilmişik. Lakin eyni zamanda, hazırkı vəziyyət bizə şaxələndirməyə daha çox diqqət yetirməyi tələb edir. Hər şeydən əvvəl, biz qlobal nəqliyyat qovşağına çevrilmək üçün coğrafi mövqemizdən istifadə edirik. Biz qonşu regionlar – Şərq–Qərb və Şimal–Cənub arasında dəmir yolu əlaqəsini yaradırıq. Azərbaycan artıq mühüm tranzit ölkəsinə çevrilib. Biz kənd təsərrüfatına da böyük həcmdə sərmayə yatırırıq və qarşıdakı illərdə kənd təsərrüfatı məhsullarının ixracını ən azı 2 dəfə artırmaq niyyətindəyik.

Ötən dövr ərzində biz yüksək texnologiyalar sahəsinə də investisiyalar qoymuşuq və bu gün Azərbaycan kosmik kluba üzv ölkədir. Biz kosmik sənaye yaratmışıq və müasir texnologiyalar bizə neft və qazdan asılılığımızı azaltmağa imkan yaradacaq.

Təhsil sahəsində də böyük işlər görülüb. Bizdə, demək olar ki, 100 faiz savadlılıq və ölkənin iqtisadi inkişafına böyük dərəcədə töhfə verə bilən və artıq töhfə verən çox savadlı əhalimiz var.

Bizim iqtisadi siyasətimizin əsas istiqamətlərindən biri də iqtisadi müstəqillik idi. Çünki biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, müstəqil siyasət yürütmək çətin olardı və xarici borcun aşağı səviyyədə saxlanılması – onu deyim ki, bu gün xarici borc 20 faiz səviyyəsindədir – bizə yalnız öz resurslarımıza güvənməyə imkan yaradır. Biz beynəlxalq təşkilatların borc və

kreditlərindən asılı deyilik. Bizim xərclərimiz həmişə gəlirlərimizdən az olub. Mən hər il hökumətə xərclərin gəlirlərdən az olması və əlavə maliyyə ehtiyatlarının yaradılması barədə göstəriş vermişəm. Ona görə də hesab edirəm ki, neft hasil edən ölkələr içərisində Azərbaycan böhranın öhdəsindən uğurla gəlmiş ölkələr sırasındadır. Lakin əlbəttə ki, gələcəkdə görüləsi işlər çoxdur. Bizim turizm sahəsində böyük potensialımız var ki, bu da bizə milyardlarla dollar gəlir gətirəcək. Bizi dünyada indi daha çox tanıyırlar və Əl-Cəzirə televiziya kanalının sayəsində ərəb dünyasında da daha çox tanınırıq. Çünki siz Azərbaycan haqqında bir neçə təqdimat hazırlamısınız. Artıq iqtisadiyyatımızın şaxələndirilməsi ilə bağlı da işlər aparılır. Bu gün ümumi daxili məhsulun, demək olar ki, 70 faizi qeyri-neft sektorunun payına düşür. Növbəti hədəf ixracımızın şaxələndirilməsidir. Neft və qaza gəldikdə isə, qarşıdakı onilliklər üçün də ehtiyatlarımız var. Əlbəttə ki, bu bizim maliyyə sabitliyimizə əlavə bir dəstək olacaq, bizə gəlirlər gətirəcək və biz bu gəlirləri yenidən infrastruktur və insan kapitalına sərmayə qoyuluşuna yönəldəcəyik.

**S u a l: Cənab Prezident, Azərbaycan Avrasiyada strateji mövqedə yerləşir və onun nəhəng enerji resursları vardır. Ölkəniz enerji mənbələrinin Asiyadan Avropaya daşınmasında açar rolunu oynayır, «Cənub Qaz Dəhlizi», TANAP və digər layihələri həyata keçirir. Bu layihələr Azərbaycanı Asiya və Avropa arasında enerji sahəsində inkişaf etmiş tranzit ölkəyə çevirməyi hədəfləyir. Eyni zamanda, ölkənizin Asiya və Avropa arasında nəqliyyat sahəsində də ciddi mövqeləri vardır. İndi və gələcəkdə Azərbaycanın enerji və nəqliyyat sahələrində mövqelərini möhkəmləndirmək üçün hansı işləri icra etməyi planlaşdırırsınız?**

**C a v a b:** Enerji resurslarımıza gəldikdə, hesab edirəm ki, biz enerji siyasətimizi uğurla həyata keçiririk. Bizim şaxələndirilmiş neft və qaz boru kəmərləri şəbəkəmiz var. Bizi Qara dənizlə birləşdirən 2 neft boru kəmərimiz və Aralıq dənizi ilə bir-

ləşdirən 1 boru kəmərimiz var. Bu, neft təchizatımızın şaxələndirilməsi deməkdir və o deməkdir ki, neft ehtiyatları qarşıdan gələn bir neçə onilliklər ərzində Azərbaycana xidmət edəcək. Neft hasilatı ilə bağlı olan bütün bu layihələr artıq icra edilib. Beləliklə, biz artıq 100 faiz əmin ola bilərik ki, mövcud infrastruktur bizim üçün və digərləri üçün yetərli olacaq. Yeri gəlmişkən, biz artıq nefti Mərkəzi Asiyadan Azərbaycan ərazisi ilə, tankerlərlə Xəzər dənizi ilə və bizim boru kəmərləri sistemi ilə Avropaya, beynəlxalq bazarlara nəql edirik.

Növbəti inkişaf mərhələsi biz nəhəng qaz yataqlarını aşkar etdikdə başlandı. Bizə investisiyaları cəlb etmək və həmçinin qaz boru kəmərləri tikmək lazım idi. Beləliklə, bu proses bir neçə il bundan öncə başlandı və bu gün biz Avropanın ən nəhəng infrastruktur layihəsi və ya layihələrindən biri hesab olunan «Cənub Qaz Dəhlizi» layihəsini icra edirik. Bu, Azərbaycanı bizim qonşu ölkələr vasitəsilə Avropa bazarları ilə birləşdirən 3 boru kəmərinin tikintisindən ibarətdir. Birinci boru kəməri Azərbaycan və Gürcüstan arasında olan «Cənubi Qafqaz» boru kəməridir. İkinci boru kəməri Trans–Anadolu kəməri – TANAP-dır. Bu boru kəməri Gürcüstan–Türkiyə sərhədindən Türkiyə–Yunanıstan sərhədinə qədər uzanaraq, bütün Türkiyə ərazisindən keçir. Üçüncü boru kəməri isə Trans–Adriatik boru kəməri – TAP-dır. O da Yunanıstan–Türkiyə sərhədindən Albaniyaya, sonra isə Adriatik dənizinin dibi ilə İtaliyaya gedir. Beləliklə, bu, ayrı-ayrı hissələrə bölünmüş vahid boru kəməri layihəsidir.

Azərbaycanın nəhəng qaz yatağının işlənilməsi də bu layihəni Avropada ən böyük layihələrdən biri edir. Ümumi investisiyaların həcmi təxminən 40 milyard dollar və bəlkə bundan da çox məbləğ səviyyəsində qiymətləndirilir. Bu layihə bizə Xəzər dənizinin Azərbaycana aid sektorundakı bütün qaz yataqlarımızın işlənilməsinə, eyni zamanda, boru kəmərinin marşrutu boyunca yerləşən ölkələrin və Avropa istehlakçılarının qazla təchiz edilməsinə imkan yaradacaq. Çünki Avropanın daha çox qaza ehtiyacı var. Onun iqtisadiyyatı daha çox qaz təchizatını tələb edəcək və bu gün Avropanın qaz

təchizatları mövcud mənbələrlə məhdudlaşır. Beləliklə, bizim mənbə yeni və böyük mənbədir. Bu layihədə biz liderliyi öz üzərimizə götürdük və ümidvarıq ki, gələn il «Cənub Qaz Dəhlizi»nin 4 seqmentindən 3-ü icra olunacaq. Sonuncu seqment olan Trans–Adriatik boru kəmərinin tamamlanması üçün bir az artıq vaxt tələb olunacaq. Bu, enerji təhlükəsizliyi layihəsidir və enerjinin şaxələndirilməsi bizə imkan verəcək ki, ən azı 100 il istehlakçıları qaz ilə təchiz edək.

Bizim enerji layihələrimiz əslində nəqliyyat layihələrinin reallaşmasına təkan verib. Çünki nəqliyyat şəbəkəsinin marşrutuna nəzər yetirsəniz görəcəksiniz ki, o, qaz boru kəməri ilə üst-üstə düşür. Bizim əlverişli coğrafi mövqemiz var, lakin infrastruktursuz bu mövqenin heç bir mənası yoxdur. Hətta regional əməkdaşlıq olmadan infrastrukturun özü belə, heç bir məna kəsb etmir. Buna görə də bizim siyasətimiz birinci olaraq, infrastruktura sərmayə yatırmaqdan ibarət idi.

Biz indi Xəzər dənizində 25 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük dəniz limanı inşa edirik, 6 beynəlxalq aeroport tikmişik və Azərbaycan artıq hava nəqliyyatı qovşağına çevrilir. Biz Azərbaycanı bütün qonşu ölkələrlə birləşdirən avtomagistral yolları inşa etmişik. Biz daha sürətli çatdırmaya nail olmaq üçün dəmir yollarımızı müasirləşdiririk. Eyni zamanda, biz Gəmiqayırma zavodu tikmişik. Bu zavodda indi bizim Xəzər dənizindəki ehtiyaclarımız üçün gəmi və tankerlər istehsal olunur.

Beləliklə, bu, işlərin bir hissəsi idi. İkinci hissə qonşularla razılaşmanın əldə edilməsi idi. Çünki malların tranziti üçün qonşularla birgə işləmək lazımdır. Bu bizim siyasətimizin prioritetlərindən biridir. Beləliklə, biz qonşularımızla çox yaxşı işgüzar əlaqələr yaratdıq və indi də Şərq–Qərb nəqliyyat dəhlizi layihəsini icra edirik. Çindən gələn ilk konteyner qatarı artıq Azərbaycan ərazisindən Avropaya keçib. Ümid edirik ki, bu il biz Asiyadan Avropaya birbaşa nəqliyyat şəbəkəsinin açılışını edəcəyik. Bu da məsafəni 2 dəfə, 30–35 gündən 14 günə – məhz 2 həftəyə qədər azaldacaq. Biz indi eyni zamanda, qonşularımızla Şimal–Cənub

dəhlizi üzərində işləyirik. Bu layihə Azərbaycana Pakistan, Hindistan, Şimali Avropa üçün böyük tranzit ölkəsinə çevrilmək imkanını verəcək. Biz Şimal–Cənub dəhlizi layihəsi ilə bağlı öhdəliyimizi artıq yerinə yetirmişik, lazım olan infrastruktur və dəmir yolu xətlərini tikmişik. Qonşularımızın da öz ərazilərində fəaliyyətlərini və işlərini başa çatdırmasını gözləyirik. Buna görə də bir neçə ildən sonra Azərbaycan tranzit daşımaları üçün ən mühüm nəqliyyat təyinat məntəqələrindən birinə çevriləcək və biz tranzit fəaliyyətindən çoxlu qazanc əldə edəcəyik. Burada söhbət təkcə qazancdan getmir, çünki tranzit fəaliyyəti həm də əməkdaşlıq deməkdir. Çünki qonşularınızla belə münasibətdə olduqda siz sabitliyə, əməkdaşlığa, proqnozlaşdırılma imkanına investisiya qoymuş olursunuz. Regiondakı bütün ölkələr bir-birinə bağlı olur. Bu da yaxşı haldır. Çünki bu, sabitlik amillərindən biridir. Beləliklə, bizim enerji və nəqliyyat təhlükəsizliyi ilə bağlı siyasətimiz həqiqətən də regional sabitlik işinə böyük töhfədir.

**S u a l: Siz Türkiyə ilə dost və qardaş ölkəsiniz. Türkiyə də nəqliyyat və enerji sahəsində tranzit ölkəyə çevrilmək istəyir. Türkiyə ilə müştərək layihələriniz haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** Əlbəttə, biz enerji və nəqliyyat layihələrimizi Türkiyə ilə sıx əməkdaşlıq şəraitində həyata keçiririk. Türkiyə bizim üçün qardaş ölkədir. Bizim çox sıx münasibətlərimiz var. Bizim dostluğumuz nəinki regional, hətta qlobal əhəmiyyətə malik olan amildir. Çünki Azərbaycanın enerji resursları birinci olaraq Türkiyəni əlavə enerji ilə təchiz edir, eyni zamanda, bu enerji resursları Türkiyə vasitəsilə beynəlxalq bazarlara çatdırılır. Bizim əsas neft boru kəmərimiz Ceyhanda, Aralıq dənizinin sahilində bitir. Eyni zamanda, TANAP–Trans–Anadolu kəməri. Bu ad artıq özlüyündə kəmərin mahiyyətindən xəbər verir. Buna görə də nəqliyyat və enerji sahəsində Türkiyə–Azərbaycan tərəfdaşlığı bu nəhəng layihələrin icrası üçün çox önəmlidir və ölkələrimiz arasında yüksək səviyyəli siyasi əlaqələr və xalqlarımız arasındakı

qardaşlıq münasibətləri bu layihənin uğurlu icrası üçün əsas amildir.

**S u a l: Azərbaycan artıq 25 ildən çoxdur ki, öz müstəqilliyini bərpa edib. Azərbaycan bu illər ərzində az tanınan ölkədən böyük layihələr sayəsində regionda mühüm dövlətə çevrilib və bunu nəzərə almamaq mümkün deyil. Siz üçüncü müddətdir ki, prezident seçilmisiniz. Azərbaycanın gələcəyi haqqında fikirləriniz nədir? Azərbaycanı necə görmək istəyirsiniz?**

**C a v a b:** İlk növbədə demək istərdim ki, bu 25 il uğurlu inkişaf illəri olub. Ola bilsin ki, vəziyyətin çox çətin olduğu, vətəndaş müharibəsinin getdiyi ilk 2 il istisna olmaqla, həmin illərdə iqtisadi çətinliklərimiz, çoxlu problemlərimiz var idi. Lakin 1993-cü ildə Heydər Əliyev Azərbaycan xalqı tərəfindən prezident seçildikdən sonra vəziyyət dəyişdi. 1993-cü ildən etibarən biz əsl müstəqil ölkə kimi, inkişaf etməyə başladıq. Biz çox iş görməli idik, çünki Azərbaycanın iqtisadi vəziyyəti çox ağır idi. Sənayemiz durğunluq içində idi, inflyasiya 1000 faizdən yuxarı idi, yoxsulluq hökm sürürdü, heç bir investisiya, vəsait yox idi, keçmiş Sovet İttifaqının bütün bazarları ilə ənənəvi əlaqələr kəsilmişdi. Üstəlik Ermənistanın təcavüzü, torpaqlarımızın işğalı, 1 milyondan çox qaçqın və məcburi köçkün. Həmin dövrdə Azərbaycan çox çətin vəziyyətdə idi. Beləliklə, 1993-cü ildən etibarən hər ili uğurlu il hesab etmək olar. Bu gün biz beynəlxalq aləmdə hörmət edilən ölkəyik. Bir neçə il əvvəl biz BMT üzvlərinin mütləq əksəriyyəti – 155 ölkə tərəfindən BMT Təhlükəsizlik Şurasının üzvü seçildik. Bu, dünyanın Azərbaycana olan dəstəyinin və hörmətinin ən yüksək göstəricisi oldu. Biz iqtisadi cəhətdən sabit, müstəqilik. Biz müstəqil siyasət həyata keçiririk. Qonşularımızla çox yaxşı əlaqələrimiz var və düşünürük ki, dünya yalnız əməkdaşlıq və qarşılıqlı hörmət vasitəsilə və bir-birinin işlərinə qarışmamaq şərti ilə uğurla inkişaf edə bilər.

Beləliklə, müstəqillik illərində görülən işlər həqiqətən də çox mühümdür. Çünki bu gün Azərbaycan sabit, müasir, inkişaf

edən ölkə kimi tanınır. Bizim istər siyasi, istərsə də iqtisadi inkişafla bağlı gələcək planlarımız çox aydındır və bu, ictimaiyyətə məlumdur.

Biz inkişaf, müasirləşmə yolu ilə getməyə davam edəcəyik. Azərbaycanın davamlı inkişafı neft və qaza deyil, bilik, texnologiya, təhsil, qeyri-neft sektoruna əsaslanmalıdır. Biz regionun enerji və nəqliyyat xəritəsini tamamilə dəyişəcəyik ki, bu da öz növbəsində, region xalqları üçün böyük imkanlar yaradacaq. Çünki bizim istər nəqliyyat, istərsə də enerji sahəsində təşəbbüskarı olduğumuz layihələr təkcə Azərbaycanda deyil, bütün bu layihəyə cəlb olunmuş ölkələrdə minlərlə, on minlərlə iş yeri yaradır. Biz ənənəvi dəyərlərimizə, əcdadlarımızdan bizə miras qalan dəyərlərə sadiq olmağa davam edəcəyik. Budur bizim gücümüzün mənbəyi və biz ənənəvi dəyərlərimizi istənilən xarici müdaxilədən, qloballaşma vasitəsilə Azərbaycanın siyasi və ya iqtisadi inkişafına təsir etmək cəhdlərindən çox fəal şəkildə qoruyuruq. Biz kimliyimizi, müstəqilliyimizi qorumağa davam edəcəyik və hətta bu gün olduğundan da mühüm olan daha güclü ölkə quracağıq. Baxmayaraq ki, bu gün də regionumuzda Azərbaycanın iştirakı və ya razılığı olmadan heç bir layihə həyata keçirilə bilməz. Bu təkcə coğrafi mövqeyə görə deyil. Düşünürəm ki, ən çox beynəlxalq birliyin hörmətli üzvü olduğumuza görədir. Tərəfdaşlarımız bilir ki, bizim sözümüzlə imzamız uyğun gəlir və biz tərəfdaşlarımızı heç vaxt pis vəziyyətdə qoymarıq. Bizimlə danışıqlar aparmaq o qədər də asan məsələ deyil, lakin biz razılaşırıqsa, deməli, bu, 100 faiz həyata keçiriləcək. Biz ləyaqətlə yaşayırıq. Biz ölkəmizlə fəxr edirik və gələcəkdə bu müsbət tendensiyaları daha da gücləndirmək istəyirik.

**S u a l: Cənab Prezident, 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunub. Bu hadisə Azərbaycana və islam ölkələri ilə əlaqələrə necə təsir göstərəcək? Eyni zamanda, Azərbaycan bu il İslam Həmrəyliyi oyunlarını keçirəcək. Sizcə, bütün bu təşəbbüslərlə Azərbaycan islam dünyası ilə strateji həmrəylik nümayiş etdirir? Bəlkə islam**

**dünyasında daha önəmli rol oynamağa, yoxsa islam dünyasını yaxınlaşdırmağa çalışır? Biz onu da bilirik ki, Azərbaycanın bütün millətlərlə və mədəniyyətlərlə münasibəti yüksək səviyyədədir. Yoxsa Azərbaycan mədəniyyətləri bir-birinə yaxınlaşdırmaq istəyir?**

**C a v a b:** Bəli, düşünürəm ki, sualın cavabını özünüz verdiniz. Sizin qeyd etdikləriniz tam mənada bizim hədəflərimizdir. Azərbaycan islam sivilizasiyasının bir parçasıdır və biz bununla fəxr edirik. Biz tarixi, dini abidələrimizlə fəxr edirik. Sizə deyə bilərəm ki, Sovet İttifaqı dövründə Azərbaycanda 20-dən də az məscid var idi, çünki ateizm dövründə məscidlərimizin böyük əksəriyyəti dağıdılmışdı. İndi isə 2000-dən çox məscid var. Onlar müstəqillik dövründə tikilibdir. Biz təkcə onları tikməmişik, həm də tarixi məkanlarımızı, bütün məscidlərimizi bərpa etmişik. Müsəlman aləminin ən qədim məscidlərindən biri Azərbaycanda, qədim Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilib. Bax, bu bizim tariximiz və mədəniyyətimizdir. Məqsədimiz ilk növbədə, müsəlman dünyasında birliyi gücləndirməkdir. «İslam həmrəyliyi ili»nin elan olunması da elə bu deməkdir.

Düşünürəm ki, indi müsəlman dünyasının əvvəl heç zaman olmadığı qədər daha çox birliyə ehtiyacı vardır. Müsəlman dünyasında bu birlik çatışmır. Düşünürəm ki, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır. IV İslam Həmrəyliyi oyunlarının təşkil olunması da bunu göstərir, çünki bu təkcə idman deyil, bu təkcə idmançıların bayramı olmayacaq, bu, müsəlman dünyasının gənclərini birləşdirəcək, onlar Bakıya gələcəklər, ölkəmizi görəcəklər, əlaqələr quracaqlar və bu əlaqələr bütün müsəlman gənclərinə ölkələr arasındakı əlaqələri gücləndirməyə kömək edəcək. Biz islamofobiya meyillərinin artmasından, islamın bəzi beynəlxalq media orqanları tərəfindən terror dini kimi təqdim olunmasından çox narahatıq. Terrordan ən çox müsəlmanlar ziyan çəkib. Bizim qədim sivilizasiyamız, dəyərlərimiz, dünyaya töhfələrimiz var. Biz bunu nümayiş etdirməliyik. Azərbaycan Avropa

ölkələrində çox işlər həyata keçirir, biz sərgilər, təqdimatlar təşkil edirik, islam mədəniyyətini təbliğ edirik və beləliklə, göstəririk ki, qədim sivilizasiyaya malikik və bununla Azərbaycanda müsəlman həmrəyliyini gücləndiririk. Ümumiyyətlə, Azərbaycanda bütün dinlərin nümayəndələri arasında yüksək səviyyədə birlik mövcuddur. Biz sülh şəraitində yaşayırıq və heç zaman ayrı-seçkilik etmirik. Budur irəli getməyin yolu.

Müsəlman ölkələri bizə çox böyük hörmətlə yanaşır. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Azərbaycanda çoxsaylı tədbirlər təşkil edib və Ermənistan–Azərbaycan münaqişəsində bizi tam dəstəkləyir. Beləliklə, bizim planlarımız bunlardır. Biz bununla bir daha müxtəlif hədəflərə nail olmaq, müsəlman aləmində birliyi möhkəmləndirmək işinə töhfəmizi vermək, Azərbaycanda həmrəyliyi daha da gücləndirmək və islamı dünyaya sülh və mədəniyyət dini kimi təqdim etmək üçün daha çox çalışmaq istəyirik.

**S u a l: Cənab Prezident, Azərbaycanın mövqeyi ətrafdakı qonşularla əlaqələrin önəmini də artırır. Xüsusilə də Avropa İttifaqı, Amerika, Rusiya, İran və digər ölkələrlə əlaqələri. İndiki dövrün həssaslığını nəzərə alaraq, növbəti mərhələ – ərəb ölkələri ilə əlaqələr barədə danışmaq istərdim. Siz bu yaxınlarda Qətərə səfər edəcəksiniz. Bu səfərdə məqsədiniz nədir? Məqsəd ərəb ölkələri ilə daha sıx əlaqələr qurmaqdır? Bu səfər ərəb və islam ölkələri ilə daha sıx əlaqənin başlanğıcı sayıla bilərmi?**

**C a v a b:** Azərbaycan bütün qonşuları ilə yaxşı münasibətlərə malik olmaq istəyir və düşünürəm ki, biz buna nail olmuşuq. Çünki bu, hər bir ölkə üçün vacibdir. Biz qonşuluqda yaşayırıq və təcrid olunmuş ölkə deyilik. Bizim Ermənistandan başqa, bütün qonşularımızla çox fəal münasibətlərimiz var. Qeyd etdiyim kimi, bizim ən böyük tərəfdaşımız olan Türkiyə ilə çoxlu layihələrimiz var. Bizim Gürcüstan, Rusiya, İranla da çoxlu layihələrimiz var. Düşünürəm ki, bu müstəqillik illəri

bütün ölkələrə, o cümlədən qonşularımıza aydın göstərdi ki, biz dostluq və əməkdaşlığı möhkəmləndirmək niyyətindəyik. Lakin biz heç kimin daxili işlərimizə müdaxilə etməyə çalışmasını istəmirik. Bu, baş verdikdə, biz çox sərt mövqe nümayiş etdiririk. Lakin xoşbəxtlikdən Azərbaycanın öz siyasətini həyata keçirməsi bu gün artıq dünyada və regionda böyük mənada qəbul edilir. Bu siyasət bizim milli maraqlarımıza əsaslanır. Əgər bizim maraqlarımız qonşularımızın maraqları ilə üst-üstə düşürsə, bu, yaxşı haldır. Əgər üst-üstə düşmürsə, bizim üçün əsas öz maraqlarımızdır. Bu, qeyd etdiyiniz qonşu ölkələrlə münasibətlərimizə, eləcə də Avropa ölkələri, ümumilikdə Qərb ilə münasibətlərimizə də aiddir. Bizim bir çox Avropa ölkələri ilə çox yaxşı işgüzar münasibətlərimiz var. Biz Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq üzrə sazişlər imzalamışıq və yaxın zamanlarda Avropa İttifaqı ilə yeni sazişlə bağlı danışıqlara başlayacağıq. Qərbdə də yaxşı başa düşürlər ki, Azərbaycanın öz yolu var və bu siyasət heç kimə qarşı yönəlməyib. Əksinə, düşünürəm ki, təşəbbüslərimizin əksəriyyəti regionumuzdakı gərginliklərin azaldılmasına imkan verib.

Son illərdə və aylarda region ölkələrinin bəzilərinin münasibətlərində çətinliklər yarandı. Lakin bizim siyasətimiz həmişə ona yönəlib ki, bu çətinlikləri necə yumşaldaq, bu ölkələrə münasibətlərini normallaşdırmaq üçün necə kömək edək. Və görürük ki, bu özünü doğruldur.

Ərəb dünyası ilə münasibətlərə gəlincə, deməliyəm ki, bu münasibətlər bizim üçün hər zaman prioritet olub. Mən bir çox ərəb ölkələrinə rəsmi səfərlər etmişəm. Bizim əla siyasi münasibətlərimiz var. Sizə deyə bilərəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın işğal olunmuş ərazilərinə münasibətdə böyük həmrəylik nümayiş etdirir və biz bunu yüksək qiymətləndiririk. Qətər ilə münasibətlərimiz də bizim üçün böyük əhəmiyyət kəsb edir və doğru qeyd etdiyiniz kimi, bu, ikitərəfli format və həmçinin Körfəz ölkələri ilə əməkdaşlıq formatıdır. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və bir çox başqa ərəb ölkələrinə uğurlu səfərlərim və Qətərə plan-

laşdırılan səfərim bu əməkdaşlığı gücləndirəcək. Biz ərəb ölkələrindən daha çox insanın ölkəmizə gəlməsini istəyirik. Yəqin bilirsiniz ki, biz bu yaxınlarda Körfəz Əməkdaşlığı ölkələrinin vətəndaşları üçün bütün viza tələblərini aradan qaldırmışıq. Qətərin Əmiri əlahəzrət Şeyx Təmim bin Həmid əl-Tani Azərbaycanda rəsmi səfərdə olub. İndi isə mənim növbəmdir. Bizim əlahəzrətlə çox yaxşı şəxsi, mən deyərdim ki, dost münasibətlərimiz var. Biz bir çox iqtisadi layihələr üzərində işləyirik. Biz əlahəzrətin Bakıya səfəri zamanı birgə iqtisadi Komissiyanın yaradılması barədə razılığa gəlmişik və o, artıq fəaliyyətə başlayıb. Bu yaxınlarda Qətərin Xarici İşlər naziri Bakıda səfərdə olub və onlar bu görüşü keçiriblər. Komissiya əsas diqqəti iqtisadi əməkdaşlığımızın praktiki məsələləri üzərində cəmləşdirəcək. Biz qarşılıqlı ticarətin səviyyəsini artırmaq istəyirik. Biz sizin digər ölkələrdən aldığınız məhsulları Qətərə daha çox ixrac etmək və həmçinin daha çox idxal etmək istəyirik. Eyni zamanda, biz birgə investisiya layihələri ilə bağlı əməkdaşlığa dair danışıqlar aparırıq. Bəlkə də investisiya üçün birgə bir qurum da yaratmaq olar. Çünki bəzən elə olur ki, Qətər ilə Azərbaycan bəzi ölkələrdə həmsərmayəçi olurlar, lakin bu, əlaqələndirilmiş siyasət vasitəsilə edilmir, necə deyərlər, fərdi addımlar vasitəsilə həyata keçirilir. Lakin biz bunu əlaqələndirə və öz investisiyalarımızla yeni bazarlara birgə daxil ola bilərik.

Biz güclü ölkələrik və əlbəttə ki, ərəb qardaşlarımızla əməkdaşlığımızın mühüm amili xalqlar arasındakı əlaqələrdir. Çünki biz ərəb dünyasında daha çox tanınmaq istəyirik. Biz gənc ölkəyik, cəmi 25 yaşımız var. Biz Sovet İttifaqının dəmir pərdəsi ilə müsəlman dünyasından ayrılmışdıq. 25 yaxşı yaşdır, lakin gənc yaşdır, biz tanınmalıyıq və siyasi, iqtisadi, mədəni əlaqələr vasitəsilə daha çox tanına bilərik. Bu bizim üçün və düşünürəm ki, ərəb tərəfdaşlarımız üçün də çox yaxşı olacaq, iqtisadi, siyasi maraqlarımıza xidmət edəcək və müsəlman dünyasının birliyini gücləndirəcəkdir. Çünki biz bilirik ki, bu birliyi görmək istəməyən qüvvələr var, onlar müsəlmanları ayırmaq, müsəlman dünyasında, necə deyərlər, xaos yaratmaq

istəyirlər və təəssüf ki, bəzən bu, baş verir. Bizim siyasətimiz bizi bütün bunlardan qorumaqdan ibarətdir. Bizim bu il elan etdiyimiz «İslam həmrəyliyi ili» fikrimcə, bu işlərin həyata keçirilməsinə kömək edəcək.

**S u a l: Cənab Prezident, Sizin ərəb aləminə, ərəb dünyasına sözünüz varmı? Ərəb xalqına nə demək istərdiniz?**

**C a v a b:** Mən ərəb qardaşlarımıza sülh, sabitlik, tərəqqi, uğurlar arzulayıram. Ərəb dünyasında quruculuğun müasir inkişafının gözəl nümunələri var və bizim üçün qardaş ölkə olan Qətər bu nümunələrdən biridir. Siz öz ənənələrinizə, köklərinizə çox bağlısınız. İqtisadi inkişaf göstəriciləri, adambaşına düşən ümumi daxili məhsul baxımından ölkənizi dünyanın ən aparıcı ölkələrindən birinə çevirmisiniz. Ölkəniz bir çox müsəlmanlara və müsəlman ölkələrinə yardımlar, kreditlər və investisiyalarla kömək edir. Düşünürəm ki, hamımız, müsəlman ölkələrinin bütün nümayəndələri inkişafın bu yaxşı nümunəsindən faydalana bilərik. Sözüm budur ki, Azərbaycan sizin qardaşınızdır. Demək istəyirəm ki, biz islam həmrəyliyi və birliyinə çox sadiqik, bu istiqamətdə çox iş görürük. Eyni zamanda, Əl-Cəzirə kanalının çoxmilyonlu tamaşaçı auditoriyasından istifadə edərək, bütün qardaşlarımızı Azərbaycana dəvət etmək istərdim.

## DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ VİTSE-PREZİDENTİ SİRİL MÜLLER İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Mülleri qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın yaxşı tarixi olduğunu məmnunluqla qeyd edərək, ölkəmizdə Dünya Bankının dəstəyi ilə çoxsaylı əhəmiyyətli layihələrin həyata keçirildiyini dedi və bu layihələrin infrastrukturun müasirləşdirilməsi baxımından önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda infrastrukturun inkişaf etdirilməsinin dövlət siyasətimizin mühüm hissəsi olduğunu bildirdi. Dövlətimizin başçısı eyni zamanda, Dünya Bankının uğurla icra olunan qlobal əhəmiyyətli «Cənub Qaz Dəhlizi» layihəsinə verdiyi maliyyə dəstəyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev TANAP layihəsi ilə bağlı işlərin də qrafikə uyğun həyata keçirildiyini və vaxtında tamamlanacağını qeyd etdi.*

*Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Müller prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan iqtisadi islahatları yüksək qiymətləndirdi.*

*Söhbət zamanı iqtisadiyyatın şaxələndirilməsi, aqrar sektorda ixrac potensialının artırılması, təhsil sistemində islahatlar və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI ÇİNGİZ QURBANOVUN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Keçən il dekabrın 29-da sizin oğlunuz əsgər Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq, qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. Baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı, o, geri çəkilmədi, qorxmadı. Son nəfəsinə qədər vuruşdu, bir neçə işğalçını məhv etdi, şəhidlik zirvəsinə ucaldı.Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Azərbaycan dövlətinin güclü əsgərləri var. Çingiz böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərdi. Mənfur düşmən isə bu dəfə də öz qeyri-insani mahiyyətini bütün dünyaya göstərərək, 1 aydan çox Çingizin nəşini qaytarmaq istəmirdi. Azərbaycan dövləti çox böyük səylər göstərdi. Bizim beynəlxalq təşkilatlara müraciətlərimiz də cavabsız qalmadı. Birgə səylərlə Çingizin nəşinin Vətənə qaytarılmasına nail olduq. Bakıda təntənəli vida mərasimi keçirildi. Sonra Çingiz doğulduğu Qusar rayonuna aparıldı və orada təntənəli mərasimlə torpağa tapşırıldı. Fürsətdən istifadə edərək, Qusar rayonunun bütün sakinlərinə öz hörmətimi bir daha ifadə etmək istəyirəm. Qusarlılar Çingiz kimi qəhrəman övladı Azərbaycana bəxş etmişlər. Dekabr ayındakı növbəti təxribatın məqsədi aydın idi. Çünki keçən ilin aprel ayında erməni silahlı qüvvələri bizə qarşı silahlı təxribat törətməyə cəhd etdilər. Ancaq bu təxribat nəticəsində özləri peşman oldular. Azərbaycan Ordusu onlara elə zərbə vurdu ki, bu günə qədər də özlərinə gələ bilmirlər. Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi, generallar poqonlarını, vəzifələrini itirdilər. Ermənistan cəmiyyətində panika, təşviş hökm sürürdü və bu, bu gün də davam edir. Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. İndi o torpaqlarda bərpa işləri aparılır və Azərbaycan vətəndaşları o torpaqlara qayıdacaqlar.

Ermənistan çox çalışdı ki, aprel döyüşlərindən sonra bu məsələyə beynəlxalq don geyindirsin. Çox çalışdı ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı – Ermənistan təşkilatın üzvüdür – bu məsələ ilə bağlı öz mövqeyini

bildirsin. Halbuki bunun üçün heç bir hüquqi əsas yoxdur. Bizim Ermənistan torpağına iddiamız yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik. Ona görə aprel döyüşləri və təmas xəttində yaşanan gərginlik və toqquşma bizim daxili işimizdir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı məhz belə tanıyır və bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

Apreldən sonra Ermənistan müxtəlif yollarla çalışırdı ki, bu məsələyə digər ölkələri cəlb etsin. Ancaq səyləri boşa çıxdı, heç bir nəticə vermədi. Ermənistan–Azərbaycan sərhədində növbəti təxribatın törədilməsi məhz bu məqsədi güdürdü ki, bu dəfə üzv olduğu təşkilatı bu işə cəlb etsin. Bu dəfə də alınmadı. Ona görə ki, Azərbaycan Çingizin simasında bir daha qəhrəmanlıq göstərdi. Ermənistan bir daha gördü ki, hətta bir əsgərimiz onların canlı qüvvəsinə bərpaolunmaz zərbə vura bilər və belə də oldu.

Biz öz torpağımızı müdafiə edirik. Bizim işimiz haqq işidir. Bu məsələdə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bütün Azərbaycan cəmiyyəti birdir, həmrəylik göstərir, birlik göstərir. Bu bizim ümumi məsələmizdir və biz haqlıyıq. Çünki həm tarix, həm beynəlxalq hüquq normaları bizim mövqemizi müdafiə edir. Eyni zamanda, bu gün Azərbaycan Ermənistan ilə müqayisədə qat-qat güclü ölkədir, özü də təkcə iqtisadi və hərbi potensialına görə yox. Bax, Çingiz kimi övladlarımız bizim üstünlüyümüzü bir daha göstərir. Onun üz-üzə qaldığı diversantların sayı 10-dan çox idi. Yəqin Çingiz bilirdi ki, ölümə gedir, bilirdi ki, o, qeyri-bərabər döyüşdən salamat çıxmayacaq. Buna baxmayaraq, o, Vətən torpağını müdafiə etmək üçün ölümə getdi və şəhidlik zirvəsinə qalxdı.

Bütün Azərbaycan Çingizlə fəxr edir. Mən sizə minnətdaram ki, belə vətənpərvər, qeyrətli övlad böyütmüsünüz, Azərbaycana bəxş etmisiniz. Çingiz ölməyib, o bizim ürəyimizdə yaşayır və yaşayacaqdır. O, hərbçi üçün ən yüksək mükafatla təltif olunub, ona Milli Qəhrəman adı verilib. Onun adı əbədiləşdiriləcək və həmişə bizim ürəyimizdə yaşayacaqdır.

Dünən Çingizin 3 mərasimi verildi. Bu gün sizi dəvət etmişəm ki, bu yüksək mükafatı – Milli Qəhrəman «Qızıl Ulduz»unu sizə təqdim edim.

*Prezident İlham Əliyev Azərbaycanın Milli Qəhrəmanı «Qızıl Ulduz»unu şəhidin atası Salman Qurbanova təqdim etdi.*

**S a l m a n Q u r b a n o v:** (*Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun atası):*Bu ali mükafat təkcə Çingizə deyil, Azərbaycan torpaqları uğrunda canından keçən bütün şəhidlərimizə Sizin tərəfinizdən verilən qiymətdir. Sizə dərin minnətdarlığımı bildirirəm, cənab Prezident. Mən bir şəhid atası kimi, Sizi əmin edirəm ki, Sizin əmrinizlə bu saat da silah götürməyə, Vətənimizin torpağını azad etməyə hazıram. Çox sağ olun, cənab Prezident, Sizə minnətdaram.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## AŞPA-nın HÜQUQİ İŞLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ MƏRUZƏÇİSİ ALAN DESTEKS İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Avropa Şurası Parlament Assambleyasının Hüquqi İşlər və İnsan Hüquqları Komitəsinin Azərbaycan üzrə məruzəçisi Alan Desteksi qəbul etmişdir.*

*Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin 15 ildən çoxdur davam etdirildiyini qeyd edən dövlətimizin başçısı ölkəmizin Avropa strukturları ilə yaxşı əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, bu günlərdə Avropa İttifaqındakı mühüm və səmərəli görüşlərini xatırlatdı.*

*Görüşdə ölkəmizin daha da müasirləşdirilməsi və demokratikləşməsi istiqamətində atılan addımlar, həyata keçirilən islahatlar və iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı görülən işlərdən danışıldı, Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKIDA 1 SAYLI POÇT FİLİALININ YENİ XİDMƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*10 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 10-da Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsaslı şəkildə yenidən qurulmuş 1 saylı poçt filialının yeni xidmət mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına yeni xidmət mərkəzi barədə məlumat verdi. Bildirildi ki, nazirliyin qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlər poçt və telekommunikasiya binalarında yaradılan yeni xidmət mərkəzlərində təqdim ediləcək. «Şəbəkə» adlanan ilk xidmət mərkəzi Üzeyir Hacıbəyli, 36 ünvanında yerləşən 1 saylı poçt filialında istifadəyə verilib. Sahəsi 500 kvadratmetrdən çox olan mərkəz müasir standartlara uyğun əsaslı təmir olunub.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «Şəbəkə» mərkəzlərində istifadə olunan bütün proqram təminatı yerli mütəxəssislər tərəfindən hazırlanıb və müasir standartlara uyğundur. Mərkəzdə müştərilər xüsusi özünəxidmət terminalından da istifadə edə bilərlər. Burada son texnoloji tələblərə uyğun avadanlıq – müasir lazer printerlər, monoblok kompüterlər, özünəxidmət köşkləri, valyuta mübadiləsi və ödəmə terminalları, bankomatlar, bank sistemində tətbiq olunan ən müasir növbə aparatı, tam yenilənmiş abunə qutuları quraşdırılıb, müasir tələblərə cavab verən çeşidləmə otağı yaradılıb. «Şəbəkə» xidmət mərkəzlərində bütün növ telekommunikasiya və poçt, bank və maliyyə xidmətlərinin təşkili də nəzərdə tutulub. Vətəndaşlar telefon çəkilişi, internetə qoşulma, bütün növ rabitə*

*xidmətlərinin ödənişi, mobil cihazların IMEI qeydiyyatı, «Elektron hökumət» xidmətlərindən yararlanmaq, «Elektron imza», valyuta mübadiləsi və aviabiletlərin alınması üçün bu mərkəzə müraciət edə bilərlər. Xidmətlərin vahid məkanda cəmlənməsi vətəndaşların vaxt itkisini aradan qaldırmağa və nağdsız ödənişlərə imkan yaradıb.*

*Dövlətimizin başçısına və xanımına mərkəzdəki «e-GovPay» ödəmə sistemi barədə məlumat verildi. Qeyd olundu ki, bu sistem vasitəsilə hazırda kommunal xərclər və digər ödənişlər mümkündür. Yaxın gələcəkdə isə həmin sistem vasitəsilə dövlət rüsumları da ödəniləcək. «Şəbəkə» xidmət mərkəzlərinin yaradılmasında əsas məqsəd əhaliyə mərkəzləşdirilmiş qaydada yüksək standartlara uyğun xidmət göstərməkdir. Burada işçi heyəti üçün treninqlər keçirilir. İşə 60 nəfərdən çox əməkdaş cəlb olunub. Bildirildi ki, Bakı şəhərində ilkin mərhələdə 10 belə xidmət mərkəzinin açılması nəzərdə tutulur. Hazırda Xəzər, Yasamal və Binəqədi rayonlarında «Şəbəkə» xidmət mərkəzlərinin açılması üçün təmir-tikinti işləri aparılır və yaxın zamanlarda onların istifadəyə verilməsi gözlənilir. Gələcəkdə respublikamızın regionlarında da «Şəbəkə» xidmət mərkəzlərinin istifadəyə verilməsi planlaşdırılır.*

*Mərkəzdəki «Elektron imza» və «Elektron hökumət» portalı ilə bağlı həyata keçirilən yeniliklər barədə də ətraflı məlumat verildi. Qeyd olundu ki, müxtəlif ölkələrə səyahətə və istirahətə gedənlər buradan sərfəli qiymətə aviabiletlər əldə edə bilərlər. Bu mərkəzlərdə vətəndaşlara fasiləsiz olaraq, həftənin bütün günlərində səhər saat 9-dan axşam saat 8-dək xidmət göstəriləcək.*

*Yeni xidmət mərkəzi ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## «AZƏRBAYCAN DƏMİR YOLLARI» QSC-nin İNZİBATİ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 10-da «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin (QSC) inzibati binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*«Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına və xanımına burada aparılan işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 1956-cı ildə inşa edilən bu binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin siyasi fəaliyyətləri, həmçinin ölkəmizdə dəmir yolunun inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb, ümummilli liderin büstü qoyulub.*

*Ümumilikdə Azərbaycanda dəmir yolunun inkişafı ulu öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zamanı əhatə edir. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanda dəmir yolları müasir dövrün tələblərinə uyğunlaşdırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə, köklü islahatlara və davamlı inkişafa nail olunub.*

*Binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hərtərəfli şərait var, otaqlar ən müasir mebel və avadanlıqlarla təchiz olunub. Burada qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. Binanın 280 nəfərlik müasir akt zalında*

*bütün imkanlar yaradılıb. İnzibati otaqların hamısı zəruri avadanlıqlarla təchiz olunub. Burada müasir yeməkxana da işçilərin ixtiyarına verilib. Binada, həmçinin şəhid dəmiryolçuların fotolarından ibarət guşə yaradılıb.*

*Qeyd edildi ki, binada ən müasir işıqlandırma sistemi qurulub. Dəmir yolunun fasiləsiz iş rejimini nəzərə alaraq, binanın həyətyanı ərazisində 2 transformator və generator quraşdırılıb, su anbarları inşa edilib. Bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada eyni zamanda, beynəlxalq standartlara cavab verən yanğın təhlükəsizliyi və mühəndis kommunikasiya sistemləri tam şəkildə yenilənib. Ətraf ərazilərdə əsaslı abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.*

## BAKI DƏMİR YOLU VAĞZALININ ƏSASLI YENİDƏN QURULMASINDAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*10 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 10-da Bakı Dəmir Yolu Vağzalında əsaslı yenidən qurulmasından sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*Bakı Dəmir Yolu Vağzalının binası 1884-cü ildə Mavritaniya üslubunda inşa olunub, 1926-cı ildə isə rekonstruksiya edilib. Elə həmin ilin iyununda keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda Bakı–Sabunçu dəmir yolu sahəsində elektrik qatarı hərəkətə buraxılıb. 1977-ci ildə dəmir yolunun Bakı sərnişin stansiyasında yeni vağzal binası tikilib. Sərnişinlərə xidmət üçün nəzərdə tutulan və mehmanxanası olan 16 mərtəbəli vağzal binası Cənubi Qafqazda eyni tipdən olan obyektlərin ən böyüyü idi.*

*Vağzal binasının üslubu və fasadı Bakı üçün ənənəvi tikililərdən fərqlənir. Belə ki, vağzalın eksteryeri qədim Şərq üslubuna xasdır. O dövrdə Şərq üslubunda tikilən bina dəbdəbə və əzəmətin təzahürü sayılırdı. Bu binanın fasadında Şirvanşahlar sarayının bir çox elementlərindən də istifadə olunub. Uzun illər istismar və baxımsızlıq üzündən bina görkəmini itirdiyi üçün 2015-ci ilin əvvəllərində burada əsaslı yenidənqurma işlərinə start verilib. Vağzal binasında milli ornamentlərə uyğun olaraq, yenidənqurma həyata keçirilib.*

*Vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanılması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb. Həmçinin bilet satışı kassaları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunub, eskalatorlar yenisi ilə əvəzlə-*

*nib. Yük, sərnişin və əlillər üçün liftlər quraşdırılıb. Əsaslı təmir zamanı burada inzibati otaqlar, müasir standartlara cavab verən ticarət və iaşə obyektləri yaradılıb, ana-uşaq otaqları, gözləmə zalı, saxlama kameraları sərnişinlərin istifadəsinə verilib. Binada sərnişinlər pulsuz Wi-Fi sistemindən də istifadə edəcəklər. Əsaslı təmir və yenidənqurma işləri çərçivəsində 4-ü vağzala, 4-ü isə şəhərə çıxış üçün müasir səviyyədə 8 tunel yaradılıb.*

*Dövlətimizin başçısına və xanımına vağzal binasında yaradılan situasiya mərkəzi barədə də məlumat verildi. Mərkəzdən müşahidə kameraları vasitəsilə vağzal ərazisinə nəzarət olunur.*

*Vağzal binasının ikinci mərtəbəsində 2 saylı «ASAN kommunal» fəaliyyət göstərir. Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına və xanımına mərkəz barədə məlumat verdilər.*

*«ASAN kommunal» mərkəzlərinin yaradılması Azərbaycan Prezidentinin ötən il imzaladığı fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq, bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada 3 qurum – «Azərişıq» və «Azərsu» ASC-lər, həmçinin «Azəriqaz» İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Mərkəzdə «Azərişıq» və «Azərsu» ASC-lərin hər biri üçün 10, «Azəriqaz» İstehsalat Birliyi üçün isə 9 xidmət pəncərəsi yaradılıb. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə 71 nəfər işlə təmin olunub. Mərkəzdə könüllülər otağı, konfrans zalı, uşaq əyləncə sahəsi yaradılıb. Bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı «ASAN kommunal» mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb.*

*Bakı Dəmir Yolu Vağzalının belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə ölkəmizdə həyata keçirilən sosial layihələrin uğurla davam etməsini aydın göstərir. Bu layihənin icra*

*olunması həm də Azərbaycan dəmir yollarının inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.*

*Dövlətimizin başçısı və xanımı dəmir yolu platformasında müxtəlif istiqamətlərdə hərəkət edən qatarların dayanacaqları və sərnişinlər üçün yaradılan şəraitlə tanış oldular. Vağzalın 7 platforması və 8 yolu görülən işlər çərçivəsində təmir olunub, platformalarda ikitərəfli oturacaqlar quraşdırılıb. Burada aparılan əsaslı yenidənqurma işləri zamanı rəsmi nümayəndələr zalı da müasir səviyyədə təmir olunub.*

*Bakı Dəmir Yolu Vağzalında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## LATVİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ EDQARS RİNKEVİÇSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Latviya Respublikasının Xarici İşlər naziri Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin yaxşı tarixə və möhkəm əlaqələrə malik olduğunu vurğuladı. Prezident İlham Əliyev dünyada və regionda vəziyyətin dəyişdiyi bir şəraitdə qarşılıqlı fikir mübadiləsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı mütəmadi olaraq məsləhətləşmələrin, fikir mübadiləsinin aparılmasının və ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə möhkəmləndirilməsinin əhəmiyyətini bildirdi. Azərbaycan ilə Latviya arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev iqtisadi sahədə isə qarşıda mühüm vəzifələrin dayandığını vurğulayaraq, ticarət dövriyyəsinin, gələcəkdə investisiyaların artırılmasının və biznes strukturlarını cəlb etməklə, əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırdı. Dövlətimizin başçısı Latviyanın Xarici İşlər naziri Edqars Rinkeviçsin ölkəmizə səfəri zamanı bu və digər məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu dedi.*

*Xarici İşlər naziri Edqars Rinkeviçs Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə Latviya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Edqars Rinkeviçs dedi ki, prezident Raymonds Veyonis yaxın vaxtlarda Azərbaycana səfər edəcəyinə və ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə*

*edəcəyinə ümidvardır. Azərbaycana bundan əvvəlki səfərlərini xatırladan Latviyanın Xarici İşlər naziri ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin iqtisadi, nəqliyyat, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Latviyanın Prezidentinə çatdırmağı xahiş etdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ

Hörmətli cənab Ştaynmayer!

Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, ölkələrimiz arasındakı ikitərəfli və çoxtərəfli qaydada sıx əməkdaşlıq bu gün dinamik şəkildə inkişaf etməkdədir.

Ümidvaram ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2017-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı yetirirəm.

Seçkilərdə qazandığınız qələbə xalqınızın Sizə olan böyük inam və etimadının, həyata keçirdiyiniz siyasi xəttə real dəstəyinin bariz ifadəsidir.

İnanıram ki, Azərbaycan ilə Türkmənistan arasındakı ənənəvi dostluq və qardaşlıq münasibətlərinin daim möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Türkmənistan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2017-ci il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Serbiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2017-ci il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Litva dostluğu və əməkdaşlığı, daim genişlənməkdə olan siyasi, iqtisadi və mədəni əlaqələrimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2017-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZE İLƏ GÖRÜŞ

*13 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Gürcüstan Respublikasının Xarici İşlər naziri Mixeil Canelidzeni qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Gürcüstan əlaqələrinin çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı gündəlikdə duran məsələlərin çox geniş və əhatəli olduğunu dedi. Əməkdaşlığımızın yaxşı nəticələr verdiyini vurğulayan prezident İlham Əliyev bu nəticələrin daha da möhkəmləndirilməsinin və bundan sonra da ölkələrimizin bir-birinə yaxınlaşması, dinamik inkişafı üçün birgə səylərin artırılmasının vacibliyini qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın Xarici İşlər naziri Mixeil Canelidzenin Azərbaycana bu səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin gündəliyinin müzakirəsi və gələcək birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaradacağına əminliyini bildirdi.*

*Bakıya hər dəfə səfər etməsindən məmnunluğunu vurğulayan Gürcüstanın Xarici İşlər naziri Mixeil Canelidze paytaxtımızın böyük sürətlə inkişaf etməsinin dost Gürcüstan üçün çox sevindirici hal olduğunu bildirdi. Mixeil Canelidze qeyd etdi ki, xalqlarımız nəinki qonşudur, eyni zamanda, bizim dostluğumuz bir nümunədir. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin 25 illiyinin qeyd edildiyini vurğulayan qonaq ötən dövr ərzində əldə*

*olunan nəticələrin əhəmiyyətini diqqətə çatdırdı, münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün yaxşı əsasların olduğunu dedi. Azərbaycan ilə Gürcüstan arasında həllini tapmayan məsələlərin olmadığını bildirən Mixeil Canelidze ölkələrimizin gələcək inkişafına istiqamətlənən birgə layihələrin önəmini də qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticarət, turizm və mədəniyyət sahələrində əlaqələrin daha da genişləndirilməsi, «Cənub Qaz Dəhlizi»nin icrası, hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin gücləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın BAŞ QƏRARGAHLAR RƏİSİ COZEF DANFORDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da ABŞ-ın Baş Qərargahlar rəisi general Cozef Danfordun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin hərbi, siyasi, iqtisadi, enerji təhlükəsizliyi, müdafiə, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı.*

*ABŞ-ın Baş Qərargahlar rəisi general Cozef Danford Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirdi, ölkəmizin Əfqanıstana yükdaşımalarına önəmli töhfə verdiyinə görə təşəkkürünü bildirdi.*

*Söhbət zamanı ABŞ-ın Baş Qərargahlar rəisinin Azərbaycana səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, ölkələrimiz arasında dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyi bildirildi.*

## İRAN İSLAM RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ MUSTAFA PURMƏHƏMMƏDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının Ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı hüquq-mühafizə sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev İran İslam Respublikasının Ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə bu sahədə müxtəlif məsələlərlə bağlı aparacaqları danışıqların və fikir mübadiləsinin əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə etdi. Ölkələrimiz arasında son vaxtlar müxtəlif səviyyələrdə keçirilən çoxsaylı təmaslara toxunan dövlətimizin başçısı prezidentlər səviyyəsində keçirilən görüşlərin əhəmiyyətini qeyd etdi. Qarşılıqlı səfərlərin təşkilinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayan prezident İlham Əliyev İran İslam Respublikasının Ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfərinin ədliyyə sahəsində əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Təxminən 23 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan İran İslam Respublikasının Ədliyyə naziri Mustafa Pur-*

*məhəmmədi ötən dövr ərzində ölkəmizdə gedən böyük dəyişikliklərin onda dərin təəssürat yaratdığını qeyd etdi. Azərbaycanda gedən bu inkişafın bünövrəsinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan Mustafa Purməhəmmədi ulu öndərin xatirəsini böyük ehtiramla yad edərək bildirdi ki, dahi dövlət xadimi Heydər Əliyev hər zaman Azərbaycan–İran əlaqələrinin genişləndirilməsi işinə böyük önəm verirdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*16 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 53-cü Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 16-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Münhen Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rəsmi şəxslər qarşıladılar.*

## «MAN SE» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YOAHİM DRİS İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə «MAN SE» şirkətinin baş icraçı direktoru Yoahim Dris ilə görüşmüşdür.*

*Görüşdə Yoahim Dris Azərbaycanın sürətlə inkişaf etdiyini, ölkəmizdə irimiqyaslı layihələrin həyata keçirildiyini, nəqliyyat dəhlizləri ilə bağlı gedən proseslərdən məmnun qaldıqlarını, respublikamızda fəaliyyət göstərməkdə maraqlı olduqlarını bildirdi.*

*Prezident İlham Əliyev son illərdə Azərbaycanda müxtəlif sahələrdə yeniləşmə işlərinin aparıldığını, ictimai nəqliyyatın müasirləşdirilməsi istiqamətində mühüm tədbirlərin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı əməkdaşlıq imkanlarının araşdırılması üçün «MAN SE» şirkətinin nümayəndələrini Azərbaycana səfərə dəvət etdi.*

## KİYEV ŞƏHƏRİNİN MERİ VİTALİ KLİÇKO İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə Kiyev şəhərinin meri, Ukrayna İslahatlar naminə Demokratik Alyansın sədri Vitali Kliçko ilə görüşmüşdür.*

*Vitali Kliçko ölkələrimiz arasında qədim tarixə malik dostluq münasibətlərinin olduğunu dedi. Ukraynada çoxlu sayda Azərbaycan diasporu nümayəndələrinin yaşadığını qeyd edən mer mütəmadi olaraq onlarla görüşlərin keçirildiyini diqqətə çatdırdı.*

*Ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini, qarşılıqlı biznes maraqlarının olduğunu deyən Vitali Kliçko SOCAR-ın Ukraynada uğurlu fəaliyyətini vurğuladı, şirkətin və Azərbaycan diasporu nümayəndələrinin Ukraynanın inkişafına mühüm töhfə verdiyini bildirdi. Mer Kiyevdə ulu öndər Heydər Əliyevin adını daşıyan parkın şəhərin ən nümunəvi məkanlarından birinə çevrildiyini dedi.*

*Prezident İlham Əliyev Kiyevin dünyanın ən gözəl şəhərlərindən biri olduğunu, onun tarixi hissəsinin qorunmasının və şəhərin inkişafının böyük diqqət tələb etdiyini vurğuladı, Bakı və Kiyev meriyaları arasında münasibətlərin möhkəmləndirilməsinin və qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyətindən danışdı. Azərbaycan diasporunun Ukraynanın inkişafına töhfə verdiyini bildirən dövlətimizin başçısı ölkələrimiz arasındakı dostluq münasibətlərinin möhkəmləndiyini, Ukraynanın Azərbaycanın etibarlı tərəfdaşı olduğunu qeyd etdi.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN «DƏYİRMİ MASA»DA İŞTİRAK

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində «Qiymətlərin sabitləşməsinə doğru: OPEC-in qayıdışı və neft geosiyasəti» mövzusunda «dəyirmi masa»da iştirak etmişdir.*

*Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger müxtəlif ölkələrdən siyasətçilərin, biznes strukturlarının nümayəndələrinin, elm adamlarının iştirak etdiyi bu konfransda təhlükəsizlik, enerji və digər sahələrə aid mühüm məsələlərin müzakirə olunduğunu bildirdi. Konfrans çərçivəsində enerji məsələləri ilə bağlı xüsusi «dəyirmi masa»nın keçirilməsinin əhəmiyyətini qeyd edən Volfqanq İşinger Münhen Təhlükəsizlik Konfransını uzun müddətdir dəstəkləyən və onun dostu olan prezident İlham Əliyevi salamladı.*

– Cənab Prezident, Siz bu konfransda dəfələrlə çıxış etmisiniz. Sizin ekspert biliyiniz təkcə enerji sahəsində vacib rol oynayan ölkənin rəhbəri kimi yox, ölkəyə 14 il başçılıq edən bir şəxs kimi də bizim üçün vacibdir. Ölkəniz Avrasiya təhlükəsizliyinin və siyasətinin sərhədləri üzərində yerləşir. Ölkənizə səfər etdikdə mənə dəfələrlə vaxt ayırdığınıza görə Sizə necə minnətdar olduğumu burada toplaşan insanlara çatdıra bilmirəm.

*«Offshore Northern Seas» Fondunun prezidenti və baş icraçı direktoru Leif Yohan Sevland Münhen Təhlükəsizlik Konfransının artıq 50 ildən çoxdur mühüm məsələlərin müzakirə olunduğu beynəlxalq platformaya çevrildiyini bildirdi. O, konfransda enerji məsələləri, o cümlədən enerji təhlükəsizliyi sahəsində möv-*

*cud problemlərin və yeni çağırışların müzakirə edildiyi «dəyirmi masa»nın önəmini vurğulayaraq bildirdi:*

– «Dəyirmi masa»da birinci çıxış edəcək və təqdim etməkdən qürur duyduğum natiq Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevdir. Cənab Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə 2003-cü ildə seçilib, 2008-ci və 2013-cü illərdə isə bu vəzifəyə yenidən seçilib. Cənab Prezident, Sizin mənə güclü təsir bağışlayan tərcümeyi-halınızla tanış oldum. Prezident seçildikdən əvvəl Siz Azərbaycanda bir neçə yüksək səviyyəli sənaye və hökumət vəzifəsini tutmusunuz. Siz müstəqil Azərbaycanın neft strategiyasının geosiyasi aspektləri üzrə çoxsaylı tədqiqatların müəllifisiniz və siyasi elmlər üzrə doktor dərəcəsinə maliksiniz. Cənab İşinger Azərbaycanın neft və qaz istehsalı sahəsində əhəmiyyətli bir ölkə kimi vacibliyini, həm Şərq, həm də Qərb bazarları üçün strateji yerləşmənizi qeyd etdi. Biz Sizin enerji təhlükəsizliyi ilə bağlı fikirlərinizi eşitmək istəyirik. Prezident Əliyev, buyurun.

*Dövlətimizin başçısı «dəyirmi masa»da çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun. Əvvəlcə, dəvətə görə səfir İşingerə minnətdarlığımı bildirmək istəyirəm. Münhen Təhlükəsizlik Konfransı kimi, belə qlobal əhəmiyyətə malik olan bir tədbirdə iştirak etmək məndə həmişə məmnunluq doğurur. Əlbəttə, enerji təhlükəsizliyini ölkənin milli təhlükəsizliyindən ayırmaq olmaz. Bu baxımdan Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə, öz vacib rolunu oynayır. İndi isə irimiqyaslı qaz təchizatı layihəsinin həyata keçirilməsinə gəldikdə, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında öz vacib rolunu oynayacaqdır.

Əlbəttə, bu gün regionumuzun və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu və töhfəsi haqqında danışdıqda biz Azərbaycanın enerji strategiyasının əvvəlinə – keçən əsrin

90-cı illərinin ortalarına qayıtmalıyıq. O zaman həm daxili, həm də xarici çoxsaylı çətinlikləri olan, Ermənistanın işğalı nəticəsində 1 milyondan çox evsiz qalmış vətəndaşı olan, yalnız 3 il müstəqil olan gənc ölkə Xəzər dənizinə dünyanın aparıcı enerji şirkətlərini ilk dəfə dəvət etmişdi. Bu, tarixi bir addım idi və nəinki təkcə Azərbaycanda, həm də regionda vəziyyəti dəyişən bir qərar idi. İndi isə bu addım regionun enerji xəritəsini dəyişib. Biz sadəcə, həmin vaxtdan 1 il əvvəl vətəndaş müharibəsi, işğal, 1 milyondan çox qaçqın və köçkünü olan və uğurlu inkişaf üçün heç bir imkanları olmayan ölkəyə investisiyalar cəlb etməyə nail olduq. Bizim üçün o zaman Azərbaycanın neft ehtiyatlarına sərmayənin yatırılması müstəqilliyimizin gücləndirilməsi və çətinliklərin aradan qaldırılması üçün yeganə yol idi. Buna görə ötən əsrin 90-cı illərinin ortaları bizim üçün vacib bir dövr idi. Biz investisiyaları cəlb etdik, aparıcı enerji şirkətləri ilə Azərbaycanın nəhəng neft yataqlarından istehsala başladıq və neftimizi nəql etmək üçün çoxsaylı boru kəməri sistemini inşa etdik. Bu gün bizim bütün istiqamətlərdə 7 kəmərimiz – 3 neft kəmərimiz və 4 qaz kəmərimiz var. Buna görə də bizim birinci hədəfimiz özümüzün enerji təhlükəsizliyimizi, öz maraqlarımızı təmin etmək və insanlarımızın yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün nəhəng neft ehtiyatlarımızı hasil etmək iqtidarında olmaq idi. Sonrakı mərhələdə kəmərlər tikildikdə bu layihə regional əməkdaşlıq layihəsinə çevrildi. Bu neft kəmərləri Azərbaycanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirir. Bu kəmərlər bizə enerji ehtiyatlarını nəql etməyə kömək edən ölkələrin də enerji təhlükəsizliyini təmin etməyə xidmət edir.

Sonra biz Xəzər dənizinin şərq sahillərindən neft və neft məhsullarının çatdırılması üçün tranzit ölkəyə çevrildik. Beləliklə, Azərbaycan müxtəlif vasitələrlə, dəmir yolu və neft kəmərləri ilə neftin nəqlində öz vacib rolunu oynayır. Eyni zamanda, biz Xəzər dənizinin şərq sahilində yerləşən tərəfdaşlarımızın təchizat marşrutlarını şaxələndirməyə kömək edirik. Çünki enerji təhlükəsizliyindən söhbət açdıqda hesab edirəm ki, şaxələnmə əsas termindir. Adətən, şaxələnmədən danışdıqda biz istehlakçılar üçün şaxələndirməni nəzərdə tuturuq. Biz bunu anlayırıq. Lakin istehsalçılar üçün də şaxələndirmə nəzərdə tutulur, xüsusilə bu istehsalçıların Azərbaycan kimi, açıq dənizə çıxışı olmadıqda.

Yeri gəlmişkən, bəzi Avropa ölkələri neftin 30–40 faizini Azərbaycandan əldə edirlər və etibarlı tranzit ölkə, digər ölkələrin etibar

edə biləcəyi tərəfdaş ölkə kimi, Azərbaycan regionda özünə ad qazanıb.

Bu gün çoxsaylı digər ölkələr, şirkətlərlə birlikdə və Avropa Komissiyasının dəstəyi ilə biz «Cənub Qaz Dəhlizi» layihəsini icra edirik. Bu layihə keçən əsrin 90-cı illərində icrasına başladığımız layihələrin davamıdır. Azərbaycanda böyük qaz yataqlarını aşkar edən kimi, bu qazı beynəlxalq bazarlara nəql etmək üçün qərar qəbul olunub. İndi «Cənub Qaz Dəhlizi», məndə olan məlumata görə, Avropada ən böyük infrastruktur layihəsidir. Onun ümumi dəyəri 40 milyard dollardan çoxdur. Hazırkı mərhələdə bu layihədə 7 ölkə iştirak edir. Gələcək illərdə ən azından 3 ölkə bu layihəyə qoşulacaq. Bu layihə Avropa Komissiyası tərəfindən dəstəklənir.

Mən bu yaxınlarda Brüsseldən qayıtmışam və biz cənab Şefçoviçlə bu vacib layihəni müzakirə etdik. Həmçinin bu layihəni Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentləri ilə müzakirə etmişəm. Avropa Komissiyası ilə Azərbaycan arasında enerji sahəsi üzrə strateji tərəfdaşlıq haqqında imzalanmış Memorandum var. Bu gün «Cənub Qaz Dəhlizi» artıq reallıqdır. Bu, Azərbaycanı Avropa bazarları və Avropa bazarlarına aparan marşrut boyunca yerləşən ölkələrlə birləşdirən 3 fərqli boru kəmərindən ibarət inteqrasiya olunmuş boru kəməri sistemidir. Bu layihə tamamilə yeni bir regional əməkdaşlıq formatını yaratdı. Söhbət Cənubi Qafqaz ölkələri olan Gürcüstan, Azərbaycan və Türkiyədən, sonra da Yunanıstan, Bolqarıstan və İtaliya kimi, Avropa İttifaqı ölkələrindən, həmçinin namizəd ölkə kimi, Albaniyadan gedir. Beləliklə, bütün bu tərəflərin maraqlarını təmin etmək asan iş deyil. Bu səbəbdən Avropa Komissiyası ilə birlikdə biz «Cənub Qaz Dəhlizi» layihəsinin Məşvərət Şurası adlanan formatı işə saldıq. Artıq Məşvərət Şurasının 2 iclası Bakıda keçirilib və üçüncü iclas cənab Şefçoviçin iştirakı ilə fevral ayının 23-də baş tutacaq. Mühüm nailiyyətlər var. Sizə deyə bilərəm ki, «Cənub Qaz Dəhlizi» layihəsinin əsas seqmenti olan Trans–Anadolu boru kəmərinin icrasının təqribən 65 faizi artıq tamamlanıb. «Cənubi Qafqaz» boru kəməri adlanan digər bir seqmentin icrasının 80 faizə yaxın hissəsi tamamlanıb və TAP adlanan Trans–Adriatik boru kəməri təqribən 34-35 faiz icra olunub. Dünyada ən böyük qaz yataqlarından biri olan «Şahdəniz» yatağının işlənilməsi artıq 90 faiz tamamlanıb. Hədəfimiz Azərbaycanın ilk təbii qazını gələn il bazarlara çatdırmaqdır və bəzi

tərəfdaş ölkələrdə süni gecikmələr olmadığı təqdirdə, bu layihəni 2020-ci ilə qədər tamamlamaqdır.

Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsinin bütün 4 seqmentinin səhmdarıdır və Azərbaycan investor qismində də çıxış edir. Biz həmçinin Dünya Bankından, beynəlxalq maliyyə təşkilatlarından, Asiya İnkişaf Bankından, Asiya İnfrastruktur Bankından vəsaitləri cəlb etdik. Biz Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından maliyyə vəsaitinin ayrılmasını gözləyirik. Beləliklə, bu, ölkəmizin təşəbbüskarı olduğu həqiqətən də geniş maliyyə, infrastruktur, texniki, enerji layihəsidir və biz bununla qürur duyuruq.

Əlbəttə, bu ölkələr arasında yeni əməkdaşlıq formatı regionda tamamilə yeni bir əməkdaşlıq ruhunu yaradır. Bu, birgə bağlılıq, yəqinlik, etibarlılıq və tərəfdaşlıq yaradır. Beləliklə, layihə tamamlandıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolu, əlbəttə ki, artacaq və Avropa təşkilatları ilə əlaqələrimiz güclənəcəkdir.

* * *

*«Dəyirmi masa»da Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatının şaxələndirilmə imkanları, bu sahədə mövcud cəhdlər, həmçinin neft qiymətləri və digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə Xorvatiya Respublikasının Prezidenti Kolinda Qrabar-Kitaroviç ilə görüşmüşdür.*

*Görüşdə Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviç Azərbaycana rəsmi səfərini məmnunluq hissi ilə xatırlatdı, keçirilən görüşlərdə səmərəli fikir mübadiləsinin aparıldığını vurğuladı. Səfər çərçivəsində keçirilən Azərbaycan–Xorvatiya biznes-forumun ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işinə xidmət etdiyini deyən Xorvatiya Prezidenti hökumətlərarası birgə Komissiyanın iqtisadi əməkdaşlığımızı daha da genişləndirəcəyini diqqətə çatdırdı. Xorvatiyanın enerji sahəsi ilə yanaşı, qeyri-neft sektoru, o cümlədən informasiya texnologiyaları, gəmiqayırma, kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə də Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdıran Kolinda Qrabar-Kitaroviç ölkəsinin həyata keçirdiyi enerji layihələrində Azərbaycan ilə əməkdaşlığa maraq göstərdiyini vurğuladı.*

*Kolinda Qrabar-Kitaroviç prezident İlham Əliyevin Avropa İttifaqına səfərinin uğurlu keçdiyini bildirdi, Azərbaycanın Avropa İttifaqı ilə yeni sənəd üzərində işlədiyini qeyd etdi, bu prosesin Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişafına xidmət edəcəyini dedi. Xorvatiya Prezidenti dövlətimizin başçısını ölkəsinə səfərə dəvət etdi.*

*Prezident İlham Əliyev Azərbaycan–Xorvatiya əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycan Prezidenti hökumətlərarası birgə Komissiyanın öz işini praktiki məsələlər üzərində cəmləşdirməsinin vacibliyini vurğuladı. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm roluna toxunan dövlətimizin başçısı ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu layihələrdə Xorvatiyanın da iştirak edə biləcəyini diqqətə çatdırdı.*

*Avropa İttifaqı ilə əlaqələrdən danışan prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropa Komissiyası ilə fəal əməkdaşlıq edir. Azərbaycan Prezidenti ikitərəfli əlaqələrimizin həm də Avropa İttifaqı–Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə siyasi dialoq, təhlükəsizlik, texnologiyalar, enerji, multikulturalizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi niyyətində olduğunu nəzərə çatdırdı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunuldu. Xorvatiya Prezidenti münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bir daha vurğuladı.*

## İSRAİL DÖVLƏTİNİN MÜDAFİƏ NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə İsrail Dövlətinin Müdafiə naziri Aviqdor Liberman ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–İsrail əlaqələrinin müxtəlif aspektləri müzakirə edildi. Aviqdor Libermanın Xarici İşlər naziri kimi, Azərbaycana səfəri xatırlandı. İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahunun ötən il Azərbaycana etdiyi uğurlu səfəri xüsusi qeyd olundu. Azərbaycan ilə İsrail arasında hərbi-texniki sahədə əməkdaşlığın məmnunluq doğurduğu vurğulandı, bu sahədə gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.*

## «KASPERSKY LAB» ŞİRKƏTİNİN SAHİBİ VƏ BAŞ İCRAÇI DİREKTORU YEVGENİ KASPERSKİ İLƏ GÖRÜŞ

*Münhen*

*17 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə «Kaspersky Lab» şirkətinin sahibi və baş icraçı direktoru Yevgeni Kasperski ilə görüşmüşdür.*

*Görüşdə «Kaspersky Lab» şirkətinin Azərbaycan ilə müəyyən sahələrdə uğurla əməkdaşlıq etdiyi vurğulandı. Dünyada mürəkkəb proseslərin baş verdiyi bir dövrdə kibertəhlükəsizliyin təmin olunmasının ikitərəfli əməkdaşlıqda mühüm yer tutduğu bildirildi. Azərbaycan ilə əlaqələrin daha da genişləndirilməsinin vacibliyinin vurğulandığı söhbət zamanı xüsusilə sənaye və digər sahələrdəki proseslərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparıldı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Son günlər ölkənizdə törədilmiş terror aktları bizi son dərəcə kədərləndirir.

Biz bu amansız əməllərdən hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Bu ağır anlarda kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 fevral 2017-ci il*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN PANEL MÜZAKİRƏDƏ İŞTİRAK

*Münhen*

*18 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunmuş panel müzakirədə iştirak etmişdir.*

*Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak etmişlər.*

*Panel müzakirənin aparıcısı, Avrasiya qrupunun sədri və təsisçisi Yan Bremmer Avrasiya regionunun əhəmiyyəti və bu regionda gedən proseslər barədə məlumat verdikdən sonra tədbirin qonaqlarını təqdim etdi.*

**Yan Bremmer:** Mən böyük məmnuniyyətlə çox mötəbər şəxslərdən ibarət bir qrupu sizə təqdim etmək istəyirəm. Burada toplaşmağımızın əsas məqsədi məlumdur. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində xüsusilə çoxsaylı qeyri-müəyyənlik və suallar mövcuddur.

Avrasiya bizim daha sabit regionlarımızdan biridir. Ancaq bu heç də hər zaman belə olmamışdır. Panel iştirakçılarını təqdim etməzdən əvvəl bir neçə məqamı diqqətinizə çatdırmaq istəyirəm.

Məni heyrətləndirən odur ki, bu gün Avrasiyaya nəzər saldıqda, biz gələcəkdə dünyanın digər regionlarında vəziyyətin necə olacağını sanki görmüş oluruq. Birincisi, ümumilikdə dövlətlər daxili işləri ilə məşğul olurlar.

Digərlərinin daxili işlərinə ideoloji müdaxilə aşağı səviyyədədir. Məsələn, Qazaxıstan Rusiyaya islahatların necə aparılmalı olduğunu bildirmir. Azərbaycan Gürcüstanın daxili işləri ilə bağlı hər hansı münasibət bildirmir. Eyni zamanda, biz Rusiya və Çinin mehriban qonşuluq şəraitində yaşadığını, bəzən isə Şanxay Əməkdaşlıq Təşkilatının timsalında Qərb dünya nizamına alternativin təqdim edilməsində bir-birini dəstəklədiyinin şahidi oluruq. Nəhayət, qloballaşmaya gəldikdə çox maraqlı bir məqam ortaya çıxır. Təchizat zəncirinin artıq qlobal deyil, daha çox dövlətlərarası ticarət qovşaqları modeli üzərində qurulduğunun şahidi oluruq. Xüsusilə də «bir kəmər–bir yol» modelini qeyd etmək istərdim.

Əsas sual Avrasiyanın gələcək dünyanın mənzərəsini nə dərəcədə müəyyən edəcəyi ilə bağlıdır. Təbii ki, risklər var. Şübhəsiz, dövlətlərin digərlərinin işlərinə ideoloji müdaxilə etməməsi o demək deyil ki, maraqlar toqquşmur. Bu, Rusiya–Ukrayna məsələsində, Özbəkistanın bəzi qonşuları ilə münasibətlərində aydın görünür. Eyni zamanda, bizi düşündürən məsələlərdən biri Rusiya–Çin münasibətlərinin davamlı olub-olmamasıdır.

Nəhayət, siyasi baxımdan davamlılıq sualı var: artan populizm, neftin qiymətinin aşağı olması, İŞİD, terrorçuluq, radikalizm və sair. Avrasiyada da siyasi davamlılıq sualları meydana gələcəkmi? Təhlükəsizlik, ticarət və siyasi mandat baxımından gələcək dünya nizamı ilə bağlı suallar Avrasiyada yaranır.

Məmnunam ki, bu kontekstdə bizim bu gün Münhen Təhlükəsizlik Konfransı çərçivəsində olduqca bənzərsiz panelimiz vardır. Panelimizin iştirakçılarını təqdim etmək istəyirəm: Azərbaycan prezidenti İlham Əliyev, Estoniya prezidenti xanım Kersti Kalyulayd, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Senatının Sədri Kasım-Jomart Tokayev və Ukraynanın sabiq Baş naziri və hazırda Narodnıy Front Partiyasının sədri Arseni Yatsenyuk.

Avrasiyada fikir ayrılıqları ilə bağlı bəzi ilkin təşəbbüslər və bu qlobal kontekstdə regionun hansı istiqamətdə irəliləməsi perspektivləri ilə bağlı fikirləri söyləmək üçün icazə verin, birinci olaraq sözü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verim.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Azərbaycan Asiya ilə Avropa arasında yerləşir və bizim coğrafi mövqeyimiz əslində regionumuzda geosiyasi vəziyyəti müəyyən edir. Azərbaycan əsrlərboyu sivilizasiyaların qovuşduğu bir məkan, ölkə olub və bu gün biz tarixi irsimizi qoruyub saxlayırıq. Biz dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilməyimizlə qürur duyuruq. Coğrafi mövqeyimiz, eyni zamanda, qonşularımızla yaxşı münasibətlərimiz bizə regionumuzda yaşayan insanların mənafeyinə xidmət edən təşəbbüslər irəli sürülən bölgədə çox etibarlı tərəfdaş olmaq imkanını verdi.

Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaşdır. Biz gənc ölkəyik. Ötən il müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Bu qısa müddət ərzində hesab edirəm ki, Azərbaycan dünyada hörmət edilən ölkəyə çevrilib. Bunun ən yaxşı nümunəsi bir neçə il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatında nümayiş olundu. O zaman Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Beləliklə, bu, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin bizim fəaliyyətimizə verdiyi həqiqi qiymət, bizə göstərilən etimad və hörmət əlaməti idi.

Biz islahatlar aparmaqla, iqtisadiyyatımızı planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçirdik. Bu gün iqtisadiyyatın özəl sektorunun ümumi daxili məhsulda payı 80 faizdən artıqdır. Azərbaycan qonşularla regional əməkdaşlığın yeni formatını tətbiq etdi. 20 ildən də artıq müddətdən əvvəl təşəbbüskar qismində çıxış etdiyimiz enerji və nəqliyyat layihələri bu gün nəinki təkcə bizim üçün, həmçinin region üçün də yaxşı nəticələr verir.

Bu gün enerji təhlükəsizliyi məsələlərinə milli təhlükəsizlik məsələsindən ayrı baxıla bilməz. Siyasətimiz birinci növbədə, qonşularımızla, eyni zamanda, müsəlman dünyası – biz müsəlman dünyasının bir hissəsiyik – və Avropa ilə əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Biz bu yaxınlarda Avropa İttifaqı ilə bir çox əməkdaşlıq sahələrini əhatə edəcək yeni razılaşma üzərində danışıqlara başlamışıq.

Biz çox nadir ölkələrdən biriyik ki, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük. 2015-ci ildə biz ilk Avropa oyunlarını təşkil etdik. Bu il biz IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəyik. Beləliklə, bu bizim niyyətlərimizi göstərir və biz sivilizasiyalar, mədəniyyətlər arasında dialoqa çoxlu töhfə veririk.

Üzləşdiyimiz problemlərdən ən böyüyü Ermənistan tərəfindən Azərbaycan ərazisinin davamlı işğalıdır. Bu da Ermənistan tərəfindən etnik təmizləmə və ərazimizin 20 faizinin işğalı ilə nəticələnib. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr 20 ildən artıqdır ki, kağız üzərində qalmaqdadır. Bütün münaqişələrin həlli eyni prinsipə, eyni yanaşmaya əsaslanmalıdır. Hər bir ölkənin ərazi bütövlüyünə hörmət edilməlidir, onu pozmaq olmaz. Beynəlxalq səviyyədə tanınan sərhədlər güc yolu ilə dəyişdirilə bilməz. Ermənistan və Azərbaycan arasında münaqişə, həmçinin region üçün ən böyük təhlükədir. Bizim konstruktiv siyasətimiz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər vacib təşkilatların qəbul etdiyi qətnamələr əsasında sülh yolu ilə ən tez nizamlanması məqsədini daşıyır.

İndi isə sözümü bitirirəm, çünki mənə ilkin təqdimat üçün 5 dəqiqə vaxt ayrılıb. Sonra suallarınızı məmnuniyyətlə cavablandıracağam. Sağ olun.

*Sonra moderator Yan Bremmerin təqdimatı ilə regional müzakirələr davam etdirildi.*

**Giorgi Kvirikaşvili** *(Gürcüstanın Baş naziri):* Əvvəlcə, Avropa İttifaqı qarşısında olan çağırışlara toxunmaq is-

təyirəm. Ümumilikdə biz burada Avrasiyada olan təhlükələrdən bəhs edirik. Çağırışlar fərqli və müxtəlif istiqamətlidir. Burada qaynar və dondurulmuş münaqişələr mövcuddur və bu fonda kiçik dövlətlərin sabitliyi olduqca vacib məsələdir. Bu səbəbdən istərdim Gürcüstanı misal gətirim. Biz bütün çox ciddi çağırışlara baxmayaraq, Avropa və Avroatlantik ailənin üzvü olmağa və sabit gələcək qurmağa çalışan ölkəyik və bu çağırışlar kifayət qədər ciddidir. Gürcüstanın ərazi bütövlüyü pozulub, tarixi ərazilərimizin iki subyekti Rusiya tərəfindən işğal edilib. Lakin bunlara baxmayaraq, biz ilk olaraq, xarici siyasət hədəflərimizlə bağlı ardıcıl mövqe tutmağa və problemlərimizin uzunmüddətli həllinin təməlinin qoyulması üçün konstruktivlik nümayiş etdirməyə çalışırıq.

Gürcüstan bu yaxınlarda Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalayıb və həmin sənədin bir hissəsi hərtərəfli azad ticarət sazişinin dərinləşdirilməsidir. Bizim NATO strukturları ilə inteqrasiyamız artmaqdadır, biz Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirak edirik və buna ən böyük töhfə verən dövlətlərdənik. Bununla yanaşı, biz Avropa İttifaqı ilə birlikdə Mərkəzi Afrikada sülhməramlı əməliyyatlarda iştirak edirik. Yəni biz tədricən Avropa nizamının tərkib hissəsinə çevrilirik. Bu sadəcə, söz xatirinə deyilmir. Gürcüstan Avropa standartlarına çox uyğun olan sistem yaratmaqdadır.

Bununla belə, regional əməkdaşlıq Cənubi Qafqazın sabitliyinin təməl daşıdır. Burada Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu kimi gözəl layihələrimiz var. Bizim Avropanı Asiya ilə birləşdirən İpək yolu İqtisadi Kəmər – «bir kəmər–bir yol» təşəbbüsündən qaynaqlanan imkanlarımız var.

Onu da qeyd etməliyəm ki, Gürcüstan Avropa İttifaqının və Avropanın ən şərqində yerləşən xristian ölkəsidir. Biz tarixən Avropa ölkəsi olmuşuq. Biz bütün qonşularımız və Avropa İttifaqı ilə azad ticarət haqqında sazişlər imzalamışıq. Bu yaxınlarda isə Çin ilə azad ticarət haqqında danışıqları yekunlaşdırmışıq.

Bizim əhalimizin sayı 3,8 milyondur və azad, açıq iqtisadiyyata malik ölkəyik. Bir neçə gün bundan əvvəl «İrs Fondu» reytinqlə bağlı yeni hesabat dərc etmişdir. Həmin hesabata görə, Gürcüstan dünyada ən azad iqtisadiyyata malik olan dövlətlər sırasında 13-cü yerdədir. Dünya Bankının «Doing business» reytinqinə görə, biz 16-cı yerdəyik. Demokratiya sahəsində də reytinqlə bağlı biz güclü mövqeyə malik ölkəyik. Biz Assosiasiya Sazişindən irəli gələn tövsiyələrə uyğun olaraq, göstəricilərimizi tədricən yaxşılaşdırırıq.

Başlıcası isə odur ki, bizim xarici siyasətlə bağlı məqsədlərimiz daxili islahatlara dair gündəliyimizi də müəyyənləşdirir. Bu gündəlik olduqca genişdir. Ölkəmiz üçün təhsil bir nömrəli prioritetdir. Bu sahədə tələb və təklif arasındakı fərqi aradan qaldırmağa çalışırıq. Biz peşə təhsilinə böyük əhəmiyyət verir və bu sahəni Almaniya–İsveç–Avstriya modeli üzrə ikili təhsil sistemi əsasında inkişaf etdiririk.

İdarəçilik sahəsində islahatların aparılması ən mühüm prioritetlərdən biridir. «Elektron hökumət» sahəsində Estoniyanın təcrübəsindən istifadə edirik, «bir pəncərə» konsepsiyasını tətbiq etmişik. Vergi sistemimizi liberallaşdırmışıq, cari il yanvarın 1-dən biz vergi gəlirlərini ləğv etmiş və yalnız dividendlərə olan vergini qüvvədə saxlamışıq.

İnfrastrukturun müasirləşdirilməsinə böyük sərmayələr qoymuşuq və təbii ki, vacib regional layihələri bir daha qeyd etmək istərdim. Çünki biz Şərq ilə Qərbin kəsişməsində, Rusiya və Yaxın Şərq arasında yerləşirik. Yəni regional əməkdaşlıq və regional sabitlik bölgəmizin sabitliyinin təməl daşı olmaqda davam edir. Çağırışların fonunda biz mövcud resurslardan istifadə edərək, kifayət qədər sabitlik və ölkələrimiz üçün uzunmüddətli inkişaf perspektivlərinin yaradılması nümunəsini nümayiş etdiririk. Çox sağ olun.

**Kasım-Jomart Tokayev** *(Qazaxıstan Senatının Sədri)*: Qazaxıstan postsovet məkanında ikinci ən böyük iqtisadiyyata malik, beynəlxalq əməkdaşlığa açıq olan ölkədir. Biz yaxın qonşularımızla – Rusiya və Çin ilə gözəl münasibətlərə malik

olmağımızla fərəhlənirik. Bu bizim üçün təhlükəsizlik və uğurlu iqtisadi inkişafla bağlı olan məsələdir. Biz yaxın qonşularımızla yaxşı, proqnozlaşdırıla bilən və dost münasibətlərin əhəmiyyətini tam olaraq anlayırıq. Qazaxıstanın Rusiya ilə ən uzun quru sərhədlərinin demarkasiyası başa çatdıqdan və hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya edildikdən bəri bizim bütün qonşularımızla heç bir ərazi problemimiz yoxdur. Eyni məsələni bizim Çin və Mərkəzi Asiya dövlətləri ilə sərhədlərimiz haqqında da demək olar. Biz islahatları davam etdiririk. Qazaxıstan islahatçı dövlət olaraq inanır ki, biz cəmiyyətimizin iqtisadi və siyasi sahələrdə transformasiyası prosesini dayandırmamalıyıq. Əminik, struktur islahatları istənilən halda davam etdirilməlidir ki, Qazaxıstan dünyanın 30 ən inkişaf etmiş ölkəsi sırasına daxil olsun. Qazaxıstan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüdür. Biz dünyanın universal və əvəzolunmaz təşkilatı olan BMT ilə əməkdaşlığa xüsusi əhəmiyyət veririk.

BMT çərçivəsində bizim prioritetlərimizə nüvə materialları və silahların yayılmasının qarşısının alınması daxildir. Çünki biz nüvə silahlarının terrorçuların əlinə keçə bilməsindən narahatıq. Əgər nüvə materialları və hətta silahları «Boko Haram» və ya digər bir terror təşkilatı tərəfindən ələ keçirilsə, hazırkı dünya nizamı tamamilə dağıla bilər. Bu səbəbdən ən azı bizim regionumuzda təhlükəsizliyin təmin edilməsi prioritetlərdən biridir. Qazaxıstan Asiyada Etimad Tədbirlərinin Artırılması Təşkilatında və Şanxay Əməkdaşlıq Təşkilatında da olduqca fəaldır.

Avrasiyada iqtisadi əməkdaşlıq məsələsinə gəldikdə, mən Çinin «bir kəmər–bir yol» konsepsiyasını vurğulamaq istərdim. Bu konsepsiya Çinin sədri Si Cinpin tərəfindən 2013-cü ildə Astanada elan edilmişdir. Biz hesab edirik ki, bu çox perspektivli konsepsiyadır. Çünki bu, Avrasiyada, Çinin ətrafında olan dövlətlərə Qazaxıstan ərazisindən öz mallarının nəqli üçün geniş imkanlar verəcək. Yəni Qazaxıstanın tranzit dövlətə çevrilməsi gözlənilir.

Hazırkı iqtisadi əməkdaşlıq şəraitində tranzit dövlət olmaq çox vacib və perspektivli məsələdir. Bu, neft və qaz ixrac etməkdən də sərfəlidir. Bu gün bir çox dövlətlər öz ərazisi ilə müxtəlif mal və əmtəə məhsullarının nəqlinə çalışır. Hesab edirik ki, növbəti 5 il ərzində Çin Qazaxıstan ərazisi ilə Avropaya 100 mindən artıq konteyner nəql edəcəkdir. Təbii ki, bu, ticarət zənciridir. «Bir kəmər–bir yol» konsepsiyası çərçivəsində Rusiyanın rolu çox böyük olacaqdır. Bu mənim qısa qeydlərim idi. Çox sağ olun.

**A r s e n i Y a t s e n y u k** *(Ukraynanın sabiq Baş naziri):* Mən Avrasiyada qırılma xətləri mövzusuna qayıtmaq istəyirəm. Xatırlatmaq istərdim ki, 10 il bundan öncə prezident Putin Münhen Təhlükəsizlik Konfransında özünün çağırışlarla dolu məşhur çıxışını etmişdir. Azad dünyada bəziləri bunun sadəcə, bir çıxış olduğunu zənn etdilər. Lakin görün nələr baş verdi. Rusiya Federasiyası Gürcüstanın ərazisinin bir hissəsini işğal etdi. Rusiya Avropada Adi Silahlı Qüvvələr Haqqında Sazişin həyata keçirilməsini dayandırdı və daha sonra bu sazişdən imtina etdi. Rusiya beynəlxalq səviyyəli cinayət törədərək, Krımı ilhaq etdi, Donetsk və Luqanska öz ordusunu yeritdi. Rusiya azad dünyaya qarşı kibermüharibə aparır. O, təbliğat müharibəsi apararaq, seçkilərə müdaxilə edir və bunu Avropada keçiriləcək seçkilərlə də bağlı edəcəkdir.

Biz olduqca təhlükəli dünyada yaşayırıq və qırılma xətti məhz Rusiyadan keçir. Mən ukraynalılar adından deyə bilərəm ki, bizim ölkəmiz Rusiya tərəfindən başlanılan müharibə vəziyyətindədir. Biz 10 min insanı və Ukrayna iqtisadiyyatının 20 faizini itirmişik. Biz Krımı, praktiki olaraq, Donetski və Luqanskı itirdik. Biz Rusiya ordusunun qarşısını alan yeganə dövlət olduq. Bu gün söhbət azad dünyanın dəyərləri və təkcə Ukraynanın deyil, bu masa ətrafında təmsil olunan hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün taleyindən gedir.

Burada nə edilməlidir? Ən yaxşı seçim bizim bir olmağımız və demokratiya, azad dünya, azad media kimi dəyərlərimizə sadiq qalmağımızdır. Biz hər bir ölkəni dəstəkləməli, birgə

cavab tədbirləri görməli və səylər göstərməliyik. Ukrayna xalqı olaraq, biz çağırışlarla dolu dönəmdə yaşayırıq. Rusiyanın hərbi təcavüzünə baxmayaraq, biz böyük iqtisadi islahatlar həyata keçiririk. Biz 1 il ərzində büdcə kəsirini 10 faizdən 3 faizə endirə bilmişik. Biz 4 qənaət paketini qəbul etmişik ki, onlar hətta Yunanıstanda qəbul edilənlərdən daha sərt olmuşdur.

Bu gün iqtisadiyyatımız yenidən dirçəlir. Lakin bu gün mənim ölkəm və azad dünyanın hər bir üzvü üçün ən vacib məsələ Rusiyanın təkcə əməkdaşlığa sövq edilməsi deyil, öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə əməl etməyə məcbur olunmasıdır. Rusiya qonşularını hədələməməli, BMT Nizamnaməsinə və Ukraynanın simasında müstəqil dövlətlərə hörmətlə yanaşmalıdır.

**Kersti Kalyulayd** *(Estoniya Prezidenti)*: Cənab Bremmer, çox maraqlı giriş nitqinizə görə təşəkkür edirəm. Burada qeyd etdiniz ki, Avrasiyada xalqlar mehriban qonşuluq şəraitində yaşamağı öyrəniblər və qonşuları ilə münasibətləri normaldır. Avrasiya deyiləndə Avropa və Asiya nəzərdə tutulur. Burada isə Gürcüstan və Ukrayna təmsil olunur və mənə maraqlıdır ki, mehriban qonşuluq deyəndə bu ölkələrin timsalında bunu demək olarmı? Bu ölkələrə gəldikdə nələr baş verdi? Bu dövlətlər çox vacib xətdə yerləşirlər, bilmirəm, bu, qırılma xətti idi, yoxsa yox. İstənilən halda, bu xalqlar Qərbə, demokratik dəyərlərə sadiq sistemə mənsub olmaqla bağlı demokratik iradələrini ifadə etdilər və nəticədə hər 2 ölkə buna görə cəzalandırıldı. Bax, bu, əsl qırılma xəttidir və onun yenidən geri çəkilməsi üçün nələr etməli olduğumuz üzərində diqqətlə düşünməliyik.

Bu masa ətrafında olan ölkələr Baltik dənizindən Pamir dağlarına qədər olan coğrafiyanı əhatə edir və dünən NATO-ya həsr olunmuş paneldə iştirak edən Brüsseldən gəlmiş 5 Avropa ölkəsinin Müdafiə nazirlərinin 2 gün ərzində məşq etdikləri bənzər çıxışlarının səsləndiyi tədbirdən daha fərqlidir. Əminəm ki, bu paneldə səsləndirilən fikirlər tamamilə fərqli olacaqdır.

Hesab edirəm ki, bazar iqtisadiyyatı və qanunun aliliyinin təmin edilməsi müəyyən mənada xarici sərmayələrin cəlb olunmasına imkan yaradır. Lakin bundan sonra dövlət daha da dərindən inkişaf etməli, insanlara söz azadlığı verilməli, insan hüquqları və ölkədə korrupsiyanın aşağı səviyyədə olması təmin edilməlidir. Mən bunu öz təcrübəmizdən irəli gələrək deyirəm. Çünki Sovet İttifaqı adlanan həbsxanadan azad olan digər ölkələr kimi, bizim də yardıma ehtiyacımız var idi. Lakin son 25 ildə demokratik dövlətlər bizə maliyyə yardımları etdi, zəruri institutların yaradılmasında kömək göstərdi. Onlar təsəvvür edə bilməzdilər ki, 25 ildən sonra Estoniya rəqəmsal ölkə olaraq, artıq həmin Qərbi Avropa dövlətlərinə nə isə öyrədəcək. Bizim üçün borcu qaytarmağın zamanıdır.

Bir neçə onillik ərzində Sovet İttifaqının tərkibində yaşamış müxtəlif dövlətlərin inkişaf yoluna nəzər saldıqda belə bir nəticə hasil olur. İnsanlar tam azadlığa malik olduqlarını nə qədər tez dərk etsələr, heç şübhəsiz ki, ölkədəki vəziyyət bir o qədər yaxşı olar. Bilmirəm, bu niyə belədir? Ola bilsin, bizim tariximizə görə. Ancaq biz Sovet İttifaqına qarşı yalnız müstəqil olmağımız üçün mübarizə aparmamışıq. Biz söz azadlığı hüququ uğrunda mübarizə aparmışıq. Sovet dönəmində bu yox idi. Biz biznesin inkişaf etdirilməsi hüququ uğrunda mübarizə aparmışıq. Sovet dönəmində bu da yox idi. Biz bunların uğrunda sülh yolu ilə mübarizə aparmışıq. Mən «sülh» ifadəsinə görə burada üzr istəyirəm. Çünki burada mənim qonşularım, sözün əsl mənasında, döyüşüblər. Biz unutmamalıyıq ki, qırılma xətti daimi deyil və o, dəyişilə bilər. Lakin istənilən halda, inkişaf istiqaməti ilə bağlı son söz xalqın olmalıdır.

**Yan Bremmer** *(moderator)*: Şadam ki, müzakirələr üçün kifayət qədər vaxtımız və müzakirə olunası çoxlu məsələlərimiz var. Panel iştirakçılarının təqdimatları çox fərqli oldu və bu mövzuları daha da dərindən müzakirə etmək istərdim. Xanım Prezidentin dediyinə cavab olaraq, bildirmək istərdim ki, mən ölkələrin ideoloji olaraq digərlərinə hansı sistemi seçməklə bağlı təzyiq etməməsini müsbət məqam kimi qeyd

etdim. Ancaq bununla yanaşı, qeyd etdim ki, müharibələr, müdaxilələr və digər hallar təəssüf ki, mövcuddur. Lakin mən yenə də müsbət məqamdan başlayacağam. Hesab edirəm ki, biz Rusiya haqqında mütləq danışmalıyıq. Çünki paneldə iştirak edənlərin bu mövzuda olduqca əhəmiyyətli şəxsi fikirləri vardır.

Mən cənab Tokayevə müraciət etmək istəyirəm. Sayca ən çox rus əhalisi məhz sizin ölkədə yaşayır. Bununla yanaşı, siz istər daxildə, istərsə də Rusiya ilə münasibətlərdə mehriban birgəyaşayışı təmin edə bilmisiniz. Burada Rusiya ilə daha mürəkkəb münasibətlərə malik olan həmkarlarınızın fikirlərini eşidəcəyik, lakin Qazaxıstanın buna necə nail olması ilə bağlı sizin təcrübəniz haqqında eşitmək istərdik.

**Kasım-Jomart Tokayev:** Biz tarixən müxtəlif mədəniyyətlərə və dinlərə qarşı tolerant olmuşuq. Biz fərqli mədəniyyətlərin heç birinə etinasız yanaşmırıq. Dil məsələsinə gəldikdə, biz ilk gündən bəyan etdik ki, ölkədə dövlət dili qazax dili olacaqdır. Prezidentimiz Konstitusiyamızda rus dilinin rəsmi dil kimi qəbul edilməsi fikrini irəli sürdü. Çünki rus dili ölkəmizdə olduqca geniş yayılıb və bunun bizim üçün bir sərvət olduğunu düşünürəm. Fikrimcə, istənilən dilə qarşı mübarizə aparmaq çox ağılsız bir işdir. Özümüz, əhalimiz nə qədər çox dil bilsə, bir o qədər yaxşıdır.

Bu gün biz ölkədə ingilis dilini üçüncü qeyri-rəsmi dil kimi təşviq edirik. Ancaq gələcəkdə ola bilsin ki, o, Qazaxıstanın rəsmi dillərindən biri olsun. Biz anlayırıq ki, gənc nəsil üçün ingilis dilini bilmək çox vacibdir. Beləliklə, müdriklik, tolerantlıq və dərrakə ölkədə sabitliyin qorunması üçün təminatlardan biridir. Ölkədə sabitlik olmasa, iqtisadi islahatların aparılması mümkün olmaz. Hesab edirik ki, Qazaxıstanda olan dini anlaşma da çox vacibdir. Çünki iqtisadi islahatların irəliləməsi üçün bütün imkanlardan istifadə edilməsi çox vacibdir. Bu səbəbdən Qazaxıstan ənənəvi dünya dinləri rəhbərlərinin zirvə görüşlərini təşkil edir ki, həm din xadimləri, həm də siyasətçilər bir

araya gələrək, qlobal müstəvidə sülh və tolerantlığı müzakirə etsinlər.

Sonuncu belə zirvə toplantısında BMT-nin Baş katibi, İordaniya Kralı, Finlandiya Prezidenti və mühüm beynəlxalq təşkilatların rəhbərləri iştirak etmiş, Avrasiya və daha geniş coğrafiyada sülh, təhlükəsizlik və sabitlik məsələləri ətrafında müzakirələr aparmışlar.

**Yan Bremmer:** Bu, yaxşı xəbərlər kateqoriyasına daxil olanlar idi. Bütün digər iştirakçılar bu və ya digər mənada müdaxilə ilə üzləşmiş, bəzi hallarda isə Rusiya ilə bilavasitə müharibə şəraitində olmuşlar. Sualım belədir – təhlükənin səbəbləri nədir? Ötən il ərzində bir çoxları Putini geosiyasi qalib hesab etdilər. Onun təsir imkanlarının genişləndiyi iddia edilir. Həqiqətənmi Putin fərd olaraq güclənib, yoxsa Rusiyanın iqtisadiyyatı zəifləyib? Bəlkə bu, sovet dönəmindən qalma imperialist ab-havasıdır? Fikrinizcə, regionda Rusiya ilə bağlı çağırışların kökündə nə dayanır? Bəlkə kənardan kifayət qədər beynəlxalq dəstək yoxdur? Gəlin ən çox çağırışlarla üzləşmiş şəxs kimi, sözü sabiq Baş nazir Yatsenyuka verək.

**Arseni Yatsenyuk:** Gəlin açıq danışaq, prezident Putin dünyanı idarə etmək istəyir, ən azından onun bir hissəsini. O, açıq şəkildə bəyan edib ki, Rusiya Federasiyası təsir dairələrini bərpa etmək istəyir. Zənnimcə, Rusiya Prezidenti Sovet İttifaqına bənzər bir birlik və ya imperiyanın yaradılması arzusu ilə yaşayır. Bu səbəbdən Putin Ukraynanı işğal etmək qərarına gəldi. Bu, dil məsələsi deyil. Mənim ölkəmdə hər kəs rus dilində danışır, ancaq heç əmin deyiləm ki, hər bir rus Ukrayna dilini bilir.

Bu, geosiyasət məsələsidir. O, azad dünyaya meydan oxuyur. Burada söhbət Putinin gücündən deyil, dünyanın zəifliyindən gedir. Mən bir daha əvvəlki fikrə qayıtmaq istəyirəm. Biz nə qədər güclü, bir olsaq, o qədər gec-gec NATO-nun köhnəlmiş olduğunu söyləmiş və daha az BREXİT ilə üzləşmiş olarıq. Beləliklə, azad dünyanın və demokratiyanın inkişaf etmək imkanı olar.

Prezident Putinin geosiyasi məqsədi qonşular və digər dövlətlər, hətta Avropa İttifaqı üzərində təsir imkanları əldə etməkdir. Onlar Avropa İttifaqı daxilində parçalanmaya nail olmaq və Avropa İttifaqı ilə ABŞ arasında birliyi sarsıtmaq üçün əllərindən gələni edirlər. Ancaq mənim ölkəm böyük əzmkarlıq nümayiş etdirdi. Biz müstəqilliyimiz uğrunda döyüşürük. Biz gələcəyimizə, suverenliyimizə, xalqımıza və həqiqi dəyərlərimizə inanırıq. Biz bütün dünyaya Ukrayna xalqının Avropa bayrağı altında, Avropa dəyərləri naminə necə mübarizə aparmağa qadir olduğunu nümayiş etdirdik və biz bunu qanımız bahasına etdik.

**Yan Bremmer:** Bu konfransda amerikalıların və avropalıların, azad dünya liderlərinin səsləndirdikləri fikirlər Ukraynanın gələcək mövqeyinə təsir etdimi? Putinin nəyə nail olub-olmayacağı ilə bağlı hansı qənaətə gəldiniz?

**Arseni Yatsenyuk:** Birmənalı demək çətindir. Əvvəlcə, ABŞ-ın yeni administrasiyasından başlamaq istərdim. Yaxşı xəbər ondan ibarətdir ki, prezident Tramp Krımın Rusiya tərəfindən qeyri-qanuni işğalını şəxsən tanıyıb. ABŞ-ın Müdafiə naziri Mettis Ukraynanı dəstəklədiyini açıq bəyan edib, NATO-nun baş katibi də eyni mesajı səsləndirib. Avropa İttifaqında demokratiyanın güclü mərkəzini təmsil edən və nüfuzlu dünya liderlərindən olan kansler Merkel Rusiyanı Minsk razılaşmasına tam əməl etməyə təkidlə və açıq şəkildə çağıranlardandır. Yəni atəşkəsə tam riayət olunması, Rusiya qoşunlarının çıxarılması, Ukrayna sərhədlərinin və Ukraynanın müstəqilliyinin bərpası. Müsbət məqam ondan ibarətdir ki, ABŞ və Avropa İttifaqı zənnimcə, eyni mövqedən çıxış edir və əvvəlki siyasəti davam etdirir. Bu siyasət Ukrayna kimi müstəqil ölkələrin müdafiəsidir.

**Yan Bremmer:** Sualım Estoniya Prezidentinədir. Rusiyanın sizin ölkə ilə bağlı hansı təhlükələr, çağırışlar yaratdığına nəzər saldıqda, biz tarixən daha çox NATO tərəfindən daha güclü zəmanətin verilməsinə ehtiyacın olduğunu, Rusiyaya məxsus anklavın mövcudluğunu, silahlı qüvvələr, işğal kimi

məsələləri görürük. Bu gün isə kibermüharibə, Avropada seçkilər zamanı ultrasağçı siyasi qüvvələrin dəstəklənməsi kimi məsələlər meydana gəlir. Rusiya ilə bağlı çağırışlar texnoloji imkanların artmasından qaynaqlanırmı? Onlar dəyişir, inkişaf edirmi? NATO belə bir çağırışa cavab vermək iqtidarındadırmı? Bu bütün avropalıların qəbul etdiyi vahid amal anlamına gəlirmi? Çünki onların çoxu belə bir potensial təhlükəni görürlər. Yəni ruslar Fransada seçkilərə müdaxilə edəcəklərsə, bununla mübarizə aparmaq Estoniya ilə digər Avropa dövlətləri arasında vahid amal yaradırmı? 2017-ci ildə bununla bağlı nə düşünməliyik?

**K e r s t i K a l y u l a y d:** Mənə söz verdiyinizə görə təşəkkür edirəm. Siz qeyd etdiniz ki, buradakıların hər biri Rusiya tərəfindən müxtəlif müdaxilənin qurbanı olub. Bizim bu mənada bəxtimiz gətirib, 2007-ci ildəki kiberhücumdan başqa, hər hansı bir müdaxiləyə məruz qalmamışıq. Bunun səbəbi bizim NATO-ya üzv dövlət olmağımızdır və təşkilata üzv olan heç bir ölkə hərbi hücumun qurbanı ola bilməz. Mən əminəm ki, bu belə olaraq qalır. Həqiqətən, NATO regionda mövcud risklərlə bağlı adekvat addımlar atmalıdır. Bildiyiniz kimi, Varşava Zirvə görüşü, qəbul edilmiş qərarlar və onların icrası bu gün özümüzü coğrafi baxımdan təhlükəsiz hiss etməyimizə və diqqətimizi digər risklərə yönəltməyimizə kifayətdir. Maraqlıdır ki, builki Münhen Təhlükəsizlik Konfransının əsas mövzusu Baltik regionu ölkələri və həmin regiona qarşı bilavasitə Rusiya təhlükəsi deyil. Hər halda, bu məhz belədir və bu region ön cəbhə hesab edilmir. Ümumiyyətlə, ön cəbhə məfhumu prinsipcə aradan qalxıb. Bu gün biz artıq kibertəhlükə haqqında danışırıq. Hətta bu anlam da iki yerə bölünür – ənənəvi kiberhücumlar, yəni sistem və serverlərə qarşı və daha çox qeyri-fiziki hücumlar, bir də media müharibəsi və mediaya qarşı kiberhücumlar.

Bu haqda konfrans zamanı çox danışıldı. Zənnimcə, belə bir təhlükə qarşısında insanlar özlərini olduqca aciz hiss edirlər. Çünki onunla mübarizə aparmaq üsullarını bilmirik. Hər bir məsələ strateji informasiya və kommunikasiya hesab oluna bi-

lər. Lakin vaxt gəlir ki, bu heç də belə olmur. Ancaq bununla vəziyyətin mürəkkəbliyi heç də azalmır. Məsələn, seçkilərin keçirildiyi şəraitdə. 2017-ci ildə Avropada vacib seçkilər keçiriləcək. Estoniyanın rəqəmsal təcrübəsindən çıxış edərək, deyə bilərik ki, hər hansı bir ciddi təhlükə varsa nə etməlisiniz? Burada hər hansı bir kompüter proqramını işə salmaq olarmı? Bəlkə də olar, ancaq daha sonra bunun sistemli üsulu müəyyənləşdirilməlidir.

Bu gün bununla bağlı nələr etməliyik? İnsanlar seçkilərdə iştirak edərkən, həmin risklərdən xəbərdar olmalıdırlar və məncə, Almaniyada bu məhz belədir. Mən Almaniya Müdafiə Nazirliyi binasının divarında ölkənin azadlığının gələcəkdə həm də kibermüstəvidə müəyyən ediləcəyi ilə bağlı şüarı oxudum. Bu o deməkdir ki, siz bu riskləri anlayırsınız.

Bu halda – kiberhücum, uydurma xəbərlər, kompromatların yayıldığı halda, ilk müdafiə xətti belə bir təhlükənin səmimi etiraf olunmasıdır. Ancaq bu gün kompromata nə gərək var ki? Bu gün bir namizədlə bağlı qorxunc uydurma məlumatın yayılması həmin namizədin gələcəyini məhv edə bilər. Özünüz bu prosesin daxilindəsinizsə, siz artıq hansısa mövzunun yalan olması ilə bağlı mübahisəyə başlayırsınız. Ona görə də artıq bu gün biz demokratiyamızı qorumaq üçün razılığa gələrək, vəd etməliyik ki, opponentim hücuma məruz qalanda mən kənara çəkilməyəcəyəm. Opponentimlə birgə bu hücumu pisləyəcəyəm və ondan seçki kampaniyası zamanı öz mənafeyim naminə istifadə etməyəcəyəm. Əvvəlcədən belə bir vəd verilmiş olsa belə, bir kompüter proqramı meydana gəlir. Ola bilsin ki, bu, mükəmməl proqram deyil, çünki bəzən ən inanılmaz xəbər doğru ola bilər. Bəzi insanlar özləri hücumun qurbanı olmayana qədər bu üsulu dəstəkləməyə bilərlər. Ancaq sonra belə olan halda, onlara sual verilməlidir ki, niyə bu yanaşmanı əvvəldən dəstəkləmirdiniz?

**Yan Bremmer:** Xanım Prezident, bunu özlərinə bilavasitə təhlükə hesab edən avropalıların və amerikalıların reaksiyasını görəndən sonra Rusiyanın da bu mövzuda mövqeyi qey-

ri-müəyyəndir. Kibertəhlükə ilə bağlı mübarizə yalnız NATO çərçivəsində olmalıdır, yoxsa səmərəli, birgə, ümumavropa tədbirlərinə ehtiyac vardır?

**Kersti Kalyulayd:** Çıxışımda məsələnin hərbi aspektini kənara qoyaraq, daha çox mülki fəsadlardan danışdım. Ancaq NATO və Avropa razılaşır ki, burada o qədər də böyük fərq yoxdur. Biz bir yerdə işləməliyik. NATO-nun Riqada Strateji Kommunikasiya üzrə Təlim Mərkəzi və Tallində Kibertəhlükəsizlik üzrə Təlim Mərkəzi fəaliyyət göstərir. Avropa İttifaqının da strateji kommunikasiya üzrə Şərq və Qərb mərkəzləri mövcuddur. Bu problemlə hamı məşğul olur. Bu problem hər yerdə, bütün azad cəmiyyətlərdə var. Bu gün virtual müstəvidə hər yerdə müharibə var. Müharibə aparmaq üçün kifayət qədər virtual meydan tapmaq olar.

Zənnimcə, Almaniyanın Müdafiə naziri xanım Leyen çıxışında məhz bu mesajı çatdırmaq istəyirdi. O, bir növ əks-hücuma keçərək, Almaniya qoşunlarının Şərqdə yerləşdirilməsinin mümkünlüyü iddiasına cavab verdi. Yəni siz özünüz şəffaf şəkildə bu mövzudan sui-istifadə oluna biləcəyini bəyan edirsiniz, lakin buna yol vermirsiniz.

**Yan Bremmer:** Cənab Kvirikaşvili, NATO sualını sizə də aid etmək olar. Sizin də bu təşkilata qoşulmaqda çoxdan marağınız var. Bu sizin üçün də çağırışlarla dolu bir prosesdir. Bu mövzu bu gün nə dərəcədə aktualdır və Rusiya ilə münasibətlərin gələcəyini necə görürsünüz?

**Giorgi Kvirikaşvili:** Əvvəlcə, Gürcüstanın Rusiya ilə beşgünlük müharibəsinin tarixinə qayıtmaq istərdim. Bu hadisə 2008-ci ildə baş vermişdir. Minlərlə hərbçimiz həlak oldu. Biz mövqemizi qoruduq, ancaq kiçik ölkə olduğumuzdan nəticədə ərazimizdə yenidən Rusiya hərbi bazaları peyda oldu. Cenevrə Beynəlxalq Müzakirələr Formatı yaradılıb, ATƏT, Avropa İttifaqı, BMT kimi təşkilatlar həmin formatda təmsil olunur. Təəssüflər ki, bir neçə ildə, demək olar, heç bir irəliləyiş əldə edilməyib.

6 il sonra – 2014-cü ildə Rusiya bu hərəkətlərini Ukraynada təkrar etdi. Burada dərs ondan ibarətdir ki, təkcə regionumuzda deyil, bütün qitədə sabitliyin və təhlükəsizliyin bərqərar olunmasının təməl daşı ərazi bütövlüyü məsələsidir. Ölkələrin dövlət sərhədlərinin yenidən nəzərdən keçirilməsi çox təhlükəli haldır.

Bu gün biz elə bir vəziyyətdəyik ki, ərazimizdə sədlər yaradılıb, etnik gürcülər gündəlik əsasda qondarma sərhədləri pozduqlarına görə həbs olunur, onlar ana dilində təhsil almaq hüququndan məhrum ediliblər. İqtisadi sahədə müəyyən irəliləyiş istisna olmaqla, 2012-ci ildən etibarən bizim çox ardıcıl və çox konstruktiv mövqemizə baxmayaraq, heç bir siyasi irəliləyiş əldə edilməyib. Qondarma Abxaziya və Cənubi Osetiya ilə inteqrasiya sazişləri bağlanılır, onların silahlı qüvvələri və hüquq-mühafizə orqanları Rusiyanın müvafiq inzibati məkanına daxil edilir, strukturları tərəfindən özününküləşdirilir və bu proses davam etməkdədir. Bunun həlli yolu nədir? Təəssüf ki, bu suala cavabım yoxdur. Verə biləcəyim yeganə cavab da virtualdır: bu cür təhlükələrə qarşı sivil dünyanın birliyi.

NATO-ya üzvlük məsələsi bizim xalqımız üçün ən əhəmiyyətli məsələ deyil. Lakin bu, müəyyən dəyər və prinsiplərə malik olan ölkələrdən ibarət bir ailədir və Gürcüstan hesab edir ki, onun yeri məhz oradadır. Dediyim kimi, bu bizim xarici siyasət hədəflərinə daxil olan məsələ deyil, ancaq bu, Gürcüstanın mövcudluğu ilə bağlı ehtiyacları və daxili islahatların təbiətini müəyyən edir. Biz hesab edirik ki, NATO və Avropa bizim mənsub olduğumuz ailədir. Bu məsələdə biz tədricən hərəkət edir və çox ardıcıl addımlar atırıq. Eyni zamanda, biz çox səbirliyik. Hesab edirik ki, bu yolda ardıcıl, ideyaya sadiq və həmçinin konstruktiv olduğumuz halda, bir gün Gürcüstan üçün belə bir imkan yaranacaqdır.

Biz mesaj verməyə çalışırıq ki, heç bir üzvlük müqabilində düşmənçilik istəmirik. Biz ərazi bütövlüyümüzün və suverenliyimizin reallaşdırılmasını istəyirik. Suverenlik bu və ya digər

kluba üzv olmaqla bağlı xalqın suveren qərarıdır. Biz isə artıq qərarımızı vermişik.

**Y a n  B r e m m e r:** Sualım prezident Əliyevədir. Aylardır ki, bu sualı Sizə vermək istəyirəm. Siz ən qeyri-mümkün ola biləcək geosiyasi vəziyyətdən çıxdınız. Söhbət Türkiyənin rus təyyarəsini vurması və ruslarla türklərin bir-birinin yaxasından yapışmasından gedir. Sonra isə, demək olar ki, bir gecədə bu münasibətlər çox sıx oldu. Azərbaycan Prezidenti olaraq, bu təcrübəni yaşamaq necə idi? Buradakı hər bir kəslə rəsmi Bakının mövqeyindən irəli gələrək, bu proses haqqında fikirlərinizi paylaşa bilərsinizmi? Çünki hesab edirəm ki, hər kəs bunu bilmək istəyir.

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, biz beynəlxalq ictimaiyyətin diqqətinə, ola bilsin, o qədər də çarpmayan belə bir vəziyyətlə üzləşirik. Bu bizim coğrafiyamızdır. Giriş nitqində qeyd etdim ki, bizim coğrafiyamız Asiya, Avropa və regionda ənənəvi qüvvələr arasındadır. Azərbaycan Fars imperiyasının, Rusiya imperiyasının, qismən Osmanlı imperiyasının bir hissəsi olub. Bu gün bu 3 ölkə bizim birbaşa qonşularımızdır. Bu 3 ölkə ilə bizim çox yaxşı münasibətlərimiz var. Bu münasibətlər birinci növbədə, qarşılıqlı hörmət, daxili işlərimizə qarışmamaq və praqmatizmə, bizim milli maraqlarımıza əsaslanır. Buna görə də Azərbaycan üçün ən pis ssenari qonşularımız arasında hansısa bir pis hadisənin baş verməsidir. Məsələn, 2008-ci ildə Rusiya–Gürcüstan müharibəsi baş verdikdə və ya bu yaxınlarda qeyd etdiyiniz həmin hadisə zamanı olduğu kimi. Biz bunu regional sabitliyə ciddi bir təhlükə hesab edirik. Bizə sabitlik lazımdır. Bizim ölkəmizin daxilində sabitlik var və biz ətrafımızda da sabitlik istəyirik. Çünki biz ada deyilik. Xoşumuza gəlib-gəlməməsindən asılı olmayaraq, sərhədlərimiz xaricində baş verənlər bizə də təsir edə bilər, müsbət və ya mənfi şəkildə. Buna görə biz qonşularımıza bu böhrandan çıxış yolunu tapmağa kömək etmək üçün bütün səylərimizdən istifadə etdik, lakin bunu çox ehtiyatla etdik.

Azərbaycanın Rusiya ilə Türkiyə arasında münasibətlərin normallaşmasına kömək etmiş ölkələr arasında olması da açıqlanmışdır. İstənilən halda, ölkə ilə nə dərəcədə sıx münasibətlərimizin mövcudluğundan asılı olmayaraq, biz həmişə əsas prinsipləri rəhbər tuturuq. Bu prinsiplər beynəlxalq hüquqdur. Beynəlxalq hüquqa əməl olunmalıdır. Beynəlxalq hüququ pozanlar yanlış hərəkət edirlər və biz bunu həmişə vurğulayırıq. Biz ətrafımızda olan və bu masada təmsil olunan bütün ölkələrin ərazi bütövlüyünü tamamilə dəstəkləyirik. Biz özümüz ərazi bütövlüyünün pozulmasından əziyyət çəkirik. Buna görə də ərazi bütövlüyü məsələsi bizim üçün toxunulmazdır. Eyni zamanda, biz riskləri azaltmaq üçün hansı işlərin görülə biləcəyini nəzərdən keçirdik. Buna görə Rusiya ilə Türkiyə arasında gərginlik çox ciddi geosiyasi bir risk idi və regionumuz üçün birbaşa risk idi. Bu 2 ölkə bizim əsas iqtisadi tərəfdaşımız və qonşumuzdur. Əgər onlara bu çətinliklərin öhdəsindən gəlməyə kömək etmişiksə, düşünürəm ki, biz buna görə təqdir olunmalıyıq.

Lakin sizə deyə bilərəm ki, sabitləşdirici amil kimi, Azərbaycanın rolu get-gedə beynəlxalq ictimaiyyət tərəfindən daha da çox tanınır. Sizə bu yaxınların misalını çəkə bilərəm. Sadəcə, 2 gün bundan əvvəl Bakıda ABŞ ordusunun Baş qərargah rəisi cənab Denford və Rusiya ordusunun Baş qərargah rəisi cənab Gerasimovun görüşü olub. Onlar ilk dəfə bizim ölkədə görüşdülər. Bakının seçilməsi qərarı bizim deyildi. Biz bu qarşılıqlı əlaqənin təşəbbüskarı kimi çıxış etməmişdik. Bizə yaxınlaşaraq, buna razı olub-olmamağımız soruşuldu. Biz dedik ki, əlbəttə, buna razıyıq. Bəs nəyə görə Azərbaycan seçildi? Mən bu sualı özümə verdim. Avrasiyanın xəritəsinə baxaraq gördüm ki, ola bilsin, Azərbaycan onların görüşə biləcəyi yeganə məkandır. Biz NATO-nun üzvü deyilik. Biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilik. Biz güclü beynəlxalq nüfuza malik ölkəyik. Biz ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan və onların hörmət bəslədiyi ölkəyik. Buna görə də artıq nəinki təkcə bizim regionda, həm də geniş miqyasda Azərbaycanın

sabitləşdirici amil kimi rolu artacaqdır. Bu bizim regional sabitliyə verdiyimiz töhfədir. Burada artıq qeyd olundu ki, sabitlik istənilən növ inkişaf üçün ən vacib amildir. Sabitliyiniz olmasa, sərmayələri, həyat şəraitinin yaxşılaşdırılmasını və əməkdaşlığı unudun.

Bizim siyasətimiz həmişə layihələr vasitəsilə əməkdaşlığa sərmayə yatırmaq idi. Bizim uzun illərdir ki, mövcud olan və çox səmərəli regional əməkdaşlıq formatımız var. Bu, Azərbaycan, Gürcüstan və Türkiyədir. Biz birlikdə enerji, nəqliyyat və digər layihələri icra edirik və biz güclü müttəfiqlərik. Eyni zamanda, bu gün bizim digər regional əməkdaşlıq formatımız da vardır. Bu, Azərbaycan, İran və Rusiyadır. Azərbaycan dünyada eyni zamanda, İran və Rusiya ilə sərhədi olan yeganə ölkədir. Onlar ticarət, nəqliyyat, iqtisadi inkişaf və təhlükəsizliklə bağlı sahələrdə bizim təbii tərəfdaşlarımızdır. Buna görə də ümid edirəm, elə bir vaxt gələcək ki, biz bu mövcud regional əməkdaşlığı daha böyük əməkdaşlığa inteqrasiya edə biləcəyik və bu da bütün insanların xeyrinə olacaqdır. Bu, riskləri azaldacaq və əməkdaşlıq üçün daha çox imkanlar yaradacaqdır.

**Yan Bremmer:** Bu çox yaxşı cavab idi və mən buna görə Sizə minnətdaram. Lakin Sizdən şəxsən soruşmaq istəyirəm. Çünki mən bilirəm, Siz uzun müddətdir ki, Ərdoğan ilə necə yaxınsınız və yaxın olmusunuz. İlkin olaraq, demək olar ki, o, hirsli idi. O heç kimdən üzr istəmək istəmirdi, turizm və ticarət tənəzzüldə idi. Bu, ölkə iqtisadiyyatına çox pis təsir edirdi. Qəfildən olan bu dəyişikliyi Siz nə dərəcədə tez görə bildiniz? Sizcə, onu tanıdığınız qədər bu dəyişiklik uzunmüddətlidirmi, davamlıdırmı və yaxud, bu, instinktiv emosional bir addım idi. Sizin təcrübənizdə bu necə oldu?

**İlham Əliyev:** Fikrimcə, Türkiyə və Rusiya prezidentləri baş verənləri qiymətləndirərək, çox düzgün və müdrik bir qərar qəbul etdilər. Çünki bu proses daha çox uzana bilərdi. Əgər proses daha çox uzansaydı, onun əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan nəticələri ola bilərdi. Çünki hərarət çox yüksək idi. Mənim prezident Ərdoğan ilə söhbətim

oldu. Mənim prezident Putinlə söhbətim oldu. Bilirəm ki, prezident Nazarbayev çox böyük müvəffəqiyyətlə bu vasitəçilik prosesində fəal iştirak edirdi. Əlbəttə, bu məlumat ictimaiyyətə açıqlanmaq üçün nəzərdə tutulmayıb. Lakin mən şəxsən onlar üçün barışığa getməyin necə çətin olduğunu bilirəm. Bunun baş verməsi faktı onu göstərir ki, bu siyasətçilər öz fəaliyyətlərində emosiyaları yox, praqmatizmi rəhbər tuturlar. Prezident qismində vəzifəyə keçən kimi, siz emosiyalarınızı kənara qoymalısınız. Əgər vəzifəyə emosiyalarla keçsəniz, siz uğur qazanmayacaqsınız, ölkənizdə və regionunuzda bir qarışıqlıq yaradacaqsınız.

**Kasım-Jomart Tokayev:** Sadəcə, demək istəyirdim ki, Azərbaycan bu münaqişənin həllində olduqca mühüm rol oynadı. Prezident Əliyevin rəhbərlik etdiyi bu ölkənin coğrafi və ya etnik baxımdan Türkiyəyə və Rusiyaya yaxınlığı Rusiya və Türkiyə prezidentlərinin bir araya gətirilməsində kifayət qədər vacib amil oldu. Eyni zamanda, cənab Prezident, Siz qeyd etdiyiniz kimi, məhz prezident Nazarbayev cənab Ərdoğanı Rusiya Prezidentinə üzrxahlıq etməsində dilə gətirdi. Nəticə isə tam aydın oldu. Ümumiyyətlə, bölgədəki vəziyyət, xüsusən də Suriyadakı vəziyyət, həmin olduqca mühüm vaxtda müvafiq liderlərin birgə vasitəçilik səylərinin nəticəsində kəskin şəkildə dəyişdi.

**Yan Bremmer:** Faktiki olaraq, siz mübahisə edə bilərdiniz ki, bu dünyada ən vacib konstruktiv geosiyasi kursun dəyişməsi oldu. Yəni Rusiya ilə Türkiyə... Beləliklə, Qazaxıstan mühüm geosiyasi rol oynamaqdadır.

**Kasım-Jomart Tokayev:** Biz geosiyasi rol oynadığımızı iddia etmək istəməzdik, çünki Qazaxıstan regional qüvvədir. Lakin eyni zamanda, əlbəttə, biz Suriyaya gəldikdə sülh səylərinə töhfə vermək arzusundayıq. Astana Cenevrədə danışıqların siyasi baxımdan davam etdirilməsi, məqsədilə aparılan işlərin uğurlu olması üçün Suriya danışıqlarına ev sahibliyi etdi. Bu bizim kiçik töhfəmizdir, çünki inanırıq ki, qloballaşan dünya get-gedə daha da bütövləşir. Suriya bizdən – Mərkəzi

Asiyadan o qədər də uzaq deyil. Bu fürsətdən istifadə edərək, mən əhəmiyyəti get-gedə artan Mərkəzi Asiyanın geosiyasi və qlobal rolunu qeyd etmək istərdim. Hesab edirəm ki, Mərkəzi Asiya və daha geniş miqyasda, Avrasiya gələcəkdə həm iqtisadi, həm siyasi sahədə beynəlxalq münasibətlərdə olduqca mühüm rol oynayacaq.

**Yan Bremmer:** Mən yenə də bu mövzuda qalmaq istəyirəm. Üzrlü hesab edin, lakin Suriya məsələsinə varmayacağam, çünki panel müzakirəsini bu mövzu ilə bitirmək istəmirəm. Lakin Çin mövzusuna toxunmaq istərdim. Mən cənab Yatsenyukdan başlamaq istəyirəm, çünki maraqlıdır, biz burada geosiyasi maraqların birləşməsi haqqında danışdıqda, sizin üzləşdiyiniz vəziyyətin inanılmaz dərəcədə ağır olduğunu da anlayırıq. Bununla belə, Çin yaxın gələcəkdə dünyada ən böyük iqtisadiyyat olacaq. Onların Ukraynada böyük sərmayələri var, hətta kənd təsərrüfatı sahəsində də. Onlar Suriyaya gəldikdə, daha çox konstruktiv diplomatik rollar haqqında danışırlar. Bilmək istərdim ki, Ukrayna Çinin bu roluna necə baxır və onların maraqları ayırıcı və ya sabitləşdirici amildir və ya onlar sizin ölkədə ruslarla müqayisədə ən azı daha potensial konstruktiv yanaşmanı tətbiq edə bilər?

**Arseni Yatsenyuk:** Mövzu belədir: Çin Ukraynadan bir az uzaqdadır. Bu, məsələnin bir hissəsi. Onun digər hissəsinə gəldikdə, biz Çindən daha çox sərmayə almaqda şad olardıq. Biz Çini real tərəfdaş hesab edirik. Çinin bir sıra beynəlxalq təşkilatlarda çox güclü səsi var. Çin nəhəng potensiala malikdir. Biz qətiyyətlə inanırıq ki, çinli tərəfdaşlarımız və dostlarımızla bir sıra razılaşmalara nail ola bilərik. Bir sözlə, şübhəsiz ki, Çinlə apardığımız əməkdaşlıq ölkəmizə daha çox investor və sərmayələr cəlb edə, Ukrayna iqtisadiyyatını gücləndirə və ukraynalıların həyat standartlarını yaxşılaşdıra bilər. Lakin burada əsas maneə var. Bunu prezident Əliyev dəfələrlə qeyd etdi. Sabitliyin çox böyük əhəmiyyəti var. Bizim üçün sabitlik və təhlükəsizlik eyni məna daşıyan sözlərdir. Beləliklə, inanmıram ki, Çin Minsk razılaşmasının Rusiya tərəfindən icra

olunması ilə bağlı hər hansı razılığı təmin edə bilər. Lakin xatırlamıram, Çin BMT-nin Baş məclisində Krımın qeyri-qanuni anneksiyası ilə bağlı qərarı dəstəklədi, yoxsa yox? *(zaldan səs:* bitərəf qaldı.*)* Bəli, onlar bitərəf qaldılar. Ola bilsin, bəlkə gələn dəfə Çin aydın şəkildə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyəcək. Lakin bir daha iqtisadi məsələyə qayıdaraq deməliyəm ki, Çin əməkdaşlıq üçün gözəl ölkədir.

**Yan Bremmer:** Çinə gəldikdə, əlbəttə, biz Qazaxıstana müraciət etməliyik və sizin üçün ən mühüm xarici iqtisadi təkan kimi, Çin haqqında danışaq. Bilmək istərdim, fikrinizcə, cənab Yatsenyukun dediyi kimi, Rusiya tarixən öz təsir sferası hesab etdiyi yerlərdə Çin aparıcı iqtisadi iştirakçı ola bilərmi? Siz bunu rəqabəti qızışdıran amil, gec və ya tez partlaya biləcək vaxt bombası kimi hesab edirsinizmi?

**Kasım-Jomart Tokayev:** 8 il Çində, 4 il isə Sinqapurda yaşamış bir çinşünas kimi, mən Çində baş verənləri diqqətlə izləyirəm. Qətiyyətlə inanıram ki, Çinin Mərkəzi Asiya ilə bağlı, xüsusən də iqtisadi sahəyə gəldikdə, çox yaxşı perspektivləri var. Məsələn, Çin 51 müəssisəsini öz ərazisindən Qazaxıstana köçürməyi planlaşdırır. Mən burada sədr Si Cinpinin irəli sürdüyü «bir kəmər – bir yol» adlı konsepsiyanı qeyd etdim. Fikrimcə, bu çox perspektivli konsepsiyadır. Nəzərə alsaq ki, bu konsepsiya Mərkəzi Asiya ölkələri, Avrasiya İqtisadi İttifaqı tərəfindən dəstəklənəcək və istifadə ediləcək, o, Mərkəzi Asiya ölkələrinin, o cümlədən Rusiyanın iqtisadi inkişafının əsas amillərindən biri olacaq. Çin iqtisadi nəhəngə çevrilib. Hesab edirəm ki, Çinin iqtisadi artım sürəti kifayət dərəcədə davam edəcək. 6 faizlik iqtisadi artım Mərkəzi Asiyada əsas sərmayədarlardan biri olmaq üçün kifayətdir. Beləliklə, Çinin iqtisadi gücü kifayət qədər böyükdür. Lakin eyni zamanda, hesab edirik ki, Qazaxıstanla siyasi əməkdaşlıq da kifayət qədər uğurla inkişaf edir. Hər il iki ölkənin lideri 3-4 dəfə görüşür və bir sıra mühüm məsələləri, ilk öncə, ikitərəfli əməkdaşlığı müzakirə edirlər. Onlar nəinki söhbət edirlər, o cümlədən razılaşmaların və danışıqların praktiki işlərə hansı şəkildə çevrilməsi

haqqında düşünürlər. Bir sözlə, əgər belə demək olarsa, Çin Mərkəzi Asiyada get-gedə öz mövqeyini gücləndirir. Çin, əlbəttə ki, Qazaxıstanın əsas tərəfdaşı olacaq. Burada şübhə yoxdur.

**Yan Bremmer:** Bəs ruslara gəldikdə?

**Kasım-Jomart Tokayev:** Bizim çox yaxşı münasibətlərimiz var.

**Yan Bremmer:** Xeyr, mən əvvəlki məqama qayıtmaq istərdim. Bu, yekun nəticədə Rusiya ilə Çin arasında toqquşmaya gətirəcəkmi? Bu problemdən necə qurtulmaq olar?

**Kasım-Jomart Tokayev:** Rusiya ilə Çin arasında rəqabət haqqında danışmağa dəyməz. İqtisadi baxımdan Çin regionda ən böyükdür. O, dünyanın ikinci ən böyük iqtisadiyyatıdır və ən uğurlu iqtisadiyyatdır. Çin öz iqtisadiyyatını dəyişir və bu çox vacibdir. Onlar kiber qüvvəyə malik dövlət olmaq istəyirlər. Bu yaxınlarda mən Çinin ən inkişaf etmiş şəhərlərindən birində – Şençen şəhərində oldum. Mən daha çox inanmağa başlayıram ki, Çin heç şübhəsiz, öz məqsədlərinə nail olacaq.

**Giorgi Kvirikaşvili:** Mən fürsətdən istifadə edərək, regiona böyük inkişaf gətirəcək «bir kəmər – bir yol» layihəsi haqqında bir neçə söz söyləmək istərdim. Burada yeni sərmayələrdən, nəinki fiziki infrastruktura, o cümlədən xidmətlər sahəsinə də sərmayələrdən söhbət gedir. Söhbət insanların səfərlərindən gedir. Daha çox səfərlər insanların qarşılıqlı ünsiyyətini artırır və beləliklə, daha çox sabitlik gətirir. Bir sözlə, bu, olduqca vacib layihədir. Bu, bütün qitədə istehsalat sahələrinin yenidən paylanmasıdır. Biz hər imkanımızdan yararlanmağa çalışırıq. Prezident Əliyevin qeyd etdiyi kimi, biz Bakı–Tbilisi–Qars dəmir yolu xətti layihəsində iştirak edirik. Biz öz yollarımızı müasirləşdiririk, yeni enerji sahələrini tikirik. Çindən gələn yeni sərmayələrimiz var. Bu daha çox dostluq, nəinki rəqabət məsələsidir. Bir sözlə, biz bundan tam məmnunuq. Mən fürsətdən istifadə edərək, bu panelə məni dəvət etdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz çox ümid edirik ki, Avrasiya qitəsində daha çox sabitlik olacaq. Çox sağ olun.

**Yan Bremmer:** Tbilisiyə qayıdarkən Sizə xoş uçuş arzulayırıq. Biz Çin mövzusunu müzakirə edirik və icazə verin, prezident Kalyulayda müraciət edim. Çünki Siz əvvəldə dəyərlər haqqında danışdınız və liberal dəyərlərin, insan hüquqlarının vacibliyini qeyd etdiniz. Əlbəttə, sədr Tokayev indicə Çini qeyri-adi nəhəng

adlandırdıqdan sonra Çinin iqtisadi sisteminin artan cəlbedici mahiyyəti, həmçinin göz qarşısındadır. Bu, tarixən amerikalılar və avropalıların dəstəklədiyi dəyərlərdən xeyli fərqlənən dəyərlərdir. Dəyişkən qloballaşma baxımından, Estoniyanın rolunu necə görürsünüz? Bu Sizin ölkə, siyasi, iqtisadi modeliniz üçün nə məna verir? Bunu digər ölkələrə gəldikdə, necə görürsünüz?

**K e r s t i  K a l y u l a y d:** Sağ olun. Əvvəlcə, mən qeyd etdiyiniz məsələyə qayıtmaq istərdim, onu hələ şərh etmək imkanım olmadı. Siz bildirdiniz ki, geosiyasi kursun dəyişməsi və kursdan kənara çıxaraq, geriyə qayıtmaq anları olmuşdur. Heç kəsin planında olmayan, potensial qaydada çox ağır nəticələrin aradan qaldırılması üçün bu cür kəskin şokdan çıxmağı bacarmış bütün tərəfləri təbrik edirəm. Lakin hesab etmirəm ki, bu, geosiyasi kursun dəyişməsi oldu. Hiss etdiyimiz geosiyasi kursun dəyişməsini artıq 2008-ci ildə gördük. 2008-ci ildə Rusiya Helsinki Yekun Aktının müddəalarına, oradakı təriflərə yenidən baxmaq təklifi ilə çıxış etdi. Bir az vaxt keçdikdən sonra biz münaqişələrin şahidi olduq. 2008-ci il geosiyasi kursun dəyişməsi, sonradan Ukraynada vəziyyətin alt-üst olması ilə yadda qaldı.

İndi isə biz sabitlik haqqında danışırıq. Əgər ölkədə fəal münaqişə gedirsə, sabitlik çox lazımlıdır, sabitliyi qoruyub saxlamaq üçün cəmiyyət tərəfindən çox böyük səylər, fəallıq göstərilməlidir. Çünki dəyişikliklər baş verdiyi, qeyri-sabit yerdə heç kəs yeni təhlükəsizlik durumu qurmağa çalışmır. Hesab edirəm, bunu yadda saxlamaq çox vacibdir. Burada düşündüyüm sabitliyin digər aspekti işğal ilə bağlıdır. Mən Sovet İttifaqında, Estoniyanın işğal olunmuş ərazisində, Tallində böyümüşəm. Bilirəm ki, bir çox insanlar sabitliyi qiymətləndirir. Həmçinin bilirəm, bəzi insanlar, bir çox şəxslər və hökumətlər var ki, işğal olunduğumuzu hələ də tanımır. Fikrimcə, sabitlik, təhlükəsizlik haqqında yenidən danışdıqda, yeni quruluşu dəyişərək, öz demokratik iradəsini vurğulamaq istəyən bir dövlətin hesabına bu dəyişiklikləri etmək cəhdlərini nəzərdən keçirdikdə tarixin bu faktlarını xatırlatmaq çox vacibdir.

İndi isə Çin mövzusuna gəlirəm. Biz, Estoniyada, əlbəttə, bilirik ki, Çinlə müqayisə oluna bilmərik. Lakin maraqlı məsələ ondan ibarətdir ki, azad bazar iqtisadiyyatı kimi, biz bu məqsədləri bölüşürük: dünya açıq ticarət aparmalı və qloballaşmaya qarşı azad paylaşma olmalıdır. Məsələn, Avropa İttifaqının genişləndirilməsində, Asiyada

mövqelərin yenidən bölüşdürülməsindən hər bir hökumət faydalanmalıdır və heç kəs digər tərəfə kənardan baxmalı deyil. Bəlkə müəyyən məsələlər səhv ola bilər. Lakin Qərb dünyasında bu, qeyri-sabitlik, o cümlədən qeyri-müəyyənlik yaradır. Biz bundan kənar olmalıyıq və bu məsələ haqqında düşünməliyik. Bir daha bildirirəm ki, bunları etdikdə biz liberal dəyərlərimizi, o cümlədən azadlıqları, qloballaşmanı, güclülərin zəiflərə dəstək verməsini düşünməliyik.

**Y a n B r e m m e r:** Bundan sonra suallara keçəcəyik. Əminəm ki, kifayət qədər sual və vaxtımız var. Ancaq bundan öncə prezident Əliyevə Çin məsələsi ilə bağlı danışmaq imkanı vermək istəyirəm. Burada Sizdən soruşmaq istəyirəm. Əlbəttə ki, Çin tamamilə fərqli bir qüvvədir. O, nəhəng bir iqtisadi qüvvədir. Rusiya nəhəng təhlükəsizlik qüvvəsidir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının arxitekturası üzə çıxır. Bəziləri bunun uzunmüddətli perspektivdə NATO-ya qarşı potensial tarazlaşdırıcı qüvvə rolunu oynayacağını bildirir. Siz bunu inteqrasiyanın meydana gəlməkdə olan daha güclü qüvvəsi kimi görürsünüzmü? Bunu gördüyünüz təqdirdə, onun rəqabətli olduğunu hesab edirsinizmi?

**İ l h a m Ə l i y e v:** Biz Çini özümüzə yaxşı tərəfdaş hesab edirik. Bizim siyasi, iqtisadi səviyyədə yaxşı qarşılıqlı əlaqələrimiz var. Lakin, əlbəttə ki, bizi birləşdirəcək və çox fəal tərəfdaşlara çevirəcək layihə İpək yolunun bərpası layihəsidir. Bu gün burada Çinin Sədrinin təşəbbüskarı olduğu «bir kəmər – bir yol» konsepsiyası haqqında danışıldı. Sadəcə, xatırlatmaq istəyirəm ki, 2007-ci ildə Azərbaycan Gürcüstan və Türkiyə ilə birlikdə bu il tamamlanmasına ümid etdiyim layihənin təşəbbüskarı olmuşdur. Bu, 3 ölkə arasında dəmir yolu əlaqəsinin yaradılması idi. Biz bunu Azərbaycan, Gürcüstan və Türkiyə üçün Avropa bazarlarına daha qısa yolla çıxış imkanını əldə etmək üçün edirik. Eyni zamanda, biz Çinin bu əlaqəyə potensial töhfəsini hesablayırdıq. Bu il bu dəmir yolu əlaqəsi layihəsi başa çatdırılacaq və beləliklə, siz Azərbaycandan qatar ilə Avropaya, Qərbi Avropaya gedə biləcəksiniz. Biz Çin ilə onların təşəbbüslərini artıq mövcud olan infrastruktura necə inteqrasiya edilməsi yollarını müzakirə etdik və bunun üçün çoxlu imkanlar gördük. Ümid edirik ki, Azərbaycandan, Xəzər dənizi üzərindən keçən yükdaşımalarının artımı bizim iqtisadiyyatımız üçün çox vacib olacaqdır.

Cənab Tokayevin söylədiyi kimi, bir çox ölkələr tranzit ölkə olmaq istəyir. Əlbəttə ki, tranzit təbii sərvətlərlə müqayisədə qat-qat

qiymətlidir. Çünki təbii sərvətlər gec və ya tez tükənəcəkdir. Tranzit üçün etibarlı və müasir infrastrukturunuz varsa, siz ərazinizdən və yatırdığınız sərmayələrdən faydalanaraq, pul qazanacaqsınız. Buna görə nəqliyyat infrastrukturunun birləşdirilməsi bizim üçün ən vacib çağırışlardan biridir. Yeri gəlmişkən, biz indi Xəzər dənizində ən böyük limanın inşasını aparırıq. Onun yükaşırma gücü 25 milyon ton və 1 milyon konteynerdir. Biz dəmir yollarımızı təmir edirik. Biz Bakı Gəmiqayırma zavodunda artıq bütün növ gəmiləri istehsal edirik ki, təkcə öz ehtiyaclarımızı deyil, o cümlədən Xəzəryanı ölkələri müasir avadanlıqlarla təmin edə bilək. Biz limanın yaxınlığında xüsusi azad zona yaratmışıq və bu coğrafi yerləşmədən istifadə edərək, şirkətləri sərmayə yatırmağa dəvət edirik.

Xəzər dənizindən keçən marşrut Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən mövcud marşrutdan 15 gün daha qısadır. Bu, ən ucuz marşrut deyil, lakin tarifləri vahid səviyyəyə gətirərək – biz artıq Gürcüstan və Türkiyə ilə bunun üzərində işləyirik – xərcləri azaldacağıq. Beləliklə, biz marşrutu kommersiya nöqteyi-nəzərdən də çox cəlbedici edəcəyik və yüklərini ən qısa müddətdə çatdırmaq istəyən şirkətlər, əlbəttə ki, bu marşrutdan istifadə edəcəklər.

**Dmitri Androsov:** Mən Rusiya Federasiyasının Xalq Azadlığı Siyasi Partiyasının Federal Siyasi Şurasının üzvüyəm. Mənim bir-biri ilə bağlı olan 2 sualım var və suallarımı Azərbaycan Respublikasının Prezidenti cənab Əliyevə ünvanlamaq istəyirəm. Lakin digər natiqlər bu mövzu ilə bağlı öz fikirlərini müəyyən dərəcədə bildirsələr yaxşı olardı. Beləliklə, cənab Prezident, Dağlıq Qarabağ münaqişəsi mövcuddur, bu münaqişə artıq 25 ildən çoxdur ki, davam edir və bu məsələdə mənim ölkəm olan Rusiyanın oynamış olduğu və bu gün də oynadığı rol barədə də məlumatımız var. Fikrinizcə, hazırkı Rusiya hökumətinin bu münaqişənin həqiqətən də həll olunmasında hər hansı marağı varmı? İkinci sualım isə odur ki, Sizcə, Qarabağ problemi həll olunmayana qədər Azərbaycanın Avrasiya İttifaqının üzvü olması mümkündürmü? Təşəkkür edirəm.

**İlham Əliyev:** Rusiya, sizin də bildiyiniz kimi, Amerika Birləşmiş Ştatları və Fransa ilə yanaşı, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. Qrupun mandatı münaqişənin həll olunmasına kömək etməkdir. Ümid edirik ki, ATƏT-in Minsk qrupu, onun həmsədrləri bu gün ilə müqayisədə daha da fəal olacaqlar.

Əlbəttə ki, Azərbaycan cari vəziyyətlə razılaşa bilməz. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri 20 ildən artıqdır ki, qəbul olunub və onlar kağız üzərində qalmaqdadır. ATƏT-in Minsk qrupunun həmsədri olan bu 3 ölkə, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bu isə o deməkdir ki, bu qətnamələr onların iştirakı ilə qəbul olunubdur. Onlar bu qətnamələrin qəbul olunmasına etiraz etməyiblər. Lakin qətnamələr icra olunmayıb və dünyanın bu aparıcı ölkələri işğal olunmuş ərazilərdən geri çəkilmək üçün təcavüzkar Ermənistana kifayət qədər təzyiq göstərə bilmirlər. Lakin biz ümid edirik ki, münaqişə qətnamələr əsasında həll olunacaqdır. Bunu etmək üçün yeganə yol budur. Çünki siz, o cümlədən heç kəs təcavüzə bəraət qazandıra bilməz. Ermənistan təkcə Dağlıq Qarabağı yox, həmçinin Qarabağın ətrafındakı 7 rayonu da işğal edib. Həmin yerlərdə heç vaxt erməni əhalisi yaşamayıb. Dağlıq Qarabağın özündə əhalinin 30 faizi Azərbaycan mənşəli idi. Onların hamısı torpaqlarından qovulublar. Bundan sonra isə Dağlıq Qarabağda onlar dırnaqarası referendumlar keçiriblər. Daha biri də bir neçə gün sonra keçiriləcəkdir. Bu da tamamilə qanunsuzdur və dünyanın heç bir ölkəsi tərəfindən tanınmır. Yeri gəlmişkən, Rusiya, ABŞ, Fransa və Avropa İttifaqı Dağlıq Qarabağı müstəqil bir subyekt kimi və bu referendumun nəticələrini tanımadığını bildirən bəyanatlarla artıq çıxış ediblər.

Rusiya Azərbaycanın qonşusudur. Ermənistanın birbaşa qonşusu deyil, lakin həmçinin regional qonşu ölkədir. Buna görə də düşünürəm ki, münaqişənin həll olunması Rusiyanın da marağındadır. Çünki münaqişə daimi təhlükə və qeyri-sabitlik mənbəyidir. Əlbəttə ki, vəziyyət nəzarət altından çıxsa, regionun bütün ölkələrində problemlər olacaqdır.

Azərbaycanın müxtəlif qurumlara potensial qoşulmasına gəldikdə, mən sizə belə bir cavab verə bilərəm. Biz özümüzü cari mövqemizdə çox rahat hiss edirik. Azərbaycan özünü təmin edən iqtisadiyyatı olan bir ölkədir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə 37-ci yerdə, MDB məkanında isə 1-ci yerdəyik. Bu il Davos İqtisadi Forumu inkişaf edən ölkələrin reytinqi barədə hesabat dərc etmişdir. Biz Litva ilə birinci və ikinci yerləri bölüşürük. Buna görə də Azərbaycandakı iqtisadi vəziyyət müsbətdir. Xarici borcumuz çox

azdır. Bu, ümumi daxili məhsulun 20 faizindən azdır. Bizim mövcud valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfədən çoxdur. Başqa sözlə, biz bütün borclarımızı bir həftəyə ödəyə bilərik və bu, iqtisadi imkanların göstəricisidir. Buna görə bu gün bizim qarşımızda harasa qoşulmaq məqsədi durmur. Qoşulanda daha yaxşı nəticələr, daha çox üstünlüklər, daha çox inkişaf imkanları əldə etmək üçün qoşulurlar. Dediyim kimi, biz özümüzü bu mövqedə rahat hiss edirik.

Eyni sözləri Avropa təsisatları ilə əməkdaşlığımıza dair söyləyə bilərəm. Biz «Şərq Tərəfdaşlığı» Proqramının 6 ölkəsindən biriyik və biri olmaqda davam edirik. Lakin biz Ukrayna, Gürcüstan və Moldovadan fərqli olaraq, Assosiasiya Sazişini imzalamadıq. Bəs indi nə baş verir? Biz fevralın 7-də Avropa Komissiyasına etdiyimiz layihə təklifi əsasında həmin qurumla danışıqlara başladıq. Avropa Komissiyasının tarixində ilk dəfə idi ki, layihə təklifi Komissiya tərəfindən yox, ölkə tərəfindən irəli sürülür və mandat da verilir. Ümid edirəm ki, bu razılaşma tezliklə tamamlanacaqdır. O, Avropa İttifaqına üzv olan ölkələr ilə artıq qəbul olunmuş və imzalanmış 9 razılaşma və Memoranduma əsaslanır. Başqa sözlə, Avropa İttifaqına üzv ölkələrin üçdəbiri ilə Azərbaycanın strateji tərəfdaşlıq haqqında razılaşma və ya Memorandumu var. Bu, nadir bir vəziyyətdir. Biz gələcək iqtisadi planlarımızı milli maraqlarımıza görə qururuq. Buna görə də hazırda bizim hər hansı bir digər beynəlxalq təşkilata qoşulmaq planlarımız yoxdur. Lakin gələcəkdə nə baş verəcəyini həyat göstərəcəkdir.

**Yan Bremmer:** Təşəkkür edirəm. Növbəti sualımız var.

**Orxan Səttarov:** Mən «Vestnik Kavkaza» xəbər agentliyindənəm. Mənim sualım cənab prezident İlham Əliyevədir. Siz ərazi bütövlüyü prinsipinin ən əsas və başlıca prinsiplərdən biri olduğunu qeyd etdiniz. Eyni fikri bu gün Almaniya kansleri Angela Merkel də söylədi. O, Avropanın başlıca prinsip kimi, bu prinsipdən vaz keçməyəcəyini bildirdi. Avropanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rolu ilə bağlı gözləntiləriniz nədir və bu münaqişədə Avropanın hansı addımlar atacağını gözləyirsiniz? Təşəkkür edirəm.

**İlham Əliyev:** Əvvəlcə qeyd etdiyim kimi, danışıqların aparılması və münaqişənin nizamlanması ilə bağlı mandat ATƏT-in Minsk qrupuna aiddir. Bu qrupa ABŞ, Fransa və Rusiya həmsədrlik edir. Əlbəttə ki, biz Avropa İttifaqının danışıqlar prosesinə birbaşa

cəlb olunmasını gözləmirik. Baxmayaraq ki, Avropa Komissiyası münaqişənin həlli ilə məşğul olan Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini təyin edib. Biz Avropadan və hər bir ölkədən postsovet məkanında olan bütün münaqişələrə dair vahid standart yanaşmanı gözləyirik. Biz bu gün xanım Merkelin ərazi bütövlüyü ilə bağlı söylədiklərini yüksək qiymətləndiririk. Lakin biz bu prinsipin seçmə üsulla yox, bütün münaqişələrə tətbiq olunmasını istəyirik. Fikrimizcə, baxmayaraq, Azərbaycanın Avropa İttifaqı ilə Assosiasiya Sazişi sazişdən çox birtərəfli təlimatlar siyahısına bənzəyirdi, onun imzalanmamasının səbəblərindən biri də, hətta əsas səbəbi onunla bağlı idi ki, onlar Ermənistan ilə Azərbaycan arasında münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunması ilə bağlı dəqiq ifadə edilmiş mətnin bu Sazişə daxil edilməsini istəmirdilər. Onların Gürcüstan və Moldova ilə razılaşmalarında bu müddəa var idi. O zaman Ukraynanın belə bir problemi yox idi. Lakin Azərbaycana gəldikdə, ikili standartlar üzə çıxır. Ukraynada baş verənlərlə bağlı Rusiyaya qarşı sanksiyalar tətbiq olunmuşdur. Dağlıq Qarabağda baş verənlərlə bağlı Ermənistana qarşı sanksiyalar tətbiq olunmamışdır. Bu ikili standartlı yanaşma aradan qaldırılmalıdır. Əlbəttə ki, bu, dərhal münaqişənin həllinə gətirib çıxarmayacaqdır. Lakin biz səylərimizi birləşdirsək və təcavüzkar Ermənistana torpaqları boşaltmaq üçün təzyiq göstərsək, düşünürəm ki, onda münaqişə daha tez həll olunacaq. Çünki bizim məsələyə gəldikdə, dəfələrlə bu auditoriyada qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Ermənistan qoşunlarının çıxarılmasını tələb edən aparıcı beynəlxalq təşkilatların qətnaməsi var və bu qətnamələr icra olunmalıdır. Beləliklə, belə qənaətə gəlirik ki, əfsuslar olsun, bəzi postsovet ölkələrində ərazi bütövlüyünün pozulması ilə bağlı vəziyyət bütün münaqişələrə, o cümlədən Ermənistan ilə Azərbaycan arasında münaqişəyə tətbiq olunacaq vahid qeyri-selektiv, standart yanaşmanın formalaşmasına gətirib çıxaracaq.

**Yan Bremmer:** Mən bu mövzunu davam etdirmək istərdim. Siz ərazi bütövlüyü prinsipinin universallığı məsələsini bir neçə dəfə qabartdınız. Əlbəttə ki, rusların bununla bağlı öz fikirləri var. Biz bunu çox eşidirik. Biz Ukraynanın acığını ruslardan çıxdıq. Lakin Kosovo timsalında amerikalılar ərazi bütövlüyünün o qədər də böyük əhəmiyyətə malik olmadığını nümayiş etdirdilər. Amerikalılar rusların Suriyada mülki əhalini və xəstəxanaları bombardman

etməsindən daha çox danışmağa meyillidirlər. Lakin ABŞ tərəfindən Yəmənə pilotsuz uçuş aparatları ilə bombalar atıldıqda, onların Səudiyyə Ərəbistanına dəstək verməsi qabardıldıqda, onlar danışmaq istəmirlər. Maraqlıdır. Mən bu sualı Estoniyaya və Ukraynaya ünvanlamaq istəyirəm. Panel müzakirənin iştirakçıları bu halların oxşar hallar olduğunu düşünürlərmi? Sizcə nəinki təkcə bu prinsipə mane olan, hətta ruslara manevr etmək üçün şans verən Amerika riyakarlığının burada yeri varmı? Yoxsa siz belə bir müqayisənin aparılmasını və Putinin sadəcə, təbliğatla məşğul olduğunu düşünürsünüz? Bu barədə nə düşündüyünüzü eşitmək istərdim. Sözü cənab Yatsenyuka vermək istəyirəm.

**Arseni Yatsenyuk:** Ukrayna Kosovonu tanımayıb. Mən həmin vaxt Xarici İşlər naziri idim və biz bildirdik ki, BMT Təhlükəsizlik Şurasının qətnaməsi əsasında bunu etməkdən şad olardıq. Bu, Ukrayna tərəfinin verdiyi çox aydın bəyanat idi. Lakin bilirsiniz, mən hər zaman postfaktum dünyasına istinad edirəm. Gəlin yalnız faktları nəzərdən keçirək və diqqətimizi onlara yönəldək. Fakt ondan ibarətdir ki, Rusiya Federasiyası qeyri-qanuni olaraq Krımı ilhaq edib. Onlar öz hərbçilərini göndəriblər. Onlar dırnaqarası referendum keçiriblər. Bundan əlavə, onlar Krımı ilhaq ediblər və həmin bölgəni Rusiya Federasiyasının bir hissəsi kimi tanıyıblar. Fakt ondan ibarətdir ki, Rusiya Federasiyası öz hərbçilərini, FTB-ni, xüsusi xidmət orqanlarının və silahlı qüvvələrin nümayəndələrini Donetsk və Luqanska göndərib. Onlar həm Krımda, həm Donetsk və Luqanskda beynəlxalq cinayət törədiblər. Fakt ondan ibarətdir ki, Rusiya raketi MH-17-ni vurub salıb. Bu faktdır. Fakt ondan ibarətdir ki, onlar MH-17 reysi ilə uçan 100-dən artıq insanı, Ukraynada 10 mindən artıq şəxsi qətlə yetiriblər. Beləliklə, əgər biz bir standartı tətbiq etsək, mən məmnun olardım. Bir sözlə, mənim nüvə silahına malik, başdan ayağa silahlanmış böyük dövlətə – Rusiya Federasiyasına olan mesajım belədir: Ukraynadan çıxın! Müstəqil ölkələrə müdaxilə etməyin! Beynəlxalq hüquqa hörmət edin! Hər halda, biz eyni standartı Ukraynaya, Gürcüstana, Moldovaya tətbiq etməliyik. Mən digər münaqişələrin təfərrüatlarına varmaq istəmirəm, bir halda ki, çox hörmətli şəxslər bunu məndən qat-qat yaxşı qeyd etdilər. Bu halda, bütün həmin dondurulmuş münaqişələrin ən tez həlli qonşumuzdan asılıdır.

**K e r s t i   K a l y u l a y d:** Artıq bir dəfə istinad etdiyim beynəlxalq təhlükəsizlik durumunun tərifi var. Buna riayət etmək lazımdır. Əvvəllər, məsələn Ukraynaya gəldikdə, beynəlxalq sazişlər əsasında əlavə vədlər verilmişdir. Həmin vədlər yerinə yetirilməmişdir. Mən bundan artıq söyləyə bilmərəm. Söyləyəcəyim bu qədər.

**K a s ı m - J o m a r t   T o k a y e v:** Məsələ burasındadır ki, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində 2 əsas prinsip – dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək hüququ – bir-birinə ziddir. Beləliklə, bu, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsindən gələn böyük ikimənalılıqdır və ayrı-ayrı hallara gəldikdə, çaşqınlıqlar yaradır. Kosovo xüsusi hal kimi hesab edildi. Xalqların öz müqəddəratını təyin etmək hüququ Kosovo kimi, necə deyərlər, «xüsusi hal»da tətbiq edildi. Sonra başqa hallar üzə çıxdı və biz hamımız dövlətlərin ərazi bütövlüyü haqqında danışmağa başladıq. Hesab edirəm ki, biz Birləşmiş Millətlər Təşkilatının həmin 2 əsas prinsipinə gəldikdə, prioritetin seçilməsində çox aydın olmalıyıq. Mən ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmanı olduqca aydın şəkildə qeyd edən Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Quterreşin bu yaxınlarda verdiyi bəyanatı ilə yaxından tanış olmağınızı istərdim.

**İ l h a m   Ə l i y e v:** Ərazi bütövlüyü prinsipi üstünlük təşkil edən prinsipdir. İstər bu, BMT-nin Nizamnaməsi olsun, istərsə Helsinki Yekun Aktı olsun. Helsinki Yekun Aktında ərazi bütövlüyünün və öz müqəddəratını təyinetmə hüququnun çox aydın tərifi var. Öz müqəddəratını təyinetmə hüququ ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Beynəlxalq hüququn məhz həmin başlıca prinsipi pozulub. Lakin sizin sualınıza qayıtmaq istəyirəm. Əslində siz riyakarlıq haqqında sualınıza özünüz cavab verdiniz. Əlbəttə ki, biz ikili standartları hər həftə, hər gün görürük. Sanki qaydalar, normalar və qətnamələr kiçik ölkələr üçün yazılıb. Onlar qanuna əməl etməlidirlər. Onlar qətnamələri icra etməlidirlər. Böyük super dövlətlər öz milli maraqlarına əsasən beynəlxalq hüququ şərh etməkdə azaddırlar. Öz maraqlarına uyğun olaraq, gah ərazi bütövlüyünü, gah da öz müqəddəratını təyinetmə hüququnu dəstəkləyirlər. Bu da beynəlxalq təsisatların, Birləşmiş Millətlər Təşkilatının deqradasiyasına gətirib çıxarır. Əgər BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan qoşunlarının çıxarılmasını tələb edən qətnamələri qəbul

edibsə, sonra da bu qətnamələri icra etmək üçün təcavüzkara təzyiq göstərmirsə, biz onların davranışını necə başa düşə bilərik? Bu davranış yalnız onların maraqlarına xidmət edir və beynəlxalq hüquqa əsaslanmır. Burada biz XXI əsrin ən vacib məsələsinə gəlib çıxırıq. Bizdə beynəlxalq təşkilatların potensialının gücləndirilməsinə aparan mexanizmlər var, yoxsa yoxdur? Hesab edirəm ki, bu da bir müzakirə mövzusu olmalıdır. Əgər hamımız beynəlxalq öhdəliklərdən azadıqsa, onda kiçik ölkələrə bu və ya digər qərarların yerinə yetirilməsini məcbur edən hücumlar edilməməlidir. Qərar hamı üçündür və hər bir kəsə eyni qaydada yanaşılmalıdır.

**Y a n B r e m m e r:** Prezident Əliyev, beynəlxalq hüququn bu məsələlərinə və böyük strategiyaya toxunduğunuza görə Sizdən soruşmaq istəyirəm, çoxqütblü dünyaya doğru addım bu problemi aradan qaldıracaq, yoxsa daha da pisləşdirəcək?

**İ l h a m Ə l i y e v:** Bu, çoxqütblülüyün hara aparmasından asılıdır. Əlbəttə ki, super dövlət olmayan, böyük dövlət olmayan ölkə üçün çoxqütblük üstünlükdür. Çoxqütblü dünyada sizin manevr etmək üçün daha çox yeriniz ola bilər. Lakin eyni zamanda, çoxqütblük pərdəarxası razılaşmalara gətirib çıxara bilər. Biz bunu XX əsrin tarixindən bilirik. O zaman dünya aparıcı ölkələrin kabinetlərində bölüşdürülmüşdür. Buna görə də çoxqütblüyə necə yanaşmadan asılıdır. Burada təkcə maraq sahələri, bu və ya digər maraq naminə bəzi ölkələrin hökmranlığı nəzərdə tutulur? Yoxsa çoxqütblülük qarşılıqlı əlaqədir, proqnozlaşdırılan mühitdir, kiçik ölkələrə, zəif ölkələrə hörmətdir? Buna görə də bu, məsələyə necə yanaşılmasından asılıdır. Lakin düşünürəm ki, bu vaxtadək bu vəziyyətdən narahat olmaq üçün bizdə kifayət qədər əsas var.

**K e r s t i K a l y u l a y d:** Sadəcə, bildirmək istəyirəm ki, biz təkqütblü, ikiqütblü və çoxqütblü dünya prinsipləri üzərində razılığa gəlməmişik. Lakin, ümumiyyətlə, hesab edirəm ki, hazırkı iqtisadi mühit, texnoloji inkişaf bütövlükdə bizi kiçik və çevik iştirakçılara çevirir. Lakin bir şərtlə ki, beynəlxalq təhlükəsizlik və durum qorunub saxlanılsın.

**A r s e n i Y a t s e n y u k:** Sizin və cənab Prezidentin qeyd etdiyi riyakarlığa qayıtmaq istərdim. İndicə mətbuatda xəbər oxudum. Bilirsiniz nə baş verib? Prezident Putin bir neçə dəqiqə əvvəl qondarma Donetsk və Luqansk respublikalarının verdiyi bütün sənədlərin tanınması haqqında qərar qəbul edib. Bir sözlə, bu

tamamilə başqa situasiyadır. Cənab Lavrov Münhen Təhlükəsizlik Konfransındakı nitqində qeyd etdi ki, onlar Minsk Sazişinə və digər məsələlərə riayət edəcəklər. Bəs bunun sonu nə oldu? Sonda bu gün, Rusiya Prezidentinin qərarının nəticəsində onlar praktiki olaraq, Minsk formatından çıxırlar. Axı bu nə deməkdir?

**Yan Bremmer:** İlkin qənaətim Münhen Təhlükəsizlik Konfransında BMT-nin və Rusiyanın nümayəndələrini dinləməkdir və əlavə olaraq, bu prinsiplə bağlı Vaşinqton və Moskva ilə yenidən əlaqə saxlamaq daha məqsədəuyğun yanaşma olardı. Lakin aydındır ki, əgər bu, həqiqətə uyğundursa, bu hamı üçün çətin xəbər olacaq. Xahiş edirəm, gəlin biz qeyri-adi panel müzakirənin iştirakçılarını birlikdə alqışlayaq.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münhendə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi və bunun məmnunluq doğurduğu bildirildi. Azərbaycan ilə Türkiyənin Bakı–Tbilisi–Qars, «Cənub Qaz Dəhlizi», TANAP və digər böyük layihələri uğurla həyata keçirdikləri, bu sahədə əməkdaşlığın davam etdirildiyi qeyd olundu.*

*Türkiyənin Baş naziri Binəli Yıldırım ölkəsində gedən proseslər və referenduma hazırlıqdan danışdı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

# «LEONARDO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAURO MORETTİ İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münhendə «Leonardo» şirkətinin baş icraçı direktoru və baş meneceri Mauro Moretti ilə görüşmüşdür.*

*Mauro Moretti Azərbaycanda olduğunu, Bakının gözəlliyinə heyran qaldığını bildirdi. Ölkəmizdə gedən inkişaf proseslərini və qazanılan nailiyyətləri yaxından izlədiyini nəzərə çatdıran baş icraçı direktor şirkətin Azərbaycanda müxtəlif strukturlarla, o cümlədən SOCAR ilə əlaqələrindən danışdı, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd etdi.*

*Söhbət zamanı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## BMT-nin BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*Münhen*

*18 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Münhendə BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev Antonio Quterreşi BMT-nin Baş katibi seçilməsi münasibətilə bir daha təbrik etdi. Dövlətimizin başçısı onunla Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.*

*Baş katib Antonio Quterreş BMT-nin qaçqınlar üzrə ali komissarı kimi, Azərbaycana səfərlərindən, prezident İlham Əliyev ilə görüşlərindən məmnunluqla bəhs etdi. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti və perspektivləri ilə maraqlandı. Prezident İlham Əliyev bu məsələ ilə bağlı BMT-nin Baş katibinə məlumat verdi. Dövlətimizin başçısı hələ ki, danışıqlar prosesində ciddi irəliləyişin olmamasından təəssüfləndiyini bildirdi. Son zamanlar Ermənistan tərəfinin danışıqlarda az qala könülsüz iştirak etdiyini, münaqişənin həlli istiqamətində əldə olunan müəyyən razılaşmaları pozduğunu dedi. Prezident İlham Əliyev ötən ilin aprelində təmas xəttində Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribata cavab verdiyini və nəticədə torpaqlarımızın bir hissəsinin işğaldan azad olunduğunu bildirdi. Dövlətimizin başçısı fevralın 20-də keçiriləcək və qondarma «Dağlıq Qarabağ respublikası»nın «konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı referendum»un qeyri-qanuni olduğunu, bir sıra təşkilatların bu məsələyə etiraz etdiyini dedi.*

*Bildirdi ki, bu bir daha Ermənistan tərəfinin münaqişənin həllində maraqlı olmadığını sübut edir.*

*BMT-nin Baş katibi Antonio Quterreş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində əsas şərtlərin nədən ibarət olması ilə maraqlandı.*

*Dövlətimizin başçısı bildirdi ki, Dağlıq Qarabağ ətrafındakı 7 rayon işğaldan azad edilməli, qaçqınlar və məcburi köçkünlər doğma yurdlarına qayıtmalı, bölgədə sülhməramlı qüvvələr yerləşdirilməlidir. Məhz bundan sonra Dağlıq Qarabağın statusuna dair referendumun keçirilməsi mümkündür. Prezident İlham Əliyev BMT-nin və Baş katib Antonio Quterreşin mövcud vəziyyətə müdaxilə edib, prosesin sürətləndirilməsinə daha yaxından təkan verməsinin əhəmiyyətini vurğuladı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri fevralın 19-da başa çatdı.*

**BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2017-ci il*

## QƏTƏR DÖVLƏTİNİN TƏHSİL VƏ ALİ TƏHSİL NAZİRİ MƏHƏMMƏD BİN ƏBDÜLVAHİD ƏL-HƏMMADİ İLƏ GÖRÜŞ

*20 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Qətər Dövlətinin Təhsil və Ali Təhsil naziri Məhəmməd bin Əbdülvahid əl-Həmmadini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qətər arasında çox yaxın tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirdi, bu əlaqələrin mümkün qədər çox sahələri əhatə etməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev bu yaxınlarda Qətər Dövlətinin Xarici İşlər nazirini qəbul etməsinin, özünün Qətərə planlaşdırılmış səfərinin və Qətər Dövlətinin Təhsil və Ali Təhsil nazirinin Bakıya gəlməsinin əhəmiyyətini qeyd edərək, qarşılıqlı səfərlərin ölkələrimiz arasında mövcud tərəfdaşlıq əlaqələrinin yaxşı göstəricisi olduğunu vurğuladı. Təhsilin gələcək nəsillər, eyni zamanda, ölkələrimizin inkişafında vacib rol oynadığını vurğulayan prezident İlham Əliyev bu sahənin həm Azərbaycanda, həm də Qətərdə inkişafın əsas prioritetlərindən biri hesab olunduğunu diqqətə çatdırdı. Təhsil sahəsində tərəfdaşlığın praktiki aspektlərinin araşdırılmasının vacibliyini nəzərə çatdıran dövlətimizin başçısı bunun nəticəsində uzunmüddətli əməkdaşlıq proqramının qurulacağına əminliyini ifadə etdi. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan–Qətər Birgə İqtisadi, Ticarət və Texniki Komissiyasının yaradılmasının qərara alındığını deyən prezident İlham Əliyev bu Komissiyanın işi çərçivəsində nəinki iqtisadi, həmçinin əməkdaşlığımızın bütün sahələrini əhatə edəcək müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Qətər Dövlətinin Təhsil və Ali Təhsil naziri Məhəmməd bin Əbdülvahid əl-Həmmadi prezident İlham Əliyevin Qətərə səfərini səbirsizliklə gözlədiklərini bildirdi. Ölkələrimizin müvafiq qurumları arasında artıq görüşlərin təşkil olunduğunu və səmərəli müzakirələrin aparıldığını qeyd edən qonaq Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında təhsil sahəsində möhkəm əməkdaşlıq əlaqələrinin qurulacağına ümidvar olduğunu bildirdi. Hər iki ölkənin yüksək inkişaf yolunda olduğunu deyən Məhəmməd bin Əbdülvahid əl-Həmmadi ölkəsində Qətər Dövlətinin Əmirinin rəhbərliyi ilə nəhəng layihələrin həyata keçirildiyini və Azərbaycanın çox gözəl ölkə olduğunu, prezident İlham Əliyevin səyləri nəticəsində böyük nailiyyətlərin əldə edildiyini vurğuladı.*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA**

Hörmətli xanım Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2017-ci il*

## TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASI

*21 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə fevralın 21-də Təhlükəsizlik Şurasının iclası keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilmişdir.*

*İclasda prezident İlham Əliyev Mehriban Əliyevanı təqdim etdi.*

**İlham Əliyev:** Bu gün mənim sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi, çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Mehriban xanımın deputat kimi, çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər

Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilib. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə 3000-dən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilib.

Digər layihələr də ölkəmizin hərtərəfli inkişafına xidmət göstərib. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilib. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynayıbdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olubdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilibdir. Bu sadəcə olaraq, sənət növü deyil, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olubdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilib. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlayıb ki, Azərbaycan müasir, dinamik

inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynayıb. 2012-ci ildə «Eurovision» mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün oldu. 2015-ci ildə I Avropa oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün oldu. 2 il yarım ərzində bu oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirmək böyük nailiyyət idi. I Avropa oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu oyunların Təşkilat Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehriban xanımın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilib. 10 ildən artıqdır ki, Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, eyni zamanda hər 2 mötəbər təşkilatın səfiri olsun. Bu onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri kimi, Mehriban Əliyeva bu işə də çox önəmli töhfə verir və 2015-ci ildə I Avropa oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə o, Azərbaycan dövlətinin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilib.

Bu çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynayıb. Qeyd etməli-

yəm ki, Mehriban Əliyeva peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehriban xanımın həyatında yeni dövr başlanır. Əminəm ki, o bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən Mehriban xanımı təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla, öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa, öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər

qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik, 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq, ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident!

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri!

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

* * *

*İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildirdilər və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzuladılar.*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2017-ci il*

**KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-HƏMƏD ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2017-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ ROBİN DANNİQAN İLƏ GÖRÜŞ

*22 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin görüşlərinin Bakıda təşkil olunmasının artıq yaxşı ənənə halı aldığını qeyd etdi. Bu görüşlərin praktiki müzakirələrin aparılması baxımından vacibliyini ifadə edən prezident İlham Əliyev bunu həm də layihənin uğurlu icrasının göstəricisi kimi dəyərləndirdi. Ötən dövr ərzində bir çox işlərin görüldüyünü bildirən dövlətimizin başçısı layihənin artıq yekun mərhələyə çox yaxın olduğunu qeyd etdi. Prezident İlham Əliyev ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini Robin Danniqanın sabah Bakıda keçiriləcək «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında iştirakının əhəmiyyətini vurğulayaraq, bunun ABŞ Hökumətinin layihəyə davamlı dəstəyinin yaxşı göstəricisi olduğunu dedi.*

*ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini Robin Danniqan «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasına ev sahibliyi etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Bu görüşün layihənin icrası ilə bağlı məsələlərin nəzərdən keçirilməsi baxımından önəmli olduğunu qeyd edən qonaq ABŞ nümayəndəsinin bu iclasda iştirakının vacibliyinə toxundu. Robin Danniqan bildirdi ki, bu, ABŞ-ın yeni hökumətinin «Cənub Qaz Dəhlizi» layihəsinə, həmçinin Avropanın enerji təhlükəsizliyi məsələsinə dəstəyini bir daha açıq şəkildə nümayiş etdirir.*

*Görüşdə «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı məsələlər müzakirə edildi, sabah Bakıda keçiriləcək «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının növbəti iclasının əhəmiyyəti bir daha vurğulandı, ABŞ dövlətinin enerji siyasətinin bu layihəyə öz dəstəyini bundan sonra da davam etdirəcəyi əminliklə qeyd olundu.*

## YAPONİYANIN İQTİSADİYYAT, TİCARƏT VƏ SƏNAYE ÜZRƏ DÖVLƏT NAZİRİ YOŞİFUMİ MATSUMURANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye üzrə Dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Yaponiyanın Dövlət naziri Yoşifumi Matsumura xanım Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin çox müsbət və uzun tarixə malik olduğunu diqqətə çatdıran dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğuladı. Prezident İlham Əliyev siyasi sahədə əlaqələrimizin razılıq doğurduğunu dedi. Dövlətimizin başçısı Yaponiyanın maliyyə dəstəyi ilə Azərbaycanda bir çox mühüm layihələrin icra olunduğunu, Yaponiya hökumətinin kreditləri ilə ölkəmizdə çox önəmli infrastruktur layihələrinin artıq istismara verildiyini qeyd etdi. Azərbaycanın neft-qaz sektorunda da Yaponiya şirkətlərinin fəaliyyət göstərdiyini vurğulayan prezident İlham Əliyev bu şirkətlərin gələcəkdə də ölkəmizin yeni neft-qaz sahələrində iştirak edəcəklərinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün gözəl imkanların olduğunu bildirən dövlətimizin başçısı Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye üzrə Dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı bütün bu*

*mövzuların və xüsusilə ticarət dövriyyəsinin artırılması istiqamətində görüləcək işlərin müzakirə ediləcəyinə, geniş fikir mübadiləsi aparılacağına və əməkdaşlıq haqqında qərarlar qəbul ediləcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Yoşifumi Matsumura prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu dedi. O, ölkəmizə səfərinin Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd olunduğu bir vaxta təsadüf etməsinin və Azərbaycan–Yaponiya İqtisadi Komitəsinin 9-cu iclasında iştirakının onda böyük sevinc hissi yaratdığını qeyd etdi. Yoşifumi Matsumura ölkəsinin Azərbaycanla neft-qaz sahəsində əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsində maraqlı olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qeyri-neft sektoru, sənaye, kənd təsərrüfatı, səhiyyə, insan resursları, yeni yaradılmış sənaye zonalarına texnologiyaların gətirilməsi, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak ilə görüşmüşdür.*

*Berat Albayrak Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması münasibətilə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təbriklərini və salamlarını çatdırdı.*

*Dövlətimizin başçısı səmimi təbrikə və salama görə minnətdarlığını bildirdi, onun da salamının Türkiyə Prezidentinə və xanımına çatdırılmasını xahiş etdi.*

*Prezident İlham Əliyev Türkiyənin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısında yüksək səviyyədə iştirak etməsinin önəmini xüsusi vurğuladı. Dövlətimizin başçısı bu toplantının gələcək planların uğurla reallaşdırılmasına mühüm töhfə verəcəyinə əminliyini bildirdi.*

*Türkiyədə keçiriləcək ümumxalq səsverməsinə toxunan prezident İlham Əliyev referendumun yüksək səviyyədə təşkil olunacağına, Türkiyə xalqının iradəsinin əksini tapacağına və qardaş ölkənin həyatında bundan sonra yeni, daha sabit dövrün başlanacağına əminliyini bildirdi. Dövlətimizin başçısı TANAP layihəsinin uğurla icrasına verdiyi dəstəyə görə Türkiyə hökumətinə minnətdarlığını ifadə etdi.*

*Söhbət zamanı dünyada və Avropada baş verən siyasi, iqtisadi böhran fonunda Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olması məmnunluqla qeyd edildi.*

# «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN NAZİRLƏRİN 3-cü TOPLANTISINDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*23 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Heydər Əliyev Mərkəzində «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 3-cü toplantısında nitq söyləmişdir.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə bütün qonaqlarımızı salamlayır və «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısında iştiraka görə minnətdarlığımı bildirmək istəyirəm. Sizin iştirakınız olduqca vacibdir, çünki bu sizin təmsil etdiyiniz hökumət və təşkilatların «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsinə çox böyük əhəmiyyət verdiyinin göstəricisidir.

Bu gün qonaqlarımız arasında «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçı dövlətlərinin müvafiq nazirləri, ABŞ və Böyük Britaniya hökumətlərinin yüksək nümayəndələri, Avropa Komissiyasının vitse-prezidenti, şirkətlərin, beynəlxalq maliyyə təşkilatlarının təmsilçiləri var. Avropa Komissiyasının vitse-prezidenti cənab Şefçoviçi xüsusilə salamlamaq istərdim. Mən bu il ərzində onunla artıq 4 görüş keçirmişəm. Bu isə belə bir mühüm layihənin reallaşdırılmasında Azərbaycan və Avropa Komissiyasının yaxından əməkdaşlıq etdiyini göstərir.

Hesab edirəm ki, biz nadir və xüsusi beynəlxalq əməkdaşlıq formatını yaratmağa müvəffəq olmuşuq. Əlbəttə ki, müxtəlif dövlət, şirkət və maliyyə qurumları arasında əməkdaşlıq təcrübəsi «Cənub Qaz Dəhlizi»nin uğurla həyata keçirilməsinin əsas səbəbi olmaqla yanaşı, gələcəkdə də özünün əhəmiyyətli rolunu oynayacaq. Çünki bu qlobal layihənin icrası başa çatdırıldıqdan sonra, bizim əməkdaşlığımız müxtəlif sahələr üzrə davam edəcəkdir.

Beynəlxalq əməkdaşlıq haqqında danışarkən təbii ki, sizin diqqətinizi Azərbaycanın enerji siyasətinin tarixinə yönəltmək istərdim, çünki onsuz bugünkü toplantı mümkün olmazdı. Müstəqilliyimiz bərpa olunduqdan sonra Azərbaycan mühüm enerji şirkətlərini ölkəmizdə fəaliyyət göstərməyə dəvət etdi. Tarixdə ilk dəfə Xəzər dənizi beynəlxalq əməkdaşlıq məkanına çevrildi və dünyanın əsas neft və qaz şirkətləri buraya çox böyük həcmdə sərmayələr yatırdı. 1994-cü ildə biz Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng neft ehtiyatlarının istismarı ilə bağlı «Əsrin müqaviləsi» adlanan kontraktı imzaladıq. Bu, faktiki olaraq, Xəzər dənizinin xarici sərmayələr üçün açılması, ölkəmiz üçün isə transformasiya və inkişaf istiqamətində atılmış ilk vacib addım idi.

Bugünkü Azərbaycan böyük mənada həmin siyasətin nəticəsidir. Milyardlarla ölçülən xarici sərmayələrin cəlb edilməsi və Azərbaycana məxsus neft yataqlarının işlənilməsi uğurlu inkişaf üçün əhəmiyyətli ilkin şərait yaratdı. Neft satışından əldə olunan vəsait infrastruktur və sosial layihələrə, insan kapitalının inkişafına yönəldilmişdir və biz bunun nəticəsində ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olmuşuq. Sərmayələr və beynəlxalq əməkdaşlıq olmasaydı, keçən əsrin 90-cı illərinin ortalarında bunların heç birini etmək mümkün olmazdı.

Bu səbəbdən biz dövlətlər və şirkətlər arasında beynəlxalq əməkdaşlığa böyük dəyər veririk. Ölkəmizdə bütün sərmayələr zəruri səviyyədə qorunur, hasilatın pay bölgüsünə dair Azərbaycanın beynəlxalq neft şirkətləri ilə imzaladığı

bütün müqavilələr parlamentimiz tərəfindən ratifikasiya olunur və qanun formasında prezident tərəfindən imzalanır. Yəni həmin müqavilələrin mətninin bir sözünün belə, dəyişdirilməyəcəyi ilə bağlı 100 faiz zəmanət var. Bu, sərmayəçilərdə əminlik yaradır və hesab edirəm ki, Azərbaycanın sərmayələrə dəyər verən və onları müvafiq şəkildə qoruyan etibarlı tərəfdaş olmasında mühüm rol oynayır.

«Cənub Qaz Dəhlizi»nin resurs bazasını nəhəng «Şahdəniz» qaz yatağı təşkil edir. «Şahdəniz» yatağının istismarı ilə bağlı müqavilə 1996-cı ildə imzalanıb. Bunun özü də tarixi hadisə idi, çünki həmin vaxta qədər Azərbaycan yalnız neft hasil edən ölkə kimi tanınırdı. Lakin «Şahdəniz» layihəsi sayəsində biz özümüzü nəhəng qaz ehtiyatlarına malik ölkə kimi təqdim etdik. Bu gün Azərbaycanın – «Şahdəniz» və digər yataqlarının – təsdiq edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetr təşkil edir. Bu, nəhəng ehtiyatdır və şübhəsiz ki, «Şahdəniz» yatağının birinci mərhələdəki istismarı «Cənub Qaz Dəhlizi» layihəsinin təməlini qoydu.

Bu regional və daha sonra beynəlxalq əməkdaşlığın yaranmasında 2 mühüm mərhələ oldu. Regional əməkdaşlığa gəldikdə, bu regionda 3 ölkə – Azərbaycan, Gürcüstan və Türkiyə uzun illərdir ki, uğurla əməkdaşlıq edir və bu 3 ölkə dəhlizlər yaratmağa müvəffəq olub. Bu, ən vacib məsələ idi. Xəzər dənizini Qara dəniz ilə bağlayan neft kəməri mövcud deyildi. Biz ilk olaraq, buradan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan Bakı–Supsa neft kəmərini inşa etdik. Daha sonra Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas neft kəməri və nəhayət, Bakı–Tbilisi–Ərzurum qaz kəməri inşa edildi. «Cənub Qaz Dəhlizi»nin tərkib hissəsi olan həmin kəmər bu gün genişləndirilməkdədir.

Bütün bunlar Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlıq, habelə beynəlxalq maliyyə qurumlarının və bu layihələri strateji hesab edən ABŞ Hökumətinin dəstəyi nəticəsində ərsəyə gəlib. Layihələr həqiqətən də strateji idi,

çünki onlar regionumuzun enerji xəritəsini dəyişməyə başlamışdır. Beləliklə, Azərbaycan dünya bazarlarına neft tədarük edən etibarlı tərəfdaşa çevrilib və bu gün bəzi Avropa dövlətlərinin enerji balansında Azərbaycan neftinin payı 30-40 faiz təşkil edir.

Bunları deməkdə məqsədim bugünkü inkişafın olduqca möhkəm təməl, fəal iş, qarşılıqlı etimad və əməkdaşlıq tarixinə malik olmasını nümayiş etdirməkdir. Eyni zamanda, yüksək riskli sahə hesab olunan bu sahədə həmin layihələri maliyyələşdirən beynəlxalq maliyyə qurumlarına da minnətdaram.

«Cənub Qaz Dəhlizi» bu gün artıq reallıqdır. Bu gün burada layihə ilə bağlı mövcud çağırışları nəzərdən keçirəcəyik. Öz növbəmdə, bu layihənin həyata keçirilməsində Azərbaycan və Türkiyə arasında olan əməkdaşlığın xüsusi əhəmiyyətini vurğulamaq istərdim. 2012-ci ildə İstanbulda prezident Ərdoğan və mən Trans–Anadolu qaz kəmərinə dair tarixi müqaviləyə imza atdıq. Əslində «Cənub Qaz Dəhlizi»nin icrası məhz həmin gündən başlanır, çünki o vaxta qədər müxtəlif layihələr, seçimlər və müzakirələr mövcud idi. Potensial qaz layihəsinin reallaşdırılması ilə bağlı bir çox konfrans və seminarlar təşkil edilmişdir. Ancaq İstanbuldakı imzalanma mərasimi dönüş nöqtəsi oldu.

Bundan sonra «Şahdəniz» layihəsinin ikinci mərhələsinə sərmayə qoyulması ilə bağlı qərar qəbul edildi və TANAP Sazişi bağlanmasaydı, həmin qərar verilməzdi. Daha sonra TANAP layihəsinin davamı olaraq, Trans–Adriatik qaz kəməri layihəsi seçildi. Beləliklə, 2012-ci ildə İstanbuldakı mərasim dönüş nöqtəsi oldu, tərəfdaşlarımız bizi dəstəklədi və bu gün həmin sazişin nəticəsi göz qabağındadır.

Bizim tərəfdaşlarımıza – müxtəlif dövlət, şirkət və təşkilat nümayəndələrinə – bu gün bizimlə birlikdə olduqlarına görə öz dərin minnətdarlığımı bildirirəm. Bu, Məşvərət Şurasının 3-cü toplantısıdır və bu yığıncaq artıq yaxşı bir ənənəyə çevrilib. Həyat sübut etdi ki, belə bir toplantının çox vacib mənası var. Biz yalnız görülmüş işləri nəzərdən keçirmirik. Ən əsası odur

ki, gələcəklə bağlı planlar qurur və səylərimizi əlaqələndiririk. Əlaqələndirmə olmasa, biz uğur əldə edə bilmərik. «Cənub Qaz Dəhlizi»nin 4 seqmenti paralel şəkildə həyata keçirilir. Buna görə də layihənin dəqiq icrası və vaxt qrafikinə riayət olunması ən vacib məsələlərdəndir.

Son dəfə biz ötən il Bakıda görüşmüşük. Həmin vaxtdan bəri bir çox hadisələr baş verib, layihənin icrası ilə bağlı yaxşı irəliləyiş var. Mənə verilən son məlumata görə, «Şahdəniz-2» layihəsi üzrə işlərin təqribən 90 faizi, «Cənubi Qafqaz» boru kəməri üzrə 80 faizə yaxını, TANAP – 65 faiz və Trans–Adriatik kəməri üzrə 34 faizi icra edilib. Bu, yaxşı irəliləyişin göstəricisidir. Ötən ilin fevralında nazirlər səviyyəsində keçirilmiş 2-ci toplantı zamanı mövcud olan vəziyyəti götürsək, bu gün böyük irəliləyişin şahidi olarıq. Bu, layihənin uğurlu icrasının vacib göstəricisidir.

Bununla yanaşı, Bakıdakı sonuncu görüşümüzdən bəri, növbəti, böyük «Abşeron» qaz layihəsi üzrə işlərə başlanılıb. Biz yataqla bağlı praktiki işlərə, yəni qazma işlərinə başlamağı planlaşdırırıq və «Abşeron» yatağının birinci mərhələsi üzrə qaz potensialı artıq hesablanıb. «Abşeron» yatağı Azərbaycanın qaz potensialının əlavə mənbəyi olacaqdır.

Bu ilk növbədə, bizim qaz potensialımızın «Şahdəniz» ilə məhdudlaşmadığını nümayiş etdirir. Halbuki «Şahdəniz» dünyanın ən nəhəng qaz yataqlarından biridir və onun ehtiyatı 1,2 trilyon kubmetrdir. Bu, «Şahdəniz-2» layihəsinin icrasının digər layihələrin reallaşdırılması baxımından nə dərəcədə əhəmiyyətli olduğunu nümayiş etdirir. Müasir nəqletmə infrastrukturu olmadan digər qaz yataqlarına sərmayələrin cəlb edilməsi çətin olardı. Bütün bunlar hamımızın mənafeyinə xidmət edir. Çünki yaradılmaqda olan şəbəkə vasitəsilə nə qədər çox qaz nəql edilsə, biz – dövlətlər və şirkətlər bundan bir o qədər bəhrələnəcəyik.

«Cənub Qaz Dəhlizi» XXI əsrin layihəsi hesab oluna bilər. Şadam ki, TANAP-ın icrası ilə bağlı xərclər azalıb. Aldığım son məlumata görə, bu rəqəm 11,8 milyard dollardan 8,5 milyard

dollara enib. Bir sıra ölkələrdəki iqtisadi vəziyyətin narahatlıq doğurduğu belə bir vaxtda xərclərin azalması olduqca vacib məsələdir. Beləliklə də TANAP-ın səhmdarları külli miqdarda vəsaitlərinə qənaət edəcəklər.

Biz layihənin icrası üçün maliyyə vəsaitinin cəlb edilməsinə nail olduq. Burada xüsusi olaraq, Dünya Bankını qeyd etmək istərdim. Bu qurum layihəyə böyük məbləğdə vəsait ayırmaqla yanaşı, digər maliyyə institutlarına da siqnal vermiş oldu. «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının dəstəklənməsi üçün böyük məbləğdə maliyyə vəsaitlərinin ayrılmasına görə Asiya İnkişaf Bankına və Asiya İnfrastruktur və İnkişaf Bankına da minnətdarlığımı bildirirəm.

Burada xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, Azərbaycan qazı Asiyaya deyil, Avropaya nəql ediləcəkdir. Lakin gördüyümüz kimi, layihəyə verilən maliyyə dəstəyi baxımından Asiya maliyyə qurumları Avropa təşkilatlarından öndədir. Ümid edirik ki, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı da maliyyə dəstəyinin verilməsi və asiyalı tərəfdaşlarından geridə qalmamaq məsələlərini nəzərdən keçirəcəkdir. Əks təqdirdə, bunu anlamaq çox çətin olacaqdır.

Azərbaycan öz növbəsində, dövlət büdcəsi və Dövlət Neft Fondunun vəsaiti hesabına layihəyə böyük maliyyə dəstəyi göstərir. Bu gün Azərbaycanın maliyyə imkanları regionda istənilən layihənin həyata keçirilməsinə imkan verir və biz bunu uğurla edirik. «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir və dəfələrlə dediyim kimi, enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu, şaxələndirmə layihəsidir. Şaxələndirmə isə yalnız istehlakçılara deyil, biz istehsalçılara da lazımdır. Çünki bizim çoxşaxəli nəqletmə şəbəkəsinə ehtiyacımız var. Bu gün ehtiyatlarımızın müxtəlif təyinat məntəqələrinə nəql edilməsi üçün bizim 7 kəmərimiz var ki, bunlardan 3-ü neft, 4-ü isə qaz kəməridir. 8-cisi isə «Cənub Qaz Dəhlizi»dir ki, o da tezliklə istifadəyə veriləcəkdir.

Biz enerji şaxələndirilməsi haqqında danışanda nəqletmə marşrutları ilə yanaşı, mənbələr barəsində də danışırıq. Xəzər dənizinin Azərbaycan sektorunda olan mənbələr yeni mənbələrdir və bu, regionun və Avropa istehlakçılarının qaz ilə təchizatında yeganə yeni mənbədir. Bu baxımdan, regional və artıq beynəlxalq əməkdaşlıq, qarşılıqlı etimad və dəstək bu layihənin həyata keçirilməsinin ən vacib elementlərindəndir.

Bu gün nazirlər səviyyəsində 3-cü toplantıda biz artıq əmin ola bilərik ki, heç bir maneə bu layihənin həyata keçirilməsinin qarşısını ala bilməz. Layihənin icrası ilə bağlı sizə təqdim etdiyim rəqəmlər bizim layihənin icrasının yekun mərhələsində olduğumuzu nümayiş etdirir. Buna baxmayaraq, biz birgə səylərlə bu layihənin icrasının müəyyən seqmentləri üzrə süni gecikdirmələrin qarşısını almalıyıq və əminəm ki, bu mövzu burada ətraflı müzakirə olunacaqdır.

Bilirik ki, burada müəyyən müdaxilə və kənardan təzyiq halları olacaq. Müəyyən ekoloji və digər bəhanələr ortaya atılacaq. Ancaq burada biz reallığı nəzərə almalıyıq. Reallıq isə ondan ibarətdir ki, Azərbaycanın tərəfdaşları, ölkəmizin strateji tərəfdaşı və bizim bütün neft və qaz layihələrimizin operatoru olan *bp* şirkəti ilə birlikdə həyata keçirdiyimiz heç bir layihə ilə bağlı, istər Azərbaycanda, istərsə də buradan başlanan nəqletmə marşrutu boyu hər hansı bir ekoloji problem baş verməmişdir.

Yadımdadır ki, biz Bakı–Tbilisi–Ceyhan kəmərini inşa edəndə də layihənin icrasının əleyhinə olan müəyyən dairələrin sponsorluğu ilə «Bakı–Tbilisi–Ceyhan kampaniyası» adlanan kampaniya başlanıldı. Onlar həmin layihənin nüfuzdan salınması üçün geniş fəaliyyətə başladılar. Layihəni regionun ekoloji fəlakəti adlandırdılar. Təəssüf ki, o zaman bəzi maliyyə qurumları da prosesi ləngitdilər. Ancaq Bakı–Tbilisi–Ceyhan artıq 11 ildir ki, fəaliyyət göstərir və o zamandan bəri burada xırda narahatlıq belə doğuracaq epizod olmayıbdır. Bizim *bp* və digər tərəfdaşlarımızla həyata keçirdiyimiz bütün layihələr ən yüksək ekoloji standartlara cavab verir.

Bu səbəbdən eşidəndə ki, yenidən «Cənub Qaz Dəhlizi» və onun hansısa seqmenti ilə bağlı kimlərdəsə və haradasa narahatlıq var, biz dərhal 10 il bundan əvvəl baş verənləri xatırladıq. Həmin ssenari, həmin üsul və əminəm ki, nəticəsi də elə həmin cür olacaqdır. Biz «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçirəcəyik. Biz bu uğura birgə nail olacağıq. Burada yeganə itirə biləcəyimiz zamandır. Biz isə nəyə

görə vaxt itirməliyik?! Vaxt pul deməkdir. Biz bu layihəni vaxtında icra etməliyik. Dediyim kimi, layihənin bütün seqmentləri – «Şahdəniz-2», «Cənubi Qafqaz» qaz kəməri, TANAP və TAP paralel şəkildə icra olunmalıdır.

Təfərrüatına varmaq istəmirəm. Əminəm ki, bu mövzu ətraflı müzakirə olunacaq. Belə toplantıların əhəmiyyəti burada yalnız uğur və nailiyyətlərdən deyil, eyni zamanda, problem, çağırış və onların həlli yolları haqqında danışmaqdan ibarətdir.

Toplantının işinə uğurlar diləyir və bu gün bizimlə birlikdə olduğunuza görə bir daha minnətdarlığımı bildirirəm.

* * *

**N a t i q Ə l i y e v** *(Azərbaycanın Energetika naziri):* Çox sağ olun, cənab Prezident. Mən Məşvərət Şurasının bütün iştirakçıları adından dərin məzmunlu nitqinizə, çox dəyərli tövsiyələriniz və göstərişlərinizə görə Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Nazirlərin toplantısında Sizin iştirakınız bütün ölkələr, bütün iştirakçılar üçün çox vacibdir. Bundan əvvəlki 2 toplantıda olduğu kimi, biz indicə eşitdiyimiz göstərişlərinizi, baxışlarınızı və fikirlərinizi çox yüksək qiymətləndiririk. Bir daha təkrar etmək istərdim ki, bu bizə kömək edir. Sizin «Cənub Qaz Dəhlizi» layihəsinə dəstəyiniz, Sizin göstərişləriniz və dediyim kimi, səyləriniz bütün iştirakçıların öz öhdəliklərini yerinə yetirmələri üçün böyük əhəmiyyət kəsb edir. Çünki hazırda biz «Cənub Qaz Dəhlizi» layihəsini tamamlamağa çox yaxın mərhələdəyik. Bilirsiniz ki, çox böyük irəliləyişə nail olmuşuq. Lakin bəzi ölkələrdə bəzi maneələrin olduğunu hiss edirik və düşünürəm ki, nazirlərin bu toplantısı bizə layihəni uğurla tamamlamaq üçün doğru yolu tapmağa kömək edəcək.

Cənab Prezident, Sizə bir daha təşəkkürümü bildirmək və icazənizlə, salamlama nitqi üçün sözü dostumuz, hörmətli qonağımız Maroş Şefçoviçə vermək istərdim.

**M a r o ş Ş e f ç o v i ç** *(Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti):* Hörmətli cənab Prezident!

Təşəkkür edirəm, cənab nazir!

Hörmətli nazirlər, beynəlxalq və maliyyə institutlarından olan həmkarlarım, konsorsiumun nümayəndələri, xanımlar və cənablar.

Mən artıq üçüncü dəfə mehriban ev sahibi olduğuna, memarlığın əsl şah əsəri hesab etdiyim bu gözəl binada bu gün nazirlər toplantısını təşkil etdiyinə görə cənab Prezidentə dərin təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu bizim danışıqlarımız üçün gözəl ab-hava yaradacaq, ötən görüşümüzdən indiyədək «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində müşahidə etdiyimiz əhəmiyyətli irəliləyişə nəzər salmaq və hələ qarşıda gördüyümüz çağırışları müzakirə etmək üçün kifayət qədər vaxtımız olacaq.

İcazənizlə, mən prezident Əliyevi Brüsselə çox uğurlu səfəri münasibətilə də təbrik etmək istərdim. Hesab edirəm ki, bu həqiqətən də bizim əlaqələrimizdə yeni səhifə açdı. Səfər zamanı biz Azərbaycan ilə Avropa İttifaqını bir çox aspektlərdə, bir çox sahələrdə bir-birinə daha da yaxınlaşdıracağını hesab etdiyim yeni hərtərəfli çərçivə sazişi ilə bağlı danışıqlara başladıq. Əminəm ki, bu razılaşmanın yeni çərçivəsini müzakirə edəcəyimiz zaman enerji, enerji təhlükəsizliyi, bir çox digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər, sözsüz, diqqət mərkəzində olacaqdır.

Cənab Prezident öz nitqində «Cənub Qaz Dəhlizi»nin bütün dəyər zəncirində, bu kəmərin bütün mühüm hissələrində tikinti prosesinin gedişatını çox yaxşı təsvir etdi. Düşünürəm ki, irəliləyişə təkcə kəmərin keçdiyi ölkələrdə göstərilən böyük səylər, görülən işlər sayəsində deyil, həm də bu masa ətrafında yaradılmış yaxşı yaradıcı mühit, mütəmadi məlumat mübadiləsi, bu cür genişmiqyaslı layihə ilə bağlı davamlı olaraq ortaya çıxan problem və çağırışları həll etmək üçün göstərilən səylər sayəsində nail olunub. Ona görə də, zənnimcə, 2 günlük görüşümüz bizə layihənin irəliləyişini, qarşıda duran bütün çağırışları müzakirə etməyə daha bir imkan yaradacaq. Mən bu layihənin Avropa İttifaqı üçün, Avropanın enerji təhlükəsizliyi və şaxələndirmə planlarımız, rəqabətliliyi və Avropanın enerji təchizatının şaxələndirilməsini dəstəkləyən açıq likvid bazar kimi qalmasını qabartmaq istəyirəm. Bunun planlarımız üçün strateji əhəmiyyətini və çox mühüm region – Xəzər hövzəsi ilə yeni əlaqəyə və Azərbaycan kimi güclü tərəfdaşa malik olmaq imkanını nə dərəcədə qiymətləndirdiyimizin göstəricisi olduğunu vurğulamaq istərdim. Əminəm ki, Sizin qeyd etdiyiniz kimi, bu bizim son bir neçə ildə qəbul etdiyimiz bütün strateji sənədlərdə, təhlükəsizlik strategiyasından tutmuş enerji birliyinə qədər, Avropa İttifaqının strateji layihəsindən tutmuş,

bizim bir neçə həftə bundan əvvəl qəbul etdiyimiz enerji birliyinin vəziyyəti ilə bağlı ikinci hesabata qədər sənədlərdə öz əksini tapıb.

Mən həmçinin beynəlxalq maliyyə institutlarının iştirakını və onlarla yaxşı əməkdaşlığı, o cümlədən Dünya Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və Asiya İnkişaf Bankının layihəyə maliyyə dəstəyini yüksək qiymətləndirirəm. Mən çox şadam ki, bizim Avropa İnvestisiya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankından olan həmkarlarımız da bu gün bizimlə buradadırlar. Mən onları – Avropanın maliyyə institutlarını da qitənin enerji təhlükəsizliyinin gələcəyi üçün strateji əhəmiyyət kəsb edən bu çox mühüm layihənin maliyyələşdirilməsini dəstəkləməyə cəlb etmək üçün yollar axtarmağa çağıracağam.

Biz cənab Prezidentlə bu il artıq 4 dəfə görüşmüşük. Həmçinin Qarsda təməlqoyma mərasimində iştirak etmişik. Salonikidə də təməlqoyma mərasimi olub. Düşünürəm ki, bu təməlqoyma mərasimlərinin İtaliyada tikilməli və çəkilməli olan yekun seqmentə doğru necə irəliləməsini görmək çox mühüm əhəmiyyət kəsb edirdi. Ona görə də mən xüsusilə çox şadam ki, nazir Kalenda buradadır. Çünki mən mərkəzi hökumətin ciddi dəstəyi ilə həyata keçirilən bütün bu böyükhəcmli işlərin, buradan başlanan və İtaliyada başa çatan bu uzun boru kəmərinin tikintisinin vaxtında yekunlaşmasının təmin edilməsi, uzun illərdən sonra bu qədər dəstəklədiyimiz şaxələndirmə vasitəsilə Avropaya yeni mənbədən yeni marşrutla yeni qazın çatdırılması üçün göstərilən səylərin tamamlanması məqsədilə bu layihənin uğurla həyata keçirilməsi üzərində Karlonun nə qədər səylə çalışdığını bilirəm.

Mən həmçinin Cənub-Şərqi Avropadan, Balkan ölkələrindən olan həmkarlarımızın burada iştirak etdiyini bildirmək istəyirəm. Çünki biz onlarla CESEC təşəbbüsü çərçivəsində çox sıx işləyirik. Bu qısaltma Mərkəzi və Cənub-Şərqi Avropada daha yaxşı qaz bağlantısı üzrə yüksək səviyyəli qrupun adını ifadə edir. Biz bu əməkdaşlığa 2 il bundan əvvəl başladıq, çünki biz Avropanın bu önəmli regionunda daha güclü enerji təhlükəsizliyinin təmin olunmasını, onların ən azından 3 fərqli qaz mənbəyinə çıxış əldə etməsini, bir qaz təchizatçısından həddən artıq asılılığın aradan qaldırılmasını istəyirdik. Qeyd etməliyəm ki, bu qrupda olan ab-hava çox gözəldir və biz çox qısa müddət ərzində bu əhəmiyyətli məqsədə nail olacaq prioritet təşkil edən layihələr üzərində razılığa gələ bildik.

Mən yunan və bolqar tərəfdaşlarımıza bu ölkələr arasında olan bağlantı ilə əlaqədar gördükləri möhtəşəm işlərə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Çünki bu işlər nəinki bu iki tərəf üçün, həm də region üçün, digər Avropa ölkələri ilə və əlbəttə ki, «Cənub Qaz Dəhlizi» və Azərbaycan ilə daha yaxşı bağlantı nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edəcəkdir.

Beləliklə, cənab Prezident, nitqimin sonunda mən bizi Bakıda qəbul etdiyiniz və bu layihəyə güclü rəhbərlik etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Biz hamımız əldə olunmuş bu böyük tərəqqini vurğulamaq üçün fikir mübadiləsinin aparılmasını və layihənin vaxtında tamamlanmasını, Xəzər dənizindən hasil olunan qazın 2020-ci ilə qədər Avropaya çatdırılmasını təmin etmək üçün siyasi iradə və hazırlığın, eyni zamanda, biznes tərəfdaşlarımızın bu işə sadiqliyinin açıq şəkildə nümayiş etdirilməsini səbirsizliklə gözləyirik. Çox sağ olun, cənab Prezident.

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Avropa Komissiyasının Enerji Birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ilə görüşmüşdür.*

*Söhbət zamanı Azərbaycan prezidenti İlham Əliyev ilə Avropa Komissiyasının Enerji Birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin cari il ərzində 4 dəfə görüşdüyü xüsusi vurğulandı, «Cənub Qaz Dəhlizi»nin tikintisi, bu sahədə əldə olunan nailiyyətlər ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Azərbaycan ilə Avropa Komissiyası arasında enerji məsələləri ilə yanaşı, nəqliyyat dəhlizləri, o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolundan istifadə sahəsində əməkdaşlıq imkanları müzakirə edildi.*

*Yeni Asiya–Avropa nəqliyyat dəhlizindən istifadə imkanlarından danışan Maroş Şefçoviç Avropa şirkətlərinin bu layihəyə cəlb olunmasının və bu məsələdə Avropa Komissiyasının mümkün dəstəyinin əhəmiyyətini vurğuladı.*

*Söhbət zamanı Azərbaycanda alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi, bu məsələdə Avropa İttifaqının təcrübəsindən istifadə edilməsinin mümkünlüyü qeyd olundu.*

## İTALİYA RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ KARLO KALENDA İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İtaliya Respublikasının İqtisadi İnkişaf naziri Karlo Kalenda ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev İtaliyanın «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısında fəal iştirakının əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı bildirdi ki, bu, müxtəlif sahələrdə sürətlə inkişaf edən əməkdaşlığımızın daha bir göstəricisi olmaqla yanaşı, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla həyata keçirilməsi baxımından da çox əhəmiyyətlidir. Azərbaycan ilə İtaliya arasında tərəfdaşlığa dair Bəyannamənin qəbul edildiyini deyən prezident İlham Əliyev diqqətə çatdırdı ki, hazırda siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımız ən yüksək səviyyədədir və ölkələrimiz arasında əlaqələrin inkişafı şaxələndirilir.*

*Karlo Kalenda ölkəsi üçün önəmli olan TAP layihəsinin həyata keçirilməsinə görə İtaliya hökuməti adından dövlətimizin başçısına minnətdarlığını çatdırdı. O bu mühüm tədbirdə İtaliyanın bir sıra şirkətlərinin nümayəndələrinin də iştirak etdiklərini vurğuladı, ölkələrimiz arasında müxtəlif sahələrdə əhəmiyyətli layihələrin icra edildiyini bildirdi.*

*Qonaq İtaliyanın Baş naziri Paolo Centiloninin ötən ilin sonunda Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri kimi Azərbaycana səfərini xatırlatdı.*

*Söhbət zamanı ölkələrimiz arasında energetika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə olundu.*

*Bildirildi ki, İtaliya Azərbaycandan böyük həcmdə neft və enerji məhsulları idxal edir.*

*Diqqətə çatdırıldı ki, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev ilə İtaliyanın «Leonardo» şirkətinin Baş icraçı direktoru və Baş meneceri Mauro Moretti arasında keçirilən görüşün nəticəsi olaraq, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısı zamanı SOCAR ilə həmin şirkət arasında əməkdaşlığa dair Memorandum imzalanacaq.*

# TÜRKİYƏ RESPUBLİKASININ QİDA, KƏND TƏSƏRRÜFATI VƏ HEYVANDARLIQ NAZİRİ FARUK ÇƏLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Türkiyə Respublikasının Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq naziri Faruk Çəlikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Faruk Çəlik Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdı. Türkiyəli nazir prezident İlham Əliyevin tövsiyəsi ilə İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Bakıda yaradılmasına və uğurla fəaliyyət göstərməsinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Faruk Çəlik hazırda Türkiyənin Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi ilə Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi arasında sıx əməkdaşlığın yaradıldığını bildirdi.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla bu yaxınlarda telefon danışığını və Baş nazir Binəli Yıldırımla Münhendə görüşünü məmnunluqla xatırlatdı. «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin bu gün Bakıda keçirilən növbəti toplantısının önəmini qeyd edən dövlətimizin başçısı Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər naziri Berat Albayrakla səmərəli görüşün olduğunu vurğuladı.*

*Görüşdə ölkələrimizin Kənd Təsərrüfatı nazirlikləri arasında əlaqələrin yaxşı potensiala malik olduğu bildirildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## CİBUTİ RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ MAHMUD ƏLİ YUSUFUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Cibuti Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Mahmud Əli Yusufun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən dövlətimizin başçısı Cibuti Respublikası Parlamentinin Xocalı soyqırımının tanınması barədə qəbul etdiyi qərara görə minnətdarlığını bildirdi, bunu qardaşlıq münasibətlərimizin və ölkəmizə dəstəyin mühüm göstəricisi kimi dəyərləndirdi. 10-dan çox ölkənin artıq Xocalı soyqırımını tanıdığını vurğulayan prezident İlham Əliyev bunun tarixi həqiqətlərin doğru əks etdirilməsi və bu dəhşətli cinayəti törədənlərin mühakiməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Cibutinin BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini dedi, ölkələrimizin vacib məsələlərin müzakirəsi zamanı bir-birini daim dəstəklədiyini vurğuladı. Güclü siyasi əlaqələrin iqtisadi sahədə də əməkdaşlığın inkişafına zəmin yaratdığını bildirən prezident İlham Əliyev hazırda əməkdaşlığımızın praktik şəkildə inkişafının müşahidə olunduğunu qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin nəqliyyat və yükdaşımaları sahəsində çox yaxşı perspektivləri olduğunu bildirdi, bu istiqamətdə həyata keçirilən qarşılıqlı səfərlərin və təmasların vacibliyini vurğuladı. Prezident İlham Əliyev Cibuti Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinin*

*Azərbaycana səfərinin uğurlu və səmərəli olacağına, səfərin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Nazir Mahmud Əli Yusuf Cibuti Respublikasının Prezidenti İsmayıl Ömər Gellenin məktubunu prezident İlham Əliyevə çatdırdı. Qonaq qeyd etdi ki, Bakı kimi gözəl bir şəhərdə qardaşcasına qarşılanmasından məmnunluq duyur. Azərbaycan ilə Cibuti arasında bir çox oxşarlıqların olduğunu deyən qonaq ölkələrimizin mürəkkəb regionda yerləşdiklərini vurğuladı. Azərbaycan ərazisinin bir hissəsinin işğala məruz qaldığını qeyd edən nazir münaqişənin sülh yolu ilə həll olunması istiqamətində gedən prosesləri yaxından izlədiklərini bildirdi və bu sahədə beynəlxalq səviyyədə qazanılan bir sıra diplomatik uğurların önəmini qeyd etdi. 1993-cü ildə Cibutinin BMT Təhlükəsizlik Şurasının üzvü olduğu dövrə toxunan Mahmud Əli Yusuf o zaman ölkəsinin beynəlxalq ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı təcavüzünü qınamağa çağırdığını və bu məsələdə sərt mövqe nümayiş etdirdiyini vurğulayaraq, BMT Təhlükəsizlik Şurasının işğalı pisləyən 4 qətnamə qəbul etdiyini xatırlatdı. Azərbaycanın artıq güclü bir dövlətə çevrildiyini məmnunluqla qeyd edən Cibuti Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Azərbaycanın ədalətli mövqedə olduğunu, buna görə də beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Cibuti arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN V QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz dostlar!

Sizi Avropa Azərbaycanlıları Konqresinin növbəti ali toplantısının işə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Təqdirəlayiq haldır ki, 2004-cü ildə təsis olunmuş Konqres Avropa ölkələrində məskunlaşan soydaşlarımızın təşkilatlanması və diaspor qurumlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində ardıcıl iş aparmış, qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində uğurlar qazanmışdır.

Müstəqillik illərində Azərbaycanın Avropa dövlətləri ilə siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Ölkəmizin əlverişli coğrafi mövqeyi, təbii ehtiyatları, xalqımızın zəngin mədəniyyəti qitə dövlətləri ilə hərtərəfli əlaqələrin inkişafında əhəmiyyətli yer tutur. «XXI əsrin müqaviləsi» adlandırılan «Cənub Qaz Dəhlizi» və Bakı–Tbilisi–Qars dəmir yolu kimi, nəhəng transmilli layihələrin təşəbbüskarı və əsas icraçılarından biri olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, Asiya ilə Avropanı birləşdirən Şərq–Qərb nəqliyyat infrastrukturunun yaradılmasında müstəsna rol oynayır. Ölkəmiz həm də mədəniyyətlərarası dialoqun, multikulturalizm və tolerantlığın təşviqinə, qlobal humanitar problemlərin həllinə sanballı töhfələr verir, Avropa mədəniyyətinə və dəyərlər sisteminə yeni çalarlar qatır.

Hazırda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həllinə nail olmaq qarşımızda duran ən mühüm ümummilli vəzifədir. Bu günlərdə biz erməni işğalçılarının törətdiyi Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsini

bir daha dərin hörmətlə yad edirik. Vaxtilə bu qanlı aksiyanı həyata keçirənlər Azərbaycan xalqını sarsıtmaq və mübarizədən çəkindirmək məqsədi güdürdülər. Lakin əminliklə demək olar ki, düşmən öz istəyinə nail ola bilmədi. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xalqımız öz qəddini düzəltdi, daxili potensialına güvənərək, güclü və müasir dövlət qurdu. Ötən ilin aprelində Ermənistanın cəbhə xəttindəki təxribatlarına ordumuzun layiqli cavab verməsi və torpaqlarımızın bir hissəsinin azad edilməsi əyani şəkildə göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir.

Lakin müasir dövrdə qələbələr tək hərb yolu ilə deyil, həm də siyasi-intellektual vasitələrlə təmin edilir. Bu sahədə malik olduğumuz vacib resurslardan biri də xarici ölkələrdə yaşayan həmvətənlərimiz və onların yaratdıqları təşkilatlardır. Ona görə də Azərbaycan diasporu, o cümlədən Avropadakı icmalar öz fəaliyyətini daha da genişləndirməli, işlərin koordinasiyasını və dost ölkələrin analoji təşkilatları ilə əlaqələrini gücləndirməlidirlər. Diaspor nümayəndələri ölkəmizlə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin Avropa ictimaiyyətinə daha çevik və dolğun çatdırılması, mədəniyyətimizin təbliği və başqa istiqamətlərdə yeni metod və vasitələrdən səmərəli istifadə etməlidirlər. Əminəm ki, Avropa Azərbaycanlıları Konqresinin bu ali toplantısı yüksək işgüzarlıq şəraitində keçəcək, irəli sürülən təkliflər və qəbul edilən qərarlar qurumun işini keyfiyyətcə daha yüksək mərhələyə qaldırmağa xidmət edəcəkdir.

Qurultay iştirakçılarına bu yolda nailiyyətlər, Konqresin yeni seçiləcək rəhbər heyətinə ardıcıl və məhsuldar fəaliyyət arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2017-ci il*

## XOCALI SOYQIRIMININ 25-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA KEÇİRİLƏN ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 26-da XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak etmişlər.*

*Paytaxtın Azadlıq meydanından başlanan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.*

*Ön sırasında prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar.*

*Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında «Dünya Xocalı soyqırımını tanımalıdır!», «Xocalıya ədalət!», «Xocalını*

*unutmayın!», «Rədd olsun erməni faşizmi!», «Xocalı – XX əsrin soyqırımı», «Cinayətkarlar cəzasız qalmayacaqlar!», «Xocalı soyqırımı – 25 il» və s. çağırışlar və şüarlar nümayiş etdirilirdi.*

*İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 25 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Lidisə və Sonqmi ilə qoşa çəkilir.*

*Bütövlükdə, bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.*

*Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında Fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.*

*Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.*

*Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, həmçinin prezidentin övladları Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoydular.*

*Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.*

* * *

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələr xalqımızın tarixinə qanlı hərflərlə yazılıb. O gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhəri üzərinə hücum edib, onun dinc əhalisinə amansızcasına divan tutublar.*

*Xocalı soyqırımının qanlı statistikası belədir: hücum zamanı şəhərdə olmuş 3000 nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb, 197 nəfərin taleyi hələ də məlum deyildir. 8 ailə tamamilə məhv edilib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə – azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.*

*Ermənilərin bu cəza tədbiri hərtərəfli planlaşdırılıb və yeganə bir məqsədlə törədilib – dinc sakinləri milli mənsubiyyət əlamətinə görə qismən və ya tamamilə məhv etmək. Beynəlxalq hüquqa görə, belə hərəkətlər «soyqırımı» anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.*

*Qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifələrindən biridir. «Xocalı soyqırımının 25-ci ildönümü haqqında» Azərbaycan Prezidentinin 2017-ci il 24 yanvar tarixli Sərəncamında deyilir: «Xocalı faciəsini törətməklə, Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır».*

*Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı «Xocalı Soyqırımı Günü» elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət!» beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, o cümlədən uşaqları belə, qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək, qətiyyətlə pisləyiblər.*

*Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada keçirilən mitinqlər, bir sıra ölkələrdə təş-*

*kil olunan anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.*

*Bu yürüş həm də dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcəkdir. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi işğalçılardan təmizləndi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən bu qələbə sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.*

* * *

*Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.*

## QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏR

*26 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Qətər Dövlətinə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Qətərin dövlət bayraqlarının dalğalandığı Doha şəhərinin Hamad Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Azərbaycan Prezidentini Qətərin İqtisadiyyat və Ticarət naziri Şeyx Əhməd bin Casim bin Mohammad əl-Tani və digər yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 27-də Dohada Əmir sarayında rəsmi qarşılanma mərasimi keçirilmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tani Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan Respublikasının və Qətər Dövlətinin dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Əmir Şeyx Təmim bin Həməd əl-Tani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Əmir Şeyx Təmim bin Həməd əl-Taniyə, Qətər Dövlətinin nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

## «AL FAİSAL HOLDİNG» ŞİRKƏTİNİN RƏHBƏRİ VƏ QƏTƏR İŞ ADAMLARI ASSOSİASİYASININ SƏDRİ ŞEYX FAİSAL BİN QASSİM BİN FAİSAL ƏL-TANİ İLƏ GÖRÜŞ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Dohada «Al Faisal Holding» şirkətinin rəhbəri və Qətər İş Adamları Assosiasiyasının sədri Şeyx Faisal bin Qassim bin Faisal əl-Tani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Prezidentinin Qətərə bu səfərinin ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi.*

*Böyük biznes qurumunun rəhbəri Şeyx Faisal bin Qassim bin Faisal əl-Tani Azərbaycana səfərini xatırladaraq, ölkəmizlə bağlı xoş təəssüratlarının olduğunu dedi. Şeyx Faisal bin Qassim bin Faisal əl-Tani Azərbaycanın müasir və təhlükəsiz ölkə olduğunu qeyd etdi. O, ölkəmizdə Qətər vətəndaşlarına xoş münasibət göstərildiyini məmnunluqla vurğuladı, yaxın gələcəkdə böyük nümayəndə heyəti ilə Azərbaycana səfər edəcəklərini dedi.*

*Söhbət zamanı ticarət və investisiya sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## «QATAR PETROLEUM»UN İCRAÇI DİREKTORU SAAD ŞERİDA ƏL-KAABİ İLƏ GÖRÜŞ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Dohada «Qatar Petroleum»un prezidenti və icraçı direktoru Saad Şerida əl-Kaabi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Qatar Petroleum» arasında əmək-daşlıq imkanları müzakirə edildi, bir sıra layihələrdə birgə iştira-kın mümkünlüyü vurğulandı. «Qatar Petroleum»un gələcəkdə Xəzər dənizində və ya SOCAR-ın digər ölkələrdə həyata keçirdiyi layihələrdə Azərbaycan ilə birgə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin fevralın 27-də geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə son vaxtlar iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyi bildirildi.*

*Azərbaycana səfərini xatırladan Əmir respublikamızın sürətlə inkişafının şahidi olduğunu diqqətə çatdıraraq bildirdi ki, ölkəmizdə sabitlik və təhlükəsizlik mövcuddur. Bu da həm iqtisadi, həm turizm sahələrində inkişafa imkan yaradır. Qətər Dövlətinin Əmiri qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına xidmət edəcəyini vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev Qətərə əvvəlki səfərini məmnunluqla xatırlatdı və ötən müddət ərzində ölkədə böyük inkişafın şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlardan, qeyri-neft sektorunun inkişafından danışaraq vurğuladı ki, əsas məqsəd qeyri-neft sektoru məhsullarının xarici bazarlara ixrac edilməsidir.*

*Söhbət zamanı müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm, mədəniyyət, infrastruktur sahələrində əlaqələrin genişləndirilməsinin önəmi vurğulandı, digər ölkələrdə müxtəlif sahələrdə layihələrin icrasına birgə sərmayə qoyuluşu, neft və qaz sahəsində əməkdaşlıq imkanları müzakirə olundu.*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 27-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Tani ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan Prezidentinin Qətərə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlığın perspektivlərinin müəyyən edilməsi baxımından əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Doha*

*27 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin iştirakı ilə fevralın 27-də Azərbaycan–Qətər sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Qətərin Mədəniyyət və İdman naziri Salah bin Qanem bin Nasser əl-Ali və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında Gənclər və İdman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Qətərin Mədəniyyət və İdman naziri Salah bin Qanem bin Nasser əl-Ali və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC və Qətər Limanları İdarəetmə Şirkəti «MWANİ Qatar» arasında Anlaşma Memorandumu»nu Qətərin Nəqliyyat və Rabitə naziri Cassem bin Saif əl-Sulaiti və Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası və Qətər Dövləti Mülki Aviasiya Administrasiyası arasında Anlaşma Memorandumu»nu Qətərin Nəqliyyat və Rabitə naziri Cassem bin Saif əl-Sulaiti və Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair Sazişə əlavə Protokol»u*

*Qətərin Nəqliyyat və Rabitə naziri Cassem bin Saif əl-Sulaiti və Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında kökü kəsilmək təhlükəsi qarşısında olan vəhşi təbiətin qorunması və onun təbii mühitinin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Qətərin Bələdiyyə və Ekologiya naziri Məhəmməd bin Abdullah əl-Rumaihi və Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov imzaladılar.*

* * *

*Fevralın 27-də Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd əl-Taninin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qətər Dövlətinə rəsmi səfəri fevralın 27-də başa çatdı.*

*Azərbaycanın və Qətərin dövlət bayraqlarının dalğalandığı Doha şəhərinin «Hamad» Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Dövlətimizin başçısı İlham Əliyevi Qətərin İqtisadiyyat və Ticarət naziri Şeyx Əhməd bin Casim bin Mohammad əl-Tani və digər yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

## PAKİSTAN İSLAM RESPUBLİKASINA SƏFƏR

*28 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Pakistan İslam Respublikasına səfərə gəlmişdir.*

*İslamabad şəhərinin Bənazir Bhutto Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Dövlətimizin başçısını Pakistanın yüksək səviyyəli rəsmi şəxsləri qarşıladılar.*

*Sonra toplardan yaylım atəşi açıldı, Azərbaycanın və Pakistanın dövlət himnləri səsləndirildi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏMNUN HÜSEYN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*İslamabad*

*28 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin fevralın 28-də təkbətək görüşü olmuşdur.*

*Səmimi şəraitdə keçən görüşdə Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin 2015-ci ildə Azərbaycana səfəri məmnunluqla xatırlandı. Pakistan Prezidenti Azərbaycana bu səfərdən xoş təəssüratlarla ayrıldığını bildirdi.*

*Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı Azərbaycanın və Pakistanın bir-birinin ədalətli mövqeyini dəstəkləməsində qətiyyət göstərdikləri vurğulandı.*

*Söhbət zamanı regional təhlükəsizlik və əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Sonra görüş geniş tərkibdə davam etdirildi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NƏVAZ ŞƏRİF İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*İslamabad*

*28 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 28-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev Baş nazir Məhəmməd Nəvaz Şərifə yüksək qonaqpərvərliyə görə təşəkkür etdi. Məhəmməd Nəvaz Şərifin Bakıya uğurlu səfəri xatırlandı.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələr müzakirə edildi, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulandı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı ölkələrimizin bir-birinə qarşılıqlı dəstək verdiyi və qətiyyətli mövqe nümayiş etdirdiyi bir daha vurğulandı.*

*Görüşdə müdafiə və müdafiə sənayesi sahəsində konkret layihələr müzakirə olundu. Azərbaycanın Pakistanın inkişaf etmiş hərbi sənaye kompleksinin məhsullarını idxal etməsi ilə bağlı razılaşma əldə edildi. Bundan əlavə, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının vacibliyi vurğulandı, fevral ayında 20-yə yaxın Azərbaycan şirkətinin Pakistanda ixrac missiyasında olduğu və bu missiyanın Azərbaycanın Pakistana ixracının artırılması məqsədi daşıdığı qeyd edildi.*

*Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, bu gün imzalanan Azərbaycan Respublikası ilə*

*Pakistan İslam Respublikası arasında enerji sahəsində əməkdaşlıq haqqında Sazişin bu sahədə uğurlu addım olduğu vurğulandı.*

*Görüşdə humanitar və mədəni sahədə əlaqələr müzakirə olundu. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitinin yüksək səviyyədə təşkil olunması ilə bağlı Baş nazir Məhəmməd Nəvaz Şərifə minnətdarlığını bildirdi.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.*

*Daha sonra Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında enerji sahəsində əməkdaşlıq haqqında Saziş imzalandı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İslamabad*

*28 fevral 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də İslamabadda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin dinamik inkişafından məmnunluq ifadə olundu, ikitərəfli münasibətlərin bir sıra sahələrdə, o cümlədən xarici ticarət sahəsində inkişaf etdiyi bildirildi.*

*Enerji sahəsində həyata keçirilən layihələrdən danışıldı, onların uğurla davam etdirilməsinin əhəmiyyəti vurğulandı.*

*İş adamlarının və şirkətlərin iqtisadi əlaqələrin inkişafında daha fəal rolunun təmin edilməsinin, bank sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIII SAMMİTİNDƏ İŞTİRAK

*İslamabad*

*1 mart 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Pakistan İslam Respublikasının paytaxtı İslamabad-da İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak etmişdir.*

*Əvvəlcə Sammitdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri rəsmi foto çəkdirdilər.*

*Zirvə görüşü Qurani-Kərimdən ayənin oxunması ilə başlandı.*

*Sammiti İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə görüşünə ev sahibliyi etmiş və təşkilata sədrliyi həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq elan etdi.*

*Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Zati-aliləri, əziz dostlar!

Əvvəlcə qonaqpərvərliyə və İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə təşkil edilməsinə görə zati-aliləri Pakistan İslam Respublikasının Baş naziri cənab Məhəmməd Nəvaz Şərifə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan 2006-cı və 2012-ci illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının iki Zirvə görüşünə ev sahibliyi edib. İqtisadi Əməkdaşlıq Təşkilatının 2012-ci ildə Bakıda keçirilmiş sonuncu Zirvə görüşündə ölkəmiz sədrliyi öz üzərinə götürmüşdür. Bu bizim İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa olan qəti

sadiqliyimizin göstəricisidir. İqtisadi Əməkdaşlıq Təşkilatı xalqlarımızın mənafeyi naminə əməkdaşlıq üzrə siyasi iradəmizin məhsuludur. İqtisadi Əməkdaşlıq Təşkilatının uğurlu fəaliyyəti birgə maraqlarımıza cavab verir. Ölkələrimizin xalqlarını birgə tarix, mədəniyyət, ənənələr və din birləşdirir.

Sədrliyimiz dövründə Azərbaycan təşkilatımızın inkişafına və regional əməkdaşlığın dərinləşdirilməsinə böyük töhfə verib. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan bütün dövlətlərlə gözəl münasibətə malik olduğundan Azərbaycan tərəfdaşları ilə istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə iqtisadi əlaqələrini möhkəmləndirib. Biz İqtisadi Əməkdaşlıq Təşkilatını yalnız Şərq və Qərb, Şimal və Cənub arasında fiziki körpü deyil, müxtəlif sivilizasiyaları və mədəniyyətləri birləşdirən məkan kimi təşviq etməkdə səylərimizi əsirgəməmişik.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatını əhəmiyyətli beynəlxalq qurum hesab edir. Əminəm ki, gələcəkdə beynəlxalq iqtisadi əməkdaşlıqda İqtisadi Əməkdaşlıq Təşkilatının rolu artacaq. 2013-cü ildə biz Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu layihəsi üzrə İqtisadi Əməkdaşlıq Təşkilatının birinci yüksək səviyyəli işçi qrupunun iclasını təşkil etmişik. Bu, Şimal–Cənub dəhlizi layihəsinə olan yüksək səviyyəli marağın və siyasi dəstəyin göstəricisidir. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının digər dövlətlərinə əlavə əməkdaşlıq imkanları yaradan bu layihənin öz üzərinə düşən hissəsini artıq başa çatdırıb. Həmin strateji istiqamətdə əməkdaşlığımızın davam etdirilməsi məqsədilə biz bu il İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin dəmir yolu üzrə məsul nazirlərinin toplantısını təşkil edəcəyik.

Biz həmçinin 2013-cü və 2014-cü illərdə enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf üzrə birinci və ikinci beynəlxalq konfransların təşəbbüskarı olmuşuq. Həmin konfranslarda İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirilib. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa da sadiqdir və səylərimizin davamı olaraq,

ölkəmiz bu il aidiyyəti nazirlərin toplantısını təşkil etməyi planlaşdırır. Əminəm ki, həmin toplantının nəticələri ümumi məqsədlərimizə nail olunmasına töhfə verəcək. 2013-cü və 2014-cü illərdə biz iqtisadiyyat üzrə ixtisaslaşan elm adamlarının bir araya gələrək, iqtisadi inkişaf və əməkdaşlıq məsələlərini müzakirə etmələri məqsədilə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin iqtisadi «beyin mərkəzləri»nin I və II Bakı forumlarını təşkil etmişik. Bundan əlavə, biz səhiyyə, bərpaolunan enerji, neft və qaz, vergi, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması və digər sahələrdə əməkdaşlığın gücləndirilməsi üçün müxtəlif tədbirlərə ev sahibliyi etmişik. 2012-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatının sədri qismində Azərbaycan qurumun möhkəmləndirilməsi, beynəlxalq iqtisadi əməkdaşlıqda iştirakı və üzv dövlətlər arasında çoxtərəfli əlaqələrin təşviqi üçün səylərini əsirgəməyib.

İndi isə biz İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə görüşünün sədrini seçəcəyik. Təklif edirəm Pakistan İslam Respublikasının Baş naziri, zati-aliləri cənab Məhəmməd Nəvaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə görüşünün sədri seçilsin.

*Azərbaycan Prezidentinin təklifi qəbul olundu və Pakistan İslam Respublikasının Baş naziri, Məhəmməd Nəvaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının sədri seçildi.*

Cənab sədr, Sizi təbrik edir, uğurlar diləyir və sədrliyi qəbul etməyə dəvət edirəm.

* * *

*Sonra Pakistanın Dövlət himni səsləndirildi.*

*Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının XII Sammitindən ötən müddətdə görülən işləri yüksək qiymətləndirərək, prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Budəfəki Sammitin təşkilatın genişləndirilməsinin 25 illiyinə təsadüf etdiyini deyən Baş nazir hazırkı Zirvə görüşünün ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağını bildirdi. O, Pakistanın bu quruma sədrliyi döv-*

*ründə üzv ölkələr arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün səylə çalışacaqlarını vurğuladı.*

*İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akça 2012-ci ildən bəri quruma yüksək səviyyədə sədrlik etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O bu Sammitin ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün mühüm fürsət olduğunu vurğuladı. Ticarət, nəqliyyat, enerji, turizm, ərzaq təhlükəsizliyinin təmin olunması və digər sahələrdə əməkdaşlığın gücləndirilməsinin təşkilatın gündəliyində yenə də vacib yerdə dayandığını bildirən baş katib BMT-də müşahidəçi statusuna malik olan İqtisadi Əməkdaşlıq Təşkilatının bu Zirvə görüşünün nəzərdə tutulan layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirdi.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi. Dövlətimizin başçısı İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə dəvət edildiyinə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə, həmçinin Sammitin yüksək səviyyədə təşkil edilməsinə görə Pakistan İslam Respublikasına təşəkkür etdi. Azərbaycan ilə Pakistanı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Qarşılıqlı etimad və dəstəyə arxalanan münasibətlərimiz uğurla inkişaf edir. Qardaşlıq və həmrəyliyin göstəricisi kimi, Pakistan ərazimizin 20 faizini işğal etməkdə davam edən Ermənistan dövləti ilə diplomatik münasibətlər qurmamışdır. Azərbaycan xalqı buna görə sizə çox minnətdardır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəaliyyətə böyük əhəmiyyət verir. 2012-ci ildə başlanan sədrliyimiz dövründə biz təşkilatın daha da gücləndirilməsi istiqamətində bütün üzv dövlətlərlə birgə çalışmışıq. Təhlükəsizliyin və sabitliyin təmin edilməsi regional əməkdaşlığın qurulmasının mühüm elementidir. Təəssüf ki, yeni münaqişələr yarandıqca regionumuzda təhlükəsizlik və sabitlik daha da kövrək olur. Biz insan faciəsinin şahidi oluruq. Çoxlu sayda insanlar həyatlarını itirir, milyonlarla insan doğma yurdlarını tərk edir.

Azərbaycan öz təcrübəsindən bu ağrı və acıları yaxşı anlayır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətraf 7 rayonumuz işğal altındadır. Bu ərazilərdə etnik təmizləmə aparılıb və 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə bütün tarixi abidələrimiz, məscidlərimiz və qəbiristanlıqlarımız dağıdılıbdır. Ermənistan 1992-ci ildə Azərbaycana qarşı soyqırımı törədibdir. Xocalı soyqırımı nəticəsində qətlə yetirilən 613 mülki şəxsdən 106-sı qadın, 63-ü uşaq, 70-i isə qoca idi. 1000 nəfərdən çox insan itkin düşübdür. Bu gün 10-dan artıq ölkə Xocalı soyqırımını tanıyıb. 2012-ci ildə Pakistan Senatının Xocalı soyqırımını rəsmən tanıdığına görə biz Pakistana təşəkkürümüzü bildiririk.

BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı» və digər mötəbər beynəlxalq təşkilatlar bənzər qətnamə və qərarlar qəbul ediblər. İslam Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və son olaraq, 2016-cı ilin aprel ayında Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzlə bağlı nazirlər səviyyəsində kontakt qrupu yaradılıb. Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə xüsusi əhəmiyyət verir. Azərbaycan 2017-ci ili «İslam həmrəyliyi ili» elan edib. 2 aydan sonra Bakı IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcəkdir. Bu gün islamofobiya dünyada ən ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qəti şəkildə pisləyirik. İslamı terrorla əlaqələndirmək yanlış və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən məhz müsəlman dövlətləridir.

Biz sülh, mərhəmət, dözümlülük və ədalət dini olan islamın dəyərlərinin təşviqini davam etdirməliyik.

Biz üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə xüsusi əhəmiyyət veririk. Qarşılıqlı ticarət və sərmayələrin artırılması, ixrac imkanlarının genişləndirilməsi və biznes dairələri arasında sıx əməkdaşlığın təşviqi bu məqsədə xidmət edəcəkdir. Beynəlxalq maliyyə institutlarının cəlb olunması da böyük önəm daşıyır. Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatı Ticarət və İnkişaf Bankının regional əhəmiyyətli layihələrin maliyyələşdirilməsində daha fəal rol oynaması üçün onun bütün ölkələrimiz tərəfindən dəstəklənməsinə ehtiyac var.

Nəqliyyat sahəsində əməkdaşlığın Azərbaycan üçün böyük əhəmiyyəti var. Azərbaycan ərazisi ilə Avropa və Asiya arasında strateji dəmir yolu əlaqəsinin yaradılması yüklərin daşınma vaxtını 30 gündən 15 günə endirəcəkdir. Şərq–Qərb nəqliyyat dəhlizi tarixi İpək yolunun bərpası deməkdir. Daha bir mühüm nəqliyyat layihəsi Şimal–Cənub dəmir yolu dəhlizidir. Azərbaycan hər 2 strateji layihənin fəal iştirakçısı və sərmayəçisidir. Biz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətləri bu yeni infrastrukturun imkanlarından istifadə etməyə dəvət edirik. Azərbaycanda inşa edilən, Xəzər dənizinin ən böyük beynəlxalq dəniz ticarət limanı da nəqliyyat infrastrukturuna olan növbəti töhfədir.

Enerji əməkdaşlığı regional əməkdaşlıqda əhəmiyyətli rol oynayır. Azərbaycan yeni enerji strategiyası və enerji əməkdaşlığının yeni baxışını təqdim edibdir. Azərbaycan daha geniş regionun enerji təhlükəsizliyinin təmin edilməsində mühüm tərəfdaşa çevrilibdir. Biz Xəzər, Qara və Aralıq dənizlərini birləşdirərək, şaxələnmiş boru kəmərləri infrastrukturunu yaratmışıq. Bu gün Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri regional əməkdaşlığın rəmzləridir. Hazırda ölkəmiz tərəfdaşları ilə birlikdə dəyəri 40 milyard dollar olan «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçirir. Bu, enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. Qeyd etdiyim nəqliyyat və enerji layihələri regionda on minlərlə yeni iş yeri yaradır. Bu la-

yihələr firavanlıq gətirir. Bu, ölkələr arasında əməkdaşlığı və dostluğu möhkəmləndirir. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğuladılar, Pakistana bu təşkilata sədrliyi dövründə uğurlar arzuladılar.*

*Tədbirin sonunda İslamabad Bəyannaməsi qəbul edildi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına səfəri martın 1-də başa çatdı.*

*İslamabad şəhərinin Bənazir Bhutto Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzüldü.*

*Dövlətimizin başçısını Pakistanın yüksək səviyyəli rəsmi şəxsləri yola saldılar.*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RUMEN RADEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Bolqarıstanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, qarşılıqlı faydalı əməkdaşlığımız ikitərəfli münasibətlərimizin dinamik inkişafını şərtləndirən amillərdəndir.

İnanıram ki, Azərbaycan–Bolqarıstan dostluğu və əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli və ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 mart 2017-ci il*

## QEYDLƏR

**1. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–6,42, 103, 109, 205, 246, 249, 250, 252, 253, 254, 257, 260, 262, 263, 264, 266, 271, 272, 275.

**2. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi

xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 9, 12, 181, 216, 232, 245, 287–291, 298, 318, 319.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının

təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin

qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universi-

tetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 12, 31, 61, 71, 76, 153, 172, 177, 202, 216, 231, 234, 317, 321.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. – 17, 39, 68, 126, 127, 128, 187, 188, 195, 196, 211, 241, 272, 274, 279, 281–282, 316, 320, 321, 332, 333, 340.

**5. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 17, 39, 59, 109, 127, 189, 196, 197, 207, 248, 321, 340.

**6. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik

sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 17, 40, 127, 187, 340.

**7. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 17, 40, 127, 128, 189, 196, 203, 247, 248.

**8. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. Rayon 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 17, 125.

**9. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 17, 125, 320.

**10. Füzuli rayonu** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 17, 125, 150, 153, 320.

**11. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 18, 41, 42, 92, 102, 146, 184–185, 186, 188, 190, 200, 209,238, 239, 279, 294, 295, 298,299–309, 311, 312, 316, 341.

**12. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 20, 80, 108, 202, 238, 262, 279, 301, 313, 321.

**13. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 20, 80, 264, 298, 313, 335.

**14. İsa,** İ i s u s X r i s t o s – xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə İsa «Allah oğludur». Rəvayətə görə İsa Roma imperatoru Avqustun dövründə Fələstinin Vifleyem şəhərində doğulmuş İudeya, Qalileya, Samariya və s. yerlərdə yeni dini təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra dirilərək, qeyb olmuşdur. – 21.

**15. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş

duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanunilәşdirilmişdir. – 21–22.

**16. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 23, 24, 31–32, 42, 72, 109,117, 127, 132, 192, 195, 205, 230–231, 263.

**17. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. **–** 23, 117, 192.

**18. Xamenei,** S e y i d Ə l i (d.1939) – İran İslam Respublikasının Ali Rəhbəri. 1981–89-cu illərdə İranın Prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali rəhbəridir. – 24.

**19. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (İngiltərə hökuməti artıq qurumdan çıxmaq üzrədir).

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin

əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 30, 102, 180–191, 205, 206, 238, 239, 240, 241, 247, 249, 256, 257, 260, 273, 274, 307, 310.

**20. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 34.

**21. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 36, 112,140, 197, 304.

**22. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 37, 140, 272.

**23. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 37, 190, 209, 239, 249, 303, 308.

**24. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km², əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 42, 138, 205, 229, 256, 262, 272, 275, 294, 295, 301, 321.

**25. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km², əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Or-

dubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 50, 61–78.

**26. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 60, 90, 177, 194, 257, 272.

**27. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 61, 68, 76–77.

**28. Kərəm Mustafayev,** K ə r ə m N ə r i m a n o ğ l u (d.1962) – Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin general-leytenantı, Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı. Azərbaycan Respublikasının «Rəşadət» ordeni ilə təltif edilmişdir. – 67.

**29. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 81.

**30. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 84.

**31. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 84.

**32. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı **–** Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 85–113.

**33. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 85, 190, 239, 304, 308.

**34. «McKinsey»** – strateji idarəetmə ilə bağlı problemlərin həllində ixtisaslaşan beynəlxalq konsaltinq şirkəti. «McKinsey» məsləhətçi kimi, dünyanın ən böyük şirkətləri, dövlət qurumları və qeyri-kommersiya təşkilatları ilə əməkdaşlıq edir. – 86.

**35. Klaus Şvab** (d.1938) – alman iqtisadçısı, Davosda keçirilən Dünya İqtisadi Forumunun yaradıcısı və icraçı sədri. – 87, 100–101.

**36. Doris Loythard** (d.1963) – İsveçrə siyasətçisi. 2010-cu və 2017-ci illərdə İsveçrə Konfederasiyanın Prezidenti olmuşdur. – 91.

**37.** ***bp,*** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 92.

**38. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 92.

**39. Ksavye Bettel** (d.1973) **–** Lüksemburq siyasətçisi və vəkil. 2011-ci ildən Lüksemburq şəhərinin meri, 2013-cü ildən isə Lüksemburqun Baş naziridir. – 93.

**40. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 98, 135, 234, 246, 252–253, 256, 265, 266, 275, 279, 298.

**41. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 98.

**42. Fransisk** (*əsl adı Jorqe Mario Bergoglio*) (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 101.

**43. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-

maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 103.

**44. Vahid Ələkbərov**, V a h i d Y u s i f o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 103.

**45. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 103, 142, 145, 305, 316, 341.

**46. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 104.

**47. «Microsoft»** – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, «Windows» əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kampaniya 1975-ci ildə yaradılmışdır. «Microsoft»un texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmond (ABŞ) şəhərindədir. – 106.

**48. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından

eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə Beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 107–113, 249.

**49. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 108, 246, 249, 250, 251, 265, 266, 267, 268, 269, 270.

**50. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam

qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 114–116.

**51. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 116, 319.

**52. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 116, 319.

**53. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon $km^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 118, 201.

**54. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 118.

**55. Zakir Həsənov,** Z a k i r  Ə s g ə r  o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 120, 129–131.

**56. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i

Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 126.

**57. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən, İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14354 nəfər əhali (əsasən, azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 126.

**58. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il

dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 126.

**59. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 126.

**60. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 133–134, 201, 244, 331–334.

**61. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 133, 134, 201, 244, 332.

**62. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 149, 249, 267, 279, 310, 316, 340.

**63. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə kənd erməni silahlı qüvvələri tərəfindən işğal edimişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilirmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 152, 153.

**64. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 150, 153, 196, 320.

**65. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 153.

**66. Qətər,** Q ə t ə r D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min $km^2$, əhalisi 2,6 milyon nəfərdir.

Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 166–167, 207, 284–285,323–330.

**67. Şeyx Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər Dövlətinin Əmiridir. –166, 167, 207, 284, 324, 327, 328, 329–330.

**68. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 168.

**69. Maytripala Sirisena** (d.1951) – Şri-Lankanın dövlət və siyasi xadimi. 2015-ci ildən Şri-Lanka Respublikasının Prezidentidir. – 168.

**70. Niyazi,** Tağızadə-Hacıbəyov Niyazi Zülfüqar oğlu (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. – 171–179.

**71. Ömər Eldarov,** Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 171, 178.

**72. Elbay Qasımzadə,** E l b a y Ə n v ə r o ğ l u (d.1948) – professor, Azərbaycanın Əməkdar memarı. 1989–2001-ci illərdə Bakı şəhərinin Baş memarı olmuşdur. 150-dən artıq layihənin, 80-dən çox məqalənin və 8 kitabın müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 171.

**73. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 171, 176.

**74. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 172, 175.

**75. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 172, 175.

**76. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbi-

nin banisi, musiqi folkloru tədqiqatçısı. Yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 172, 176.

**77. Rəşid Behbudov**, R ə ş i d M ə c i d o ğ l u (1915–1989) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı. – 172, 176.

**78. Tofiq Quliyev,** T o f i q Ə l ə k b ə r o ğ l u (1917–2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973-cü ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 173, 175.

**79. Cövdət Hacıyev,** Ə h m ə d - C ö v d ə t İ s m a y ı l o ğ l u (1917–2002) – Azərbaycan bəstəkarı, pedaqoq. 1957–69-cu illərdə Azərbaycan Musiqi Akademiyasının rektoru olmuşdur. Azərbaycan Respublikasının Xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 173, 175.

**80. Fərhad Bədəlbəyli,** F ə r h a d Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Beynəlxalq müsabiqələr laureatı. Azər-

baycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoq, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 174–176.

**81. Dmitri Şostakoviç,** D m i t r i D m i t r i y e v i ç (1906–1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya musiqi sənətinin klassiki. Yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12,14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının Fəxri üzvü olmuşdur. – 174.

**82. Arif Məlikov,** A r i f C a h a n g i r o ğ l u (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 175.

**83. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 176, 196.

**84. V a q i f,** M o l l a P ə n a h V a q i f (1717–1797) –görkəmli Azərbaycan şairi, dövlət xadimi. Qəzəl, müxəmməs, müstəzad və s. formalarda şeirlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Şeirlərindəki realizmə meyil Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) Baş vəziri olmuşdur. – 176.

**85. Natəvan,** X u r ş i d b a n u X a n q ı z ı(1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 176, 181.

**86. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 180–191, 321.

**87. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 180–191.

**88. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. – 183.

**89. Çingiz Qurbanov,** Ç i n g i z S a l m a n o ğ l u (1994–2016) – Azərbaycan Respublikasının Milli Qəhrəmanı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgəri Çingiz Qurbanov 2016-cı il dekabrın 29-da Azərbaycan–Ermənistan sərhədində ermənilərin kəşfiyyat qrupunun təxribatının qarşısını alan zaman qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikasının «Qızıl Ulduz» medalı ilə təltif edilmişdir. – 210–212.

**90. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiy-

yətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 216.

**91. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km², əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 223, 232–243, 245–282, 321.

**92. Frank-Valter Ştaynmayer** (d.1956) – Almaniyanın siyasi və dövlət xadimi. 2017-ci il martın 19-dan Almaniya Federativ Respublikasının Prezidentidir. – 223.

**93. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 245, 319, 321.

**94. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km², əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 245, 246, 250–251, 255, 264, 265, 266, 270.

**95. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya,

Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 249, 253, 256, 257, 258, 259, 250, 261.263.

**96. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 255, 256, 264, 275, 278.

**97. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat, yazıçı. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. – 257.

**98. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 264.

**99. Binəli Yıldırım** (d.1955) – Türkiyənin tanınmış siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018-ci ilin iyul ayından Türkiyə Böyük Millət Məclisinin Sədridir. – 279, 313.

**100. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 273, 274.

**101. Berat Albayrak** (d.1978) – Türkiyə biznesmeni və siyasətçisi. 2015-ci ildən Türkiyənin Enerji və Təbii Sərvətlər naziridir. – 298.

**102. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 314, 318–322, 340.

**103. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 319.

**104. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 320.

**105. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 320.

**106. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 38,3 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 320.

**107. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir.

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 320.

**108. Kəşmir** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərb hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 332, 333.

**109. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İ q t i s a d i Ə m ə k - d a ş l ı q v ə İ n k i ş a f T ə ş k i l a t ı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 336–342.

## Şəxsi adlar göstəricisi

**Akça Xəlil** – 339
**Albayrak Berat** – 298
**Atambayev Almazbek** – 84
**Barton Dominik** – 86
**Behbudov Rəşid** – 172, 176
**Berdıməhəmmədov Qurbanqulu**– 224
**Bettel Ksavyer** – 93
**Bədəlbəyli Fərhad** – 174–176
**Bərzani Məsud** – 105
**Bolkiah Həssənal** – 283
**Bremmer Yan** – 245, 254
**Brende Borge** – 89
**Bülbül** – 172, 176
**Canelidze Mixeil** – 227–228
**Centiloni Paolo** – 311
**Çambers Con** – 96
**Çəlik Faruk** – 313
**Dadli Robert** – 92
**Danford Cozef** – 229
**Danielson Kristian** – 165
**Danniqan Robin** – 294–295
**David Mario** – 193
**Deskeks Alan** – 213
**Dris Yoahim** – 233
**Elbeqdorj Saxiaqiyn** – 107
**Eldarov Ömər** – 171, 178
**Ələkbərov Vahid** – 103
**Əliyev Heydər** – 12, 31, 61, 71, 76, 153, 172,

177, 202, 216, 231, 234, 317,
321
**Əl-Bəşir Ömər** – 7
**Əl-Ali Salah** – 329
**Əl-Falih Xalid** – 99
**Əl-Həmmad Məhəmməd** – 284–285
**Əl-Kaabi Saad** – 326
**Əl-Tani Şeyx Məhəmməd** – 166–167, 323
**Əl-Tani Şeyx Təmim** – 166, 167, 207, 284, 324, 327,
328, 329–330
**Əl-Tani Şeyx Faisal** – 325
**Əs-Sabah əl-Cabir** – 292
**Əs-Sabah əl-Həməd** – 293
**Əl-Sulaiti Cassem** – 329
**Əliyeva Arzu** – 319
**Əliyeva Leyla** – 245, 319, 321
**Əliyeva Mehriban** – 9, 12, 181, 216, 232, 245,
287–291, 298, 318, 319
**Əliyev Natiq** – 306
**Əmirov Fikrət** – 172, 175
**Ərdoğan Rəcəb Tayyib** – 20, 80, 264, 298, 313, 335
**Əsədov Oqtay** – 116, 319
**Fransisk** *(Roma Papası)* – 100
**Filipp** *(Belçika Kralı)* – 183
**Gelle İsmayıl** – 315
**Hacıyev Cövdət** – 173, 175
**Hacıbəyli Üzeyir** – 171,176
**Harris Devid** – 138
**Heydərov Kəmaləddin** – 330
**Həsənov Zakir** – 120, 129–131
**Həcər xanım** – 172
**Hüseyn Məmnun** – 133, 134, 244, 332
**Xamenei Seyid Əli** – 24

**İsa** *(peyğəmbər)* – 21
**İşinger Volfqanq** – 235
**Kalenda Karlo** – 311–312
**Kalyulayd Kersti** – 30, 246, 253–254, 257–258, 259, 268–269, 286
**Karp Aleks** – 97
**Kasperski Yevgeni** – 243
**Kastro Raul** – 8
**Kaçinski Pedro** – 26
**Kliçko Vitali** – 234
**Kosqrov Piter** – 119
**Kumbe Çeri** – 88
**Kvirikaşvili Giorgi** – 246
**Qarabağ Qurbanəli Səadət** – 132
**Qarayev Qara** – 172, 175
**Qasımova Fidan** – 174
**Qasımova Xuraman** – 174
**Qasımzadə Elbay** – 171
**Qrabar-Kitaroviç Kolinda** – 240–241
**Qribauskayte Dalya** – 226
**Quçko Vitali** – 240–241
**Quliyev Elçin** – 81
**Quliyev Əyyub** – 176–178
**Quliyev Tofiq** – 173, 175
**Quluzadə Ramin** – 214
**Qurbanov Cavid** – 216
**Qurbanov Çingiz** – 210–212
**Qurbanov Salman** – 212
**Qurbanova Gülarə** – 68
**Quterreş Antonio** – 276, 281–282
**Le Guen Jan-Mari** – 60
**Liberman Aviqdor** – 242
**Löythard Doris** – 91
**Makkonen Arya** – 27–28
**Maqomayev Müslüm** – 174

**Matsumura Yoşifumi** – 296–297
**Mehdiyev Ramiz** – 116, 319
**Merkel Angela** – 273, 274
**Məhəmməd Nəvaz Şərif** – 133, 134, 333–334, 336, 338
**Məlikov Arif** – 175
**Məmmədyarov Elmar** – 329
**Mikuriya Kunio** – 136–137
**Mittus Marin** – 29–30
**Monasi Luis** – 25–26
**Mohmand Said Xan** – 133–134
**Moqerini Federika** – 184–185
**Moretti Mauro** – 280
**Moskalkova Tatyana** – 5–6
**Mustafayev Şahin** – 329
**Mukherci Pranab** – 118
**Mustafayev Kərəm** – 67
**Müller Siril** – 209
**Natəvan Xurşidbanu** *(Xan qızı)*– 176, 181
**Nazarbayev Nursultan** – 264
**Netanyaho Benyamin** – 138, 242
**Nikoliç Tomislav** – 225
**Niyazi** *(maestro)* – 171–179
**Niinistö Sauli** – 27, 28
**Olsen Erik** – 95
**Polad Bülbüloğlu** – 174
**Pastrana Andres** – 193
**Plase Jan-Vensan** – 194
**Poroşenko Petro** – 98
**Preda Sezar** – 79
**Purməhəmmədi Mustafa** – 230–231
**Putin Vladimir** – 255, 256, 264, 275, 278
**Radev Rumen** – 343
**Rasizadə Artur** – 116, 319
**Reva Andrey** – 135

**Rəfsəncani Haşimi** – 23, 24, 31–32
**Reynfeldt Frederik** – 169–170
**Rinkeviçs Edqars** – 221–222
**Rostropoviç Mstislav** – 173, 174
**Ruhani Həsən** – 23, 117, 192
**Saetre Eldar** – 104
**Sevland Leif** – 235
**Si Cinpin** – 251
**Sirisena Maytripala** – 168
**Sücəddinov Faiq** – 176
**Şapiro Con** – 138
**Şasod Jan** – 90
**Şevçoviç Maroş** – 102, 190, 306–309, 310
**Şennak Stefan** – 79
**Şostakoviç Dmitri** – 174
**Ştaynmayer Frank-Valter** – 223
**Şvab Klaus** – 87, 100–101
**Talıbov Vasif** – 61, 68, 76–77
**Tauns-Vitley Toni** – 106
**Thin Cjo** – 15
**Tokayev Kasım-Jomart** – 246, 250–251
**Tramp Donald** – 257
**Tusk Donald** – 180–191
**Vaqif Molla Pənah** – 176
**Van der Linden Rene** – 182
**Vayalil Şamşir** – 94
**Veyonis Raymonds** – 221, 222
**Yatsenyuk Arseni** – 246, 252–253, 256, 257, 265–266
**Yıldırım Binəli** – 279, 313
**Yunker Jan-Klod** – 191
**Yusif Mahmud Əli** – 314–315

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımada*) – 50, 111
**Abxaziya** – 260
**Adriatik dənizi** – 200
**Ağdam** – 150, 153, 196, 320
**Ağdərə** – 17, 125
**Albaniya** – 200
**Almaniya** – 223, 232–243, 245–282, 321
**Amerika Birləşmiş Ştatları** – 42, 138, 205, 229, 256, 262, 272, 275, 294, 295,301, 321
**Aralıq dənizi** – 111, 199, 202
**Araz çayı** – 150
**Astana** – 251
**Asiya** – 107, 109, 189, 193, 199, 201, 247, 304, 341
**Avrasiya** – 193, 199, 235, 245, 253
**Avstraliya** – 119
**Avstriya** – 321
**Avropa** – 18, 42, 107, 109, 189, 199, 201, 209, 236, 239, 247, 301, 304, 309, 316–317, 341
**Balahəşimxanlı** – 150
**Baltik dənizi** – 253
**Belçika** – 180–191, 321
**Birləşmiş Ərəb Əmirlikləri** – 94, 207
**Bolqarıstan** – 238, 340
**Bosniya və Herseqovina** – 321
**Bruney-Darüssalam** – 283
**Brüssel** – 180–191
**Ceyhan** – 202
**Cənubi Qafqaz** – 218, 238, 322
**Cənubi Osetiya** – 260
**Cəbrayıl** – 17, 125, 320
**Cibuti** – 314–315, 321

**Cocuq Mərcanlı** – 152, 153
**Culfa** – 63–64, 71
**Çexiya** – 321
**Çin** – 108, 246, 249, 250, 251, 265, 266, 267, 268, 269, 270
**Dağlıq Qarabağ** – 17, 39, 68, 126, 127, 128, 187, 188, 195, 196, 211, 241, 272, 274, 279, 281–282, 316, 320, 321, 332, 333, 340
**Davos** – 37, 85–113, 138
**Daylaqlı** – 65, 66
**Doha** – 323–330
**Donetsk** – 252, 275, 278
**Estoniya** – 29–30, 246, 253 254, 257, 286
**Əfqanıstan** – 249
**Əliləmbəyli** – 150
**Finlandiya** – 27–28
**Fransa** – 60, 90, 177, 194, 257, 272
**Füzuli** – 17, 125, 150, 153, 320
**Gəncə** – 142
**Göyçə** – 126
**Gülüstan** – 63, 227–228
**Gürcüstan** – 107, 108, 238, 246, 248–250, 260, 263, 301, 321
**Hacıqabul** – 150
**Hindistan** – 118, 201
**Honduras** – 321
**Horadiz** – 153
**Xankəndi** – 320
**Xəzər dənizi** – 108, 111, 112, 149, 197, 199, 200, 201, 237, 270, 301, 304, 309, 326, 341
**Xocalı** – 314, 318–322, 340
**Xorvatiya** – 240–241
**İmişli** – 150
**İran** – 23, 24, 31–32, 42, 72, 109, 117, 127, 132, 192, 195, 205,

230–231, 263
**İordaniya** – 321
**İraq Kürdüstanı** – 105
**İrəvan** – 126
**İslamabad** – 331–342
**İstanbul** – 302
**İsrail** – 242
**İsveçrə** – 85–113
**İtaliya** – 200, 238, 311–312
**Kəlbəcər** – 320
**Kəşmir** – 332, 333
**Kiçikoba** – 65, 66
**Kiyev** – 234
**Kosovo** – 274, 276
**Krım** – 252, 257, 266, 275
**Kuba** – 8
**Kürdəmir** – 150
**Küveyt** – 207, 292, 293
**Qara dəniz** – 199, 301
**Qars** – 108
**Qazaxıstan** – 245, 246, 250–251, 255, 264, 265, 266, 270
**Qərbi Azərbaycan vilayəti** *(İranda)* – 132
**Qətər** – 166–167, 207, 284–285, 323–330
**Qırğız Respublikası** – 84
**Qubadlı** – 320
**Qusar** – 210
**Qvatemala** – 321
**Laçın** – 68, 320
**Latviya** – 221–222
**Leninqrad** *(indiki Sankt-Peterburq)*– 175
**Litva** – 226
**London** – 175
**Luqansk** – 252, 275, 278
**Lüksemburq** – 93
**Masallı** – 48
**Meksika** – 321

**Mərkəzi Afrika** – 249
**Mərkəzi Asiya** – 108, 209
**Mingəçevir** – 48, 151, 156
**Moranlı** – 150
**Monqolustan** – 107
**Moskva** – 177
**Münhen** – 232–243, 245–282
**Myanma** – 15
**Naxçıvan Muxtar Respublikası**– 50, 61–78
**Naxçıvan** – 42, 70–75
**Neftçala** – 150
**Norveç** – 89
**Nyu York** – 177
**Ordubad** – 62, 71
**Pakistan** – 42, 133–134, 201, 244, 331–334
**Panama** – 321
**Pamir dağları** – 253
**Paris** – 175
**Peru** – 25–26, 321
**Pirallahı** – 48
**Praqa** – 175
**Rusiya** – 5–6, 42, 103, 109, 205, 246, 249, 250, 252, 253, 254, 257, 260, 262, 263, 264, 266, 271, 272, 275
**Sabirabad** – 150
**Sabunçu** – 12–14
**Sakit okean** – 193
**Salyan** – 150
**Samux** – 150
**Serbiya** – 225, 321
**Səudiyyə Ərəbistanı** – 99

**Sudan** – 7, 321
**Sumqayıt** – 48, 142
**Suriya** – 264, 265
**Şahbuz** – 65– 66, 71
**Şamaxı** – 204
**Şəmkir** – 150
**Şərqi Anadolu** – 127, 195
**Şimali Avropa** – 42, 109
**Şri-Lanka** – 168
**Şuşa** – 68, 176, 196
**Tbilisi** – 108
**Türkiyə** – 20, 80, 108, 202, 238, 262, 279, 301, 313, 321
**Türkmənistan** – 224
**Ucar** – 150
**Ukrayna** – 98, 135, 234, 246, 252–253, 256, 265, 266, 275, 279, 298
**Yaxın Şərq** – 109
**Yaponiya** – 296–297
**Yevlax** – 151
**Yunanıstan** – 238
**Zabrat** – 12–14
**Zəngəzur** – 126
**Zəngilan** – 320

# MÜNDƏRİCAT

RUSİYA FEDERASİYASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
TATYANA MOSKALKOVA
İLƏ GÖRÜŞ

*28 dekabr 2016-cı il* ........................................................ *5*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD
ƏL-BƏŞİRƏ

*29 dekabr 2016-cı il*........................................................ *7*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ
SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB RAUL KASTRO RUSA

*29 dekabr 2016-cı il*........................................................ *8*

NƏRİMANOV RAYONUNDA UŞAQ BƏRPA MƏRKƏZİNİN YENİDƏN
QURULMASINDAN SONRA AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2016-cı il*........................................................ *9*

ZABRAT QƏSƏBƏSİNDƏ ƏLİLLƏR ÜÇÜN SOSİAL
REABİLİTASİYA MƏRKƏZLƏRİ VƏ SIĞINACAQLAR KOMPLEKSİNİN
AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2016-cı il*........................................................ *12*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB THİN CJOYA

*30 dekabr 2016-cı il*........................................................ *15*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*1 yanvar 2017-ci il*........................................................ *16*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*1 yanvar 2017-ci il* ........ *20*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2017-ci il* ........ *21*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*9 yanvar 2017-ci il* ........ *23*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ
XAMENEİ HƏZRƏTLƏRİNƏ

*9 yanvar 2017-ci il* ........ *24*

PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
SƏFİRİ LUİS MANUEL SANTİAQO MARKOVİÇ MONASİ İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il* ........ *25*

FİNLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ ARYA İNKERİ MAKKONEN İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il* ........ *27*

ESTONİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
SƏFİRİ MARİN MİTTUS İLƏ GÖRÜŞ

*9 yanvar 2017-ci il* ........ *29*

İRAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ

*10 yanvar 2017-ci il* ........ *31*

NAZİRLƏR KABİNETİNİN 2016-cı İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ
İCLASINDA İŞTİRAK

*10 yanvar 2017-ci il* ........ *33*

YEKUN NİTQİ

*10 yanvar 2017-ci il* ........ *44*

FRANSA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ İNKİŞAF NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN-MARİ LE GUENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 yanvar 2017-ci il ............ 60*

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*11 yanvar 2017-ci il ............ 61*

ORDUBAD SU-ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*11 yanvar 2017-ci il ............ 62*

CULFA RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ İÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*11 yanvar 2017-ci il ............ 63*

ŞAHBUZ RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ İÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*11 yanvar 2017-ci il ............ 65*

NAXÇIVANDA ƏLAHİDDƏ ÜMUMQOŞUN ORDUSUNUN «N» SAYLI HƏRBİ HİSSƏSİNDƏKİ ƏSGƏR YATAQXANASININ VƏ ƏSGƏRİ-MƏİŞƏT KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*11 yanvar 2017-ci il ............ 67*

NAXÇIVAN ŞƏHƏR 3 SAYLI TAM ORTA RUS MƏKTƏBİ BİNASININ ƏSASLI YENİDƏN QURULMASINDAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 yanvar 2017-ci il ............ 70*

AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ SEZAR FLORİN PREDA VƏ STEFAN ŞENNAK İLƏ GÖRÜŞ

*12 yanvar 2017-ci il ............ 79*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*13 yanvar 2017-ci il ............ 80*

DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN GƏMİ İNŞASI VƏ TƏMİRİ MƏRKƏZİNDƏKİ GÖZƏTÇİ GƏMİLƏRİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 yanvar 2017-ci il* ........................................ *81*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*16 yanvar 2017-ci il* ........................................ *84*

İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*16 yanvar 2017-ci il* ........................................ *85*

«McKİNSEY» ŞİRKƏTİNİN QLOBAL İDARƏEDİCİ TƏRƏFDAŞI DOMİNİK BARTON İLƏ GÖRÜŞ

*16 yanvar 2017-ci il* ........................................ *86*

DÜNYA İQTİSADİ FORUMUNDA 10 DƏFƏDƏN ARTIQ İŞTİRAK EDƏN RƏHBƏR ŞƏXSLƏR ÜÇÜN TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*16 yanvar 2017-ci il* ........................................ *87*

«PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ GERİ EDRÜ KUMBE İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........................................ *88*

NORVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ
BORGE BRENDE İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........................................ *89*

«SUEZ GROUP» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU JAN LUİ ŞASOD İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........................................ *90*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
DORİS LÖYTHARD İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........................................ *91*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *92*

LÜKSEMBURQUN BAŞ NAZİRİ, DÖVLƏT NAZİRİ KSAVYER BETTEL İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *93*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «VPS HEALTHCARE» ŞİRKƏTİNİN DİREKTORU
ŞAMŞİR VAYALİL İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *94*

«LAFARGEHOLCİM» ŞİRKƏTLƏR QRUPUNUN RƏHBƏRİ ERİK OLSEN İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *95*

«CİSCO» ŞİRKƏTİNİN İCRAÇI SƏDRİ CON ÇAMBERS İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *96*

«PALANTİR TECHNOLOGİES» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU VƏ TƏSİSÇİSİ ALEKS KARP İLƏ GÖRÜŞ

*17 yanvar 2017-ci il* ........ *97*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *98*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏL-FALİH İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *99*

DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *100*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *102*

RUSİYANIN LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *103*

STATOYL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *104*

İRAQ KÜRDÜSTANI REGİONAL HÖKUMƏTİNİN BAŞÇISI MƏSUD BƏRZANİ İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *105*

«MİCROSOFT» ŞİRKƏTİNİN ÜMUMDÜNYA DÖVLƏT QURUMLARI İLƏ ƏLAQƏLƏR ÜZRƏ KORPORATİV VİTSE-PREZİDENTİ TONİ TAUNS-VİTLEY İLƏ GÖRÜŞ

*18 yanvar 2017-ci il* ........ *106*

DÜNYA İQTİSADİ FORUMUNUN «İPƏK YOLUNUN SƏMƏRƏSİ» ADLI İNTERAKTİV İCLASINDA İŞTİRAK

*19 yanvar 2017-ci il* ........ *107*

ÜMUMXALQ HÜZN GÜNÜNDƏ İŞTİRAK

*20 yanvar 2017-ci il* ........ *114*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*21 yanvar 2017-ci il* ........ *117*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*23 yanvar 2017-ci il* ........ *118*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA

*23 yanvar 2017-ci il* ........ *119*

MÜDAFİƏ NAZİRLİYİ «N» SAYLI HƏRBİ HİSSƏSİNİN YENİ HƏRBİ ŞƏHƏRCİYİNİN AÇILIŞI MƏRASİMİ

*23 yanvar 2017-ci il* ............................................................ *120*

İRAN İSLAM RESPUBLİKASININ QƏRBİ AZƏRBAYCAN VİLAYƏTİNİN VALİSİ QURBANƏLİ SƏADƏT QARABAĞIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 yanvar 2017-ci il* ............................................................ *132*

PAKİSTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SAİD XAN MOHMAND İLƏ GÖRÜŞ

*26 yanvar 2017-ci il* ............................................................ *133*

UKRAYNA RESPUBLİKASININ SOSİAL SİYASƏT NAZİRİ ANDREY REVA İLƏ GÖRÜŞ

*27 yanvar 2017-ci il* ............................................................ *135*

DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*27 yanvar 2017-ci il* ............................................................ *136*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD HARRİSİN VƏ PREZİDENTİ CON ŞAPİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2017-ci il* ............................................................ *138*

«REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ ÜÇÜNCÜ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*30 yanvar 2017-ci il* ............................................................ *139*

YEKUN NİTQİ

*30 yanvar 2017-ci il* ............................................................ *148*

AVROPA KOMİSSİYASININ BAŞ DİREKTORU KRİSTİAN DANİELSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 yanvar 2017-ci il* ............................................................ *165*

QƏTƏR DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX MƏHƏMMƏD BİN ƏBDÜRRƏHMAN ƏL-TANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2017-ci il* ........ *166*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAYTRİPALA SİRİSENAYA

*1 fevral 2017-ci il* ........ *168*

MƏDƏN HASİLATI ÜZRƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ İDARƏ HEYƏTİNİN
SƏDRİ FREDERİK REYNFELDT
İLƏ GÖRÜŞ

*1 fevral 2017-ci il* ........ *169*
GÖRKƏMLİ DİRİJOR MAESTRO NİYAZİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*2 fevral 2017-ci il* ........ *171*

BELÇİKA KRALLIĞINA SƏFƏR

*5 fevral 2017-ci il* ........ *180*

GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRƏSİ
XURŞİDBANU NATƏVANIN ABİDƏSİNİ ZİYARƏT

*5 fevral 2017-ci il* ........ *181*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SABİQ PREZİDENTİ
RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*5 fevral 2017-ci il* ........ *182*

BELÇİKA KRALI FİLİPP İLƏ GÖRÜŞ

*6 fevral 2017-ci il* ........ *183*

AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ
VİTSE-PREZİDENTİ FEDERİKA MOQERİNİ İLƏ İŞÇİ SƏHƏR YEMƏYİNDƏ
İŞTİRAK

*6 fevral 2017-ci il* ........ *184*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ
DONALD TUSK İLƏ GÖRÜŞ VƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*6 fevral 2017-ci il* ........ *186*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-
PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*6 fevral 2017-ci il*.......................................................................................................................*190*

AVROPA KOMİSSİYASININ PREZİDENTİ
JAN-KLOD YUNKER İLƏ GÖRÜŞ

*6 fevral 2017-ci il*.......................................................................................................................*191*
İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*8 fevral 2017-ci il*.......................................................................................................................*192*

MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ
VİTSE-PREZİDENTİ MARİO DAVİD VƏ BAŞ KOORDİNATORU
SEZAR ROSELLO İLƏ GÖRÜŞ

*8 fevral 2017-ci il*.......................................................................................................................*193*

FRANSA RESPUBLİKASININ DÖVLƏT KATİBİ
JAN-VENSAN PLASENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*8 fevral 2017-ci il*.......................................................................................................................*194*

ƏL-CƏZİRƏ TELEVİZİYASINA MÜSAHİBƏ

*8 fevral 2017-ci il*.......................................................................................................................*195*

DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA
ÜZRƏ VİTSE-PREZİDENTİ SİRİL MÜLLER İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*.......................................................................................................................*209*

AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI
ÇİNGİZ QURBANOVUN AİLƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*.......................................................................................................................*210*

AŞPA-nın HÜQUQİ İŞLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN
AZƏRBAYCAN ÜZRƏ MƏRUZƏÇİSİ ALAN DESTEKS İLƏ GÖRÜŞ

*9 fevral 2017-ci il*.......................................................................................................................*213*

BAKIDAKI 1 SAYLI POÇT FİLİALININ YENİ XİDMƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*10 fevral 2017-ci il*......................................................................................................................*214*

«AZƏRBAYCAN DƏMİR YOLLARI» QSC-nin İNZİBATİ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 fevral 2017-ci il*......................................................................................................................*216*

BAKI DƏMİR YOLU VAĞZALININ ƏSASLI YENİDƏN QURULMASINDAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*10 fevral 2017-ci il*......................................................................................................................*218*

LATVİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ EDQARS RİNKEVİÇSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 fevral 2017-ci il*......................................................................................................................*221*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ

*13 fevral 2017-ci il*......................................................................................................................*223*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*13 fevral 2017-ci il*......................................................................................................................*224*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMISLAV NİKOLİÇƏ

*13 fevral 2017-ci il*......................................................................................................................*225*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*13 fevral 2017-ci il*......................................................................................................................*226*

GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZE İLƏ GÖRÜŞ

*13 fevral 2017-ci il*.......................................................................................................................*227*

ABŞ-ın BAŞ QƏRARGAHLAR RƏİSİ COZEF DANFORDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2017-ci il* ......................................................................................................................*229*

İRAN İSLAM RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ MUSTAFA PURMƏHƏMMƏDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 fevral 2017-ci il*.......................................................................................................................*230*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*16 fevral 2017-ci il*.......................................................................................................................*232*

«MAN SE» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YOAHİM DRİS İLƏ GÖRÜŞ

*17 fevral 2017-ci il*.......................................................................................................................*233*

KİYEV ŞƏHƏRİNİN MERİ VİTALİ KLİÇKO İLƏ GÖRÜŞ

*17 fevral 2017-ci il*.......................................................................................................................*234*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN «DƏYİRMİ MASA»DA İŞTİRAK

*17 fevral 2017-ci il*.......................................................................................................................*235*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*17 fevral 2017-ci il*.......................................................................................................................*240*

İSRAİL DÖVLƏTİNİN MÜDAFİƏ NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞ

*17 fevral 2017-ci il*.......................................................................................................................*242*

«KASPERSKY LAB» ŞİRKƏTİNİN SAHİBİ VƏ BAŞ İCRAÇI DİREKTORU YEVGENİ KASPERSKİ İLƏ GÖRÜŞ

*17 fevral 2017-ci il*......................................................................................................*243*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*17 fevral 2017-ci il*......................................................................................................*244*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN PANEL MÜZAKİRƏDƏ İŞTİRAK

*18 fevral 2017-ci il*......................................................................................................*245*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*18 fevral 2017-ci il*......................................................................................................*279*

«LEONARDO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAURO MORETTİ İLƏ GÖRÜŞ

*18 fevral 2017-ci il*......................................................................................................*280*

BMT-nin BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*18 fevral 2017-ci il*......................................................................................................*281*

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*20 fevral 2017-ci il*......................................................................................................*283*

QƏTƏR DÖVLƏTİNİN TƏHSİL VƏ ALİ TƏHSİL NAZİRİ MƏHƏMMƏD BİN ƏBDÜLVAHİD ƏL-HƏMMADİ İLƏ GÖRÜŞ

*20 fevral 2017-ci il*......................................................................................................*284*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA

*21 fevral 2017-ci il*......................................................................................................................*286*

TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA İŞTİRAK

*21 fevral 2017-ci il*......................................................................................................................*287*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*22 fevral 2017-ci il*......................................................................................................................*292*

KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ
ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-HƏMƏD ƏS-SABAHA

*22 fevral 2017-ci il*......................................................................................................................*293*

ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ ROBİN DANNİQAN İLƏ GÖRÜŞ

*22 fevral 2017-ci il*......................................................................................................................*294*

YAPONİYANIN İQTİSADİYYAT, TİCARƏT VƏ SƏNAYE ÜZRƏ DÖVLƏT
NAZİRİ YOŞİFUMİ MATSUMURANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*22 fevral 2017-ci il*......................................................................................................................*296*

TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR
NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*......................................................................................................................*298*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ
NAZİRLƏRİN 3-CÜ TOPLANTISINDA İŞTİRAK

*23 fevral 2017-ci il*......................................................................................................................*299*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-
PREZİDENTİ MAROŞ ŞEFÇOVİÇ İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il*......................................................................................................................*310*

İTALİYA RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ KARLO KALENDA İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il.........................................................................................................311*

TÜRKİYƏ RESPUBLİKASININ QİDA, KƏND TƏSƏRRÜFATI VƏ HEYVANDARLIQ NAZİRİ FARUK ÇƏLİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2017-ci il.........................................................................................................313*

CİBUTİ RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ MAHMUD ƏLİ YUSUFUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2017-ci il.........................................................................................................314*

AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN V QURULTAYININ İŞTİRAKÇILARINA

*25 fevral 2017-ci il.........................................................................................................316*

XOCALI SOYQIRIMININ 25-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA KEÇİRİLƏN ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2017-ci il.........................................................................................................318*

QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏR

*26 fevral 2017-ci il.........................................................................................................323*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*27 fevral 2017-ci il.........................................................................................................324*

«AL FAİSAL HOLDİNG» ŞİRKƏTİNİN RƏHBƏRİ VƏ QƏTƏR İŞ ADAMLARI ASSOSİASİYASININ SƏDRİ ŞEYX FAİSAL BİN QASSİM BİN FAİSAL ƏL-TANİ İLƏ GÖRÜŞ

*27 fevral 2017-ci il.........................................................................................................325*

«QATAR PETROLEUM»UN İCRAÇI DİREKTORU
SAAD ŞERİDA ƏL-KAABİ İLƏ GÖRÜŞ

*27 fevral 2017-ci il*......326

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 fevral 2017-ci il*......327

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX TƏMİM
BİN HƏMƏD ƏL-TANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 fevral 2017-ci il*......328
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*27 fevral 2017-ci il*......329

PAKİSTAN İSLAM RESPUBLİKASINA SƏFƏR

*28 fevral 2017-ci il*......331

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏMNUN
HÜSEYN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 fevral 2017-ci il*......332

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD
NƏVAZ ŞƏRİF İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 fevral 2017-ci il*......333

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*28 fevral 2017-ci il*......335

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
XIII SAMMİTİNDƏ İŞTİRAK

*1 mart 2017-ci il* ......336

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ

*1 mart 2017-ci il* ........................................ *343*

QEYDLƏR........................................ *344*

*Şəxsi adlar göstəricisi* ........................................ *373*

*Coğrafi adlar göstəricisi* ........................................ *378*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.